İSSN 2079-4150

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ
KİTABXANAÇILIQ-İNFORMASİYA FAKÜLTƏSİ

# KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Elmi-nəzəri, metodik və təcrübi jurnal

**№2 (35) * 2014**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 2010-cu il 30 aprel tarixli (protokol №10-R) qərarı ilə təsdiq olunmuş

**1997-ci ilin oktyabrından çıxır**

**BAKI - 2014**

*KBT – 78*
*K 73*

Təsisçi və baş redaktor: *professorXəlil İSMAYILOV*

*REDAKSİYA HEYƏTİ:*

1. *Professor* Abuzər XƏLƏFOV
2. *Professor* Zöhrab ƏLİYEV
3. *Professor* Bayram ALLAHVERDİYEV
4. *F.e.d.* Aybəniz ƏLİYEVA-KƏNGƏRLİ
5. *Professor* Kərim TAHİROV
6. *Dosent*Knyaz ASLAN
7. *Dosent* Nadir İSMAYILOV
8. Dosent Sevda Xələfova
9. Tamella İSMİXANOVA
10. Mələk HACIYEVA
11. *Rəşad QARDAŞOV Məsul katib:*

K 73 *Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal. –B.: Mütərcim, 2014.* - №2 (35). ---s.

*Redaksiyanın ünvanı:*
*AZ-1073/1. Bakı şəhəri, Zahid Xəlilov küçəsi 23,*
*2 №-li tədris korpusu, IV mərtəbə, Kitabxanaçılıq-informasiya fakültəsi,*
*"Kitabxanaşünaslıq və biblioqrafiya" jurnalının redaksiyası*
*Telefon: 510-17-60*

**© "Kitabxanaşünaslıq və biblioqrafiya", 2014**

İSSN 2079-4150

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ
БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННЫЙ ФАКУЛЬТЕТ

# БИБЛИОТЕКОВЕДЕНИЕ
# И
# БИБЛИОГРАФИЯ

Научно-теоретический,
Методический и практический журнал

**№2 (35) * 2014**

Утвержден решением Президиума Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики от 30 апреля 2010 года (протокол № 10-R)

**Выходит с октября 1997 года**

**БАКУ – 2014**

*ББК – 78*
*К 73*
*Учредитель и*
*главный редактор:* *профессор Халил ИСМАИЛОВ*

*РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ:*

1.Профессор Абузар Халафов
2.Профессор Зохраб Алиев
3.Профессор Байрам Аллахмердиев
4.Д.ф.н. Айбениз Алиева-Кенгерли
5.Профессор Керим Тахиров
6.ДоцентКнязь АСЛАН
7.Доцент Надир Исмаилов
8.Доцент Севда Халафова
9.Тамелла Исмиханова
10.Мелек Гаджиева
11. *Рашад ГАРДАШОВ* *Ответственный секретарь*

К 73 *Библиотековедение и библиография: Научно-теоретический, методический и практический журнал. –Б., Мутарджим,2014.* - №2 (35). ---s.

*Адрес редакции:*
*AZ-1073/1 г.Баку, ул. Захида Халилова 23,*
*учебный корпус №2, этаж IV, Библиотечно-информационный*
*факультет, редакция журнала*
*«Библиотековедение и библиография»*
*Тел.: 510-17-60*

**© «Библиотековедение и библиография», 2014**

İSSN 2079-4150

MINISTRY OF EDUCATION
OF AZERBAIJANREPUBLIC

BAKU STATE UNIVERSITY
LIBRARIANSHIP AND INFORMATION DEPARTMENT

# LIBRARIANSHIP AND BIBLIOGRAPHIY

Scientific and theoretical, methodical and practical journal

**№2 (35) * 2014**

Approved by the decision of the Presidium of the Supreme Attestation Commission Under the President of the Republic of Azerbaijan from 30 April 2010 (protocol № 10-R)

**Publishing since October 1997**

**BAKU – 2014**

*LBC – 78*
*K 73*
*Founder and editor inchief:professor Khalil ISMAILOV*

EDITORIAL BOARD:

1.Professor Abuzar Khalafov
2.Professor Zohrab Aliyev
3.Professor Bayram Allahverdiyev
4.Ph.D. Aybeniz Aliyeva Kengerli
5.Professor Kerim Tahirov
6.Docent Knyaz ASLAN
7.Docent Nadir Ismailov
8.Docent Savda Khalafova
9.Tamella Ismihanova
10.Melek Hajiyeva
11 *Rashad GARDASHOV Executive secretary*

K 73 Librarianship and bibliography: The scientific-theoretical, methodical and practical journal, –B., Mutarjim, 2014. - №2 (35). ---s.

*Editorial address:*

AZ-1073/1, Baku, st. Zahid Khalilov, 23, an educational building №2,
Floor IV, Librarianship and information depertment?
Edition of “Librarianship and bibliography” journal;
Tel.: 510-17-60

**© “Librarianship and bibliography”, 2014**

# MÜNDƏRİCAT


| | |
|---|---|
| **X.İsmayılov** | Kitabxana resurslarından istifadənin təşkilində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi (Milli kitabxananın iş təcrübəsi əsasında) ........................................... |
| **S.Xələfova** | Təhsil sisteminin informasiyalaşdırılmasında informasiya və kommunikasiya texnologiyalarının əhəmiyyəti............................ |
| **S.Mustafayeva**<br>**U.Manafova** | Səhiyyə və tibb elmlərinə dair ədəbiyyatın sistemləşdirilməsi....................................... |
| **A.Əliyev** | Bakı Dövlət Univeristetinin Elmi kitabxanasının tədris ədəbiyyatı fondunun komplektləşdirilməsinin kompüterləşdirilməsi problemləri...................... |
| **N.İsmayılov**<br>**F.Nazim qızı** | AME-nın İnformasiya Texnologiyaları İnstitutunun əsas fəaliyyət istiqamətləri və informasiya təminatı ............................ |
| **R.Qardaşov** | İnformasiyalaşdırılmış cəmiyyət şəraitində kitabxanaçılıq təhsilində yüksək informasiya texnologiyalarının tətbiqi istiqamətləri............................... |
| **İ.Əliyeva** | Ekologiya və ətraf mühitin mühafizəsi üzrə cari biblioqrafik vəsaitlər sisteminin bəzi xüsusiyyətləri......................................... |
| **E.Məmmədov**<br>**N.İsmayılova**<br>**F.Əsgərov** | Müasir elektron kitabxanalarda onlayn sosial şəbəkə texnologiyalarının tətbiqi mexanizmləri....................... |
| **Z.Rzayeva**<br>**S.Hacıyeva** | Sumqayıt şəhər kitabxanalarının sənəd informasiya fondunun komplektləşdirilməsi problemləri ................................... |

| | |
|---|---|
| **L.Əliyeva** | Biblioqrafik evristikanın nəzəri və metodiki məsələləri.............................. |
| **O.Ağamirzəyev** | İnformasiya menecmentinin bəzi problemləri...................................... |
| **G.Balakişiyeva** | Heydər Əliyev irsinin kitabxanalarda tətbiqinin bəzi məsələləri........................................ |
| **D.Məhəmmədli** | Kitabxanalarda texnoloji proseslər və əməliyyatlar...................... |
| **N.Abdullayeva** | Belarusiya Milli kitabxanası – kitabxana innovasiyalarının mərkəzi kimi (Elmi ezamiyyətin yekunları).................................. |
| **A.Abdullayeva** | Azərbaycan Respublikasında informasiya mədəniyyətinin formalaşmasının müasir vəziyyəti və perspektivləri.......................................... |
| **Ş.Qənbərova** | Elçin Əfəndiyev irsi biblioqrafik mənbələrdə........... |
| **A.Hacıyeva** | Bibliometriyanın qanunları........................................... |
| **A.Şəhavətova** | Kitabxana-informasiya resurslarının komplektləşdirilməsinin müasir istiqamətləri.......... |

# СОДЕРЖАНИЕ


| | |
|---|---|
| **Х.Исмаилов** | Пременение информационно-коммуникационных технологий в организации использовании библиотечных ресурсов (на основе опыта работы национальной библиотеки).................................. |
| **С.Халафова** | Значение информационно-коммуникационных технологий в информатизации системы образования............................ |
| **С.Мустафаева, У.Манафова** | Систематицизация литературы по здравохранению и медицине.................................. |
| **А.Алиев** | Комплектование учебной литературы в научной библиотеке БГУ................................. |
| **Н.Исмаилов, Ф.Назим гызы** | Основные направления деятельностии информационное обеспечение института информационных технологий нана.............................. |
| **Р.Гардашов** | Применение информационных и коммуникационных библиотечномделе............................................... |
| **И.Алиева** | Некоторые особенности системы библиографических пособий поэклоги и защитеокружающей среды........... |
| **Э.Мамедов, Н.Исмайлова Ф.Аскеров** | Механизм имплементации онлайнсоциальных сетевых технологий в современных цифровых библиотеках........................................ |
| **З.Рзаева, С.Гаджиева** | Проблемы комплектовании фондовгородских библиотек Сумгаита................................. |
| **Л.Алиева** | Теоритические и методологические проблемы библиографической эвристики................................ |

**О.Агамирзоев** Некоторые проблемыинформационнойменеджмента......................

**Г.Балакишиева** Роль общенацианального лидера Гейдара Алиева в формировании национальной идеологии библиотеках......................................

**Д.Магомедли** Технологические процессы и операции в библиотекии............................................

**Н.Абдулааева** Национальная библиотека Беларуси какцентрбиблиотечных инноваций..........................

**А.Абдуллаева** Современное состояние и перспективы формирования информационной культурыв Азербайджанской Республике....................................

**Ш.Гамбарова** Наследия Эльчина Эфендиева в библиографических наследиях.............................

**А.Гаджиева** Законы библиометрии.................................

**А.Шахаватова** Современные аспекты библиотечное информационные ресурсов..............................

## CONTENTS


| | |
|---|---|
| **K.Ismayilov** - | Applying of information and communication technologies in the organization of the use of library resources (based on the experience of the national library)…………………. |
| **S.Xalafova** | Significance of information and communication technologies in infromatization of education system........................... |
| **S.M.Mustafayeva U.İ.Manafova** | Systematization of the literature on health and medicine......................... |
| **A.Aliyev** | Acquisition of textbooks in the scientific library of BSU………………………. |
| **N.I.Ismaılov F.Nazim gizi** | The main activities and information provision of the institute of information technology of anas......................... |
| **R.Gardashov** | The use of information and communication technologies in libraries................................. |
| **İ.Aliyeva** | Some features of the system of bibliographic indexes on ecology and environmental protection................... |
| **E.Mammadov, N.İsmayilova, F.Asgarov** | The mechanizms of implementation online social network technologies in modern digital libraries....................... |
| **Z.Rzayeva, S.Hajiyeva** | Problems acquisition of Sumgait city libraries...................................... |

| | |
|---|---|
| **L.Alieva** | Theoretical and methodalogical issuses of bibliographic heuristics………………………. |
| **O.Agamirzoyev** | Some problems information management ............................ |
| **G. Balakishiyev** | Some questions of application of theheritageofheydar aliyev in libraries ................... |
| **D.Mahammadli** | Technological processes and operations in the libraries.......................... |
| **N.Abdullayeva** | National library of belarusas acenter oflibrary innovations……………….. |
| **A.Abdullayeva** | Current state and prospects of formation of information literacy in the Azerbaijan Republic................................. |
| **S.Gambarova** | The heritage of elchin efendiyev in bibliographic sources………………………. |
| **A.Hajiyeva** | Bibliometry laws............................ |
| **E.Shahavatova** | Modern aspects of library and information resources........................ |

**Xəlil İSMAYILOV**
***Əməkdar mədəniyyət işçisi***
***tarix elmləri doktoru,***
***professor***

# KİTABXANA RESURSLARINDAN İSTİFADƏNİN TƏŞKİLİNDƏ İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARININ TƏTBİQİ

## (Milli kitabxananın iş təcrübəsi əsasında)

***Açar sözlər:****kitabxana resursları,milli kitabxana,informasiya texnologiyaları,beynəlxalq təcrübə*

***Ключевые слова:****библиотчные ресурсы,национальная библиотека, информационные технологии, международный опыт.*

***Keywords:****library resources, the national library. information technology, international experience*

XX əsrin axırlarında dünyada baş verən qlobal proseslər, o cümlədən, SSRİ-nin dağılması, beynəlxalq aləmdə ümumi siyasi mühitin ciddi şəkildə dəyişməsinə və yeni giosiyasi vəziyyətin yaranmasına səbəb oldu. Bu proseslərin həyata keçirilməsində keçmiş SSRİ-nin tərkibində olan müttəfiq respublikalar öz müstəqilliklərini əldə etdilər. O cümlədən, Azərbaycan Respublikası ikinci dəfə öz müstəqilliyini 1991-ci ildə qazanaraq, dünya dövlətləri tərəfindən tanınmağa və diplomatik münasibətlər yaratmağa, dünya birliyinə sistemli surətdə inteqrasiyasına geniş yol açdı. Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi və dövlətçilik mənafelərinin qorunmasında ölkənin zəngin iqtisadi potensialı və əlverişli giosiyasi mövqeyi mühüm əhəmiyyət kəsb edir. Dünya ölkələri ilə ikitərəfli siyasi münasibətlərin qurulması iqtisadi, elmi-mədəni əlaqələrin inkişafına əlverişli şərait yaratdı. Qarşılıqlı faydalı elmi əməkdaşlıq, siyasi münasibətlərin dərinləşməsi respublikamızda ümumi inkişafa, xalqın rifah halının yaxşılaşmasına, siyasi mühitin stabilləşməsinə, dövlət quruculuğunun möhkəmləndirilməsinə öz təsirini göstərir.

Hazırda cəmiyyətdə baş verən qlobal proseslər ictimai həyatın bütün sferalarına əhəmiyyətli dərəcədə öz təsirini göstərir. Əlbəttə bu proseslərin həyata keçirilməsi və onu fərqləndirən əsas cəhətlərdən biri və ən başlıcası cəmiyyətin yaşaması və inkişaf etməsi üçün ilk növbədə informasiyanın fundamental faktora çevirməklə və insanların şüuruna təsir göstərməsidir.

Vaxtilə cəmiyyətini inkişafını mütəxəsislər əsasən, maddi istehsalın varlığı ilə əlaqələndiriblərsə, hazırki informasiya cəmiyyəti dövründə müxtəlif

növ informasiyalar əldə etmədən mümkün olmadığını iddia edirlər. Qeyd etmək lazımdır ki, hazırki dövrdə informasiya ictimai tələbat kimi yeni tələblər irəli sürür və elə buna görə də informasiya müəssisələri kimi kitabxanaların qarşısında çox mühüm vəzifələr qoyur. Bu vəzifələrin yerinə yetirilməsində son illərdə kitabxanalarda olduqca mütərəqqi iş prosesləri, yeni informasiya texnologiyaları həyata keçirilir.

Dünyada baş verən kommunikasiya texologiyalarının artması, informasiyanın oxuculara operativ olaraq çatdırılması, məsafədən asılı olmayaraq xidmət göstərilməsi, elektron kataloqun yaradılması və bütövlükdə informasiya bazalarının formalaşması, informasiya təminatının mötəbərliliyinə imkan verir və tələbatçıların informasiya tələbatına şərait yaradır.

Ənənəvi kataloq kartoteka sistemlərindən fərqli olaraq, elektron kataloq vasitəsilə dünya kitabxanalarında olan sənəd – informasiya fondları haqqında məlumat əldə etmək imkanı yaranır, onların operativ axtarışı təmin edilir.

Müasir kitabxana-informasiya sistemlərindən istifadə etməklə tələbatçılar zaman və məkan problemi olmadan lazımi informasiyanı əldə etmək məqsədilə, müasir tipli informasiya texnologiyalarından istifadə etməklə bilavasitə yaşayış və iş yerlərindən dünyanın ən zəngin informasiya fondlarına daxil olaraq özünə lazım olan informasiyaları operativ şəkildə əldə edirlər.

Respublikamızda zəngin informasiya fonduna malik olan M.F.Axundov adına Milli Kitabxana son illərdə məlumat- axtarış sistemlərinin təşkili və istifadəsi üzrə olduqca mütərəqqi tədbirlər həyata keçirir. Görülən bu mütərəqqi işlərin nəticəsi olaraq artıq demək olar ki, Milli Kitabxanada informasiya kommunikasiya sistemləri işlək vəziyyətə gətirilmiş, kitabxana veb saytı elektron kataloqu və elektron kitabxanası bir sıra problemlərin həlli istiqamətində xeyli  işlər görmüşdür. Bu gün bir məsələni xüsusi qeyd etmək olar ki, artıq, məsafədən virtual kitab sifarişi sistemi tətbiq edilir.

Respublikamızın Milli Kitabxanasının ən başlıca müvəffəqiyyətlərindən biri də “Kitabxana işi haqqında” Azərbaycan Respublikası Qanunun 7-ci maddəsinə müvafiq olaraq, M.F.Axundov adına Dövlət Kitabxanasına Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 aprel 2004-cü il qərarı ilə “Milli kitabxana” statusu verilmişdir [1, 143].

Qeyd etmək lazımdır ki, kitabxanaya verilən bu mötəbər status kitabxananın qarşısında duran vəzifələrin əhatəliliyini xeyli genişləndirmiş, elmi-tədqiqat və informasiya təminatı sahəsindəki əməli fəaliyyətini xeyli genişləndirmişdir.

Son illərdə kitabxana işi sahəsində baş verən yeniliklər, xüsusilə, informasiya texnologiyalarının tətbiqinin elektron kitabxana və elektron kataloqların yaradılması Milli Kitabxanada həmişə yaradıcı şəkildə aparılmış, kitabxana proseslərinin avtomatlaşdırlması istiqamətində ilk addım atan kitabxanalardan biri olmuşdur.

Bir məsələni qeyd etmək lazımdır ki, müstəqillik illərinin bir sıra beynəlxalq təsnifatların Azərbaycana gəlməsi və respublikamızda fəaliyyətə başlaması kitabxana-informasiya müəssisələrinin işinə xüsusi təkan verdi. Bu təsnifatların başlıca məqsədi qrant vermək yolu ilə inkişaf etməkdə olan ölkələrə yardım göstərməkdən ibarət idi. Həmin təsnifatlar kitabxana işinə müsabiqə yolu ilə qrant ayırmaqla onların fəaliyyətini yaxşılaşdırmaq məqsədilə ilə ayrılırdı. Bu dövrdə, yəni müstəqilliyin ilk illərində Açıq Cəmiyyət İnstitutu (SOROS fondu) qrantlar ayırmaqda xüsusi fəallıq göstərirdi. Respublikamızda fəaliyyət göstərən respublika əhəmiyyətli dövlət və sahəvi kitabxanaların, kütləvi və uşaq kitabxanaları, hətta bir sıra kənd və qəsəbə kitabxanaları qrantlar udmuş, vəsait əldə etməklə öz kitabxanalarının fəaliyyətini təkmilləşdirmişdir. Milli Kitabxananın kollektiv qrantlar əldə etməklə, öz işlərində xeyli yenilik və dəyişiklik etmişlər.

Milli Kitabxana avtomatlaşdırma işinə də xüsusi əhəmiyyət verməklə, bir çox kitabxana-informasiya proseslərinin yeni kommunikasiya texnologiyaları ilə təmin edilməsi işində xüsusi fəaliyyət göstərirlər.

Milli Kitabxana son illərdə texnologiyalarının tətbiqi ilə bağlı çox mühüm tədbirlər həyata keçirmişdir. Bütün bunlar digər məsələlərlə, yanaşı Milli Kitabxananın kitab fondunun formalaşmasına çox ciddi təsir göstərmişdir.

Son illərdə respublikamızda kitabxanaların fəaliyyətini ümumiləşdirmək, uçot hesabat işlərinin təhlili kitabxanaların potensial imkanlarını təhlil etməyə imkan verir. İstər statistika idarələrinin, istərsə də kitabxanalara rəhbərlik edən Nazirlik və baş idarələrin həyata keçirdiyi statistik hesablamalar, informasiya orqanları kimi kitabxanaların kəmiyyət göstəriciləri haqqında fikir söyləməyə imkan verir.

Azərbaycan Respublikası Statistika Komitəsi son dövrlərdə bir sıra samballı statistik məcmuələr hazırlayıb çap etdirmişdir ki, burada xalq təsərrüfatının bütün sahələri o cümlədən, kitabxanaların fəaliyyəti ilə bağlı çox mükəmməl statistik məlumatlar geniş şəkildə şərh edilmişdir. Yeri gəlmişkən, bir məsələni qabarıq şəkildə göstərmək lazımdır ki, Azərbaycanda fəaliyyət göstərən bütün kitabxana şəbəkələri və sistemləri haqqında mükəmməl məlumatların olmaması, müəyyən obyektiv və subyektiv maneələrin və problemlərin həllində ciddi çətinliklər yaradır. Məsələn, eyni tipli kitabxanaların bir-birindən fərqli istər fond, kadr təminatı, avadanlıqlar və əşyalarla təminatı əsaslı şəkildə fərqlənir. Halbuki ərazi, oxucu, kitabxana fondu, regionun fərqli və üstün cəhətləri mütləq nəzərə alınmalıdır. Çox təəsüflər olsun ki, bəzən ərazisi oxucuların sayı, kitabxana fondu çox kiçik olan kitabxanaların bu keyfiyyətləri nəzərə alınmadan vəsait qoyuluşu və digər təminatlar üstünlüklər təşkil edir. Ona görə də bütün kitabxanaların, o cümlədən, onların fondu, oxucuları, ərazisi, əhatə dairəsi və digər əlamətlər öurənilməklə, xüsusi müşahidələr nəzərə alınmaqla respublikanın bütün regionlarında kitabxanaların hərtərəfli posportlaşdırılması, statistik

ümumiləşmələr aparılmalıdır. Əlbəttə, statistik ümumiləşdirmənin aparılması daim diqqət mərkəzində olmuş bir sıra tədqiqatlar aparılmış və onların nəticələri nəşr olunmuşdur. Son dövrlərdə Respublika Statistika İdarəsi ardıcıl olaraq belə tədqiqatlar aparmış və kitabxanaların inkişaf istiqamətlərini statistik bülleten kimi çap etdirmişdir. Respublika Statistika Komitəsinin 2009-cu ildə çap etdirdiyi "Kitabxanaların fəaliyyəti haqqında" statistik müayinənin nəticələri barədə statistik bülleten diqqəti daha çox cəlb edir. "Kitabxanların fəaliyyəti haqqında" statistik müayinə Azərbaycan Respublikası Prezidentinin 6 oktyabr 2008-ci il tarixli 3072 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" nın 2.1.8-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikası Statistika Komitəsinin tərəfindən 2009-cu ilin sentyabr ayının 1-dən 10-dək keçirilmişdir.

Statistik müayinənin keçirilməsində əsas məqsəd əhaliyə göstərilən kitabxana-informasiya xidmətinin səviyyəsinin yüksəldilməsi, kitabxana-informasiya sahəsində yeni texnologiyaların tətbiqi və istifadəsi nəticəsində onun dünya standartları səviyyəsinə çatdırılması, elektron informasiya fondlarının formalaşdırılması və virtual kitabxanaların inkişaf etdirilməsi, kitabxanaların kadr təminatının yaxşılaşdırılması, habelə, fasiləsiz təhsilin təmin edilməsi üçün şərait yaradılması istiqamətlərində aparılan işlərin vəziyyətini öyrənməkdən ibarət olmuşdur. Bülletendəki məlumatlar 2009-cu ilin sentyabr ayının 1-nə olan vəziyyəti, istifadəçilərə verilən kitab və digər informasiya mənbələrinin, habelə, istifadəçilərin sayı, 2009-cu ilin birinci yarısına olan vəziyyəti əks etdirir. Bütün kitabxana şəbəkələri və sistemlərində olan kitabxanalar müayinə ilə əhatə olunmuş kütləvi, uşaq, gənclər, elmi, elmi-texniki və digər ixtisaslaşdırılmış, həmçinin müəssisələrin nəzdində olan 8507 kitabxananın təxminən üçdə biri, yəni 2322-ci və ya 27,3%i şəhər yerlərində 6125-i və ya 72,2%i kənd yerlərindədir [2, 87].

Əlbəttə, bu cür statistik ümumiləşmə demək olar ki, qaneedicidir. Belə ki, Azərbaycanda yaşayan təxminən 9 milyon əhalinin 3 milyonundan çoxu Bakı və digər respublika tabeliyindəki sahələrdə, qalan 6 milyonundan çoxu isə kənd yerlərində yaşayır. Şəhər kitabxanalarında informasiya-kommunikasiya texnologiyalarının təminatında kənd yerlərindəki kitabxanaların kommunikasiya vasitələrindən daha zəngindir. Əlbəttə, belə olan tərzdə şəhər yerlərində yeni texnologiyaların geniş tətbiq olunması, kitabxana proseslərinin avtomatlaşdırılması yeni kitabxana proqramlarının tətbiqi daha çox məqsədə uyğundur. Bu baxımdan Axundov adına Milli Kitabxanada kitabxana işini müasir tələblərini ödəmək imkanı daha çoxdur. Milli Kitabxanada hələ 1975-ci ildən başlayaraq, kitabxana işinin informasiyalaşdırılması ilə bağlı bir sıra tədbirlər həyata keçirilməyə başlamışdır. Bu məqsədlə, Milli Kitabxanada mədəniyyət və incəsənət üzrə elmi informasiya şöbəsi yaradılmışdır. Bu şöbə kitabxanaya daxil olan sahə üzrə kitab, məcmuə, qəzet və jurnal məqalələri əsasında 1976-cı ildən etibarən,

informasiya göstəricisi nəşr etməyə başlamışdır. Milli Kitabxanada son illərdə elektron məlumat bazasını yaradılması istiqamətində xeyli işlər görülmüş, bu məqsədlə "Analitik elektron məlumat bazasının təşkili" şöbəsi yaradılmış və az bir müddət ərzində xüsusi proqrama uyğun olaraq konkret tədbirlər həyata keçirilir. Hazırda şöbədə 80-dan çox dövri mətbuatda verilən məqalələr sahələr üzrə qruplaşdırılır, çeşidlənir və kitabxananın elektron kataloqunda yerləşdirilir. Əlbəttə, bu xidmət növündən kitabxananın saytından istifadə etməklə dünyada yaşayan bütün insanlar istifadə edə bilərlər. Hazırlanan bu sistem, bu xidmət növü dövri mətbuat səhifələrində çap olunan bütün məlumatların toplanaraq istifadəçilərə çatdırılır. Kitabxanada yaradılan "Analitik elektron məlumat bazasının təşkili" şöbəsi avtomatlaşdırılmış proqrama uyğun olaraq aparılır və 80 adda dövri mətbuatın materialları həmin sistemə daxil edilir [3,121].

Dövri mətbuatda dərc olunan məqalələr bütün sahələr üzrə qruplaşdırılaraq analitik təsvir edilir və iki dildə, rus və azərbaycan dillərində elektron kataloqa daxil edilir. Hazırlanmış həmin materiallar elektron kataloqda biblioqrafik yazıların VİRTUA proqramında, MARC-21 formatında yazılaraq dünya informasiya sisteminə, bütün tələbatçılara ötürülür.

Bu sistem digər sistemlərdən əsaslı şəkildə fərqlənir və VTLS proqramı vasitəsilə bütün mobillər Milli Kitabxana tərəfindən əldə edilmiş, sistemdə komplektləşdirmə, kataloqlaşdırma tələbatçıların uçotu və qeydiyyatı və məlumat axtarışı üçün xüsusi proqram OPAC fəaliyyət göstərir, həmçinin digər mobillərdən istifadə məqsədilə müəyyən hazırlıq işləri də aparılır. Milli Kitabxanada tətbiq edilən VTLS proqramı ilə oxuculara xidmətlə bağlı informasiya bazasının yaradılması üçün kompleks sistem yaratmağa imkan verirdi.

Respublika Milli Kitabxanasında artıq 2006-cı ildən etibarən yeni informasiya texnologiyaları vasitəsilə tələbatçılara kitabxana-informasiya xidmətinin göstərilməsi müasir dünya təcrübəsinə uyğun yenidən qurulması əsas vəzifələrdən biri kimi yerinə yetirilməyə başlanır. Artıq Respublika Milli Kitabxanası ölkədə kitabxana proqramlarının tətbiq sahəsində aparıcı müəssisələrdən biri kimi fəaliyyətə başladı. Bu fəaliyyət dəstəyi ilə yanaşı bir sıra beynəlxalq təşkilatların maliyyə dəstəyi ilə həyata keçirilməyə başlandı. "Maşınlaoxunan elektron kataloqun yaradılması" layihəsi əsasən, Avrasiya Fondu, SOROS Fondu və İRTCL – qrant verən təşkilatların maliyyə dəstəyi hesabına həyata keçirilmişdir. Hazırda elektron kataloq vasitəsilə kitabxananın (www.anl.az) saytına girməklə fondda olan çap məhsulatı vasitəsilə istənilən məlumatları əldə etmək mümkündür. Bütün məlumatlar MARC-21 formatında fonda daxil edilir.

Milli Kitabxanada məlumat bazası yaradılarkən komplektləşmə zamanı ədəbiyyat ayrı-ayrı sahələr üzrə fonda daxil edilir. İlk növbədə:

Fonda daxil olan yeni ədəbiyyat;

Arxiv şöbəsində toplanmış və əks xronoloji ardıcıllıqla seçilən ədəbiyyat;

Tammətnli resursların biblioqrafik yazılarının tərtib edilməsi üçün kitabxananın fondunda olan ədəbiyyat;

Ümumi fonda olan və format üzrə düzülmüş rus dilində olan ədəbiyyat [4, 32].

Bundan başqa məlumat bazasına azərbaycan və rus dillərində olan ədəbiyyatın növlərinə görə biblioqrafik yazılar daxil edilir [4, 32].

Monoqrafiyalar

Seriya ilə nəşr olunan monoqrafiyalar

Dissertasiyalar və avtoreferatlar

Not – musiqi nəşləri

Kartoqrafik nəşrlər

Elektron resurslar

Bütün bunlarla yanaşı, məlumat bazasında digər xarici dillərdə olan ədəbiyyat növlərinin bilioqrafik yazıları elektron kataloqa daxil edilir.

Azərbaycanda respublika səviyyəli kitabxanalar içərisində Axundzadə adına Milli Kitabxana avtomatlaşdırılmış kitabxana-informasiya sistemlərinin tətbiq edilməsinə demək olar ki, hələ 2000-ci illərdən başlamışdır. Belə ki, Milli Kitabxanada həmin ildən ilk internet zalı və ilk tədris kursları məhz bu kitabxanada yaradılmış, republikamızın kitabxana işçiləri üçün komputer təlimi üzrə treyninqlər həyata keçirilmişdir. Əlbəttə bu kimi tədbirlərin həyata keçirilməsi kitabxana ictimaiyyəti tərəfindən olduqca rəğbətlə qarşılanmış, respublikanın digər kitabxanalarında xeyli kitabxana işçiləri bu tədbirlərə qatılmışdır. Nəticədə Axundzadə adına Milli Kitabxanada yeni texnologiyaların tətbiqi və proqramların mənimsənilməsi ilə bağlı xüsusi kursların (treyninqlərin) keçirilməsi kitabxanaların işində xeyli canlanma yaratmış, faktiki olaraq yeni kitabxana texnologiyasının öyrənilməsi, məzmunu və tətbiq olunmasında mühüm əhəmiyyət kəsb etdi. Bu mənada, Milli Kitabxanada kitabxana proqramlarının tətbiqi ilə bağlı olduqca əsaslı dəyişikliklər baş verdi. Xüsusilə, bir məsələni qeyd etmək lazımdır ki, milli ədəbiyyat fonda daha çox daxil olmağa başladı. Belə ki, bu dövrdə Azərbaycan Prezidenti İlham Əliyevin imzası ilə kitabxana işinə dair dövlət əhəmiyyətli bir sıra sərəncamları oldu ki, burada ilk növbədə "Azərbaycan kitabxanalarının fəaliyyətinin yaxşılaşdırılması haqqında" sərəncamının kitabxana fəaliyyətinin müasir tələblər səviyyəsinə qaldırılması üçün əhəmiyyətlidir. Bundan başqa, hələ 1996-cı ildə Azərbaycan hökuməti "Azərbaycan Respublikasında kitabxana işinin vəziyyəti və onun yaxşılaşdırılması tədbirləri haqqında" qərar qəbul olunmuşdur. 1999-cu ildə "Kitabxana işi haqqında" Qanun qüvvəyə minmişdir. Qanunun qəbul olunması və yuxarıda göstərilən sərəncamlarla yanaşı, Azərbaycan Respublikasının Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar və "2005-2006-cı illərdə

Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" 2004-cü il 27 dekabr tarixli sərəncamlarına əsasən, bu sərəncamlardan 3 il ərzində ümumi sayı 9 milyona yaxın ədəbiyyat nəşr olunmuş və ölkə kitabxanalarına təqdim edilmişdir. Kütləvi halda latın qrafikası ilə kitabların nəşr edilməsi kitabxana fondlarının qaydaya salınması və yerləşdirilməsində xeyli çətinliklər yaratmışdır. Belə olan tərzdə müasir Azərbaycan cəmiyyətinin informasiya təminatının həyata keçirilməsində ölkə kitabxanalarının tutduğu mühüm yer mədəniyyətin bu sahəsində informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq, müasir texnologiyaların tətbiqini zəruri edir. Odur ki, "Azərbaycan kitabxanalarının fəaliyyətinin yaxşılaşdırılması haqqında" sərəncamda birinci növbədə Azərbaycan Milli Kitabxanasının modernləşdirilməsi, müasir informasiya texnologiyaları ilə təmin edilməsi və maddi texniki bazasının möhkəmləndirilməsi ilə bağlı tədbirlər, plenium hazırlanması və həyata keçirilməsi nəzərdə tutulmuşdur. Əlbəttə, Respublika Milli Kitabxanasında hələ müstəqilliyimizin ilk illərində bir sıra addımlar atılmış, bir sıra konkret tədbirlər həyata keçirilmiş, ilk növbədə texnoloji proseslərin öyrənilməsi məqsədilə xüsusi treyninqlər vasitəsilə kadrlar hazırlanmış, kitabxanada köhnəlmiş, əhəmiyyətini itirmiş, cırılmış və ya lazımsız hala düşmüş ədəbiyyatlar fonddan çıxarılmışdır. Son illərdə Milli Kitabxananın fonduna milli ədəbiyyatın daxil olmasının ildən-ilə artması, kitabxananın ümumkitab fondunda milli ədəbiyyatın xüsusi çəkisinin xeyli artımına səbəb olmuşdur. Belə ki, əgər 1994-cü ildə kitabxananın ümumi fondunun 10-12%ni təşkil etdiyi halda, artıq 2004-cü ildə milli ədəbiyyat fondun 25%ni, 2012-ci ildə 38%ni təşkil edirdi. [6, 166].

Milli kitab fondunun bu cür surətlə artması kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması 2006-cı ilin may ayında Milli kitabxananın veb saytının və elektron kataloqunun tədqiqatı ilə başlamışdır. 2006-cı ildən Milli kitabxananın saytı vasitəsilə bir sıra beynəlxalq məlumat bazalarında – ABŞ-ın Konqres Kitabxanasının və Rusiyanın Milli Dövlət Kitabxanasının bazasında axtarış aparmaq imkanı əldə edilmişdir[6, 166].

Bir məsələni xüsusilə qeyd etmək lazımdır ki, son illərdə Milli Kitabxananın strukturunda əsaslı dəyişikliklər aparılmış, mədəniyyət və turizm idarəsi tərəfindən təsdiq olunmuş yeni struktur və müasir tələblərlə səsləşən şöbələr yaradılmışdır. "Elektron informasiya xidməti avtomatlaşdırma və informasiya texnologiyaları", "İnfrastrukturun təşkili və proqram təminatı", "Elektron resursların yaradılması", "Analitik elektron məlumat bazası yaradılması", "Elektron kataloqun formalaşdırılmasına dəstək", "Elektron dissertasiya fondunun təşkili və ondan istifadə", "Elektron resurslardan istifadə", "Lokal şəbəkə vasitəsilə virtual xidmət", "Kitabxanaların metodiki təminatı" və s. şöbələrin yaradılması Azərbaycan kitabxana ictimaiyyəti tərəfindən yeni konsepsiya kimi dəyərləndirilirdi. Yeni strukturların yaradılması kitabxanaların fəaliyyətində yeni inkişaf istiqamətlərini ortaya qoydu. Axundzadə adına Milli Kitabxana özünün surətli keçid dövrünü

yaşayır ki, burada kitabxana fondunun elektron versiyalarının hazırlanması, sistemin bütün versiyalarının avtomatlaşdırılması işi müvəffəqiyyətlə həyata keçirirlir. Bu məqsədlə, təkcə 2006-2012-ci illərdə elektron sənədlər hazırlanmışdır ki, onların sayı 58842ə çatdırılmışdır.

Yekun olaraq bu qənaətə gəlmək olar ki, Axundzadə adına Milli Kitabxanada kompleks proseslərin avtomatlaşdırılmasına cavab verən bir sıra mükəmməl kitabxana-informasiya sistemi mövcuddursa, bunlardan biri də VTLS / VİRTUA proqramıdır. Bu proqram artıq neçə illərdir ki, Respublika Milli Kitabxanasında tətbiq edilir və sistem gücü şəbəkə imkanına malikdir, onun respublikanın kitabxanalarında tətbiqi vacib və olduqca zəruridir. Bu sistem vasitəsilə hazırda oxucuların kitabxananın elektron resurslarına uzaq məsafədən giriş artıq 2006-cı ildən mövcuddur. Azərbaycan Milli Kitabxanasının elektron kataloqundan istifadəçilər kitabxananın saytı vasitəsilə (www.anl.az) "Elektron kataloq" bölməsinə daxil olmaqla istifadə edə bilərlər.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Qanunvercilik toplusu, 2004, №4, naddə 298-299, s.143.
2. Azərbaycan Respublikası Statistika Komitəsi "Kitabxanaların fəaliyyəti haqqında" statistik müayinəsinin nəticələri barədə statistik bülleten, Bakı, 2009, 87 s.
3. Azərbaycan Milli Kitabxanası-90 məqalələr məcmuəsi. Bakı, 2013.-150s.
4. Əsədova R. Azərbaycan Milli Kitabxanası – məqalələr məcmuəsi, Bakı, 2013.
5. M.F.Axundzadə Azərbaycan Respublikası Dövlət Kitabxanasının əməkdaşlarının əsərləri (1923-1993). Tərtib edəni: F.Məmmədov.- Bakı, 1993.- 150s.
6. Tahirov K. Dünya Milli Kitabxanaları. M.F.Axundzadə Azərbaycan Milli Kitabxanası. Dərs vəsaiti. Bakı, 2013.- 211s.
7. Tahirov K. Axundov adına Milli Kitabxananın beynəlxalq əlaqələri// Kitabxanaşünaslıq-informasiya.-2011.- № 1.-s 32-40
8. Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında. IIIcild.-Bakı, 2010.- 367s.
9. Kitabxanaların fəaliyyəti haqqında statistik müayinənin nəticələri barədə. Statistik bülleten. Bakı, 2009.- 86s.


**Х.Исмаилов**

## ПРЕМЕНЕНИЕ ИНФОРМАЦИОННО-КОММУНИКАЦИОННЫХ ТЕХНОЛОГИЙ В ОРГАНИЗАЦИИ ИСПОЛЬЗОВАНИИ БИБЛИОТЕЧНЫХ РЕСУРСОВ (НА ОСНОВЕ ОПЫТА РАБОТЫ НАЦИОНАЛЬНОЙ БИБЛИОТЕКИ)

### РЕЗЮМЕ

В статье освещены роли информационно-коммуникационных технологий в организации эффэктивного использоваия библиотечных ресурсов. А также особое внимание уделено на опыт работы национальной библиотеки им.М.Ф.Ахундова а также междкнородный опыт соответствующих библиотек.

**K.Ismayilov**

**APPLYING OF INFORMATION AND COMMUNICATION TECHNOLOGIES IN THE ORGANIZATION OF THE USE OF LIBRARY RESOURCES (BASED ON THE EXPERIENCE OF THE NATIONAL LIBRARY)**

**SUMMARY**

The article highlights the role of information and communication technologies in the organization of effective use of library resources. Also, special attention is paid to the experience of the National Library after M.F.Akhundov and international experience relevant libraries.

**Sevda XƏLƏFOVA**
***tarix üzrə fəlsəfə doktoru, dosent***

# TƏHSİL SİSTEMİNİN İNFORMASİYALAŞDIRILMASINDA İNFORMASİYA VƏ KOMMUNİKASİYA TEXNOLOGİYALARININ ƏHƏMİYYƏTİ

***Açar sözlər:*** *təhsil sisteminin informasiyalaşdırılması, təhsildə İKT-nin tətbiqi ilə bağlı dövlət siyasəti, təhsildə informasiya və kommunikasiya texnologiyalarından istifadə, elektron təhsil texnologiyalarının üstünlükləri*

***Ключевые слова:*** *информатизация системы образования, государственная политика в связи с применением ИКТ в образовании, использование информационно-*

*коммуникационных технологий в образовании, преимущества электронных технологий в образовании.*

***Keywords:*** *information of education system, state policy on application of ICT in education, usage of information and communication technologies in education, advantages of e-education technologies*

Məqalədə respublikamızda informasiya-kommunikasiya texnologiyalarının müxtəlif fəaliyyət sahələrinə, xüsusilə də təhsil sisteminə tətbiqi ilə əlaqədar dövlət siyasəti, qəbul olunmuş qərar, sərəncam və dövlət proqramları haqda məlumat verilmiş, təhsil sisteminin informasiyalaşdırılması və kompüterləşdirilməsi, müxtəlif strateji əhəmiyyətli İKT layihələrinin həyata keçirilməsi, təhsil şəbəkə infrastrukturunun qurulması və s. məsələlərə toxunulmuşdur.

Biliklərə əsaslanmış iqtisadiyyatın təşəkkül tapdığı şəraitdə informasiya və kommunikasiya texnologiyalarının (İKT) inkişafı ölkənin intellektual və elmi potensialının vacib göstəricilərindən biridir. Qloballaşan dünyada ölkələrin rəqabət qabiliyyəti ilk növbədə onların İKT-dən səmərəli istifadəsi ilə müəyyənləşməklə formalaşır. Hazırda respublikamızda bütün sahələrdə mütəxəssislərin informasiya və kommunikasiya texnologiyaları ilə işləmək və onlardan düzgün istifadə etmək bacarığına çox böyük önəm verilir. İKT biliyinə mükəmməl yiyələnməyin ən yaxşı yolu isə əsasən təhsil müəssisələrindən başlayır.

Ölkəmizdə İKT-nin inkişafı, informasiya cəmiyyətinin formalaşması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Onun 17 fevral 2003-cü ildə imzaladığı "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə (2003-2012-ci illər) Milli Strategiya" 10 ilə yaxın müddətdə müasir informasiya texnologiyalarının Azərbaycanda tətbiqi sahəsində prioritet vəzifələr müəyyənləşdirib. Əsası ulu öndər tərəfindən qoyulan bu strategiya hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hələ 2003-cü ilin dekabrında BMT və UNESCO-nun Cenevrədə keçirilən İnformasiya Cəmiyyəti üzrə Ümumdünya Sammiti üçüncü minilliyin əsas vəzifəsini - informasiya cəmiyyəti qurulması vəzifəsini bəşəriyyətin inkişafının mühüm şərti kimi vurğuladı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin sammitdə çıxış edərək ölkəmizdə İKT-nin gündəlik həyatımızın tərkib hissəsinə çevrildiyini, mütəxəssislərimizin informasiya və kompüter texnologiyaları üzrə müxtəlif layihələri həyata keçirdiklərini bildirmişdir. Bu gün informasiya və kommunikasiya texnologiyaları ictimai-siyasi, sosial-iqtisadi, mədəni sahələri əhatə edərək cəmiyyətin inkişafına güclü təsir göstərən əsas amillərdən birinə çevrilmişdir. Hazırda informasiya və kommunikasiya texnologiyalarının tətbiqinin səviyyəsi hər bir ölkənin zehni və elmi potensialının, dövlət idarəçiliyində şəffaflığın və demokratiyanın inkişafının, sosial-iqtisadi problemlərin həllinin, yoxsulluğun aradan qaldırılmasının əsas göstəricilərindən hesab olunur. Son illərdə ölkəmizdə cəmiyyətin sənəd-

informasiya tələbatını, o cümlədən ədəbiyyata olan tələbatını daha dolğun şəkildə ödənilməsi və bu işdə İKT-dən istifadə sahəsində bir sıra ciddi addımlar atılmışdır.

Azərbaycan Prezidenti İlham Əliyevin 22 oktyabr 2005-ci il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)" rabitə və informasiya texnologiyalarının geniş tətbiqinə imkan yaradan, habelə bölgələrdə geniş yayılmasını təmin edən mükəmməl fəaliyyət konsepsiyasına çevrilmişdir. 11 avqust 2008-ci il tarixli "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramının (Elektron Azərbaycan)" təsdiq edilməsi haqqında sərəncam da bu sahədə həyata keçirilən dövlət siyasətinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu göstərir.

Artıq İKT Azərbaycanda digər sahələrdə olduğu kimi, təhsil sistemində də geniş şəkildə tətbiq edilir. Təhsil cəmiyyətin əsas aparıcı qüvvəsi olmaqla ölkələr, müxtəlif mədəniyyətlər arasında qarşılıqlı anlaşmanın yaxşılaşdırılmasına, münaqişələrin sülh yolu ilə həllinə, cəmiyyətin bütün üzvlərinin fiziki və mənəvi təkmilləşdirilməsinə, iqtisadi inkişafa dəstək olmaqla yoxsulluğun azaldılması və həyat səviyyəsinin yüksəlməsinə birbaşa təsir edir. İKT-nin təhsildə tətbiqi Azərbaycan vətəndaşlarının müasir biliklərə və bacarıqlara malik olan yeni nəslinin formalaşmasına birbaşa təsir edən yüksək mahiyyətli məsələdir. Son illər təhsil sistemində İKT infrastrukturunun inkişaf etdirilməsi və təhsildə İKT-nin tətbiqinin dünya standartları səviyyəsinə çatdırılması ölkəmizdə prioritet istiqamətlərdən biridir. Bu dövrdə təhsil sistemində İKT-nin tətbiqi sahəsində müxtəlif layihə və tədbirlər hazırlanıb həyata keçirilmişdir ki, bu da ölkənin təhsil sahəsində aparılan islahatların çox vacib mərhələlərindən biri olmaqla təhsil ocaqlarında İKT infrastrukturunun qurulmasına yönəlib.

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 21 avqust tarixli 355 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı (2005-2007-ci illər)” xüsusi əhəmiyyətə malikdir. Proqramın həyata keçirilməsi nəticəsində ölkənin ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə əsasında qurulmasına diqqət xeyli artmışdır.

Ölkədə informasiya və kommunikasiya texnologiyalarının təhsil sisteminə inteqrasiyası və təhsil prosesinin məzmunca modernləşməsi sahəsində əməli işlərdən biri də 10 iyun 2008-ci il tarixində ölkə başçısı tərəfindən qəbul edilmiş "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı"dır. Bu proqramda İKT-dən istifadə etməklə ölkəmizdə beynəlxalq standartlara uyğun keyfiyyətcə yeni təhsil modelinin qurulması, vahid elektron təhsil məkanının yaradılması və təhsil sisteminin dünya təhsil məkanına inteqrasiya

etdirilmisini əsas məqsəd kimi qarşıya qoyulmuşdur. Dövlət proqramının əsas məqsədi təhsilin bütün pillələrində müasir informasiya və kommunikasiya texnologiyalarının səmərəli tətbiqi və istifadəsi ilə vahid ümummilli təhsil mühitinin formalaşdırılması və bu zəmində əhalinin bütün təbəqələri üçün keyfiyyətli təhsil almaq imkanlarının təmin edilməsi, habelə ölkənin təhsil sisteminin dünya təhsil məkanına inteqrasiya olunması üçün şərait yaradılmasıdır.

İKT-nin təhsildə tətbiqi, eləcə də adı çəkilən proqramın icrası baxımından Təhsil Nazirliyi ilə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi arasında səmərəli əməkdaşlıq mövcuddur.Təhsil sisteminin informasiyalaşdırılmasının əsas istiqamətlərindən biri də infrastrukturun inkişafıdır. Bu prosesdə RİTN və Təhsil Nazirliyinin yaxından əməkdaşlığı nəticəsində "Azərbaycan Təhsil Şəbəkəsi" (AZEDUNET) yaradılmışdır. Dövlət proqramı çərçivəsində yaradılan AZEDUNET ölkəmizin təhsil sistemini vahid bir informasiya məkanında birləşdirmək məqsədini daşıyır. AZEDUNET-in əsas məqsədi ölkənin bütün təhsil ocaqlarını vahid yüksək sürətli internet şəbəkəsi çərçivəsində birləşdirməkdən ibarətdir. Vahid təhsil şəbəkəsinin mövcudluğu ölkə çərçivəsində təhsil ocaqları arasında yüksək sürətli məlumat mübadiləsini təmin etməyə imkan yaradacaq və bununla da milli elektron təhsil şəbəkəsinin inkişafına təkan verəcək. Bundan əlavə, təhlükəsiz informasiya sistemlərinin fəal istifadəsi ilə təhsil ocaqları ardıcıl surətdə internetə çıxışla təmin olunur.

Qeyd edək ki, 2010-cu ilin Təhsil Nazirliyi tərəfindən "Təhsildə İKT ili" elan olunmasını da Azərbaycanda bu sahədə görülən işlərin zirvəsi hesab etmək olar. "Təhsildə İKT ili" çərçivəsində elektron resursların yaradılması barədə yeni layihələr və tədbirlər həyata keçirilmişdir. Artıq respublikamızda bütün təhsil pillələri üçün İKT üzrə proqramlar hazırlanıb təsdiq edilmiş, distant təhsil üzrə ilk eksperimentlər aparılmağa başlanılmışdır. Hazırda təhsil portalının informasiya resursları formalaşmaqdadır, bəzi təhsil müəssisələrinin saytları yaradılmış və aktiv halda saxlanılır. Təhsilin idarə olunmasının məlumat sistemlərinin yaradılması, informasiya və kommunikasiya texnologiyalarının ümumtəhsil məktəblərində tətbiqi və ümumtəhsil məktəbləri üçün informasiya və kommunikasiya texnologiyaları sahəsində ixtisaslı pedaqoji, həmçinin köməkçi heyət kadrlarının hazırlanması üzrə işlərə başlanılmışdır.

Məlum olduğu kimi, təhsil sisteminin informasiyalaşdırlması prosesində müəllim əsas yer tutur. Təhsilin informasiyalaşdırlmasının müvəffəqiyyəti məhz müəllimin İKT sahəsində biliklərinin səviyyəsindən və onun bu sahədə olan vərdişlərinin tədrisdə tətbiqindən birbaşa asılıdır. E-tədris və təhsilin idarə edilməsi, elektron dərsliklərin yaradılması texnologiyalarının, bu sahədə olan beynəlxalq standartların araşdırılması, elektron dərsliklərin istifadəsi, ekspertizası və qiymətləndirilməsi istiqamətində təklif və tövsiyələrin hazırlanması, təlimin informasiya texnologiyalarının təhsil

müəssisələrində tətbiqi, bu sahədə elmi əsaslara söykənmiş tədqiqatların aparılması məsələlərinin həlli olduqca önəmlidir. Professor Rasim Əliquliyev qeyd edir ki, "artıq tabaşir, lövhə, kağız qələm yox, müəllimlə tələbə arasında müasir kompüter vasitələri olmalıdır. Ona görə artıq müəllim öz biliklərini ənənəvi mühazirə qaydasında yox, multimedia bilikləri şəklində təqdim etməlidir".

Dünya təcrübəsi göstərir ki, İKT-dən istifadə etməklə qurulan müasir təhsil modeli məktəbin pedaqoji heyəti qarşısında da yeni tələblər və vəzifələr qoyur. Müəllimlərin tək öz seçdikləri fundamental biliklər, pedaqogika və psixologiya sahəsində deyil, həm də informasiya sahəsində yenidən təlim alması olduqca aktuallaşır. Artıq yeni nəslin müəllimlərindən konkret öyrətdikləri fənnin struktur məzmununa və məqsədinə uyğun, tələbələri individual xüsusiyyətlərini nəzərə alan onların harmonik inkişafını mümkün edən texnologiyaları seçib tədrisdə tətbiq etmək tələb olunur.

İKT vasitələri öz geniş imkanları ilə təhsil prosesini xeyli sadələşdirir, onu dinamik və çevik edir. "Müəllim - tələbə - dərslik" tədris modelinə kompüterin də əlavə edilməsi tədris prosesini individual proqram üzrə təşkil etməyə, tələbənin dərsə marağını və istəyini stimullaşdırmağa imkan verir. Kompüterlə aparılan dərslər çox cəlbedici və yaddaqalan olur. Multimedia vasitələri, avtomatlaşdırılmış öyrədici sistemlər, kompüter tədris proqramları, animasiya qrafikası, rəngarəng illüstrasiyalar öyrənənlərin idrak aktivliyinə müsbət təsir göstərir.

Tədris prosesində interaktiv lövhədən istifadə edilməsi dərsin əsas prinsiplərindən birini - onun əyaniliyini təmin edir. Elektron lövhənin sensorlu, yəni hissiyyatlı səthinə xüsusi qələmlə və ya barmaqla yavaşca toxunmaqlaonun üzərində kompüterdə mümkün olan bütün əməliyyatları interaktiv rejimdə aparmaq olar. "Ağıllı lövhə, həmçinin kompüterə qoşulan mikroskop, skaner, rəqəmli fotoaparat, videokamera və s. qurğulardan alınan təsvirləri də proyektor vasitəsilə qəbul edə bilir ki, bu da tədris müəssisələrində virtual laboratoriyaların təşkilində mühüm əhəmiyyətə malikdir. Tələbələr kimyəvi reaksiyanın, fiziki, bioloji, coğrafi proseslərin izahını və videogörüntülərini, müxtəlif cihazların, qurğuların, texniki vasitələrin işləm prinsiplərini "möcüzəli" ekranda izləyə bilərlər. Bu isə nəzəri metodoloji biliklərin, praktiki bacarıq və təcrübələri inteqrasiya etməklə tədrisi xeyli canlandırır, tələbələrdə yaradıcı yanaşma, düşünmə, təşəbbüskarlıq, tədris materialını dərindən dərk etmə qabiliyyətini daha da artırır. "Ağıllı" lövhənin bir üstün cəhətini də xüsusi qeyd etmək lazımdır ki, onun üzərində aparılan bütün əməliyyatları, dərsin gedişini, hazırlanmış şablonları, modelləri kompüterin daimi yaddaşında saxlamaq və dəfələrlə istifadə etmək olar. Belə imkanlar müxtəlif səbəbdən dərsləri buraxanlar və ya təlimdən geri qalanlar üçün xüsusi əhəmiyyətə malikdir. Belə ki, tələbə iştirak edə bilmədiyi dərsin elektron variantı ilə sonradan tanış ola bilər və ya təlimdən geri qalanlar həmin materialı tam qavrayana kimi təkrar-təkrar kompüterdə izləyə bilərlər.

İKT-nin imkanlarından tədrisdə uğurla istifadə edən müəllimlər qeyd edir ki, interaktiv rejimdə keçilən dərslərdə tələbələrin mərkəzi fiqur olması təmin edilir. Müəllim əsasən tələbənin konsultantı, onun fərasətini və orijinal bacarığını qiymətləndirən, onu aktivliyə, müstəqilliyə, təşəbbüskarlığa həvəsləndirən rolunda çıxış edir. Elektron tədrisdə uşaqların hamısı lövhəyə çıxıb, müəllimin bütün tapşırıqlarını yerinə yetirməkdə həvəsli olurlar. İnteraktiv rejimdə keçilən dərslər bütün uşaqların, o cümlədən passiv, utancaq, müəyyən fiziki və ya psixoloji qüsuru olan tələbələrin dərs prosesinə aktiv qoşulmasına şərait yaradır.

Ümumiyyətlə, ölkədə bütün təhsil pillələri üçün İKT üzrə proqramlar hazırlanıb təsdiq edilmiş, distant təhsil üzrə ilk eksperimentlər aparılmağa başlanılmışdır. Hazırda təhsil portalının informasiya resursları formalaşmaqdadır, bəzi təhsil müəssisələrinin saytları yaradılmış və aktiv halda saxlanılır. Təhsilin idarə olunmasının məlumat sistemlərinin yaradılması, informasiya və kommunikasiya texnologiyalarının ümumtəhsil məktəblərində tətbiqi və ümumtəhsil məktəbləri üçün informasiya və kommunikasiya texnologiyaları sahəsində ixtisaslı pedaqoji, həmçinin köməkçi heyət (laborant) kadrlarının hazırlanması üzrə işlərə başlanılmışdır.

Lakin təəssüflər olsun ki, ölkənin təhsil sistemində müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiqinin hazırkı səviyyəsi istər dinamik inkişaf edən iqtisadiyyatımızın mövcud imkanları, istərsə də dünya təhsil məkanına inteqrasiya baxımından qənaətbəxş hesab edilə bilməz. Ölkədə təhsil ocaqlarının kompüter avadanlığı ilə təminatındakı irəliləyişlərə rəğmən, bütövlükdə təhsil sisteminin informasiya infrastrukturunun səviyyəsi hələ ki, günün tələbləri səviyyəsində deyil.

Müasir təhsil texnologiyalarının genişmiqyaslı tətbiqi ilk növbədə təhsil müəssisələrinin kompüter avadanlığı ilə təminatının köklü şəkildə yaxşılaşdırılmasını nəzərdə tutur. Tələbə (şagird) / kompüter nisbətinin bütövlükdə ölkə üzrə, xüsusilə də bölgələrdə və kənd yerlərində optimallaşdırılması qarşıda duran ən vacib problemlər sırasındadır. Lakin bu gün ölkənin təhsil sisteminin bütün pillələrində kompüterlərə çıxış imkanlarının genişləndirilməsi zərurəti ilə yanaşı, İKT avadanlığının daha səmərəli istifadə olunmasının, o cümlədən texniki nəzarət və dəstək sisteminin təkmilləşdirilməsinin aktuallığı qabarıq şəkildə hiss olunur. Xüsusən də rayon səviyyəsində texniki nəzarət və dəstək sisteminin mövcud olmaması, yaxud günün tələbləri səviyyəsində qurulmaması artıq quraşdırılmış kompüter avadanlığından, rəqəmsal təhsil resurslarından tam səmərəli şəkildə bəhrələnmək imkanlarını məhdudlaşdırır.

Respublikada təhsil prosesində rəqəmsal texnologiyaların geniş istifadəsinə maneçilik törədən əsas amillərdən biri rəqəmsal şəbəkə infrastrukturunun zəif inkişaf etməsi, təhsil ocaqlarının ölkədaxili intranet şəbəkəsi ilə yetərli səviyyədə əhatə olunmaması və yüksək sürətli internet əlaqəsi ilə təmin olunmamasıdır. Belə ki, hazırda respublikanın ali

məktəblərində internet əlaqəsi tam təmin olunsa da, orta təhsil məktəblərinin və orta ixtisas məktəblərinin internetə çıxış imkanlarında problemlər var. Təhsil müəssisələrinin böyük əksərinin veb-səhifələri yaradılmamış, müəssisədaxili rəqəmsal şəbəkələri, həmçinin vahid ölkədaxili təhsil portalı formalaşdırılmamışdır. Bununla yanaşı, multimedia xarakterli dərsliklərin və digər tədris vasitələrinin işlənilməsi, yayılması və təhsil prosesində tətbiq olunması ləngiməkdədir. İKT-nin tətbiqi üzrə elmi-metodiki bazanın təkmilləşdirilməsi, ümummilli səviyyədə vahid elektron təhsil məkanının təşəkkül tapması günün əsas tələbi olaraq qalır.

Azərbaycan Respublikasında təhsil sisteminin islahatları ilə bağlı ən aktual məsələlərdən biri də İKT tətbiq etməklə təhsilin idarə olunmasının təkmilləşdirilməsidir. Bu sırada təhsildə İKT-nin tətbiqi sahəsində yerli özünüidarə və dövlət orqanlarının fəaliyyətini tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsi, təhsil sahəsində effektiv idarəetmə üçün zəruri olan və bu sahənin vəziyyətini xarakterizə edən elektron məlumat bazası sistemi hazırlanıb tamamlanması xüsusi diqqət tələb edir. Həmçinin ölkənin təhsil sisteminin yüksək İKT bilik və bacarıqlarına malik pedaqoji və inzibati kadrlarla təminatının müasir standartlar səviyyəsinə çatdırılması təxirəsalınmaz məsələ kimi qarşıda durur.

Ölkəmizdə informasiya və kompüter texnologiyalarının, ümumiyyətlə, elektron təhsil texnologiyalarının tətbiqinin genişləndirilməsi ilə əlaqədar aşağıdakı təklif və tövsiyələri qeyd etmək istərdik:

- ölkə daxilində təhsilin, xüsusilə distant təhsilin inkişaf etdirilməsi üzrə tədbirlərin həyata keçirilməsi: əsasən multimedia texnologiyalarının tətbiqi ilə müasir elektron dərsliklərin hazırlanması və yayılmasının genişləndirilməsi;
- bütün fənlər üzrə müasir elektron elmi-metodiki vəsaitlər, elektron dərsliklər kompleksinin işlənilməsi və yayılması;
- elektron təhsil (e-Learning) resursları bazasının yaradılması və tədris prosesinə inteqrasiyası;
- təhsildə İKT-nin tətbiqi üzrə məlumat və resurs mərkəzlərinin yaradılması;
- vahid təhsil portalının yaradılması və mütəmadi dəstəklənməsinin təmin olunması;
- təhsildə dünya informasiya resurslarından səmərəli istifadənin təşkili, interaktiv tədris imkanlarından daha geniş istifadə olunmasının dəstəklənməsi.

Hazırda informasiya cəmiyyətinə istiqamətlənmiş yolu bəşəriyyətin gələcəyinə gedən yol kimi dəyərləndirirlər. Artıq alimlərin proqnozuna görə, informasiya cəmiyyətinin tam formalaşdığı mərhələdə insanların əsas əmək predmeti informasiya, əmək alətləri isə İKT olacaq. Ona görə də bu gün respublikamızda təhsilin bütün pillələrində İKT-nin tətbiq və istifadə edilməsi, eyni zamanda İKT-nin özünün tədris olunması, gənclərdə müstəqil şəkildə informasiya toplamaq, analiz etmək, ötürmək qabiliyyətinin formalaşdırılması

onların gələcəkdə informasiya cəmiyyətinin qiymətli üzvlərinə çevrilməsində mühüm rol oynaya bilər.

## ƏDƏBİYYAT


1. Попов, В.Б. Основы информационных и телекоммуникационных технологий. Мультимедиа [Текст]. - М.: Финансы и статистика, 2007. - 336 с. - ISBN: 978-5-279-03176-4.
2. Пилко, И.С. Информационные и библиотечные технологии [Текст]: Учеб. пособие / И.С.Пилко.- СПБ.: Профессия, 2006.-342 с.-
3. Трайнев, В.А. Новые информационные коммуникационные технологии в образовании [Текст] / В.Ю. Теплышев, И.В. Трайнев. - М.: Дашков и Ко, 2012. - 320 с. - ISBN: 978-5-394-01685-1.
4. Чепмен, Н. Цифровые технологии мультимедиа [Текст]. - М.: Вильямс, 2006. - 624 с. - ISBN: 5-8459-0888-4.
5. Чернобай, Е.В. Технология подготовки урока в современной информационной образовательной среде [Текст]. - М.: Просвещение, 2012. - 56 с. - ISBN: 978-5-09-024975-1.
6. http://www.ict.edu.az/az/tehsil-sisteminde-ikt-infrastrukturunun-inkisaf-etdirilmesi.html
7. eco.gov.az/.../Ibrahimov%20Ali%20Zulfuqar%20oglu-Hefte%20Ichi-qa.
8. http://www.paritet.az/olke/2769.html
9. http://www.muallim.edu.az/arxiv/2010/44/25.htm


**С.А. Халафова**

## ЗНАЧЕНИЕ ИНФОРМАЦИОННО-КОММУНИКАЦИОННЫХ ТЕХНОЛОГИЙ В ИНФОРМАТИЗАЦИИ СИСТЕМЫ ОБРАЗОВАНИЯ


**РЕЗЮМЕ**

В статье рассказывается о государственной программе, принятых решениях, распоряжениях и государственных программах в связи с применением информационно-коммуникационных технологий в различных сферах деятельности, и в особенности, в системе образования, также были затронуты информатизация и компьютеризация системы образования, осуществление различных ИКТ проектов стратегического значения, создание сетевой инфраструктуры образования и др. вопросы


**S.A. Xalafova**

## SIGNIFICANCE OF INFORMATION AND COMMUNICATION TECHNOLOGIES IN INFROMATIZATION OF EDUCATION SYSTEM

**SUMMARY**

The article includes ICT's various spheres in our republic, especially state policy on its application in education system, passed decision, information about order and state programs, informatization and computerization of education system, implementation of various strategic ICT projects, building of education network infrastructure and other issues.

**Sənubər MUSTAFAYEVA**
***"Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının baş müəllimi***

**Ulduz MANAFOVA**
***"Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının baş laborantı***

# SƏHİYYƏ VƏ TİBB ELMLƏRİNƏ DAİR ƏDƏBİYYATIN SİSTEMLƏŞDİRİLMƏSİ

***Açar sözlər:*** *səhiyyə, tibb elmləri, səhiyyəyə dair ədəbiyyatın sistemləşdirilməsi, tibbə dair ədəbiyyatın sistemləşdirilməsi, KBT və tibb elmləri*

***Ключевые слова:*** *здравохранение и медицина, систематицизация литературы по здравохранению, систематицизация литературы по медицине, ББК и медицинские науки*

***Keywords:*** *health and medicine, ordering literature on health, systematics literature on medicine, LBC and medical sciences*

İnformasiya cəmiyyəti – cəmiyyətin hər bir üzvünün, informasiya tələbatını təmin etməkdən ibarətdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Cenevrədə keçirilən informasiya cəmiyyətinin problemlərinə həsr olunmuş Ümumdünya sammitindəki çaxışında demişdir: "Biz bu gün yeni informasiya cəmiyyəti haqqında söhbət edirik... Gənc nəsl informasiya

cəmiyyəti yaradan nəsildir. Bizim ölkədə həm elmi potensial mövcuddur, həm də texnoloji nailiyyətlər imkan verir ki, Azərbaycan bu yöndən reqionda aparıcı ölkə olsun.” Hər bir əsr özünəməxsus inkişaf  prosesi ilə, böyük elmi və mədəni hadisələrlə xarakterizə olunur. Dünya alimləri keçən əsrin ikinci yarısından başlayaraq XX əsri “atom əsri”,”elmi-texniki tərəqqi əsri”, “informasiya partlayışı əsri” adlandırmağa başladılar. XXI əsr isə “informasiya əsri” hesab olunur. Bunun əsas səbəbi informasiyanın cəmiyyətin əsas aparıcı qüvvələrindən birinə çevrilməsi, sənayenin cəmiyyətin informasiya cəmiyyətinə sürətlə keçidlə əlaqədar idi. (7,s.227)

Müasir dövrdə elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi cap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən kitabxanalar əhalinin bütün təbəqələrinə informasiya xidməti qöstərən yeganə sosial institutdur. Əvvəllər kitabxanalar yalnız sənəd kütləsinin toplandığı yer kimi xarakterizə olunurdusa bu gün kitabxanalar ən müasir informasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə ənənəvi fəaliyyətinin keyfiyyətini yüksəldir, internet informasiya resursları, elektron kataloq yaradır, onlayn rejimində oxucularla əlaqə qurur. Kitabxanalarda müxtəlif elm sahələrinə dair nəşrlər toplanaraq oxucuların istifadəsinə verilir ki, bu sənədlər içərisində səhiyyə və tibb elmlərinə dair ədəbiyyatın xüsusi yeri vardır.

Səhiyyə - hər hansı ictimai quruluşda əhalinin sağlamlığının mühafizəsi və yaxşılaşdırılması üçün dövlət, sosial, iqtisadi, tibbi və s. kompleks rədbirlərin aparılmasında xüsusi rola malikdir. Səhiyyənin xarakteri hər şeydən əvvəl cəmiyyətin sosial və dövlət quruluşundan asılıdır. Səhiyyənin təşkili dövlət tərəfindən sosial-iqtisadi, tibbi və ictimai tədbirlərin aparılmasından ibarət olub, xəstəliklərin profilaktika və müalicəsi, sağlam əmək şəraitinin yaradılması, yüksək əmək qabiliyyətinin saxlanılması və insanın üzün ömür sürməsinə yönəldilmişdir.  (3,s.410)

Tibb – elmi və praktik fəaliyyətin bir istiqaməti olaraq xəstə və sağlam insanlarıın orqanizmində gedən prosesləri öyrənir, onların sağlamlığını qoruyur, xəstəliklərin müalicə üsullarını işləyib hazırlayır.

Tibb insanın elmi və praktik fəaliyyətlərində mühüm yer tutur. Tibbin vəziyyəti cəmiyyətin inkişaf dərəcəsindən, təbiət və texnika elmlərinin nailiyyətlərindən, ümumi mədəni səviyyədən asılıdır. Tibbin tibbi-bioloji, klinik, tibbi-sosial və gigiyena bölmələri məlumdur. Tibbin tarixi qədimdir. Alimlərin fikrinə görə tibb insan cəmiyyəti ilə yaşıddır. Xəstəliklərə, onların müalicəsi haqqında məlumatlara uzaq keçmişdən təsadüf edilir. Tapılmış insan skeletlərindən məlum olmuşdur ki, onlar raxit, diş kariyesi, sınıqlar və s. xəstəliklərə duçar olmuşlar. Həmin dövrlərdə xəstələri ara həkimləri müalicə edirdilər. Bu müalicə bitkilərlə, digər təbii vasitələr və maddələrlə aparılırdı. Sonralar tibb sahəsi inkişaf etməyə başladı. Tibbin inkişafı Hippokrat, Qalen, İbn-Sina və digərlərinin adı ilə bağlıdır. XX əsrdə təbiət və texnika elmlərinin inkişafı ilə əlaqədar tibb elmi də ihkişaf etməyə başladı. Rentgen şüalarının

kəşf edilməsi rentgen diaqnostikasının əsasını qoymuşdur. Aviasiyanın inkişafı tibbi aviasiyanın, genetikanın inkişafı tibbi genetikanın, gibernetikanın inkişafı tibbi gebernetikanın inkişafına səbəb oldu. (4,s.271)

Tibbi genetika – irsi amillərin insan potologiyasında rolunu öyrənir. İrsi xəstəliklərin etiologiyasını, onların diaqnostika, müalicə və profilaktikasını öyrənən klinik genetika tibbi genetikanın əsasını təşkil edir.

Tibbi genetikaya 2000-dək irsi xəstəlik məlumdur ki, bunlardan da 1000-ə qədəri maddələr mübadiləsinin irsi pozğunluqları ilə əlaqədar olan xəstəliklərdir. İrsi xəstəliklərin biokimyəvi və molekulyar-genetuk mahiyyətinin aşkara çıxarılması, onların erkən diaqnostikasına və patogen müalicəsinə imkam yaratmışdır.

Tibbi gibernetika-tibdə və səhiyyə sistemində idarəetmə prosesləri ilə əlaqədar olan problemləri öyrənir. Tibbi və digər informasiya, informasiyanın yığılması, işlənməsi sistemləri, insan orqanizmində və səhiyyə sistemində olan rabitə və idarəetmə sistemləri tibbi gibernetikanın tədqiqat obyektidir. Tibbi gibernetika tibb və səhiyyə sistemində toplanmış biliklərə, gibernetik üsul və texniki vasitələrə isnad edir.

Tibbi gibernetikanın əsas vəzifəsi müxtəlif fizioloji sistemlərə və bütövlükdə orqanizmə müalicə məqsədi ilə təsir göstərmək, təbii orqanları az və ya çox müddətdə süni orqanlarla əvəz etmək, idarə olunan üsulları hazırlamaqdır. Tibbi gibernetikanın inkişafında əsas istiqamətlər: normal və patoloji şəraitdə orqanizmdə baş verən proseslırin modernləşdirilməsi və idarə olunması problemləri; xəstəliklərin diaqnostikasında yeni avtomatlaşdırılmış, kompüterləşdirilmiş sistemlərdən istifadə olunmasıdır.

Respublika Mərkəzləşdirilmiş Kitabxana Sistemlərində digər cap əsərləri kimi tibbə dair ədəbiyyat da Kitabxana Biblioqrafiya Təsnifatının (KBT) kütləvi kitabxanalar variantl üzrə sistemləşdirilir. Məlumdur ki, KBT-nin kütləvi kitabxanalar variantının ilk nəşri 1 cilddən ibarət 1977-ci ildə çap edilmişdir (9,s.10). 9 şöbədən ibarət olan KBT-nin kütləvi kitabxanalar üçün tərtid edilmiş variantının 5-ci şöbəsi “Səhiyyə. Tibb elmləri” adlandırılır.

Kitabxana Biblioqrafiya təsnifatının tibb şöbəsinə diqqət yetirdikdə məlum olur ki, sağlam insanın həyatından bəhs edən ədəbiyyat, insan orqanizminin inkişafı və funksiyalarından bəhs edən ədəbiyyat biologiya şöbəsinin 28.8 və 28.9 bölmələrində yerləşdirilir. İnsanların fizioloji xüsusiyyətlərindən bəhs edən, qadın orqanizminin fizioloji xüsusiyyətlərindən bəhs edən ədəbiyyat isə istisna edilərək 51.7 və 57.3 bölmələrində yerləşdirilir.

Texnika şöbəsi ilə tibb şöbəsinin bölmələrinə diqqət yetirdikdə məlum olur ki, tibbi avadanlıqların istehsalına dair, tibbi cihazların istehsalına dair, protezlərin hazırlnmasına dair ədəbiyyat texnika şöbəsində, onların tətbiqinə dair, istifadə edilməsinə dair ədəbiyyat isə tibb şöbəsində əks etdirilir.

Tibb şöbəsi ilə ictimai elmlər şöbəsinə diqqət yetirdikdə aydın olur ki, ayrı-ayrı istehsalatlarda, idarələrdə, nəqliyyatda əməyin qiqiyenasına dair ədəbiyyyat 51.24 tibb şöbəsinin yarımbölməsində, xalq təsərrüfatının müxtəlif

sahələrində ümumiyyətlə əməyin mühafizəsinə dair ədəbiyyat isə iqtisadiyyat şöbəsinə aid edilir. Səhiyyənin planlaşdırılması, maliyyələşdirilməsi və digər iqtisadi problemlərə dair ədəbiyyat bütünlükdə 51.1(2) yarımbölməsində əks etdirilir. (6,s.490)

Tibbi məhkəməyə aid olan bütün ədəbiyyatlar “58 Tibbin tətbiqi sahəsi” bölməsində yerləşdirilir. Hərbi tibbə aid ümumi xarakterli ədəbiyyat (məsələn, hərbi cərrahlıq, Hərbi travmotologiya) bütünlükdə 5-ci şöbədə və onun yarımbölmələrində yerləşdirilir. 68-ci şöbədə isə ordu və donanmada hərbi-tibbi xidmətin təşkili haqqında, silahlı qüvvələrin tibbi təminatı haqqında, həmçinin bütün hərbi ganunların sanitar-gigiyenik tələbləri haqqında olan nəşrlər əks etdirilir.

Uşaqların və yeniyetmələrin sağlamlığından, fiziki inkişafından bəhs edən ədəbiyyat 5-ci şöbədə, uşaq və yeniyetmələrin fiziki tərbiyəsindən bəhs edən nəşrlər isə 74-cü bölmədə yerləşdirilir.

Müalicəvi idman, müalicəvi gimnastikaya dair ədəbiyyat bütünlükdə 5 –ci şöbədə, bədən tərbiyəsi və idmana dair yerdə qalan bütün ədəbiyyatlar isə 75-ci bölmədə yerləşdirilir.

Tibbin əsas sahələrindən birini “Gigiyena” bölməsi təşkil edir. Gigiyena – sağlamlıq haqqında elm- tibb elminin bir sahəsi olaraq xarici mühit amillərinin insanın sağlamlığına, əmək qabilyyətinə, habelə ömrünün uzadılmasına təsirini öyrənir. Gigiyena bütün tibb elmləri ilə, həmçinin biologiya, fizika, kimya, iqlimşünaslıq elmləri ilə əlaqədardır. Gigiyena yaşayış yerlərinin, iş və istirahət şəraitinin sağlamlaşdırılmasını sanitariya cəhətdən əsaslandırır, uşaq və yeniyetmələrin sağlamlığının mühafizəsini, sanitariya qanunvericiliyi, ərzaq məhsulları və məişət əşyalarının keyfiyyətinin sanitariya ekspertizası üsullarını hazırlayır. Gigiyenanın hazırladığı elmi müddəaları həyata keçirən sahə sanitariya adlanır.

Gigiyena ən qədim elmlərdən biridir. E.əv. Misirdə, hindistanda, Çində gigiyena praktik qaydalar sistemindən ibarət idi. Antik dövrdə qədim Yunanıstanda gigiyena bədəni mörkəmlətmək və gözəlləşdirmək istiqamətində inkişaf edirdi. Gigiyena əmək gigiyenası, kommunal gigiyena, qidalanma gigiyenası, uşaq və yeniyetmələr gigiyenası və s. sahələrdən ibarətdir. (2,s.90)

Təsnifat cədvəlinin “51.2 Gigiyena” bölməsində xarici aləmin insanın sağlamlığna təsirindən bəhs edən ədəbiyytlar toplanır. “51.23 Qida gigiyenasi” adlı yarımbölməsi qidalanmanın fizioloji əsaslarına dair, ərzaq məhsullarının hazırlanmasına dair, ayrı-ayrı ərzaq məhsullarının gigiyenasına dair ədəbiyyat üçün nəzərdə tutulmuşdur. Lakin 5-ci şöbəyə dair ədəbiyyatın təsnifləşdirilməsində nəzərə almaq lazımdır ki, süd və süd məhsullarına sanitar həzarətin təşkilindən bərs edən ədəbiyyat “48 Baytarlıq” şöbəsində əks etdiriləcəkdir. ( 6,492)

“51.24 Əməyim gigiyenası” bölməsində istehsalat mühitinin insanın fəaliyytinə təsirindən bəhs edən ədəbiyyat, təhlükəsizlik texnikasını təmin

etmək məqsədilə gigiyenik tələblərə əməl edilməsinə dair ədəbyyat əks etdirilir.

“51.26 Radiasiya gigiyenası” yarımbölməsi gigiyena bölməsinin yeni sahələrindən biridir. Şöbənin əsas məzmunu istehsalat şəraitində və yaşayış yerlərində əhalinin şüalanmasından qorunmaq məsələləri təşkil edir. Radioaktiv maddələrlə zəhərlənmədən bəhs edən ədəbiyyat isə 52.84 indeksi altında yerləşdirilir. İnsan orqanizminə şüaların təsirindən bəhs edən ədəbiyyatlar isə 28.9 bölməsində özünə yer tapır.

Radiasiya şüalarının müəyyənləşdirilməsində, müxtılif xəstəliklərin müalicəsində süaların tətbiq edilməsindən bəhs edən nəşrlər isə 53.6 yarımbölməsində yerləşdirilir.

Uşaq və yeniyetmələrin qida və gigiyenasına dair ədəbiyyat 51.28 bölməsində, körpələrin gigiyenasından bəhs edən ədəbiyyat isə 57.32 yarımbölməsində əks etdirilir.

“51.9 Epidemiologiya” bölməsi müxtəlif epidemiyaların yaranması, yayılması və inkişafı, onlarla mübarizə metodlarının tətbiq edilməsinə dair ədəbiyyat üçün nəzərdə tutulmuşdur.

Tibbin əsas sahələrindən birini farmakologiya və toksikologiya təşkil edir. Farmakologiya- dərman maddələri və onların orqanizmə gətirdiyi təsir haqqında tibbi, bioloji elm; geniş mənada fizioloji aktiv maddələr haqqında elmdir. Müasir farmakologiyanın bir sıra istiqamətlləri məlumdur. Farmadinamika- dərmanların orqanizmə təsiri, farmakoginetika – dərmanların orqanizmə paylanmasını, sorulmasını öyrənir. Farmakologiya müasir əczaçılıq kimyası, farmakoqnoziya, biologiya, biokimya, fiziologiya, terapiya və s. elmlərlə sıx əlaqədardır.

Toksikologiya-tibbin bir bölməsi, zərərli madələrin tərkibini, onların heyvan orqanizminə təsir mexanizmini, yaratdığı patoloji prosesləri (zəhərlənmə), müalicə və profilaktika üsullarını öyrənir. Toksikologiya fənn kimi müxtəlif mənşəli zəhərlərin (kimyəvi birləşmələrin, pestisidlərin, radioaktiv maddələrin, qeyri-üzvi, bitki və heyvan mənşəli bakterial toksidlərin və.) öyrənilməsi ilə məşğuldur. (4, s.305)

52.8 yarımbölməsi formakologiya, toksikologiya dair nəşrlər üçün, həmçinin dərman və dərman bitkilərinin müalicəvi əhəmiyyətindən bəhs edən ədəbiyyat üçün də nəzərdə tutulmuşdur. Lakin kənd təsərrüfatında dərman bitkilərinin yetişdirilməsinə dair ədəbiyyat 42.14 indeksi altında, zavodda dərmanların hazırlanmasına dair ədəbiyyat isə texnika şöbəsinin 35.66 indeksi altında yerləşdirilir.

“53/57 tibb klinikası bölməsi 2 hissədən ibarətdir. “53 Ümumiyyətlə tibb klinikası” bölməsində xəstələrin müalıcəsində tətbiq edilən ümumi metodlardan, ümumi müalicə üsullarından və s. məsələlərdən bəhs olunur. Ayrı-ayrı xəstıliklərin diaqnostikası və müalicəsinə dair olan ədəbiyyat isə 52.81 yarınbölməsində yerləşdirilir.

53/57 bölməsinin 2-ci hissəsində isə müxtəlif funksiya sistemlərinin xəstəliklərinən bəhs edən ədəbiyyat əks etdirilir.(6, s.493)

Qeyd etmək lazımdır ki, kardiologiya və anqiologiya, kliniki limfologiya kimi yeni anlayışlar “5 Səhiyyə.Tibb elmləri” bölməsini müasirləşdirmişdir.

Fovqəladə vəziyyətlərdə və ümumiyyətlə tibbi fəlakətlərdə ekstrimal tibbi xidmətin yeri müəyyənləşdirilmişdir. Təsnifat cədvəlində “51.200.0 Sağlam insanın həyat tərzi”, ”52 .63 Tibbi virusologiya”, “53.384 Refleksoterapiya” kimi bölmələr yaradılmışdır. Bundan əlavə “52.5 Ümumi potologiya” bölməsi müəyyənləşdirilmişdir. Belə ki, revmotologiya tibbi klinika bölməsinə keçirilmiş və 55.5 indeksi ilə müəyyənləşdirilmişdir.

Beləliklə demək olar ki, kütləvi kitabxanalar üçün nəzərdə tutulmuş təsnifat cədvəlində səhiyyə, tibb elminin bütün sahələri nəzərə alınmış və sistemləşdirmədə prosesində bü bölmələrdən bacarıqla istifadə edilir.

## ƏDƏBİYYAT

1.Azərbaycan kitabxanaları XXI əsrin imformasiya məkanında: C I-II.- B.:Nurlar,2007.- 820 c.

2.Azərbaycan Sovet Ensiklopediyası: 10 c-də: C.6: Kuba-Misir.- B.,1982.- 410 s.

3. Azərbaycan Sovet Ensiklopediyası: 10 c-də: C.8: Prado-Sprint.- B.,1984.- 570s.

4.Azərbaycan Sovet Ensiklopediyası: 10 c-də: C.9: Putnik-Fronton.- B.,1986.- 610 s.

5.Библиотечно-библиографическая классификация:Средние таблицы: Практическое пособие / Рос.Гос.б-ка, Б-ка Рос.акад.наук.- М.: Изд-во Либерея, 2001.- Вып.1.С/Т- Социальные науки в целом. (Обществознание). История и исторические науки.- 320 с.

6. Библиотечно-библиографическая классификация:Рабочие таблицы для массовых библиотек.-М, 1986.-539с.

7. Xələfov A.A. Kitabxana və cəmiyyət: (Monoqrafiaya).- B.:Azərnəşr,2011.-348 c.

8.İsmayılov X.İ. Kitabxana-informasiya texnologiyaları: (Dərs vəsaiti).-B.: Nurlar, 2009.- 312 s.

9.Mustafayeva S.M. Kitabxana-biblioqrafiya təsnifatı: Yeniliklər və dəyişikliklər // Kitabxanaşünaslıq və biblioqrafiya.-2009.-N2.-S.9-14.

**С.М.Мустафаева,**

**U.İManafova**

## СИСТЕМАТИЦИЗАЦИЯ ЛИТЕРАТУРЫ ПО ЗДРАВОХРАНЕНИЮ И МЕДИЦИНЕ

**Р Е З Ю М Е**

В данной статье рассказывается о систематизации литературы по медицине и здравохранению. В статье освещены вопросы классификации на основе классификационных таблиц ББК для массовых библиотек.

**S.M.Mustafayeva,**
**U.İ.Manaova**

**SYSTEMATIZATION OF THE LITERATURE ON HEALTH AND MEDICINE**

**SUMMARY**

This article describes the ordering of the literature on Medicine and Public Health. The article deals with the classification based on the classification tables LBC for public libraries.

**Aşur ƏLİYEV**
***Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru***

# BAKI DÖVLƏT UNİVERSİTETİNİN ELMİ KİTABXANASININ TƏDRİSƏDƏBİYYATI FONDUNUN KOMPLEKTLƏŞDİRİLMƏSİNİN KOMPÜTERLƏŞDİRİLMƏSİ PROBLEMLƏRİ

***Açar sözlər:*** BDU, elmi kitabxana, tədris ədəbiyyatı fondunun kompüterləşməsi, komplektləşdirmə

***Ключевые слова:****БГУ, научная библиотека, учебная литература по компьютеризации фонда, приобретение*

***Key words****: BSU, scientific library, educational literature on the computerization of the fund purchase*

Məqalədə BDU-nun Elmi Kitabxanasının Tədris ədəbiyyatı fondunun komplektləşdirilməsi məsələləri şərh olunmuşdur. Komplektləşdirilmə problemləri sahəsində əldə edilən nailiyyətlər, iş təcrübəsi, onların müsbət və

nöqsanlı cəhətləri təhlil edilmişdir, qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir.

Azərbaycan Respublikası XXI əsrə yüksək elmi-texniki potensiala, mədəni mənəvi dəyərlərə,sürətlə inkişaf edən iqtisadiyyata malik demokratik və hüquqi dövlət kimi formalaşan bir olkə kimi daxil olmuşdur.

Bu gun özünün inkişaf dövrünü yaşayan Azərbaycan Respublikasında prezident İlham Əliyevin rəhbərliyi və bilavasitə iştirakı ilə həyata keçirilən çoxsahəli islahatlar kursu, iqtisadiyyatın kompleks şəkildə inkişafını nəzərdə tutan dövlət proqramlarının icrası ölkəmizin müasir dövrün tələblərinə uyğun bir şəkildə yeni sosial-iqtisadi inkişaf yoluna qədəm qoyduğunu göstərir.

Azərbaycanın sosial-iqtisadi inkişafının yeni mərhələsi informasiya-kommunikasiya texnologiyalarının ölkəmizi inkişaf etdirən mühüm prioritetlərdən biri kimi önə çıxması ilə səciyyəvidir.Ona görə də dövlət başçısı cəmiyyətin informasiyalaşdırılmasının gələcək inkişaf perspektivlərinin informasiya-kommunikasiya texnologiyaları ilə bilavasitə bağlı oldugunu dəfələrlə vurğulamışdır.

1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası (1,s.40) cəmiyyətdə insan amilinin inkişafı vətəndaşları məlumatlandırmaq, onu yaymaq və istifadə etmək, eləcə də mədəni təsisatlardan və mədəni sərvətlərdən istifadə etmək hüquqlarını təmin etmişdir.Bu isəölkədə baş verən sosial, iqtisadi elmi mədəni təhsil və tərbiyə proseslərinin,cəmiyyətin butun sferalarının informasiya təminatı problemini aktuallaşdırır.

Azərbaycan prezidenti İlham Əliyevin 20 aprel 2007-ci ildə imzaladıgı ,,Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında, sərəncamında göstərilir ki, ,,Azərbaycan kitabxanaları Azərbaycan xalqının Milli sərvətidir. Xalqımızın yaratdıgı qiymətli tarixi-mədəni,ədəbi-bədii və elmi-fəlsəfi irsin toplanıb saxlanılmasında, bəşər mədəniyyətinin qazandığı nailiyyətlərin nəsildən-nəslə çatdırılmasında və cəmiyyətimizin intellektual-mədəni potensialının artırılmasında kitabxanalar əvəzsiz rol oynayır.(2)

Müasir dövrdə kitabxana işi cəmiyyətin informasiyalaşdırılmasının mühüm atributlarından biri kimi getdikcə mürəkkəbləşən, müasir texnologiyalara əsaslanmaqla yeniləşən fəaliyyət sahəsi kimi formalaşmaqdadır.

Ümummilli liderimiz Heydər Əliyevin qeyd etdiyi kimi, ,,Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daim hörmət xalqımızın mədəniyyətini numayiş etdirən amillərdən biridir,,. (8,s.18)

Bu gün biz qürur hissilə deyə bilərik ki, XX əsrdə Azərbaycan mədəniyyətinin ən böyük uğurlarindan biri Elmi Kitabxanalar şəbəkəsinin aparıcı muəssisəsi olan BDU-nun Elmi kitabxanalarinin yaranıb təşəkkül tapması olmuşdur.

,,Kitabxana işi haqqında, Azərbaycan Respublikasının Qanununda göstərildiyi kimi, ,,Dövət və qeyri-dövlət nəşriyyatları, nəşriyyat fəaliyyəti ilə

məşğul olan poliqrafiya müəssisələri və digər hüquqi şəxslər tərəfindən buraxılan çap məhsullarından kiabxanalara və Bakı Dövlət Universiteti Elmi kitabxanasina profilinə uyğun olaraq iki pulsuz məcburi nüsxə göndərməlidirlər,, (9,s.15)

Bakı Dövlət Universiteti təşkil edilərkən onun iki fakultəsi tibb və tarix-filologiya fakultəsi var idi.Yeni təsis edilmiş universitetin professor-müəllim heyəti 44 nəfərdən -12 professor, 3 dosent və 29 müəllimdən ibarət olmuşdur.

Son onillikdə 80-dən artıq elmin müxtəlif sahələrinə dair elmi-tədqiqat işləri yerinə yetirilib. Universitetdə 2 elmi-tədqiqat institutu, 20-dən çox elmi-tədqiqat laboratoriyası, elmi kitabxana və digər qurumlar fəaliyyət gostərir.

XXI əsrin başlanğıcında yeni informasiya texnologiyalarının təsiri getdikcə daha sürətlə insan fəaliyyətinin bütün sahələrində əsas müəyyən edici amilə çevrilməkdədir.Qlobal informasiya şəbəkələrinin və sistemlərinin formalaşması yeni texniki və iqtisadi imkanlar açır ki,bunun da nəticəsində bəşəriyyətin resusrlarını birləşdirmək,dünyanın istənilən nöqtəində yaşayan insanların həmin resurslardan istifadəsini təmin etmək mümkün olur.Başqa sözlə vahid informasiya məkanı yaradır.Son on il ərzində ölkəmizdə gedən informasiyalaşdırma,kompleksləşdirmə prosesləri və telekommunikasiyalarının inkişafı informasiylaşmış cəmiyyətə keçidin eləcə də,respublikamızın dünya informasiyalı cəmiyyətlərini və şərtlərini yaratmağa imkan verməkdədir. Onların başlıcaları isə aşağıdakılardır:

İnformasiya sosial-iqtisadi texnoloji və mədəniinkişafın başlıca resursuna çevrilir, onun istifadə miqyası ənənəvi resurslarla müqayisə olunmaqdadır. Bununla əlaqədar dünya alimləri tez-tez belə bir anlayışdan-infosfera anlayışından istifadə edirlər.

İnfosfera – cəmiyyətin qlobal kommunikasiya şəbəkələrinin intellektual komputer sistemlərinin birləşməsi nəticəsində yaranan yeni universal intellektual informasiya mühiti və məkanıdır. [ 8, s. 26 ]

Sonuncu informasiya inqilabı yeni sahənin informasiya sənayesinin inkişafını ön plana çəkir. İnformasiyalaşdırma cəmiyyətin industrial inkişaf mərhələsindən informasiya mərhələsinə keçməsini təmin edir.

Kitabxanaların kompüterləşməsi bəzi şəxslərin hesab etdiyi kimi kitabxanaların komputer texnikası ilə təchiz olunması və bu qiymətli avadanlıqlardan yalnız kargüzarlıq fəaliyyətində və internet xidmətindən istifadə etmək üçün istifadə olunması deyil.

Kitabxanaların kompüterləşməsi kitabxanaların avtomatlaşdırılmasının tərkib hissəsi olub, kitabxanalarda yerinə yetirilən mürəkkəb, bir-birinə əlaqəli texnoloji proseslərinin formasiya-telekommunikasiya texnologiyaları əsasında avtomatlaşdırılmışdır.Kompüterin formasiya texnologiyalarının sürətli inkişafı kitabxanaların məlumat-axtarış sistemlərinin kompüterləşdirilməsinin kəmiyyət v ə keyfiyyət səviyyəsinin yüksəlməsini təmin edir.

Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının kitab işləmə və kataloqlaşdırma şöbəsi öz ənənələrinə sadiq qalaraq elektron kataloq anylanaşı, ənənəvi, əlifba, sistemli, mövzu kataloqlarından və müxtəlif biblioqrafik kartotekalardan genişistifadə edərək buillərdə alınmış yeni sənədləri elmivətexniki cəhətdən işləyərək kataloqlarda əks etdirmiş və oxucuların istifadəsinə vermişdir.

Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının kitab işləmə və kataloqlaşdırma şöbəsinin 2002-2008-ci illərdə yeni daxil olan sənədlərin elmi işlənməsi və MAS-lara daxil edilməsi sahəsində gördükləri işləri cədvəllərdə göstərilən rəqəmləri nəzərdən keçirək.

**Cədvəl 1.**

| İllər | Kitabxananın fondu | Oxucuların ümumi sayı | Kitabxanaya ümumi oxucu gəlişinin miqdarı | Sənəd verilişinin miqdarı |
|---|---|---|---|---|
| 1999 | 1999060 | 14953 | 697558 | 1540159 |
| 2000 | 2003515 | 15756 | 747333 | 1650060 |
| 2001 | 20010227 | 14519 | 860996 | 1685281 |
| 2002 | 2016901 | 15478 | 850975 | 1601860 |
| 2003 | 2025988 | 14207 | 811859 | 1512490 |
| 2004 | 2033986 | 14886 | 821538 | 16115228 |
| 2005 | 2041505 | 15062 | 928611 | 1612288 |
| 2006 | 2045551 | 15242 | 946785 | 1631314 |
| 2007 | 2.458891 | 64.326 | 926785 | 1687686 |

**Elektron kataloqa salınmış çap əsərlərinin illər üzrə qeydiyyatı**

**Cədvəl 2.**

| İllər | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 |
|---|---|---|---|---|---|---|---|---|
| | 5623 | 7049 | 24470 | 23062 | 24865 | 26370 | 22065 | |

**Cədvəl 3.**

| İllər | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 |
|---|---|---|---|---|---|---|---|---|
| Kataloq əsasında yoxlanılmış və yeni alınmış ədəbiyyatın sayı | 3664 | 2551 | 2991 | 3019 | 3050 | 3060 | 7619 | 5278 |
| | 1755 | 1475 | 1784 | 2281 | 2300 | 3529 | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **a)Azərbaycan dilində** | | | | | | | | |
| **b) Rus dilində** | **1669** | **1076** | **1207** | **738** | **740** | **1531** | | |
| **Təkrar keçmiş ədəbiyyatın sayı** | **1667** | **362** | **847** | **1017** | **900** | **1205** | **234** | **305** |
| **Təsvir olunmuş kitabların sayı** | **849** | **741** | **912** | **838** | **800** | **2000** | **796** | **1489** |
| **Tərtib olunmuş koməkçi kartoçkaların sayı a)Sistemli b)əlifba** | **876 382** | **971 383** | **904 423** | **744 221** | **750 230** | **2005 508** | **883 284** | **1503 570** |
| **Nadir fondun kartoçkaları** | **1862** | **-** | | | | | | |
| **Texniki cəhətdən işlənmiş kitabların saı a)Kitablara şifrə yazılması b) kartoçkalara şifrə** | **1379 1641** | **1386 1568** | **1754 2057** | **1659 1877** | **1400 1600** | **2508 3175** | **5842 1727** | **4305 2800** |

Elmi kitabxanın komplektləşdirmə kitab işləmə və kataloqlaşdırma şöbəsi 2004-cü ildə 3019 kitab işləmişdir. Bunlardan 2228-i Azərbaycan dilində, 783-ü rus dilində olmuşdur. İlk dəfə keçən kitabların sayı 669 ədəd olmuşdur. Əlifba kataloquna 1065 kartoçka düzülmüşdür, 954 adda kitab elektron kataloqa salınmışdır.

Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının kitabişləmə və kataloqlaşdırma şöbəsi 7619 kitab işləmişdi ki, bunlardan 2220-si azərbaycan dilində, 399-u rus dilində olmuşdur. İlk dəfə keçən kitabların sayı 796 nüsxə olmuşdur. Əlifba kataloquna 980 kartoçka düzülmüşdür, 2078 adda kitab elektron kataloqa salınmışdır. 2008-ci ildə isə 5317 kitab işlənmiş, 24 disk alınmışdır, Bunlardan 3335-i azərbaycan dilində, 1967-si rus dilində, ilk dəfə keçən kitabların sayı 1552 nüsxə olmuşdur. Əlifba kataloquna 2005 kartoçka düzülmüşdür. 4185 adda kitab elektron kataloqa salınmışdır. Beləliklə BDU-nun Elmi Kitabxananın kitabişləmə və kataloqlaşdırma şöbəsinin

əməkdaşlarının apardığı işlər nəticəsində kitabxananın informasiya sisteminin təkmilləşdirilməsi sahəsində xeyli işlər görmüşdür. [3]

Elektron kitabxana istifadə üçün açıq olan lokal və uzaq məsafədə yerləşən paylanmış informasiya ehtiyatlarına malik olur. Elektron kitabxanaların informasiya ehtiyatları rəqəmli formada hazırlanmış müxtəlif formatlı sənədlərdən ibarətdir. Elektron kataloqun ədəbiyyat fondu hazırda ənənəvi kataloqlardan daha dolğun biblioqrafik məlumata malik olduğundan, oxucuya çoxelementli və çoxsəviyyəli axtarış imkanları təşkil edir. Bunun nəticəsində ədəbiyyatın oxucuya çatmaq ehtimalı xeyli artır. Kitabxana - informasiya Sistemində xüsusi avtmatlaşdırılmış işçi yeri nəzərdə tutulmuşdur. İRBİS Avtomatlaşmış Kitabxana-İnformasiya Sistemində lokal şəbəkə vasitəsilə elektron kataloqda ədəbiyyat axtarmaq və kitabxanada sərbəst nüsxəsi olan ədəbiyyatı sifariş vermək üçün "Oxucu Avtomatlaşmış İşçi yeri, İnternet Beynəlxalq kompüter-informasiya şəbəkəsi vasitəsilə uzaq məsafədən online ədəbiyyat axtarışı üçün Web-İRBİS kodunu nəzərdə tutmuşdur.

Bu mənada Bakı Dövlət Universiteti Elmi Kitabxanası Sərəncamda irəli gələn məsələlərin həllində qüvvələrini səfərbər edərək, bu istiqamətdə səylərini əsirgəməməlidirlər.

## ƏDƏBİYYAT

1.Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında: Azərbaycan Respublikası Prezidentinin sərəncamı//Azərbaycan -2007. 21 aprel

2. Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının hesabatları

3. Xələfov A.A. Bakı Dövlət Universitetinin Elmi Kitabxanası 90 il elm və təhsilin xidmətində: Monoqrafiya-B: Bakı Dövlət Universiteti nəşriyyatı, 2009-210 s.

4. Xələfov A.A. "İnformasiya bcəmiyyəti və kitabxanaların vəzifələri" Mövzusunda ümumrespublika elmi-praktiki seminar//Kitabşünaslıq və vivlioqrafiya.-B.,2005-№5-i 8-17

5.Xələfov A.A. Qurbanov A.İ.: Kitabxanaların kompütürləşdirilməsinin əsasları: Dərslik.-B.: Bakı Universiteti nəşriyyatı, 2007-200 s.

6. İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında: Azərbaycan Respublikası Milli Məclisinin Qanunu//Azərbaycan Respublikası Qanunvericilik Toplusu, 1998-№6-1214-1222

7. İsmayılov X.İ. Kitabxana və informasiya texnologiyaları: Dərs vəsaiti.-B.: Nurlan Nəşriyyatı Poliqrafiya Mərkəzi, 2009-312 s.

8. Kitabxanaların kompüterləşdirilməsi "Elmi Tədqiqat laboratoriyası"nın 1999-2009-cu illər üzrə hesabatları

9. Mustafayeva S. MARC firmasının yaranması və tətbiqi//kitabxanaşünaslıq və biblioqrafiya; elmi-nəzəri və təcrübi jurnal.-B:Bakı Universiteti nəşriyyatı, №1.s 75-81

10. Rüstəmov Ə., Mustafayeva N. Respublika kitabxanalarında əsas proseslərin avtomatlaşdırılması//Kitabxanaşünaslıq və biblioqrafiya.-2007. №2-s.15-27

**А.Алиев**

## КОМПЛЕКТОВАНИЕ УЧЕБНОЙ ЛИТЕРАТУРЫ В НАУЧНОЙ БИБЛИОТЕКЕ БГУ

**РЕЗЮМЕ**

В статье были проанализированы состояние комплектование учебной литературы в научной библиотеке БГУ. А также уделоно внимание состав структуры и степен охвата различных отраслей науки учебной литературы.

**A.Aliyev**

**ACQUISITION OF TEXTBOOKS IN THE SCIENTIFIC LIBRARY OF BSU**

**SUMMARY**

The article analyzed the status of acquisition of textbooks in the Scientific Library of BSU. And account the composition of the structure and step coverage of the different branches of science textbooks.

**Nadir İSMAYILOV**

***dosent, "Biblioqrafiyaşünaslıq" kafedrasının müdiri***

**Fidan NAZİM QIZI**

***"Biblioqrafiyaşünaslıq" kafedrasının magistrantı***

# AMEA-NIN İNFORMASİYA TEXNOLOGİYALARI İNSTİTUTUNUN ƏSAS FƏALİYYƏT İSTİQAMƏTLƏRİ VƏ İNFORMASİYA TƏMİNATI

***Açar sözlər:****əsas fəaliyyət istiqamətləri, informasiya təminatı, elmi-texniki informasiya,informasiya xidməti, informasiya kommunikasiya texnolologiyaları*

***Ключевыеслова****:основные направления деятельности, информационное обеспечение,научно-технической информация,информационная служба, информация коммуникация технологии*

***Keywords:****the main activities,information provision, scientific and technical information, information service,information communication technology*

AMEA-nın İnformasiya Texnologiyalari İnstitutunun əsasını Azərbaycan SSR Nazirlər Sovetinin 1971-ci il 4 iyun tarixli 121 saylı sərəncamı, Azərbaycan EA-nın Rəyasət Heyətinin 1971-ci il 18 iyun tarixli 26 saylı qərarı ilə xalq təsərrüfatında avtomatlaşdırılmış idarəetmə sistemlərinin yaradılması və tətbiqi məqsədilə Azərbaycan SSR EA-nın Kibernetika İnstitutunun nəzdində yaradılmış 1971-ci iyulun 16-dan ( layihə-konstruktor təşkilatı hüququnda) təsərrüfat hesabı eksperimental istehsalat ilə "Avtomatlaşdırılmış İdarətmə Sistemləri" (AİS) şöbəsi təşkil etmişdir. Şöbəyə 1971-1981-ci illərdə Ç.A.Ağalarov və Z.Ə. İsgəndərzadə rəhbərlik etmişlər.(1,s.82)

Xalq təsərrüfatı işlərinin sürətləndirilməsi və inkişafı üzrə tədbirlər haqqında Azərbaycan SSR Nazirlər Sovetinin 1982-ci il 18 mart tarixli 152 saylı qərarı ilə AİS şöbəsi respublikada AİS-lərin yaradılması və onların əlaqələndirilməsi üzrə EA-nın və Dövlət Plan Komitəsinin tabeliyində müstəqil baş təşkilata çevrilmişdir. Təşkilati işlərdə akad. İsmayıl İbrahimovun böyük əməyi olmuşdur.Həmin illərdə şöbəyə Yunis Mahmudov (1982-1988) və Rafiq Qasımov (1988-1991) rəhbərlik etmişlər. 1991-ci ildən şöbənin direktoru Əli Abbasov olmuşdur.

AİS şöbəsi yarandığı gündən etibarən respublikada texnoloji prosesləri idarə edən xüsüsi hesablama qurğularının yaradılması və tətbiqi ilə məşğul olmuşdur. Son zamanlar AİS şöbəsinin fəaliyyətinin əsas istiqamətləri müxtəlif təyinatlı informasiya-hesablama şəbəkələrinin, ekspert sistemlərinin, verilənlər bankının və paylanmış informasiya emalı sistemlərinin işlənməsi və tətbiqi üzrə elmi-tədqiqat, təcrübi-konstruktor və lahiyə işlərinin həyata keçirilməsindən ibarət olmuşdur.

AİS şöbəsində 200-ə yaxın əməkdaş çalışmış, onlardan 4-ü elmlər doktoru, 14 nəfəri isə elmlər namizədi olmuşdur.

1991-1994-cü illərdə AİS şöbəsinin ən böyük nailiyyətlərindən biri də respublikada ilk dəfə olaraq (1991-ci ildə) elektron poçt xidmətinin və İnternet Beynəlxalq kompüter şəbəkəsinin Azərbaycanda qovşaqların yaradılması və istifadəyə verilməsi olmuşdur.

Ümumilikdə bu illər ərzində AİS şöbəsində:

1) Respublikada ilk dəfə WAN – qlobal şəbəkədə texnologiyaları (X.25, SNA, DECNET, TCP/IP və s.) tədqiq olunmuş və real praktik nəticələr əldə olunmuşdur. İlk dəfə respublikada CM-4 tipli EHM-lər əsasında 3 qovşaqdan ibarət hesablama maşınları şəbəkəsi, Moskva-Bakı Tbilisi şəhərlər arasında X.25 şəbəkəsi yaradılmışdır və s ;

2) Respublikada ilk dəfə LAN-lokal şəbəkə texnologiyaları tədqiq olunmuş və müxtəlif qurumlarda tətbiq olunmuşdur;

3) Respublikada ilk dəfə veb-texnologiyası mənimsənilmiş və 1995-ci ildə AMEA-nın www.ab.az saytı yaradılmışdır.

AİS şöbəsinin o illərdə informasiya texnologiyaları və telekommunikasiya sahəsində apardığı tədqiqatların perspektivliyini nəzərə alaraq şöbə statusu saxlanılmaqla Azərbaycan EA-nın Reyasət Heyətinin 17 yanvar 1997-ci il tarixli 22/1 saylı qərarına uyğun olaraq Azərbaycan EA İnformasiya-Telekommunikasiya Elmi Mərkəzi (İTEM) adlandırıldı. Belə ki, informasiya texnologiyalarının müxtəlif sahələri olan kompüter şəbəkələrinin, ekspert sistemlərinin, informasiya təhlükəsizliyinin təmin olunması kimi elmi-texniki tutumlu məsələlərin həlli istiqamətlərində İTEM-in əməkdaşları mühüm nəticələr əldə etmiş və onların böyük əksəriyyəti praktikada tətbiq olunmuşdur. İTEM düyanın bir sıra qabaqcıl aparıcı elmi təşkilatları ilə əlaqələr yaratmış və onun əməkdaşlarının müasir informasiya texnologiyaları sahəsində bir çox elmi işləri nəşr olunmuşdur.

1991-2001-ci illərdə görülən işlər direktor Ə.M.Abbasovun rəhbərliyi ilə həyata keçirilmişdir. Bu işlərin həyata keçirilməsində həmçinin AİS şöbəsinin Baş mühəndisi R.M.Əliquliyev, laboratoriya müdirləri M.Məmmədova, Ə.Əliyev, R.Ələkbərov və Q.Orucov, F.Fərmanov və başqaları aktiv iştirak etmişlər (1,s.84).

Azərbaycan Respublikasının Prezidenti Heyder Əliyevin 15 may 2001-ci il tarixli fərmanının yerinə yetirilməsi istiqamətində Azərbaycan Milli Elmlər Akademiyasında struktur dəyişiklikləri haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 may 2002-ci il tarixli 81 saylı Qərarına əsasən AMEA-nın İnformasiya Telekomminikasiya Elmi Mərkəzin bazasında İnformasiya Texnologiyaları İnstitutu yaradıldı.

İnformasiya Texnologiyaları İnstitutunun əsas fəaliyyət istiqamətləri fundamental araşdırmalar aparmağa geniş imkanlar açmışdır. İnstituta akademik R.M.Əliquliyev rəhbərlik edir. Onun rəhbərliyi ilə institut qisa müddət ərzində İKT-nın ən müasir problemləri sahəsində tədqiqatlar aparmağa malik olan bir kollektivə çevrildi.

İnstitutun əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

1. Elmi-Tədqiqat fəaliyyəti;
2. Elmi-İnnovasiya fəaliyyəti;
3. Tədris-İnnovasiya fəaliyyəti;
4. Veb-xidmətləri;
5. Multimedia xidmətləri;
6. Kompüter xidmətləri;

İnstitutun əsas fəaliyyət istiqamətlərindən biri olan Elmi-tədqiqat fəaliyyətində mətnlərin avtomatik referatlaşdırılması problem olaraq götürülmüşdür. Bu problem Bul dəyişənli xətti və qeyri-xətti proqramlaşdırma məsələləri kimi formalizə olunmuş və onların həlli üçün evolyusiya və "sürü" intellektinə əsaslanan alqoritmlər işlənilmişdir.

İnformasiya təhlükəsizliyi üçün milli informasiya fəzasının təhlükəsizliyi sisteminin konseptual arxitekturu işlənilmişdir. Bu barədə informasiya Journal of İnformation jurnalında verilmişdir.

Biometrik texnologiyaların və kriptoqrafik sistemlərin praktiki üstünlükləribirləşdirməklə barmaq izlərinin tekstur deskriptorları əsasında fərdi kriptoqrafik açarların generasiyası üsulu işlənilmişdir. Alınmış nəticələr Expert Systems with Applications, Automatic Control Computer Sciences jurnallarında çap olunmuşdur (2,s.8).

Elmi-İnnovasiya fəaliyyətində İnstitutun iştirak etdiyi Dövlət Proqramları olduqca əhəmiyyətlidir. İnstitutun iştirak etdiyi Dövlət proqramları aşağıdakılardır:

1. “Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrəMilli Strategiya” və “Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi üzrə Dövlət proqramı;
2. “Azərbaycan Respublikasında biometrik eyniləşdirmə sisteminin yaradılması üzrə 2007-2012-ci illər üçün Dövlət Proqramı”;
3. “Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı”;
4. “2008-2012”-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı;

İnstitutun nəznində respublika üzrə doktorant və dissertantların “İnformatika” fənninin tədrisi, namizədlik minimumlarının qəbulunu həyata keçirən, iqtisadiyyat, hümanitar, və s sahələrdə kompüter-informasiya texnologiyalarının tətbiqi ixtisasları üzrə müasir tələblərə cavab verən Tədris-İnnovasiya Mərkəzi fəaliyyət göstərir.

Tədris-İnnovasiya Mərkəzi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komisiyası kollegiyasının 25 oktyabr 2002-ci il tarixli 6 saylı, 16 dekabr, 2002-ci il tarixli 17 saylı, həmçinin AMEA Rəyasət Heyətinin 15 yanvar 2003-cü il tarixli 2/5 saylı qərarlarına əsasən yaradılmışdır.

Tədris-İnnovasiya Mərkəzinin fəaliyyətinə doktorant və dissertantlara informatika fənninin tədrisi və imtahanların qəbulu, distant təhsil, e-dövlət üçün kadr hazırlığı, ali təhsil müəssisələri ilə əməkdaşlıq, olimpiya mərkəzi, Gənc Proqramçılar Məktəbi, təhsilin informasiyalaşdırılması prosesində iştirakı daxildir.

İnformasiya texnologiyaları sahısində elmi kadrların hazırlanması məqsədilə İTEM-də aspiranturanın fəaliyyətə başlaması üçün AMEA RH-nin 16 yanvar 2002-ci il tarixli 1/1 №-li qərarı olmuşdur.

Bu qərara əsasən AMEA İTİ 2002-ci ildən başlayaraq hər il aşağıdakı ixtisaslar üzrə aspiranturaya tələbə qəbulu aparır:

1. Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi;
2. Sosial və iqtisadi sistemlərdə idarəetmə;
3. Telekommunikasiya sistemləri və kompüter şəbəkələri;
4. İnformasiyanın mühafizə üsulları və sistemləri.

2003-2012-ci illər ərzində  11000-dən artıq doktorant və dissertant informatika fənni üzrə kurslarda iştirak edib imtahan vermişdir.

Azərbaycanın rayonlarında fəaliyyət göstərən Kompüter Tədrisi Mərkəzlərinə metodik dəstək göndərilmiş, bu kurslarda təhsil alan 581 nəfərin biliklərinin yoxlanılması və sertifikatlaşdırılması işləri həyata keçirilmişdir.

Ümumtəhsil məktəblərinin müəllimləri ilə birgə informatika fənninin tədrisi problemlərinin müzakirəsinə həsr olunmuş müxtəlif görüşlər, seminarlar keçirilmişdir. İKT sahəsinə aid müxtəlif dərsliklər hazırlanmış, eyni zamanda kənar təşkilatlar və müəlliflər tərəfindən hazırlanmış dərs vəsaitlərinin  ekspertizası və onlara rəylərin verilməsi işləri görülmüşdür. Hemin dersliklere Beynelxalq İnformatika Olimpiadaları, Yeni Media, Excel, Adobe Photoshop, Müəllimlər üçün Sosial Servislər aiddir.

AZScienceNet kompüter şəbəkəsinə qoşulmuş institutlarda kabelləşdirmə işləri aparılmış və 200-ə yaxın kompüter İnternet şəbəkəsinə qoşulmuşdur. AMEA M.Füzuli adına Əlyazmalar, İqtisadiyyat, Fəlsəfə, Sosiologiya, və Hüquq, Geologiya İnstitutlarının, Mərkəzi Elmi Kitabxananın lokal kompüter şəbəkələri intellectual kommutatorlar əsasında yenidən qurularaq İnternet şəbəkəsinə çıxışla təmin edilmişdir. AZScienceNet kompüter şəbəkəsini nəticəsində www.azsciencenet.az veb saytı yaradılmışdır (6,s.1). AMEA Rəyasət Heyətinin 26 sentyabr 2001-ci il tarixli qərarı ilə www.science.az portalının yaradılması İnformasiya Texnologiyaları İnstitutuna həvalə edilmiş və 2003-cü ilin sentyabr ayından istifadəyə verilmişdir.www.science.az  portalı bir-birinin güzgü əksi olan Azərbaycan, rus, ingilis dillərində fəaliyyət göstərir. Portal AMEA Reyasət Heyətinin, bölmə və şöbələrinin, elmi müəssisə və digər təşkilatlarının, həqiqi və müxbir üzvlərin, elmlər doktorlarının fəaliyyətini əks etdirən böyük informasiya bazasına və güclü axtarış imkanlarına malik olan bir informasiya sistemidir. Portalda məlumat mübadiləsi zamanı müəyyən normalara əməl olunur. Portal AMEA və bütövlükdə respublika elmi ictimai mühitində baş verən yeniliklərin- müxtəlif seminarların, elmi və elmi-texniki konfranslar, simpoziumlar, yubileylər, nəşrlər, görüşlər haqqında informasiyaların operativ əldə edilərək istifadəçilərə, AMEA-nın institut və təşkilatlarında əməkdaşlarının bir-birilərinin informasiya ehtiyatlarından kütləvi istifadə etməsinə, digər tərəfdən isə onların hər birinin dünya informasiya fəzasında tanınmasına geniş imkan yaradır. Məlumat mübadiləsi zamanı müəyyən normalara əməl olunur (4,s.22).

2012-ci ildən etibarən  Multimedia Mərkəzi tərəfindən dizayn işləri, müxtəlif formatlı kitabların çapı, cildləmə işləri, avtoreferatların çapı, kitab və jurnalların  tərtibatı həyata keçirilir.

İnstitut dünyanın 20 ölkəsi ilə əməkdaşlıq edir. Keçirilən görüşlərdə 19 xarici qurumun 100-dən çox alim və  mütəxəssisdən ibarət nümayəndə heyəti iştirak edir. İnstitutun  9 əməkdaşı 14 xarici quruma səfər etmişdir. İnstitutun 4 əməkdaşı bir il  müddətinə  xarici elmi tədqiqat qurumlarına ezam edilmişdir.

İnstitut bir beynəlxalq konfransda təşkilatçı olmuşdur. İnstitutun əməkdaşlıq etdiyi beynəlxalq təşkilatlar aşağıdakılardır:

1. Terena
2. Thomson Reuters
3. İEEE
4. Springer
5. Microsoft
6. ACM
7. UNCTAD

ELSEVİER-in Türkiyə və Mərkəzi Asiya ölkələri üzrə meneceri Ayhan Saracoğlu və Almaniyanın "Springer" beynəlxalq elmi bazasının Türkiyə, Qafqaz, və Mərkəzi Asiya ölkələri üzrə meneceri Sıtkı Aktaş ilə görüşlər keçirilmişdir.

İnformasiya, İnformasiyalaşdırma və İnformasiyanın mühafizəsi haqqında Azərbaycan Respublikasinin qanununda qeyd edilirki Dövlət hakimiyyəti və yerli ozunuidarə orqanları, təşkilati-huquqi və mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatlar, vətəndaşların informasiya sistemləri, texnologiyaları və onların təminat vasitələrinin yaradılması və istehsalında bərabər hüquqları vardır.Dövlət informasiya sistemlərinin, texnologiyalarının və onların təminat vasitələrinin yaradılması və istehsalı sahəsində elmi və təcrubi-layihə işlərinin aparılmasına şərait yaradır (3.s,6).

AMEA-nin İnformasiya Texnologiyalari İnstitutunun əməkdaşlarının informasiya təminatında "İnformasiya xidməti"nin əsas rolu vardır. "İnformasiya xidməti"nin tərkibinə adi kitabxana, elektron kitabxana, İnternetə sərbəst daxil olub lazımi informasiyaları əldə etmək, CDN texnologiyası əsasında dinamiki formalaşan intellektual informasiya fondlarının yaradılması və s. kimi imkanlar daxildir. İnstitutun əməkdaşları demək olar ki, keçmiş SSRI ərazisində nəşr olunan bütün elmi, elmi-praktiki, texnoloji, populyar və s. kimi kitab və jurnallarla müntəzəm olaraq təmin olunurlar. İnstitutun əməkdaşları ingilis dilli mənbələr olan IEEE, ACM kimi nüfuzlu elektron kitabxanalara abunə olublar və Springer, Blackwell kimi nəşriyyatların e-jurnallarına giriş imkanları var. İnstitutun əməkdaşları vaxtlı-vaxtında İT sahəsində dünyanın istənilən yerində keçirilməsi planlaşdırılan beynəlxalq konfranslar, toplantılar haqqında məlumatlar alırlar.İnstitutun əməkdaşlarını elmi-texniki informasiya ilə təmin etmək üçün müasir tələblərə cavab verən "İnformasiya xidməti" yaradılmışdır. "İnformasiya xidməti"nin tərkibinə adi kitabxana, elektron kitabxana, İnternetə sərbəst daxil olub lazımi informasiyaları əldə etmək, CDN texnologiyası əsasında dinamiki formalaşan intellektual informasiya fondu və s. daxildir (5,s.1).

İnstitutun tərkibində fəaliyyət göstərən "İnformasiya xidməti"nin işi mühüm əhəmiyyət kəsb edir. Bu xidmət hər şeydən əvvəl insitutun bütün əməkdaşlarına İnternet xidmətlərindən sərbəst istifadə etmək imkanı yaradır.

İnstitut elmi-texniki informasiya sahəsində elmi-tədqiqat və ali təhsil müəssisələrinin kitabxanalarına, həmçinin respublika səviyyəli digər kitabxanalara metodiki köməyi həyata keçirir.

İnstitutun elmi-texniki informasiya təminatına beynəlxalq elmi-texniki cəmiyyətlər və elektron kitabxanalarla əməkdaşlıq daxildir. İnstitut SpringerLink, IEEE computer society, Cambridge, ACM Digital Library, IOP Science, Oxford Engilish Dictionary, EBSCO kimi elmi-texniki cəmiyyətlər və elektron kitabxanalarla əməkdaşlıq edir. İnstitutun elmi-texniki informasiya təminatında 12 saylı şöbənin mühüm əhəmiyyəti vardır. 12 saylı şöbənin rəhbəri Mədinə Səidovadır. 12 saylı şöbənin əsas elmi istiqamətləri aşağıdakılardır:

1. Elektron kitabxana şəbəkələrinin yaradılması problemləri;

2. E-kitabxana mühitində sosial şəbəkələrin aşkarlanması problemləri;

3.Bibliometrik üsulların e-kitabxana mühitində tətbiqi imkanlarının araşdırılması;

4.Qeyri-səlis məntiq vasitəsilə kitabxana xidmətlərinin təkmilləşdirilməsi problemləri.

12 saylı şöbənin əldə etdiyi əsas elmi nəticələr aşağıdakılardır;

1. İntellektual elektron kitabxana şəbəkələri modeli işlənmişdir;

2.İntellektual elektron kitabxanalarda toplanmış qeydiyyat məlumatlarının intellektual emalı və analizi məsələləri araşdırılmışdır;

3. Qeyri-səlis çoxluqlar nəzəriyyəsinin tətbiqi ilə çap əlyazma simvolları üçün tanıma sistemi hazırlanmışdır;

4. Mətnlərin təsnifləşdirilməsi üçün alqoritm təklif olunmuşdur.

İnstitutun əməkdaşlarının məqalələrinin çap olunduğu indeksli jurnallardan Knowledge-Based System jurnalında 1 meqalə çap olunmuşdur.Jurnalda bu məqaləyə 2,422 isnad olmuşdur. Expert Systems with Applications jurnalında 4 məqalə çap olunmuşdur və 2,203 isnad olmuşdur. Journal of Automation and İnformation Sciences jurnalında 1 məqalə çap olunmuşdur və 0,04 isnad olmuşdur. Bu jurnallar əsas impakt faktorlu jurnallardır. Jurnalın impakt faktoru bu jurnalda çap olunmuş hər məqaləyə 2 il ərzində düşən isnadların orta sayıdır. Evvəlcə məqalə jurnala göndərilir əgər tələblərə uyğun gəlirsə qəbul olunur.

Hal-hazırda institutda 250 əməkdaş fəaliyyət göstərir. İnstitutda, demək olar ki, İT sahəsinin bütün seqmentləri üzrə yüksək ixtisaslı mütəxəssislər vardır. İnstitutda 3 akademik, 7 elmlər doktoru, 15 fəlsəfə doktoru, 18 doktorant, 24 dissertant və digər əməkdaşlar elmi-tədqiqat işləri ilə məşğul olurlar.

## ƏDƏBİYYAT

1. Azərbaycanda informatikanın təşəkkülü.-Bakı:"Letterpress" nəşriyyat evi, 2010.- 172 s.

2. İnformasiya Texnologiyaları İnstitutunun 2012-ci il üçün hesabatı. Bakı: "İnformasiya Texnologiyaları" nəşriyyatı, 2013.- 52 s.
3. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında"Azərbaycan Respublikasının Qanunu.-Bakı, 1998.-10 s.
4. Osman Gündüz. Azərbaycan İnternet Resursları.-Bakı, 2006. -250 s.
5. www.ict.az
6. www.science.gov.az

**Н.И.Исмаилов**
**Ф.Назим гызы**

## ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ДЕЯТЕЛЬНОСТИ И ИНФОРМАЦИОННОЕ ОБЕСПЕЧЕНИЕ ИНСТИТУТА ИНФОРМАЦИОННЫХ ТЕХНОЛОГИЙ НАНА

### Р Е З Ю М Е

В работе широко описываются проблемы основные направления деятельности и информационное обеспечениеИнститута информационных технологий Национальной академии наук Азербайджана. Для информационного обеспечения сотрудников института необходимо разработать современную информационную службу. Информационная служба включает в себя традиционную библиотеку, электронную библиотеку и бесплатный доступ к Интернету для получения необходимой информации, а также интеллектуальный информационный фонд, динамично формирующийся на основе CDN технологий. Сотрудники института подписаны на англоязычные источники, такие как IEEE, ACM, а также имеют доступ к электронным журналам авторитетных издательств Springer,Blackwell. Сотрудники института регулярно получают информацию о международных конференциях и мероприятиях проведенных в любое время и в любом месте в области ИТ.

**N.I.Ismaılov**
**F.Nazim gizi**

## THE MAIN ACTIVITIES AND INFORMATION PROVISION OF THE INSTITUTE OF INFORMATION TECHNOLOGY OF ANAS

### S U M M A R Y

The paper extensively covers the main activities and information provision of the Institute of Information Technology of the AzerbaijanNationalAcademy. To ensure the employees of the institute with scientific and technical information, modern information service should be developed. İnformation service includes traditional library, electronic library, and free internet access to obtain the necessary information, CDN-based dynamic and intelligent information foundation. The Institute employees are subscribed to English-language sources, such as IEEE, ACM, and e-journals of authoritative publishers such as Springer, Blackwell are available for them. The Institute employees are aware of regularly scheduled international conferences and events in the field of IT anytime and anywhere.

**Rəşad QARDAŞOV**
***Bakı Dövlət Universiteti "Kitabxana resursları və informasiya axtarış sistemləri" kafedrasının baş müəllimi***

# İNFORMASİYALAŞDIRILMIŞ CƏMİYYƏT ŞƏRAİTİNDƏ KİTABXANAÇILIQ TƏHSİLİNDƏ YUKSƏK İNFORMASİYA TEXNOLOGİYALARININ TƏTBİQİ İSTİQAMƏTLƏRİ

***Açar sözlər:****elektron katoloq,MARC formatı,kitabxanaçılıq təhsili,məlumat bazaları*
***Ключевые слова:****электронный каталог, формат MARC, научная библиотека, информационные базы данных.*
***Keywords:****electon calatog, MARC format, library science, information bases*

Azərbaycan xalqının milli sərvəti olan respublika kitabxanaları sənəd-informasiya resurslarının toplanıb saxlanılmasında və kütləvi istifadəsinin təşkilində mühüm rol oynayır. Qlobollaşan informasiya cəmiyyətinin təhlilinə uyğun olaraq Respublika kitabxanalarının hüquqi maddi-texniki və texnoloji bazası durmadan inkişaf edir.Xüsusilə müstəqillik ilində kitabxana işi haqqında milli qanun qüvvəyə minmiş (1999 mart)və" Azərbaycan kitabxanalarının fəaliyyətinin yaxşılaşdırılması"haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı kimi vacib dövlət hüquqi-normativ sənədlər qəbul edilmişdir.

Sərəncamda ölkənin iri kitabxanalarının elektron kataloqu və elektron kitabxanasının yaradılması vəzifələri irəli sürülmüşdür. Bu sərəncamda 2008-2013-cü illər üzrə kitabxanalarının inkişafının dövlət proqramının işlənməsi zəruri istiqamət kimi müəyyənləşdirilmişdir.

İndi Respublikamızda 10 mindən çox kitabxana fəaliyyət göstərir. Onların xeyli hissəsində müasir informasiya texnologiyalarına əsaslanan internet resurs mərkəzləri–lokal və qlobal elektron katoloq sistemləri yaradılır. 2008-ci ildə işlənib təsdiq edilmiş dövlət proqramlarında kitabxanaların 8 inkişaf istiqamətlərində biri də vertual elektron katoloq sisteminin yaradılması problemidir. Elektron katoloqlaşdırmanın oxucuların onlayın rejimində informasiya axtarışlarında və kitabxana daxili proseslərin avtomatlaşdırılmasında həlledici rolu vardır. Hazırda respublikanın iri kitabxanalarında bir neçə avtomatlaşdırılmış kitabxana-informasiya sistemləri (AKİS) bazasında elektron kataloqlar işlənib tərtib edilmişdir.

VTLS,İRBİS,FOLLET kimi dünyada geniş yayılmış AKİS-lərin kataloqlaşdırma,avtomatlaşdırılmış işçi yerlərinin yaradılması deyilənlərə əyani nümunə ola bilər.

Təbii ki, kitabxanalar fəaliyyətində günbəgün inkişaf edən yeni informasiya texnologiyaları, o cümlədən elektron kataloqlaşdırma mürəkkəb texniki-texnoloji kompleks olduğundan bu sahədə ixtisaslı kadr hazırlığına obyektiv ehtiyac yaranmışdır. Müasir dövrdə kitabxanalarda elektron kataloqun tətbiqi günün vacib məsələlərindəndir.Xüsusilə ali məktəb kitabxanalarında bu işə xüsusi diqqət yetirilməlidir.

XX əsrin 60-70-ci illərində ABŞ-da Kongres kitabxanasının mütəxəssisləri İnformasiyasının “Maşınla oxunan kataloqlaşdırma” (“Machine readeble catalalogina - MARC) proqramını işləyib hazırladı. Daha sonra İngiltərə, Kanada bu proqramdan müştərək istifadə üçün təşəbbüs göstərdilər. Beləliklə, İngiltərədə UKMARC, Kanadada KANMARC versiyaları meydana gəldi. Hazırda MARC formatının beynəlxalq versiyası-UNİMARC yaranmışdır. Həmin MARC formatları həm ayrı-ayrı ölkələrdə həm də dünyada vahid informasiya mübadiləsini təmin etmək üçün yaradılan beynəlxalq biblioqrafik təsvir formatlarıdır. AKİS-lər də həmin formatlara uyğun təşkil edilir, onların ümumi İNTERFACE zonası (pəncərəsi) həmin formatlara əsaslanır, iş mexanizmi, fəaliyyətin təşkili strukturu həmin formatlar əsasında qurulur.

Deməli, kitabxanaçılıq, kitabxana işi, kitabxanaçılıq təhsili verən müəssisələr və subyektlər İnformasiya texnologiyaları sistemində kitabxana işi aspektindən yanaşərkən ilk növbədə MARC formatları, quruluşu, yaranması, müasir vəziyyəti, inkişaf perspektivləri və onların məntiqi funksional davamı–texniki reallığı olan AKİS-lər haqqında ətrafli məlumat verməli, onların kitabxanaçı kadrlara , gələcəyin informasiya mütəxəssislərinə mənimsədilməsi üçün maksimum səy göstərməlidirlər.

Onu da qeyd edək ki, hazırda əksər kitabxanalarda kitabxana prosesləri (kitab verilişi, sifarişi, abunə, kataloqlaşdırma, komplektləşdirmə, digər proseslər vəs.) məhz MARC formatları əsasında təşkil edilən AKİS-lər (VTLS, VİRTUA, Liber, Library, İRBİS vəs.) həyata keçirilir. Deməli, həmin texnologiyalar ali kitabxanaçılıq təhsili prosesində gələcək kadrlara mənimsədilməli olan ən başlıca, ən əsas mərhələdir ki, ali kitabxanaçılıq təhsili prosesində informasiya-kommunikasiya texnologiyalarından bəhz edərkən ilk öncə, yuxarıda qeyd etdiyimiz kimi göstərdiyimiz texnoloji məsələləri dərin təhlil edilməlidir. Bu prosesdə əksər qabaqcıl xarici ölkə kitabxanalarının, tədris müəssisələrinin təcrübəsindən, iş üsulundan da bəhrələnmək vacibdir.

Ali kitabxanaçılıq təhsili prosesində informasiya-kommunikasiya texnologiyalarının tətbiq edilməsi zəruri olan proseslərdən biri də elektron kitabxanalar, onların yaradılması sahəsidir. Məhz bu sahə kitabxana işi sahəsində informasiya-kommunikasiya texnologiyalarının köməyindən bilavasitə ən çox istifadə edən sahədir. Bu, tamamilə yeni, müasir anlayışdır və həm kitabxanaçıdan, həm də kitabxanaçılıq təhsili müəssisəsində çalışan və bu işlə məşğul olan hər bir kəsdən maksimum texniki-informativ bilik tələb edir. Elektron kitabxanalar informasiyalaşdırılmış cəmiyyət quruculuğunun sosial sifarişidir. Elektron kitabxanalar oxuculara informasiya xidmətinini kompüterləşdirilməsinin nəticəsi olub, ənənəvi kitabxanalara alternativ bir qurum deyil, yalnız bir xidmət növüdür.

Elektron kitabxanalar uzaq məsafədən oxuculara daha dolğun informasiya xidməti göstərərək, bu xidmətin zaman və məkandan asılılığına son qoyur. Deməli, bütün bu proseslərdə informativ-kommunikativ vasitələrin əhəmiyyəti kitabxanaçılıq təhsilində həm tətbiq edilməli, həm də tələbələrə - gələcək informasioloqlara ətraflı izah olunmalıdır.

Kitabxanaçılıq təhsilinin inkişafında bütün bunlar nəzərə alınarkən hərtərəfli təhlil edilməli, onun nəzəri və praktiki tərəfləri, inkişaf qanunauyğunluqları və çatışmazlıqları aşkara çıxarılmalıdır. Elə kitabxanaçılıq təhsilinin inkişafında elektron kitabxanaların təcrübi əhəmiyyəti də bu aspektdə böyük məna kəsb edir və onun məntiqi davamını belə şərh etmək olar:

Elektron kitabxanalar müasir veb-texnologiya əsasında fəaliyyət göstərir. Veb-texnologiya lokal və uzaqda yerləşmiş informasiya ehtiyatlarının inteqrasiyasını təmin edir. Axtarış və naviqasiya vasitələri onun mühüm elementidir. Axtarış aparatı oxucu sorğusu əsasında informasiya ehtiyatının verilənlər bazasında axtarış aparmağı təmin edən xüsusi modullarından ibarətdir. Naviqasiya elementləri isə konkret sənədə və ya sənədin konkret hissələrinə istinadı təmin edənhiperistinad siyahısından ibarətdir.

Beləliklə, informasiyalaşdırılmış cəmiyyətdə oxucu sorğularının tam və dolğun ödənilməsi üçün mövcud kitabxanaların qarşısında çox mühüm tələblər

durur. Kitabxanaların oxuculara xidməti ilə əlaqədar olaraq yeni funksiyaları müasir tələblər səviyyəsində yerinə yetirmək günün əsas tələblərindən biridir.

Kitabxanaçılıq təhsili və informasiya-kommunikasiya vasitələri sistemindən bəhs edərkən müasir kitabxana işində və informasiya tələbatının təmin edilməsində həlledici rollardan birini oynayan verilənlər bazalarından danışmalıyıq. Çünki verilənlər bazaları müasir texnologiyanın ixtirası, kitabxana işi sahəsində əhəmiyyətli kəşflərdən biridir. Onların hərtərəfli mənimsənilməsi və təhsil prosesində tədrisi son dərəcə vacibdir, çünki gələcəyin kitabxanaşünas-informasioloqu mütləq verilənlər bazaları ilə işləyəcək və istehsalatda bununla qarşılaşacaq.Ümumiyyətlə kitabxanaçılıq təhsilinə verilən tələblərdən danışarkən dünya təcrübəsinə müraciət etmək lazımdır.Bu barədə ABŞ təcrübəsinə müraciət etmək lazımdır.

Həmin verilənlər bazalarından bir neçəsi barədə bəhs edək:

1) Science Direct: bu, tammətnli verilənlər bazasıdır ki, 2 500-dən artıq jurnal məqalələrini, kitab fəsilləri və 11 000-dən çox kitabı təqdim edir;

2) EBSCO: dünyada çox məşhur məlumat bazasıdır ki, onun vasitəsilə tammətnli elektron jurnal, elektron kitablar, verilənlər bazaları və s. istifadə etmək olar. Onu da qeyd edək ki, EBSCO tammətnli məlumatlar bazası haqqında təhsil ocaqları, kitabxanaçılıq təhsili müəssisələrində hərtərəfli məlumatlar verilir və onun vasitəsilə xarici məlumat nəşrləri, elektron informasiya daşıyıcılarının biblioqrafik təsviri və s. izah edilir;

3) ProQuest: dünyada ən böyük elektron kitabxana Ann-Arborda (ABŞ-ın Miçiqan ştatı) yerləşmiş “ProQuest” şirkətinə məxsusdur. Bu elektron kitabxana minlərlə dövri nəşri, dissertasiyasını, kitab və digər çap əsərini özündə əks etdirir;

4) Willey-Black Well: 2007-ci ildə iki böyük naşir “John Willey” və “Black Well” birləşdi və Willey-Black Well verilənlər bazası yarandı. Hazırda o, dünyanın ən məşhur universitet və professional naşirlərindən biridir.

Bundan başqa, kitabxanaçılıq təhsilində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sistemində verilənlər bazalarının yerini, əhəmiyyətini, yüksəkliyini digər verilənlər bazalarının adlarını çəkməklə də göstərmək olar:

5) MathsciNet;

6) Sage Journals Online;

7) Scopus;

8) Isi Web of Knowledge;

9) Eudnot Web;

10) IEEE (Institute of Electical and Electronics Engineers);

11) ACM (Assosiation for Computing Machinery);

12) ACS (American Chemical Society);

13) `AIP (American Institute of Physics) və s. kimi verilənlər bazaları informativ-kommunikativ vasitələrin və texnologiyaların köməyi ilə təşkil edilir, yaradılır, əsas məqsəd və funksiyaları həyata keçirir (110). Eyni

zamanda, kitabxanaçılıq təhsilinin inkişafında informasiya-kommunikasiya texnologiyalarının inkişafı məsələlərindən bəhs edərkən, təsnifatlaşmanın kompüterləşdirilməsi işini həyata keçirməyin vacibliyindən danışmaq yerinə düşərdi. Lakin çox təəssüflər olsun ki, hələ bu iş ürəkaçan vəziyyətdə informativ və kommunikativ vasitələrin köməyi ilə elektronlaşdırılmamış, yalnız mətn tipli və ayrı-ayrı cildlərlə mövcud olaraq istifadəsi xeyli çətinləşir.

İnformativ-kommunkativ vasitələri: kompyuter, kompyuterin texniki proqram təminatı, informasiya bazaları, veb-texnologiyalar, digər texnoloji vasitələr vəs. Köməkliyi ilə informasiya cəmiyyətinin qlobal xarakteri zəifledilmişdir. Bu o deməkdir ki, təmin edilməsi mümkünsüz hesab edilən informasiya axınının qarşısı həmin texnologiyaların köməkliyi ilə alınmış və beləliklə qloballıqdan əsər-əlamət demək olar ki, qalmamışdır. Bunu nə ilə sübut etmək olar? Bu suala cavab vermək üçün 60-70 il öncəyə qayıdax. Həmin tarixdə tutaq ki, Avropa qitəsinin hansısa nöqtəsindən məlumat, mətn və ya elektron formada olan hər hansı informasiyanı Azərbaycanın hər hansı bölgəsinə bir-neçə çatdırmaq olardımı? Cavabı çox sadədir-xeyr! Beləliklə bunu kimi yüzlərlə misala istinad edərək yuxarıdakı məsələni tam aydınlaşdıra bilərik. Bir sıra ölkələrdə: ABŞ, Fransa, İngiltərə, Meksika, Almaniya, Danimarka, İtaliya, Çin, Türkiyə ali kitabxanaçılıq təhsili proseslərini izləyərkən məlum olur ki, Kommunikasiya və informasiya vasitələri həmin prosesin alt və üst bazisini təşkil edir. Bu prosesdə həmin vasitələrin yerinin, rolunun dəyərləndirilməsi baxımından əhəmiyyəti böyükdür.

Həmin məlumat bazalarında informasiyanın yaradılması, yerləşdirilməsi və hazırlanması qaydaları mürəkkəb mexanizmə əsaslanır və həmin mexaizmin strukturu kitabxana mütəxəssisləri tərəfindən gələcək mütəxəssislərə öyrədilməli, ali kitabxanaçılıq təhsili müəssisəsinin həyata keçirməsi vacib olan əsas iş istiqamətlərindən biri olmalıdır.

XX əsrin son onilliyində informasiya və kommunikasiya texnologiyalarının cəmiyyətin inkişafına təsir göstərən əsas amillərdən birinə çevrilməsi, informasiya texnologiyalarının sürətli inkişafı cəmiyyətin informasiya quruculuğu mərhələsinə qədəm qoymasına şərait yaratdı. İnformasiyalaşdırılmış cəmiyyətdə informasiya əmtəəyə çevrilərək onu inkişaf etdirən əsas məhsuldar qüvvə kimi çıxış edir, nəticədə sənaye cəmiyyətindən informasiya cəmiyyətinə keçid baş verir. Belə bir dövrdə kitabxanalar bəşəriyyətin mədəni elmi irsinin qoruyucusu, yaradıcısı və ən əsası, müasir informasiya sistemləri ilə birbaşa əlaqə yarada biləcək mərkəz olmağa doğru inkişaf edir.

Kitabxana şəbəkələrində elektron ehtiyatların kataloqlaşdırılması problemi daha mürəkkəb xarakter daşıyır. Bu zaman elektron ehtiyatların təkcə əldə edilməsi, yerləşdirilməsi, İnternetdə istifadəsi, təqdim edilməsi deyil, həm də bütün informasiyanın həcminə görə kataloqlaşdırılması nəzərə alınmalıdır. Bunları nəzərə almadan bütün sənəd-informasiya ehtiyatlarının kataloqlaşdırılması mümkün deyildir. Bu isə bir sıra sənədlərin işlənmə və

istifadəetmə məhdudluğuna səbəb olur. Buna görə də elektron informasiya kütləsini düzgün müəyyənləşdirəcək iki cəhəti: elektron ehtiyatların kataloqunn yaradılması və internetə verilən kataloq ehtiyatlarının təşkilini xüsusi nəzərə almaq lazımdır.

Belə nəticəyə gəlmək olar ki, müasir dövrdə kitabxanalarda yeni kitabxana-informasiya texnologiyalarının tətbiqi, kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması ənənəvi kataloq və kartoçkaların elektron formaya keçirilməsini zəruri edir. İnformasiyanın toplanması, məlumat bazalarının yaradılması, saxlanması, işlənməsi, axtarışı və mübadiləsi üçün kitabxanalarda avtomatlaşdırılmış informasiya axtarışı sistemləri tətbiq edilir. Elektron kataloqların yaradılması sahəsində görülən işlər, İnternet vasitəsilə beynəlxalq informasiya şəbəkəsində axtarışlar aparılması, informasiyaya çevik və sürətli çıxış kitabxanalarda informasiya-biblioqrafiya xidmətinin yeni formalarının tətbiqini tələb edir.

## ƏDƏBİYYAT


1. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu // "Azərbaycan" qəz., 1998, 23 iyun.

2. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu// "Azərbaycan" qəzeti, 1999,14 mart.

3. "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanunu // Xalq qəzeti, 1998, 18 aprel.

4. Azərbaycanda Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə "Dövlət Proqramı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // "Pespublika" qəz., Bakı, 2008, 7 oktyabr.

5. Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı // "Azərbaycan" qəz., Bakı, 2007, 21 aprel.

6. Azərbaycan təhsili XXI əsrin astanasında: Azərbaycan Respublikası Təhsil Nazirilyinin sifarişi ilə çap olunmuşdur / Tərt. ed: R.Ağamalıyev, red.: Ə.Quliyev; Azərbaycan Respublikası Təhsil Nazirilyi. Bakı: Çaşıoğlu, 1998, 32 s.

7. Abbasov A və b. İnformatika, telekomunikasiya, radioelektronika üzrə terminoloji lügət. Bakı, 2004, 295 s.

8.İsmayılov X.İ. Kitabxana-informasiya texnologiyaları: Dərs vəsaiti. Bakı, «Nurlar» nəşriyyat-poliqrafiya mərkəzi, 2009.- 312 səh.

9.Rüstəmov Ə., Baxşəliyev Z. Elektron kitabxanaların formalaşdırılmasının bəzi məsələləri // Kitabxanaşünaslıq və biblioqrafiya.- 2002.- №2.-s.39-49.

10.Rüstəmov Ə., Mustafayeva N. Respublika kitabxanalarında əsas proseslərin avtomatlaşdırılması // Kitabxanaşünaslıq və biblioqrafiya.- 2007.- №2.- s.15-27

11.Rüstəmov Ə., Mustafayeva N.: Avtomatlaşdırılmış kitabxana-informasiya sistemləri və şəbəkələri (nəzəri və metodiki məsələlər).-B., 2007.-124-135 s.

12.Xələfov A.A., Qurbanov A.İ.: Kitabxanaların kompüterləşdirilməsinin əsasları: Dərslik.-B.: Bakı Universiteti nəşriyyatı, 2007.-200 s

13.Xələfov A.A., Hüseynova A.S.: Elektron kataloqun əhəmiyyəti və təşkili prinsipləri//Bakı Universitetinin Xəbərləri (humanitar elmlər seriyası).- 2004.-№4.-s.288-290.

14.Xələfov A.A., Mehdiyeva N.D.: BDU-nun Elmi Kitabxanasının elektron kataloqu/Bakı Universitetinin Xəbərləri (humanitar elmlər seriyası).- 2007.-№3.-s.198-201.

**Р.Гардашов**

**ПРИМЕНЕНИЕ ИНФОРМАЦИОННЫХ И КОММУНИКАЦИОННЫХ ТЕХНОЛОГИЙ В БИБЛИОТЕЧНОМ ДЕЛЕ**

**РЕЗЮМЕ**

В статье обсуждаются требования библиотековедения. Исследовались также применение информационных и коммуникационных технологий в библиотечном деле. Здесь говорить о отраженных практики США в развитие образования в нашей стране.

**R.Gardashov**

**THE USE OF INFORMATION AND COMMUNICATION TECHNOLOGIES IN LIBRARIES**

**SUMMARY**

İn this article discussed the requirements of library science. Also investigated the application of information and communication technologies in library science. Here talk about reflected  USA practices in the development of education in our country.

**İradə ƏLİYEVA**

***AMEA-nın MEK-nın dissertantı***

# EKOLOGİYA VƏ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSI ÜZRƏ CARİ BİBLİOQRAFİK VƏSAİTLƏR SİSTEMİNİN BƏZİ XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *ekologiya, ətraf mühitin mühafizəsi, sənəd kütləsi, sənəd axını, cari biblioqrafik vəsait, kitab salnaməsi, jurnal məqalələri salnaməsi, qəzet məqalələri salnaməsi, Birillik Azərbaycan kitabiyyatı, Kitab Palatası, M. F. Axundov adına Azərbaycan Milli Kitabxanası*

***Ключевые слова:*** *экология, охрана окружающей среды, докумен-тальный массив, документальный поток, текущее библиографическое пособие, книжная летопись, летопись журнальных статей, летопись газетных статей, Ежегодник азербайджанской книги, Книжная палата, Азербайджан-ская национальная библиотека им. М, Ф. Ахундова.*

***Keywords:*** *ecology, environment protection, documentary array, documentary stream, current bibliographical index, book chronicle, chronicle of magazine articles, chronicle of newspaper articles,Book yearly of Azerbaijan, Book Chamber, Azerbaijan National Library named M.F.Axundov*

XX əsr ekologiya elmininn və ətraf mühitin mühafizəsi sahəsində fəaliyyətin geniş vüsət aldığı bir dövr kimi qiymətləndirilməlidir. Çünki bu

dövr dünya miqyasında əhalinin artması və bu artan əhali üçün əvvəllər insan yaşamayan ərazilərin yaşayış yerlərinə çevirilməsi, bir vaxtlar ancaq Qərbi Avropaya və Şimali Amerikaya xas olan sənayeləşminin qlobal xarakter alması və bu yolla sənaye müəssisələri tikmək, xammal əldə etmək, tullantıları buraxmaq prosesində daha artıq ərazilərin bioloji mühitinin məhv olması və çirklənməsi, Birnci və İkinci Dünya Müharibəsi də daxil olmaqla ardı-arası kəsilməyən müharibələrin ətraf mühitə dəhşətli dərəcədə ziyan vurması səciyyəvidir.

Ətraf mühitə ən güclü təsir göstərən əhali artımı məsələəsinə diqqət yetirsək aşağıdakı faktların şahidi olarıq.

Bizim eranın başlanğıcında yer üzərində 300 mln. insan yaşayırdı. Sonrakı illərdə isə bi rəqəm aşağıdakı kimi dəyişdi:

I minilliyin sonu-400 mln. nəfər.
1500-cü il - 500 mln. nəfər
1820 –ci il- 1 mlrd. nəfər
1900-cu il-1,6 mlrd. nəfər
1960-cı il-3 mlrd. nəfər
1993-cü il-5,65 mlrd. nəfər
1999-cu il-6 mlrd. nəfər
2003-cü il-6,3 mlrd. nəfər
2006-cı il-6,5 mlrd. nəfər
2010-cu il-6,8 mlrd. nəfər
2011-ci il-7,0 mlrd, nəfər

Proqnozlara görə, 2050-ci ildə dünya əhalisi 9 mlrd., 2100-cü ildə 10 mlrd. nəfər olacaq. ( 3; 4).

Təkcə əhali artımı ilə bağlı bu rəqəmlər dünya miqyasında təbii mühitə necə ağır yük düşməsi və gələcəkdə ekoloji problemlərin necə də kəskinləşəcəyi barədə təsəvvür yaradır. Bundan əlavə, qlobal miqyasda səaye məhsulunun istehsalı, ətraf mühitə atılan tullantıların çoxalma dinamikası, bu sahə üzrə statistik göstəricilər də ətraf mühitlə bağlı təhlükənin necə artmasını sübut edir. Məsələn, hal-hazırda dünya miqyasında havaya buraxılan tullantı qazların tərkibində olan bərk tullantıların miqdarı 60 mln. tondan artıqdır. Hər il dünya miqyasında havaya buraxılan tullantı qazların tərkibində 100 mln ton kükürd iki oksid və 70 mln ton azot oksidi olur ki, bunlar ətraf mühütə ciddi ziyan vuran turşulu yağışların əmələ gəlməsinə səbəb olur. Amerikan alimlərinin tədqiqinə əsasən, son 200 ildə dünyada 900 min növdən çox bitki və heyvanın nəsli kəsilmişdir.

(http://www.grandars.ru/shkola/geografiya/globalnye-ekologicheskie-problemy.html)

Bütün bu proseslər həm lokal şəkildə, ayrı-ayrı ölkələrin miqyasında, həm də qlobal şəkildə ekologiyaya verilən diqqətin artmasına, informasiya tələbatının intensivləşməsinə səbəb olur ki, həmin diqqət özünü aşkar şəkildə

bu sahə üzrə sənəd-kommunikasiya sistemlərində gedən proseslərin intensivləşməsi, sənəd kütləsinin çoxalması, sənəd axınının artması ilə özünü büruza verir. Belə bir vəziyyətdə təbii ki, ekologiya və ətraf mühitin mühafizəsinin biblioqrafik təminat məsələləri də artan aktuallıq kəsb edir.

Ekologiya və ətraf mühitin mühafizəsi üzrə informasiya tələbatının artması və sahə üzrə sənəd-kommunikasiya sisteminin inkişafı bu sahənin biblioqrafik vasitələr sisteminin inkişafının əsas şərtidir. Sahə üzrə sənəd-kommunikasiyalar sisteminin tərkibində sənəd axınının xüsusi əhəmiyyəti vardır. Bu axın ən müxrəlif nəşriyyatların, dövlət və qeyri-dövlət qurumlarının nəşr etdiyi kitblardan və digər monoqrafik məşrlərdən, o cümlədən elmi-texniki hesabatlardan və konfrans materiallarından, normativ-texniki sənədlərdən, ən müxtəlif dövri və ardı dfavam edən nəşrlədən ibarətdir. Həmin sənəd axını daim inkişaf edir və özündə bu elm və fəaliyyət sahələrinin yeni istiqamətlərini əks etdirir. Bu sahə üzrə fəaliyyət göstərən mütəxəssislərin, təhsil alan şəxslərin yeni sənədlərə olan tələbatının ödənilməsində sənəd axınını əks etdirən biblioqrafik vəsaitlərin mühüm əhəmiyyəti vardır.

Cari biblioqrafik vəsaitlər müxtəlif təşkilatlar tərəfindən hazırlansa da. onun əsas funksiyası tələbatçılara yeni çıxan əsərlər barədə məlumat verməkdən ibarətdi. Cari biblioqrafik vəsaitlər müxtəif təyinatlı olur. Onların ən geniş yayılmış növləri rəsmi dövlər uçot-qeyd vəsaitləri, digərləri ayrı-ayrı müəssisə və təşkilatların nəşr məhsulunu əks etdirən vəsaitlərdir. Bu vəsaitlər özündə sənədləri müxtəlif dərinlikdə əks etdirirlər. Onlar sənəd axınını bəzən mümkün qədər tam. bəzən isə seçmə qaydada əks etdirirlər. Müəyyən çoğrafi ərazidə meydana gələn sənəd axınının əks etdirilməsi uçot-qeyd dövlət biblioqrafik vəsaitlərinin funksiyasıdır. Belə vəsaitlər müxtəlif ölkələrdə müxtəlif müəssisələr və təşkilatar tərəfindən hazırlanıb nəşr edilir. Bir çox ölkələrdə bu iş milli kitabxanalar, bəzi yerlərdə özəl şirkətlər və ya xüsusi olaraq təşkil edilmiş dövlət qurumları tərəfindən yernə yetirilir. Sonunculara misal olaraq keçmiş SSRİ-də, sonraki dövrdə isə yeni Müstəqil Dövətlər Birliyində fəaliyyət göstərən kitab palatalarnı göstərmək olar. Ökədə çap olunan bütün nəşriyyat məhsulunun mütləq nüsxələri kitab palatalarına daxil olur və həmin nüsxələrdən milli çap məhsulunun toxunulmaz fondu yaradılır. Eləcə də, həmin məhsul analtik –sintetik şəkildə işlənilir.

Özündə digər elm sahələri ilə yanaşı ekologiya və ətraf mühitin mühafizəsi üzrə sənədləri də əks etdirən universal xarakterli uçot-qeyd (milli) biblioqrafik vəsaitlər sistemi uzun təkamül prosesi keçmişdir. Nəticədə, dünyanın bir çox ölkələrində bu tipli cari biblioqrafik vəsaitlərin nisbətən sabit sistemi formalaşmışdır. Qeyd edək ki, Rusiya KİtabPalatasının ənənələrinə əsaslanmaqla keçmiş sovet məkanında, eləcə də Azərbaycanda kitab palatası yaradılmış və cari dövlət uçot-qeyd vəsaitləri sitemi yaradılaraq unkişaf etdirilmişdi. Belə vəsaitlərin əsas növlərinə kitabları, jurnal və qəzet məqalələrini, disertasiyaları, rəylər və s.əks etdirən salnamələr (göstəricilər)

aid edilir.SSRİ döründə həmin vəsaitlərdə İttifaqın bütün respublikalarında, o cümlədən Azərbaycanda çap edilmiş kitablar, müdafiə edilmiş dissertasiyalar, dərc edilmiş məqalələr, rəylər, təsviri nəşrlər öz əksini tapmışdı. Sənədin həmin vəsaitdə əks olunması üçün əsas meyar onun rus dilində olması idi.

Vaxtı ilə Azərbaycanda formalaşmış cari uçot-qeyd biblioqrafik nəşrlər sistemi isə bu hissələrdən ibarət idi:1. Kitab salnaməsi. 2.Jurnal məqalələri salnaməsi. 3. Qəzet məqalələri salnaməsi. 4. Rəylər salnaməsi. 5, Not salnaməsi. 6.Təsviri nəşrlər salnaməsi. "Birillik Azərbaycan kitabiyyati" göstəricisi isə operativlik baximindan cari vəsaitlərə uyğun gəlməsə və retrospektiv vəsait olsa da, onu ardı davam edən vəsait kimi qəbul etmək mümkündür. Adı çəkilən vəsaitlərin hamısı uzun müddət ərzində ayliq nəşr edilmişdir. Eləcə də həmin cari salnamələr ümumi bir formada Azərbaycan mətbuat salnaməsi adi altinda toplanaraq nəşr edilirdi. (1)

Keçmis sovet republikalarında və Azərbaycanda kitab palataları tərəfindən hazırlanıb nəşr edilən cari dövlət uçot-qeyd vəsaitləri sitemində ekologiya və ətraf mühitin mühafizəsi üzrə sənədlərin təqdim edilməsi xüsusi təsnifat sisteminə uyğun olaraq təqdim edilirdi. Bir neçə dəfə təkmilləşdirlməklə nəşr edilmiş, son variantı 1986-cı ildə çapdan çıxmış "SSRİ-də kitab nəşri üçün ədəbiyyatın vahid təsnifat sistemi" adlanan bu təsnifat özündə bütün elm və fəaliyyət sahələrini, eləcə də. ətraf mühitin mühafizəsi və ekologiyaya dair ədəbiyyatı da əks etdirirdi.(5)

Bu təsnifat Ümumittifaq Kitab Palatası tərəfindən dövlət uçot-qryd biblioqrafiyası orqanlarında, mərkəzləşdirilmiş kataloqlaşdırma, mətbuat statistikası və kitab ticarəti müəssisələri üçün nəzərdə tutlmuşdu. Bu təsnifat 50 bölmədən və onun daxilində çox sayda yarımbölmələrdən ibarətdir. Bizim üçün maraq kəsb edən o faktdır ki, ekologiya və ətraf mühitin mühafizəsinə dair ədəbiyyat əsasən 15-ci bölmə - Təbiət elmləri bütövlükdə, 18-ci -Yer haqqinda elmlər və 19-cu Bioloji elmlər bölmələrində öz əksini tapmışdır.Həmin təsnifat indi də təkminləşmiş şəkildə Rusiyada və bir sıra MDB ölkələrində istifadə olunur. Burada həmin təsnifat həm nəşriyyatlarda, həm kitab palatalarinda, həm də kitab ticarəti orqanlarında tətbiq edilirdi. İndi onun daha təkminləşmiş variantı üzərində işlər davam etdirilir. Bu salnamələrdə ekelogiya üzrə sənədlərin təsvir xüsusiyyətləri ilə tanış olmaq üçün Ümumittifaq Kitab Palatasının nəşr etdirdiyi "Kitab salnaməsi"nin 1977-ci il 7-ci nömrəsinə nəzər salaq. Bu salnamənin 17.6-"Kənd təsərrüfatı bitkilərinin qorunması" bölməsində ekologiyaya dair əsəsrin aşağıdakı təsviri verilmişdir.

Ушатинская Р.С. Экология и физиология колорадского жука / Р. С. Ушатннская, Г. Г. Пирковский; АН СССР, Ин-т эволюц. морфологии и экологии жнвотных им. А. Н. Северцова. – М,: «Наука ,1976.-131 с. : ил.; 21 см. и Jt.; 21 см . – Список лит.в конце статей с. 113-130. -66 к. 2.150 экз.-[76-61590]п.632.768.12

Azərbaycan sənəd-informasiya tələbatçılarının ekologiya və ətraf mühitin mühafizəsi üzrə biblioqrafik təminatında SSRİ, indi isə Rusiya Dövlət Kitab Palatasının cari vəsaitlər sistemi öz mövqeyini və əhəmiyyəti saxlamaqdadır.

Oxşar misallara Azərbaycanda nəşr olunmuş "Kitab salnaməsi"nin, "jurnal məqalələrinin salnaməsinin", "Qəzet məqalələrinin salnaməsinin" sahifəsələrində də rast gəlmək mümkündür. Lakin təəsüf ki, Azərbaycan Dövlət Kitab Palatasının fəaliyyətinin dayanması nəticəsində ölkədə çap məhsulunun rəsmi uçot-qeyd biblioqrafik vəsaitlərinin nəşri dayanmışdır və bu iş heç bir müəssisə tərəfindən həyata keçirilmir.

Təqribən on illik fasilədən sonra, 2005-ci ildən etibarən Azərbaycanda keçmiş Palatanın fəaliyyətinin bəzi istiqamətləri qismən dirçəldilməyə başlamışdır Bu zaman həmin işin tərkib hissəsi kimi "Birillik Azərbaycan kitabiyyatı"nın nəşri bərpa edilmişdir. Bu işi yerinə yetirən M. F. Axundov adına Azərbaycan Milli Kitabxanası nəşr etdirdiyi uçot-qeyd biblioqrafiyası orqanı olan "Birillik Azərbaycan kitabiyyatı"nda ədəbiyyatın təsnifləşdirilməsi üçün yuxarida adi çəkilən təsnifatdan imtina etdi və UOT-u tətbiq etməyə başladı. .Hal-hazırda kitabxana tərəfindən buraxılan bütün cari vəsaitlərdə ədəbiyyatın təsnifatı üçün UOT-dan istifadə edilir. "Birillik Azərbaycan kitabiyyatı"nda ətraf mühitin mühafizəsinə dair kitablar öz əksini 55, 57 və 63-cü bölmələrdə tapmışdır. Həmin bölmələrdə ətraf mühitin qorunmasının bioloji- coğrafi və digər aspektlərinə dair kitablar da öz əksini tapır. Nümunə üçün "Birillik Azərbaycan kitabiyyatı"nın 2001-ci il buraxılışına müraciət edək.

Vəsaitin "63 Kənd təsərrцfatı. Meшə tясərrцfatı. Ovçuluq. Balıq təsərrü-fatı" bölməsində bu kitab əz əksini tapmışdır:

844. Əмirov, F. Meшələrin ekoloji rolu [Mətn] /Faiq Əмirov.– B.: Azərbaycan, 2001.- 238, (2) s.: şək.; 22 sм.- Biblioqr.: s. 223-233 (175 ad.).- Xülasə rus və ing. dillərində.- Müq. q., 400 nüs. (cildli).- [2001-69910].

Göründüyü kimi,kitabın təsviri biblioqrafik metodikaya uyğundur.

Ekologiya və ətraf mühitin mühafizəsi üzrə cari biblioqrafik vəsaitlər sisteminin digər bir istiqaməti ayrı-ayrı kitabxanaların fonduna daxil olan yeni ədəbiyyatı əks etdirən biblioqrafik göstəricilərdir. Respublikada belə göstəricilər əsasən ölkə əhəmiyyətli böyük kitabxanalar tərəfindən hazirlanib nəşr edilir. Hal-hazırda bu sahədə təqdim edilən informasiyanın həcmi və dövriliyi baxımından xüsusi qeyd edilən vəsait Axundov adina Milli Kitabxana tərəfindən nəşr edilən "Yeni kitablar" biblioqrafik göstəricidir. Həmin vəsait 2007 –ci ildən nəşr edilir. Bu vəsaitdə materiallar 65 tematik bölmədə qruplaşdırılmışdır və ekeologiyaya dair kitablar əsasən 21. Bilologiya elmləri bölməsində əks edilir. Burada həm Azərbaycanda, həm də xarici ölkələrdə dərc edilərək kitabxananın fonduna daxil olan Azərbaycan, rus, ingilis, türk, fransiz və s.dillərdə ədəbiyyat öz əksini tapmışdır. Misal üçün vəsaitin 2013-cü il buraxılışına müraciət edək:

118. Azf-272801

Ekologiya [Mətn]: ali məktəblər üçün dərslik /F.Əliyev, A.Bədəlov, E.Hüseynov, F.Əliyev; elmi red. B.Budaqov (rəyçi); red.: M.Babayev, N.Məmmədov, F.Mustafayev; elmi məsl.: Ə.Əsgərov [və b.].- Bakı: Elm, 2012.- 828 s. (2).

Yuxarıda qeyd edilən faktlar və təqdim edilən nümunələr ekologiya elmi və ətrəf mühitin mühafizəsi üzrə sənəd axınının cari və ardı davam edən vəsaitlərdə əks edilməsi xüsusiyyətləri barədə müəyyən təsəvvür yaradır. Lakin qeyd eymək lazımdır ki, ölkəmizdə bu mövzuya dair sənəd axınının, xüsusən də dövri nəşrlərdə dərc edilmiş materiallrın, bu mövzuya dair müdafiə edilmiş dissertasiyaların (onların avtoreferatlarının) biblioqrafik baxımdan əks edilməsi məsələsi təssüf ki, tam həll edilməmişdir və bu istiqamətdə hələ çox iş görülməlidir.

## ƏDƏBİYYAT


**a) Azərbaycan dilində**

1.Əliyev Z.H. Azərbaycan Biblioqrafiyasının tarixi: dərs vəsaiti.-Bakı: bakı univesiteti nəşriyyatı, 2007.-190 s.

2.Yeni kitablar: biblioqrafik göstərici -2013\ M.F. Axundov ad. Azərbaycan Milli Kitabxanası.-Bakı, 2014.-293 s.

**b) İngilis dilində**

3.World's 'seven billionth baby' is born // The Guardian .-2011.-31 October.

4. http://www.vestifinance.ru/articles/41515

**c) Rus dilində**

5. Единая классификация литературы для книгоиздания в СССР / Гос. ком. СССР по делам изд-в, полиграфии и кн. торговли; [Разраб. Н. Я. Азерской, С. Ю. Калининым]. - 2-е изд., перераб. и доп. М. : Книга , 1986 - 598,[1] с.;



**И.Алиева**


## НЕКОТОРЫЕ ОСОБЕННОСТИ СИСТЕМЫ БИБЛИОГРАФИЧЕСКИХ ПОСОБИЙ ПО ЭКЛОГИ И ЗАЩИТЕ ОКРУЖАЮЩЕЙ СРЕДЫ


**РЕЗЮМЕ**

В статье рассмотрены вопросы становления и развития системы библиографических пособий по экология, охрана окружающей среды в Азербайджане. Статья снабжена примерами библиографических записей документов экологической тематики взятых из текущих библиографических указателей.



**İ.Aliyeva**


## SOME FEATURES OF THE SYSTEM OF BIBLIOGRAPHIC INDEXES ON ECOLOGY AND ENVIRONMENTAL PROTECTION

**SUMMARY**

The article discusses the formation and development of bibliographical aids on ecology and the environmental protection in Azerbaijan. Article provided with examples of bibliographic records of the document on ecological subjects taken from the current bibliographic indexes.

**Elçin MƏMMƏDOV**
***AMEA İnformasiya Texnologiyaları İnstitutu, Bakı, Azərbaycan***

**Nigar İSMAYILOVA**
***AMEA İnformasiya Texnologiyaları İnstitutu, Bakı, Azərbaycan***

**Firudin ƏSGƏROV**
***AMEA İnformasiya Texnologiyaları İnstitutu, Bakı, Azərbaycan***

# MÜASİR ELEKTRON KİTABXANALARDA ONLAYN SOSİAL ŞƏBƏKƏ TEXNOLOGİYALARININ TƏTBİQİ MEXANİZMLƏRİ

***Açar sözlər:*** *elektron kitabxana, sosial şəbəkə, sosial elektron kitabxana şəbəkələri, Veb2, bulud texnologiyaları*

***Ключевые слова:*** *Цифровая библиотека, социальная сеть, социальная цифровая библиотека, веб2, облачное вычисление.*

**Keywords:***digital library, social network, social digital library, web2, cloud computing*

Məqalədə sosial şəbəkə anlayışının yaranması, yeni informasiya kommunikasiya texnologiyalarının sosial şəbəkələşmə proseslərindəki rolu, onlayn sosial şəbəkələrin formalaşması məsələləri araşdırılmışdır. Həmçinin bu texnologiyaların müasir elektron kitabxanaların yaradılmasında tətbiq məsələrinə toxunulmuş və sosial elektron kitabxana informasiya sistemlərinin yaranma perspektivləri təqdim edilmişdir.

Bəşər yarandığı dövrdən müəyyən ənənəvi struktural elementlərə əsaslanaraq formalaşmışdır. Bu elementlərdən ən mühümü``Şəbəkə`` (``Network``-ing.) anlayışıdır. Tarixi hadisələrə nəzər salsaq sosial cəmiyyətin bütün üzvləri daim həmfikirlərini tapmağa, müəyyən proseslərin, siyasətin, elmin və s. proseslərin birgə, korporativ formada aparılmasına cəhd etmişdirlər. Qeyd etmək lazımdır ki, bütün mühüm tarixi, elmi, mədəni və siyasi hadisələr də ``şəbəkə`` anlayışı üzərindən baş vermişdir.Müasir texniki inkişaf metodologiyasına diqqət etsək ənənəvi anlayışın XX əsrin sonlarına yaxın İnformasiya Kommunikasiya Texnologiyalarının baza prinsipləri kimi formalaşmasını müşahidə etmiş olarıq. IKT istiqamətində məşhur sosioloqlardan biri Manual Kastels (Manual Castells) qeyd etmişdir ``Şəbəkə bəşəri təcrübənin qədim formalarından biridir, lakin bu, bizim zəmanəmizdə yeni həyata keçid etmiş, İnternet vasitəsilə idarə olunaraq, informasiya şəbəkələrinə çevrilmişdir.``

Qeyd edilən istiqamətdə 1990-cı illərdə Tim Börners Li (Tim Burners Lee) CERN (Avropa nüvə araşdırmaları təşkilatı, dünyanın ən iri yüksək enerji fizikası laboratoriyası) laboratoriyasında ``Beynəlxalq Hörümçək Toru``nun yaradılması layihəsi üzərində çalışarkən heç güman edilməzdi ki, veb texnologiyalar sürətli inkişaf tempi tutacaq və artıq iyirmi il sonra Veb2 texnologiyaları formalaşacaqdır. Bu texnologiya öncəki ``Veb`` üzərindən yaradılmasıdır, ekspertlərin fikrini dinləsək yeni əsaslı bir dəyişikliyin olmadığı lakin mühüm istiqamət kimi istifadəçilərin qlobal informasiya mühitinin formalaşdırılması, sosial şəbəkələşmə imkanlarının inkişaf etdirilməsidir[1].

``Sosial şəbəkə`` xronologiyası

Bu terminin kompüter texnikası, mobil rabitə kimi mövhumların yaranmasından sonra meydana gəldiyini fikirləşmək yanlışlıq olardı. Qeyd olunan anlam artıq 100 ilə yaxındır ki, tədqiq edilir və sosial şəbəkə analizi bir elm kimi çoxdan yaranmışdır, özündə sosiologiya, psixologiya, antropologiya, idarəetmə, kompüter elmləri, informasiya texnologiyaları elementlərini birləşdirir. “Sosial şəbəkə” termini 1954-cü ildə Mançestr məktəbinin sosioloqu Con Arundel Barns tərəfindən “insan münasibətləri” məcmuəsinə daxil edilmiş “Norveç kilsə adasının sinifləri və icmaları” adlı əsərində təklif edilmişdir [2].Müasir dövrdə isə bir neçə terminaloji nümunələrə rast gəlmək mümkündür ki, bu da istifadəçi kontinqentindən asılıdır, misal üçün ``onlayn sosial şəbəkə`` (online social network OSN-ing.), ``sosial şəbəkə saytları``

(social network sites-ing.) və ya ən geniş istifadə olunan ``sosial şəbəkə`` (social network-ing.)

Məlum olduğu kimi son illərdə SŞ populyarlığı sürətlə artmışdır. Cəmiyyətin müxtəlif sahələrində çalışan və ya sıravi şəxslər müxtəlif sosial şəbəkə olan `Twitter`, `Facebook`, `Linkedin` və s. SŞ-də qeydiyyatdan keçsələr də, onlara çox zaman bunun konsepsiyası və nə olduğu qaranlıq qalır. Bu özünəməxsus şəbəkə formasının ən mühüm xüsusiyyətləri dünyanın müxtəlif nöqtələrində olan, din, dil, sosial statusundan asılı olmayaraq eyni maraq dairəsinə malik insanları cəmləşdirir, əlaqələndirir, informasiya mübadiləsi və korporativ fəaliyyət təşkil etmək imkanları yaradır. Nəzərə alsaq ki, kitab çapının ixtirası özündən 150 il sonra dəyişiklikləri hiss etdirmişdir, SŞ üçün isə təxminən 15 ildən az vaxt lazım olmuşdur. Öncə qeyd edilən xüsusiyyətlər bu texnologiyadan istifadə intensivliyini e-poçt, axtarış sistemləri, portal və s. servislərə nisbətən artırır. Onuda qeyd etmək lazımdır ki, bu şəbəkələrin ayrı-ayrı və qrup fərdlərə psixoloji təsiri istər pozitiv və əksinə neqativ istiqamətdə dəyişdirilməsi üçün güclü texniki vasitədir [2].

Müasir üçlük: Veb2, bulud texnologiyaları və sosial şəbəkənin bu mühitdə rolu.

Son dövrlərin ən mühüm texnoloji istiqamətlərindən biri də Veb 2.0 (Web 2.0) üsuludur.Bu üsul istifadəçilərə xüsusi interaktiv əlavələr vasitəsilə kontentin veb üzərindən idarəedilməsi, istifadəsini və mübadiləsinin daha da optimal yolunu təklif edir.Nəzərdə saxlamaq lazımdır ki, veb bazisli üsullar son dövrlərdə sərt disklərdə sazlanan proqram təminatlarına nisbətən daha üstün istifadə statistikasına malikdirlər. Bu texnologiyalar istifadəçi-yönümlü kontentin sürətli inkişafına təkan verərək sosial şəbəkələşmənin və bulud texnologiyalarının gündəlik həyatımızın bir hissəsinə çevrilməsinə səbəb olur[3].Sosial şəbəkələşmə özlüyündə böyük həcmdə şəxsi və korporativ qeydiyyat məlumatlarını bulud texnologiyaları və veb üsullar vasitəsilə qeydiyyata alır, sistemləşdirir, interaktiv mübadiləni təmin edir.Sadə formada desək həm proqram təminatı, həm də sənədlər, müxtəlif verilənlər toplusu istifadəçinin kompüterindəki ``sərt diskdə`` deyil, ayrılmış bir virtual məkanda yerləşir. Bulud texnologiyalarına əsaslanan populyar onlayn sosial şəbəkələrə Linkedin, Facebook, Twitter, Youtube, Flickr və s. nümunə gətirmək olar. Xüsusi ilə qeyd etmək lazımdır ki, Veb2 texnologiyasında tanınan ilk ``pioner`` sosial şəbəkə saytı ``SixDegrees.com`` olmuşdur.

Sosiallaşmanın proqram təminatları, texnologiyaları və xidmətlərinə daha detallı (Cədvəl 1) də diqqət edək[2].

Cədvəl 1.

| Web 2.0 veb saytları | Web 2.0 Texnologiyaları | Xidmətlərin açılışı |
|---|---|---|
| Flickr, Zoto, Instagram | Foto və şəkillər kolleksiyasının idarəedilməsi | Resurslara (şəkil, foto) sərbəst giriş edilməsi və işarələnməsi |

| | | |
|---|---|---|
| YouTube, Google, Video, Metacafe | Video kolleksiyalar | Video məlumatların yüklənməsi |
| Joomla, Drupal | CMS | Veb dizayn və menecment. |
| Blogger, WordPress | Bloqlar | Şəxsi müəlliflik və nəşr edilmə |
| GoogleDocs, Rallypoint | Ümumi yazı, redaktə imkanları | Onlayn mətn işlənməsi |
| Linkedin, Facebook, Twitter | Sosial Şəbəkələşmə | Vahid istifadəçinin geniş kütlə ilə əlaqələndirilməsi |

Sosial şəbəkənin baza elementləri

Sosial şəbəkə texnologiyaların populyarlığını, daha da sosiallaşmasını statistik göstəricilər və aparılan araşdırmalardan da müşahidə etmək mümkündür, belə ki, hələ 2011-ci ildə ``Facebook`` sosial şəbəkəsində 750 million istifadəçi qeydiyyatdan keçmişdir, hal-hazırda isə istifadəçilərin sayı 1 milyard 320 milyonu keçməkdədir. Cənubi Koreyada ümumi əhalinin 30%-i, onun daxilində də 90% cavan kontinqentin ``Cyworld`` milli sosial şəbəkəsinin aktiv üzvləri kimi qeydə alınmışdır. Birləşmiş Krallıq elm adamlarının apardıqları araşdırmalara əsasən 15-17 yaş aralığında olan uşaqların yarısı ən azı bir sosial şəbəkədə qeydiyyatdan keçmişdir.

Qeyd edilən texnologiyaları izləsək Pol Andersonun (Paul Anderson. İng) ``O'Reilly Media`` təsisçisi Tim Orelli (Tim O'Reilly. ing.) fikirləri əsasında veb2 texnologiyaları və sosial şəbəkələrin altı ideya və xassələri müəyyənləşdirdiyi məlum olur. 1. İstifadəçi yönümlü kontent 2. Texniki kontent və iştirak imkanları 3.Böyük həcmli verilənlər 4.Kütlənin gücünün idarə edilməsi və 5. Resursların açıqlıq məsələsi
6 Şəbəkə effekti və veb topologiya [4].

Adı çəkilən sosial şəbəkə növləri istifadəçilərə maksimum əməliyyat imkanları yaradır və əsas element kimi hər bir istifadəçinin özünün inzibatçı kimi kontentini idarə edə bilməsidir. Lakin bu ümumi anlamın daxilində bir çox funksionallıqlar vardır, nümunə kimi ``Facebook``, ``Linkedin`` sosial şəbəkə sistemlərində sadə istifadəçi idarəetmə funksiyalarına nəzər salaq: ``dostların əlavə edilməsi``, müxtəlif ``sosial kanallara``,maraq dairəsində olan qrupların,individual istifadəçilərin ``izlənilməsi`` və s.

Digər sosial şəbəkə sistemləri olan ``Twitter``, ``MySpace``də kommunikasiya, blog, kiçik blog funksiyalarını daşıyırlar. Burada xüsusi texniki imkanlar istifadəçilərə veb interfeys vasitəsilə mətn mesajlarının SMS-dən (ing., Short Message Service - Qısa Mesaj Xidməti) yararlanaraq göndərilməsi, digər imkanlara alt platformaların olması müxtəlif bloqların yaradılması üçün virtual məkan funksiyasını daşıyır. Ümumi texniki baxımdan izləsək görərik ki, sosial şəbəkədə istifadəçinin müdaxilə edə bilmədiyi yalnız qeydiyyatdan keçirtdiyi hesabının tamamilə ləğv edə bilməməsidir(Qeyd: istifadəçinin öz hesabını yalnız diaktiv etmək imkanı mümkündür)[5].

Müxtəlif funksional göstəriciləri müşahidə etsək, bütün sosial şəbəkə sistemləri aparıcı ümumi funksional struktura malikdirlər. Bunlara aiddir:

1. Ana səhifə, adətən istifadəçilər sistemə daxil olanda ilk əsas səhifəyə yönləndirilir.

2. Profil səhifəsi,məhdud sistem daxilində kütləvi və ya məhdud profilin yaradılması, müəyyən şəxsi məlumatların, peşəkar bacarıqlar haqqında informasiyanın formalaşdırılmasıdır. Burada toplanılan informasiya müxtəlif formatlı sənədlər formasında ola bilər (şəkil, mətn, audio və s).

3. Dostluq, əlaqəli, informasiya mübadiləsi aparılan, istifadəçilərin siyahısnın formalaşdırılması (dost, həmkar və s.). Əsas siyahıda olan istifadəçilərin əlaqələrinə istinadən onlara keçid etmək, ikinci səviyyə əlaqələrin qurulması və beləliklə şaxəli şəbəkənin formalaşması.

4. Qruplar,eyni fikirli, ideyalı, siyasi baxışlı istifadəçilərin birlikdə toplaşması üçün virtual məkanlar. Bu qruplar struktur baxımından açıq, qapalı və yarımqapalı ola bilər.

5. Sosial əlfəcin xidmətləri, bu xidmət növləri istifadəçilər üçün maraqlı, vacib veb saytların toplanması, sistemləşdirilməsi və onlarla əlaqəli şəxslərlə paylaşmasını təmin edir. Texniki tərəfdən nəzər salsaq istifadəçi hər hansı bir veb səhifəni nəinki paylaşa bilər, həmçinin həmin veb səhifədəki məlumatlarla birlikdə metaverilənlər şəklində təşkil, kateqoriyalaşdıra bilər və istənilən məkandan daxil olduqda həmin informasiyaya çıxış əldə edə bilər.Bu bir növ geniş informasiya okeanında lazım olan məlumatların seçilməsi və işarələnməsi funksionallığını daşıyır.Adətən istifadəçilər informasiyanı tam oxuya bilmir, yenidən lazım olduqda isə axtarış etmək iqtidarında olmur. Bu və bənzər səbəblər üçün təcrübi alət hesab etmək olar[1].

Qeyd edilən bu funksionallıqların tətbiq edilməsi üçün mükəmməl və dinamik texniki baza yaradılmalıdır.Onlayn sosial şəbəkə sistemləri formalaşdırılarkən bir neçə proqram təminatı imkanlarından, verilənlər mərkəzlərindən və üçüncü tərəf informasiya təminatçıları xidmətlərindən istifadə edilir.Nümunə olaraq ``Facebook`` sosial şəbəkəsinin kiçik texniki göstəricilərini müşahidə edək.Nümunə üçün adı çəkilən onlayn sosial şəbəkənin veb səhifəsində istifadəçilərin gördükləri xəbərlər, dostların paylaşdıqları məlumatlar, şəkilllər, ``Bəyən`` (Like.Ing.)düyməsi, onlayn oyunlar haqqında informasiyalar müxtəlif serverlərdən əldə olunur və ``HTML`` (Hypertext Markup Language. İng) Hipermətnlərin İşarələnməsi dilində formalaşdırılır.Bu sistem ``LAMP`` abreviaturalı dörd qlobal standartdan istifadə edir, Linux, Apache, MySQL və PHP.Həmçinin verilənlər bazasında proseslərin gücləndirilməsi üçün operativ yaddaşda verilənlərin keş olunması üçün ``Memcached`` tətbiq edilir.Qeyd edilənlər ən azı 60.000 serveri və 25 terabayt istifadəçi verilənlərini idarə edir.Bundan əlavə bloq, server əlavələri üçün C++, Erlang proqramlaşdırma dillərindən istifadə edilir.Server strukturu üç əsas pillədən ibarətdir, üst pillə Veb server - Apache, alt pillə - MySQL serveri və orta pillə keş server - Memcached üzərindən

sazlanır.Digər yeni xarakterik nümunə kimi ```FBML`` (Facebook Markup Language.İng.)Feysbuk İşarələmə Dilinin HTML dilinin genişləndirilməsi kimi istifadə edilməsidir [1].

Nümunəni müşahidə etdikdən sonra bizə sosial şəbəkə sisteminin arxitekturasında nə dərəcədə mürəkkəb, əhatəli və çox şaxəli texniki məsələlərin tətbiqi prinsipi məlum olur.

Öncə diqqətə çatdırılan baza elementləri və texniki struktur fiziki-coğrafi sərhəd kimi mühüm baryeri aradan qaldırması, onlayn mühitin yaranması, yerləşməsindən asılı olmayaraq istənilən məkanda olan informasiyanı zamanında əldə etməyə şarait yaratmışdır. Zaman keçdikcə təsəvvür etmək heç də çətin deyildir ki, 20-30 il sonra dünya əhalisinin əksər hissəsinin kompüter texnologiyalarından sərbəst istifadə bacarıqlarının daha aydın görüntüsü formalaşır. Bu da öz növbəsində sosial şəbəkə məsələlərinin əhəmiyyətinin sürətli yüksəlməsinə səbəb olacaqdır. Ən peşəkar mütəxəssisdən tutmuş evdar xanımlara kimi bu onlayn cəmiyyətlərə qoşulması, ehtiyaclarına uyğun individual və ya qruplarla informasiya mübadiləsi, ünsiyyət, təlim, tədris və s. proseslərini realizə edə biləcəklər[3].

Sosial texnologiyaların modelinə diqqət etsəkbir növ ``amorf`` texniki strukturun obrazını görmüş olarıq və bu xüsusiyyət həmin texnologiyaları müxtəlf fəaliyyət sahələrinə tətbiq etmə imkanlarını artırır.Bu, Viki konsepsiyasına bənzər bir strukturu xatırlatsa da,texniki baxımdan daha şaxəli və mükəmməl funksiyalara malik elektron kitabxanaları, burada ən əsas element kimi isə bu informasiya sistemlərinin sosial şəbəkə prinsipləri üzərində qurula bilmə imkanlarını təqdim edə bilər. Burada da əsas vurğu kontentin məhz istifadəçilər tərəfindən formalaşdırılmasına yönəlir (Veb 2 ideologiyası bazasında), bu baxımdan akademik istifadəçi qruplarının yaradılması texnologiyası elmi fikirlərin, nailiyyətlərin, informasiya emalının, analizinin və mübadiləsi proseslərinin kollektiv aparılması üçün mühit yaradır.

Elektron kitabxana-informasiya mühitində sosial şəbəkə texnologiyalarının rolu və sosial elektron kitabxana şəbəkələrinin formalaşması.

Sosial şəbəkə texnologiyalarının elektron kitabxana-informasiya mühitində tətbiqi məsələləri son dövrlərdə vacib struktur elementlərindən birinə çevrilməkdədir.Bunun əsas səbəblərindən veb mühitin, mediyanın və s. elmi-texnoloji alətlərin sürətli inkişaf tempidir. Məlum olduğu kimi kitabxana-informasiya mütəxəssislərinə ən çox verilən suallardan biri kimi ``Siz işinizdən narahat deyilsiz ki, Google olduğu halda elektron kitabxanalara nə ehtiyac vardır?`` qeyd etmək olar. Digər bir məsələ kimi ``Google``un özünün bir elektron kitabxana kimi qələmə verilməsi də müşahidə edilir, sözsüz ki, bu fikirlərin nə dərəcədə döğru olması sual doğurur. Müxtəlif elektron kitabxanaşünaslar bu məsələdə individual yanaşma ilə çıxış edirlər. Ümumiləşdirilmiş halda qeyd edilənləri belə izah etmək olar ki, ümumi, xüsusi, akademik və s. kateqoriyalı tələbatçılar ehtiyac olan informasiyanı

müxtəlif portativ cihazlar vasitəsilə qlobal şəbəkədə (İnternet) açıq onlayn mənbələrdən, Google-dan əldə edə bilərlər,lakin ən sadə nümunəyə diqqət etsək görmüş olarıq ki, bir çox açıq mənbələrdə olan informasiya kütlələrini kiatbxanaçı-informasiya mütəxəssisləri formalaşdırmışlar və çox hallarda onlayn cəmiyyətdə ``informasiya memarları`` funksiyasını daşıyırlar.Elektron kitabxana-informasiya sistemi və sosial şəbəkə texnologiyaları nəinki informasiya resurslarının, həmçinin insan resurslarının birgə fəaliyyətinin daha etibarlı və keyfiyyətli iş prinsipini təqdim edirlər. Bu struktura həm xidmətləri təşkil edən mütəxəssis, həm də həmin xidmətlərdən istifadə edən təlabatçı qruplarını daxil etmək olar[5].

Elmi texniki tərəqqi çox zaman humanitar sahələrdə çalışan mütəxəssisləri, eləcədə kitabxanaçıları müxtəlif proseslərdə çətin vəziyyətə salır, bunu xüsusilə post-sovet məkanında olmuş ölkələrə aid etmək olar.Bir tərəfdən müəyyən baryerlər yaratsa da, digər tərəfdən inkişaf istiqamətinin dəyişməsi proseslərin daha dinamik getməsi, özünü inkişaf, qloballaşma ideyalarını daşıyır və sosial şəbəkələrin formalaşması da bu müsbət keyfiyyətlərin individ və toplumda yayılmasına xidmət edir.Məlum olduğu kimi ``qəpiyin digər üzü`` olduğu kimi burada da neqativ hallar qaçılmazdır.Yəni müxtəlif dini, siyasi təbliğatların aparılması, anti-bəşər fikirlərin yayılması çox zaman baş verən hallardandır.Lakin, indiki məqsəd sosial şəbəkələrin elektron kitabxana-informasiya mühitinə neqativ deyil, müsbət təsiretmə tərəflərini araşdırmaqdır.

Sosial şəbəkə və elektron kitabxana texnologyaları özlüyündə onların baza prinsipləri olan sosial-texniki, elmi-texniki və s. elementlərlə qarşılıqlı inteqrasiya halında formalaşırlar, bu prinsip və yanaşmalar da müasir elektron kitabxanaların yaranması mexanizimlərinin metodologiyasınımüəyyən edir.

Elm və təhsil prinsipi. Müasir cəmiyyəti irəli aparan istiqamətlərdən biri də, elm və  təhsildir. Dünya təcrübəsinə nəzər salsaq görmüş olarıq ki, qeyd edilən bu iki istiqamətin güclü olduğu ölkələrin güclü iqtisadi və siyasi əsası formalaşmışdır.Kütləvi infomasiya vasitələrinin, xüsusisilə sosial cəmiyyət və şəbəkələrin geniş vüsət alması, bu proseslərin elektron kitabxanalarla qarşılıqlı inteqrasiyası sürətli inkişaf tendensiyasını formalaşdırır.

İstifadəlilik prinsipilərində yenilik – smart və portativ cihazlar.Elmi texniki tərəqqi sürətlə inkişaf etdikcə informasiya texnologiyaları fonunda sürətli dəyişikliklər baş verir və ən diqqəti cəlb edən proseslərdən biri də cihazların portativləşməsi, mobil-smart texnologiyalar olur. Diqqət etsək hələ 15 il öncə Respublikamızda çox məhdud funksiyalara malik, ölçü və çəki baxımından iri tutumlu mobil cihazlar istifadə edilirdi. Müasir dövrümüzdə texniki vəziyyətin tam əksinə görüntüsünü müşahidə etmək olar. Ölçü və çəkinin kiçilməsi, vizual keyfiyyətin artması və s. səbəblər digər inkişaf edən ekosistem onlayn sosial şəbəkə texnologiyalarının baza elementlərindən birinə

çevrilmişdir. Bu texniki imkanlar artıq klassik iedologiyanı dəyişərək elektron kitabxananı istifadəçiyə çatdırır.

Şəbəkə prinsipi - İnternet və veb texnologiyalar.Sosial şəbəkə anlamının yüz illik inkişaf yolunun olmasına baxmayaraq internet və veb texnologiyalar XX  əsrin sonlarında formalaşmışdır. Bu da sosial şəbəkələrin və ümumilikdə onlayn sosial şəbəkələşməyə güclü təsir etmişdir.

Elektron idarəetmə - İntellektual sistemlərin yaradılması və gələcək nəsil elektron kitabxana kataloqları.Süni intellekt məsələlərinin araşdırılması, informasiya sistemlərinin daha geniş və semantik əlaqəli əməliyyatlar aparması sosial şəbəkə elementlərinin proqram həll prosesləri üçün mühit yaratdı.Yeni nəsil elektron kitabxana kataloqları artıq özlüyündə yalnız informasiya insan resurslarının verilənləri deyil onların sosial mühitdə inteqrasiyası, dinamik bir mühiti əks etdirəcəyi proqnoz edilir.

Yuxarıda qeyd olunan baza prinsiplərini nəzərə alaraq müasir elektron kitabxana və sosial şəbəkə inteqrasiyasına diqqət etsək uç əsas istiqaməti, sosial elektron kitabxana şəbəkə modelinimüşahidə etmək olar[4].

Sosial elektron kitabxana şəbəkəsinin formalaşması məsələləri.

``Sosial elektron kitabxana şəbəskəsi`` ideyasına keçid etməzdən öncə elektron kitabxananın özünün hər hansı bir populyar sosial şəbəkələrin birində təmsil olunması, yəni buraya həmin elektron kitabxananın marketinqi, onun haqqında əsas məlumatlar, təqdim etdiyi resurslar və s. kimi informasiyaların daxil edilməsi təcrübəsni izləmək məqsədə uyğun olardı.

Elektron kitabxananın sosial şəbəklərdə təmsil olunması

Sosial şəbəkənin özünü təqdim etdiyi texniki imkanlar isə həmin elektron kitabxana ətrafında maraqlı olan istifadəçilərin və qrupların toplanması, onlayn mühitdə müxtəlif debatların aparılması, istifadəçi maraqlarının müəyyənləşdirilməsi və s. mühüm xüsusiyyətləri qeyd etmək olar. Burada açıq informasiya mübadiləsi imkanlarının olması elektron kitabxana resurslarının formalaşmasına təsir edən əsas elementlərdən birinə çevrilir. Hal-hazırda ilkin addımlar kimi bir çox elektron kitabxanalar qlobal tanınan “twitter”, “facebook” və s. sosial şəbəkələrə inteqrasiya edir. Misal üçün Kaliforniya Elektron Kitabxanası 2009-cu ilin oktyabr ayında qlobal sosial şəbəkələrdən biri olan ”Twitter”ə qoşulmuş və bununla öz istifadəçiləri üçün daha sürətli və səmərəli informasiya xidmətləri təşkil etmişdir [6].

Sosial elektron kitabxana şəbəkəsi.

Sosial elektron kitabxana şəbəkələrinin sosial, texniki aspektləri.Bu istiqamət  xüsusisosial-texniki funksiyaların əlavə edilməsi ilə elektron kitabxananın özünün sosial şəbəkə formasına çevrilməsi, və ya xüsusi sosial aspektlərinin formalaşmasıdır. Məlum olduğu kimi elektron kitabxananın başlıca funksiyalarından biri informasiya təminatının (toplanması, emalı) aparılması və yayılmasıdır.Başqa sözlə, sosial şəbəkələşmə terminləri ilə qeyd etsək paylaşmaq, əməkdaşlıq və vasitəçilikdir. Bu üç sosial fəaliyyət vasitəsi müxtəlif formatlı kontentin(video, audio, mətn və s.)əsas element kimi

istifadəçinin müdaxiləsi ilə elektron kitabxananın fondunun, istifadəçi kateqoriyalarının, profilinin və s. vacib elementlərinin formalaşmasını təqdim edir. Ən sadə halda qeyd etmək lazımdır ki, artıq yeni nəsil elektron kitabxana kataloqları formalaşır, bu artıq həmin kitabxananın yalnız informasiya resurslarını təqdim edilməsindənəlavə sosial mühit və onlayn cəmiyyətlərin formlaşmasını əks etdirir.Bunun elmi-təcrübi baxımdan resurs istifadəçi əlqələrini, həmin əlaqələrin sosiallaşmasını təqdim edir. Bu struktur sxem əsas dörd baza sitiqamətinin üzərində qurmaq mümkündür[1].

1. İstifadəçi qeydiyyat məlumatları bazası

Bu baza isitfadəçilərin ümumi, fərdi və peşə fəaliyyətlərini əhatə qeydiyyat məlumatları formasında toplanılır.Bu məlumatlar klasterləşdirilərək buludlar formasında formalaşdırılır. Funksionallıq xassələrinə görə istifadəçilər aid olduğu qruplar, istifadə mövzuları və s. baxımdan bir biri ilə qrup, fərdi əlaqələnir.

2. İnformasiya resurslarının (kitab, jurnal və s.) bazası

İnformasiya müxtəlif biblioqrafik sahələrə uyğun olaraq qeydiyyat məlumatları bazası yaradılır.Həmin resurslar arasında semantik əlaqələr qurulur, əlaqəli resurslar əlfəcinləri, istinadları formalaşır.

3. Qeyd edilən iki bazanın əlaqəlilik prinsipi

Öncə qeyd edilən iki baza arasında əlaqələrin istifadəçi sorğuları, istifadəlilik məsələləri, informasiya resursları və insanlar arasında sosial mühitə apran istiqamətdir.Bu baza prinsipini ən sadə halda müşahidə etsək istifadəçi sorğusu əsasında bir resursdan bir çox əlaqəli məlumatlara çıxış əldə etmək olur. Digər bir xüsusiyyət kimi, öncə istifadə şərhlərini, qeydlərini müşahidə etməklə sorğu edilən resursun nə dərəcədə keyfiyyətli olması məsələsi və s. bu kimi məsələləri araşdırmaq mümkündür buda artıq sosial şəbəkəyə gedən baza istiqamətlərdəndir.

4. Üç əsas baza istiqaməti üzərindən sosiallaşma prinsiplərini təqdim edir.

Elektron kitabxananın daxilində sosillaşma məsələlərinin qurulması prosesi baş verir. İstifadəçinin informasya axtarışı edərkən baş verən sosiallaşma prosedurları (sosial görüntüsü)

Əsas girişnöqtələri 1. Müəlliflər:kitab müəllifi, redaktoru və s. ola bilər 2. Resurs:informasiya resursu nəzərdə tutulur, bu kitab, dövri mətbuat, audio-video sənəd ola bilər 3. İstifadəçi:Sorğu olunan resursla bağlı individual isitifadəçi və ya istifadəçi qrupuna müraciət edilməsi.

Əlavə giriş nöqtələriqeyd edilən hər üç əsas giriş vasitəsilə digər semantik əlaqəli sosial şəbəkə elementlərinə çıxış.Bu elemetlər 1.əsas resurda edilən şərhlərə çıxış, öz qeydlərinin edilməsi , 2. həmin kitaba predmet mövzu baxımından yaxın olan kitablara keçid,3. əsas müraciət edilən istifadəçiyə yaxın olan digər istifadəçi qruplarına keçid və münasibətlərin yaradılması, 4. Əsas resurs müəllifi və onun əhatə dairəsində olan, oxşar mövzularda çalışan müəlliflərlə tanışlıq və s. elemntləri nümunə gətirmək olar.

Araşdırdığımız mövzuya uyğun olaraq akademik profilli elektron kitabxananın fondu artıq mütəxəssis istifadəçilər, cəmiyyətin fəal üzvüləri, elmi kütlə tərəfindən formalaşması, həçinin müxətlif istifadəçi kateqoriyalarının bir biri ilər inteqrasiyası, sosial əlaqələrin yaradılamsı təqdiqat obyektinə çevrilir.

Sosial elektron kitabxana şəbəkələrinin metrik aspektləri.Altmetriya: Son dövrlərdə informasiyanın sürətli artması – istər çap, istərsə də elektron nəşrlərin sayının xeyli yüksəlməsi həm elmi, həm də digər ədəbiyyatın qiymətləndirilməsini zəruri edir, bu məqsədlə kitabxanalarda bibliometrik üsullardan istifadə edilir. Bibliometriya – biblioqrafiyaya riyazi və statistik üsulların tətbiqi nəticəsində yaranan bir elmdir, kitabların, məqalələrin və digər nəşrlərin statistik analizi olub, tədqiqatçının, məqalələr toplusunun, tədqiqat istiqamətinin və ya institutun fəaliyyətini ölçən elmi istiqamətdir [7].

Bibliometriyanınüç əsas tətbiq sahəsi mövcuddur:

- Elmi informasiyanın əldə edilməsi – bibliometriya verilmiş istiqamət üzrə “qaynar” mövzuların müəyyən etməklə yanaşı bu informasiyanın əldə edilməsini də xeyli asanlaşdırır;
- Elmin struktur və dinamikasının öyrənilməsi – bibliometrik üsullar vasitəsilə elmin strukturunun xəritələndirilməsi və vizuallaşdırılması yeni trendlərin, tədqiqat sahələrinin və “qaynar” mövzuların aşkarlanmasına və elmin dinamikasının öyrənilməsinə xidmət edir;
- Tədqiqatın qiymətləndirilməsi və maliyyələndirilməsi – müasir tədqiqatçılar tərəfindən tədqiqatın nəticələrinin və yerinə yetirilmə səviyyəsinin ölçülməsi üçün üsullar yaradılır, tədqiqatın qiymətləndirilməsi üçün müqayisəli araşdırmalar aparılır.

Bibliometriyanın tətbiqi üç mərhələdə aparılır:

- Kəmiyyət analizi – verilənlər analiz olunur və vacib informasiya əldə olunur;
- Ölçmə - “Nəyi ölçə bilərik?”, “Nəyi ölçməliyik?” kimi suallar cavablandırılır, verilmiş məqsəd üçün ən uyğun ölçülər müəyyən olunur;
- Nümayiş və interpretasiya – bu mərhələdə diaqramlar və xəritələr hazırlanır, müşahidələrin interpretasiyası həyata keçirilir; bibliometrik indikatorların digər üsulların nəticələri ilə əlaqələndirilməsi.

2010-cu ildə yaranmış altmetriya (altmetrics – alternative metrics [8]) termini isə bibliometrik üsullara alternativ olaraq sosial şəbəkədə biliyin qiymətləndirilməsi üçün istifadə olunur. Altmetriya məqalələr üçün təyin olunmasına baxmayaraq jurnallar, müəlliflər, kitablar, verilənlər bazaları, repozitorilər, prezentasiyalar üçün tətbiq oluna bilər. Altmetriya yalnız istinadların sayına görə deyil, məqalələr üçün hesablanmış baxışlar, yükləmələrin sayı, qeyd olunmuş şərhlərə əsasən qiymətləndirməni yerinə yetirir.

Hal-hazırda altmetrik xidmətlər göstərən müxtəlif veb-səhifələr fəaliyyət göstərir [9], məsələn, ImpactStory tədqiqatın qiymətləndirilməsi üçün istifadə olunan veb proqramdır. Bu sistem Mendeley, Github, Twitter

kimi mənbələrdən məlumatı götürür və hesabat şəklində təqdim edir. Bundan əlavə, ReaderMeter, Sciencecard, PaperCritic və s. kimi saytları misal göstərmək olar.

Altmetriya kitabxanaçılar üçün aşağıdakı imkanları yaradır:

• Repozitorilərin uğurunun və dəyərinin, həmçinin xidmətin keyfiyyətinin qiymətləndirilməsi;

• Kitabxana kolleksiyasının "real dünya" tərəfindən necə qəbul olunduğunun təyini;

• Sifariş olunan məqaləni tapmaqla yanaşı, onun verilmiş oblastda nə dərəcədə populyar olmasının nümayiş etdirmə imkanı.

Altmetriya istinadlar və ya vebometriya deyil, onlardan fərqli olaraq daha cəld, strukturlaşmış və istifadəyə açıqdır [10].Altmetriya özündə tvitlər, bloq müzakirələri, əlfəcinlər (məsələn, mendeley.com), elmi-tədqiqat şəbəkəsi, istinadlar və başqa sosial media (məsələn, friendfeed.com/altmetrics və ya linkedin.com/groups/altmetrics-3917723) imkanlarını birləşdirərək daha geniş imkanlar təqdim edir, sosial media əsasında tədqiqatın analizinin aparılması məqsədilə yeni üsullar təklif və tədqiq edir.Nəticədə sadəcə nəşrin qiymətləndirilməsi deyil, həm də onun ətrafında baş verən müzakirələr, əməkdaşlıq və əlaqə kimi müxtəlif qiymətləndirmə formalarını və istifadə nümunələrini ölçməyə imkan verir.

Nəticə

Hal hazırda Respublikamızda informasiyanın toplanması, emalı, axtarışı və əldə edilməsi istiqamətində bir çox proqresiv işlər aparılır, dövlət proqramları qəbul edilir, müxtəlif layihələr və s. fəaliyyət istiqamətləri həyata keçirdilir.

Lakin müəyyən qədər dərindən izlədikdə müxtəlif yeniliklərin tətbiqi, standartlaşdırma, dil və qlobal inteqrasiya məsələlərində müxtəlif ciddi çatışmazlıqlar hiss olunur.Bu sosial, texniki, psixoloji (buraya coğrafi aspekti də əlavə etmək olar) problemlərlə əlaqədardır.Həmçinin müasir cəmiyyətdə informasiyanın sürətli artımı, bu artan informasiyanın idarəedilməsi üçün yaradılan sistemlərin çoxluğu düzgün, etibarlı və keyfiyyətli mənbənin seçimi məsələsini ortaya çıxarır.

Qeyd edilən çatışmazlıq, bunu yaradan səbəblər və əlaqəli məsələləri araşdırdıqda, həll yollarından sosiallaşma, fikir azadlığı, özünü təqdim etmə və bu s. elementlərin reallaşdırılması gündəmə gəlir. Bu baxımdan bir çox inkişaf etmiş ölkələrdə Elektron Humanitar istiqamətlər araşdırılır, buraya ``elektron sosiologiya``, ``elektron media``, ``semantik elektron kitabxana``, ``sosial şəbəkələr`` və s. istiqamətləri nümunə gətirmək olar. Hal hazırda isə məqalədə araşdırma obyekti kimi `` semantik elektron kitabxana`` və ``sosial şəbəkələr`` istiqamətlərinin inteqrasiya edərək respublikamızda daha yeni, perspektivli və geniş sosial mühiti əhatə edən ``sosial elektron kitabxana şəbəkələri`` istiqamətinin inkişaf etdirilməsi məsələləri diqqəti cəlb edir. Bu məsələlərin həlli Respublika səviyyəsində elemi, xüsusi, kütləvi və s. informasiya

mübadiləsinin keyfiyyətini, sürətini və əhatəliliyini artırma imkanına malik olacaqdır.


## ƏDƏBİYYAT

1. Kelsey, Todd. Social Networking Spaces: From Facebook to Twitter and Everything in Between: A Step-by-step Introduction to Social Networks for Beginners and Everyone Else. New York: Apress, 2010. – 509 p.
2. Əliquliyev, R.M. İmamverdiyev,Y. AbdullayevaY. F. Sosial şəbəkələr. Bakı : İnformasiya Texnologiyaları, 2010. - 286 s.
3. Bianco, Jamie Skye. "Social Networking and Cloud Computing: Precarious Affordances for the "Prosumer"" WSQ: Women's Studies Quarterly37.1-2 (2009): 303-12. Web.
4. Anderson, Paul. Web 2.0 and Beyond: Principles and Technologies. Boca Raton: CRC, 2012. Print.
5. McManus, Sean. Social Networking for the Older and Wiser: Connect with Family and Friends, Old and New. Chichester, West Sussex, U.K.: Wiley, 2010. – 268 p.
6. Starr, Joan. California Digital Library in Twitter-Land / J. Starr // Computers In Libraries, September 1, 2010. v. 30, no. 7. P. 23-27. ERIC, EBSCOhost Starr, Joan. 2010. "California Digital Library in Twitter -Land." Computers in Libraries 30 (7): 23-27.
7. http://search.proquest.com/docview/749790295?accountid=148209.
8. İsmayılova N.T. E-elm mühitində bibliometrik metodların tətbiqi imkanları və perspektivləri haqqında // Elektron elm problemləri üzrə I respublika elmi-praktiki konfransı, Bakı, Azərbaycan, 15-16 noyabr 2012. s. 25-26.
9. Piwowar H. A., Priem J. The Power of Altmetrics on a CV. Bulletin of the Association for Informations Science and Technology, 39(4), 2013, pp.10–13.
10. Munnoli S.S., Pujar S.M. Eugene to Altmetrics: A chase for virtual foot prints! // Annuals of Library and Information Studies, vol. 60, 2013, pp. 134-139.
11. http://www.swets.com/blog/altmetrics-for-librarians-and-institutions



**E.C.Mammadov,**
**N.T.İsmayilova,**
**F.S.Asgarov**


## THE MECHANIZMS OF IMPLEMENTATION ONLINE SOCIAL NETWORK TECHNOLOGIES IN MODERN DIGITAL LIBRARIES


### S U M M A R Y

The article examine the concept of social network, implementation of the information communication technologies in social network procedures, formation of online social networks. Also observed implementation of this technologies in establieshment of the modern digital libraries and presented possible perspectives of the social digital library formation.

**Э.Ч.Мамедов,**
**Н.Т.Исмайлова,**
**Ф. Ш.Аскеров**

## МЕХАНИЗМ ИМПЛЕМЕНТАЦИИ ОНЛАЙН СОЦИАЛЬНЫХ СЕТЕВЫХ ТЕХНОЛОГИЙ В СОВРЕМЕННЫХ ЦИФРОВЫХ БИБЛИОТЕКАХ

**Р Е З Ю М Е**

В статье рассматривается концепция социальных сетей, имплементация информационно-коммуникационных технологий, в процедурах социальных сетей, формация онлайн социальных сетей. Так же, исследуется имплементация этих технологий в основании современных цифровы библиотек и представляет перспективы в формировании социальных цифровых библиотек.

**ZahidəRZAYEVA**
***"Kitabxana resursları və informasiya axtarış sistemləri" kafedrasının müəllimi***

**Safura HACIYEVA**
***"Kitabxana fondu və kataloqları" laboratoriyasının müdiri***

## SUMQAYIT ŞƏHƏR KİTABXANALARININ SƏNƏD İNFORMASİYA FONDUNUN KOMPLEKTLƏŞDİRİLMƏSİ PROBLEMLƏRİ

***Açar sözlər:*** *Sumqayıt şəhəri,Mərkəzləşdirilmiş Kitabxana Sistemi, sənəd informasiya fondu, komplektləşdirilmə*

***Ключевые слова:*** *Сумгаит, Централизованная библиотечная система, документ информационного фонда, комплектования*

***Key words:*** Sumgait, Centralized Library System, the document information collection, recruitment

Məqalədə Sumqayıt şəhər kitabxanalarının sənəd informasiya fondunun komplektləşdirilməsi problemləri izah olunmuşdur.Mərkəzləşmiş kitabxana informasiya sistemində fondun formalaşmasına verilən tələblər ətraflı şərh olunmuşdur. Statistik ümumiləşmələr aparılmışdır.

Sumqayıtda kitabxana işinin tarixi doğma şəhərin yaranma tarixi ilə üst-üstə düşür. 1949-cu ildə ilk kütləvi kitabxana, 1953-cü ildə uşaq kitabxanası, 1958-ci ildə isə Mərkəzi şəhər kitabxanası açılıb. 1974-cü ildən etibarən Sumqayıtda dövlət kütləvi kitabxanalarını özündə birləşdirən Mərkəzləşdirilmiş Kitabxana Sistemi fəaliyyət göstərir. Hazırda Sumqayıt şəhər MKS özündə 14 kitabxananı birləşdirir. Uzun illər Sumqayıt şəhər MKS-nə şəhərdə kitabxana işinin təşkili və inkişafı sahəsində misilsiz xidmətləri olan Svetlana xanım Ağayeva rəhbərlik etmişdir. 2008-ci ildən isə bu sistem Yeganə xanım Əhmədovanın rəhbərliyi altında fəaliyyət göstərir. Əhalini fəal mütaliəyə cəlb etmək, siyasi, iqtisadi, hərbi durumumuzu, tariximizi, mədəniyyət və incəsənətimizi geniş oxucu kütlələri arasında təbliğ etmək məqsədilə MKS-də vaxtaşırı olaraq bir-birindən maraqlı tədbirlər keçirilir. Sistem kitabxanaları daha geniş oxucu kütlələrini kitabxanalara cəlb etmək məqsədilə öz işini Sumqayıt Dövlət Universiteti, Müəllimlər İnstitutu, Sumqayıt Texniki Kolleci, Ağsaqqallar və Veteranlar şurası, Gənclər və İdman Baş İdarəsi, Azərbaycan Yazıçılar Birliyinin Sumqayıt Bölməsi, Sumqayıt Təhsil şöbəsi, Əli Kərim adına Poeziya klubu, Sumqayıt şəhər Mədəniyyət evi, Uşaq və Yeniyetmələrin Yaradıcılıq Mərkəzi, H. Ərəblinski adına Sumqayıt Musiqili Dövlət Dram Teatrı və digər mədəni-maarif müəssisələri ilə əlaqəli həyata keçirir. Şəhər əhalisi və oxucular arasında apardığı gözəl təbliğatçılıq fəaliyyətinə görə respublika kitabxanaları arasında Sumqayıt şəhər MKS-in adı həmişə birincilər sırasında çəkilmişdir. Bu ənənəni bu gün də davam etdirən Sumqayıt şəhər MKS Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə həyata keçirilən müsabiqədə iştirak edərək respublika kitabxanaları arasında "İlin nümunəvi Mərkəzləşdirilmiş Kitabxana Sistemi" nominasiyasında 2010-cu ilin qalibi olmuşdur. Kitabxananın kollektivi müasir texnoloji vasitələrdən istifadə edərək oxucu sorğularını tez və dolğun ödəməyə çalışır. Kitabxanaların avtomatlaşdırılması sahəsində görülən işlər filiallarda da həyata keçirilir. Belə ki, MKS-in filiallarında da kompüterləşdirilmiş infrastruktur qurulmuş, kitabxanaların kompyuterlə, internetlə, WI-FI ilə təmin olunması həyata keçirilir.S. Vurğun adına Mərkəzi kitabxana 1958-ci ildən fəaliyyət göstərir. 1966-cı ildən böyük şairimiz S. Vurğunun adını daşıyır. Sahəsi 633,8 kvadratmetrdir. Kitabxana sistemə daxil olan bütün kitabxanalara metodik rəhbərlik edir. Mərkəzi kitabxanada 6 şöbə fəaliyyət göstərir: Mərkəzi kitabxanada oxucuya lazım olan kitabı tapmağa

kömək məqsədi ilə əlifba və sistemli kataloqlar, sistemli və ölkəşünaslıq kartotekaları tərtib edilmişdir. 2009-cu ildə S. Vurğun adına Mərkəzi kitabxananın veb-saytı yaradılmışdır. 2009-cu ildə kitabxanaya yeni proqram – Avtomatlaşdırılmış Kitabxana Sistemi İRBİS–64 kitabxana proqramı alınmışdır. Kitabxanada avtomatlaşdırılmış infrastruktur qurulmuş, elektron kataloq və elektron kitabxana yaradılmışdır. Hazırda müntəzəm olaraq elektron kataloqun bazalarında işlər və həmçinin elektron kitabxanaya dəyərli çap əsərlərinin yüklənməsi davam etdirilir. Hər bir İnternet istifadəçisi Kitabxananın Web səhifəsi vasitəsi ilə onun Elektron kataloqundan və digər elektron resurslarından istifadə edə bilər. Kitabxananın kollektivi öz işini ali və orta-ixtisas məktəbləri, Yazıçılar Birliyinin Sumqayıt şəhər filialı, Gənclər və İdman Baş İdarəsi, Təhsili şöbəsi, kütləvi informasiya vasitələri , Əli Kərim adına Poeziya klubu və digər mədəniyyət müəssisələri ilə əlaqəli quraraq informasiyanı əhalinin bütün təbəqələrinə çatdırmaq, oxucuları mütaliəyə daha fəal cəlb etmək məqsədilə müxtəlif mövzularda disput, dəyirmi masa, ədəbi-bədii gecə, oxucu konfransı, kitab müzakirələri və görüşlər keçirir. Yaxşı işinə görə kitabxana Azərbaycan KP MK-nın Keçici Qırmızı Bayrağını almış /1973, 1978/, müxtəlif illərdə Respublika Mədəniyyət Nazirliklərinin, şəhər rəhbərliyinin fəxri fərmanları ilə təltif edilmiş, SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri sərgisinin 3-cü Dərəcəli Diplomuna layiq görülmüş /1980/, Açıq Cəmiyyət İnstitutu-yardım Fondunun kitabxanalar proqramı çərçivəsində respublika kitabxanaları arasında keçirdiyi müsabiqədə /2003/ qalib gəlmişdir. 18 yanvar 1977-ci ildə S.Vurğun adına Mərkəzi kitabxana Azərbaycan SSR Mədəniyyət Nazirliyi tərəfindən respublika kitabxanaları üçün təcrübə bazası elan edilmişdir.

S. Vurğun adına Mərkəzi kitabxananın Xidmət şöbəsi əhaliyə abonement və oxu zalı vasitəsilə xidmət göstərir. Oxucuların müxtəlif sorğularını tez və dolğun ödəməyə çalışır, çap əsərlərindən səmərəli istifadə etməyə kömək edir, fondun qorunmasını həyata keçirir. Bundan başqa Mərkəzi kitabxananın oxu zalında ödənişsiz Wi-Fi zonası yaradılmış, kitabxanaya gələn oxucuların nootbukla, planşetlə, mobil telefonlarla internetdən sərbəst istifadəsi təmin olunmuşdur.

Şöbə oxucuların ümumtəhsil, mədəni və peşə sorğularının ödənilməsi üçün kitabxananın universal profilli kitab fondunu komplektləşdirir. Dövlət vəsaiti hesabına yeni ədəbiyyatları Respublika Kitabxana Kollektorudan almaqla, Prezident aparatından, M.F.Axundov adına Milli kitabxanadan kitab mübadiləsi yolu ilə, nəşriyyatların və müəlliflərin bağışladıqları kitablar hesabına kitab fondunu daim zənginləşdirir. Yeni daxil olan ədəbiyyatın uçotunu aparır, dövrü nəşrlərə abunə işini təşkil edir, kataloq sisteminin aparılmasına və fondun mühafizəsinə nəzarət edir.

Şöbə Mərkəzləşdirilmiş Kitabxana Sisteminə daxil olan kitabxanalar arasında ədəbiyyat mübadiləsi aparır, depozitar fondu təşkil edir. Sistem kitabxanaları arasında müvəqqəti kitab mübadiləsi yolu ilə oxucuların

sorğularının vaxtında və tam ödənilməsinə yardım edir. Vahid fondda lazım olan nəşrlər olmadıqda şöbə Kitabxanalararası abonement vasitəsilə M.F.Axundov adına Milli kitabxanadan və digər kitabxanalardan lazım olan çap məhsullarını müvəqqəti istifadə üçün əldə edir.

Kitabxanada hər il bir sıra planlı surətdə tədbirlər keçirilmişdir.2014-cü ildə keçirilən tədbirlərin siyahısı aşağıda xronoloji qaydada verilmişdir:

Ümumiyyətlə, Sumqayıt şəhər MKS-də kitabxana-informasiya resurslarının tematik-tipoloji təhlili zamanı müəyyənləşdirdiyimiz mühüm problemləri belə qruplaşdırmaq mümkündür:

Sumqayıt şəhərinin sosial-iqtisadi relyefinə uyğun olaraq neft və kimya mütəxəssislərinin informasiya təminatının operativliyi və ardıcıllığının artırılmasında

– Kitabxana-informasiya təminatını daha da operativləşdirmək üçün informasiya axtarış sistemlərinin həm mövzu baxımından, həm də məqsəd istiqaməti nöqteyi-nəzərindən daha da genişləndirilməsi və yenilərinin yaradılması;

– Müntəzəm olaraq oxucuların, o cümlədən mütəxəssislərin informasiya tələbatlarının öyrənilməsi və bunun əsasında kitabxana-biblioqrafiya fəaliyyətinin təşkil edilməsi;

–**S**umqayıt şəhər MKS-də kitabxanalarının kitabxana-informasiya axtarış sistemlərini məqsəd və istiqamətinə görə daha da operativləşdirmək və təkmilləşdirmək.

Yuxarıdakı tövsiyələrdən nəticəyə gəlmək olar ki, Sumqayıt iqtisadi cəhətdən inkişaf etmiş, təsərrüfatı,iqtisadiyyatı orda çalışan mütəxəssislərin sayı gündən günə artmışdır. Bu baxımdan mütəxəssislərə MKS-nin məlumat,informasiya,axtarış sistemlərində səmərəli istifadəsini təşkil etmək,sənəd informasiya fondunu zənginləşdirmək günün əsas problemlərimdən biridir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı // "Azərbaycan" qəz., 1995, 6 iyun.

2. "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamı // "Azərbaycan" qəz., 2007, 21 aprel.

3. "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət proqramı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı: 6 oktyabr 2008-ci il // "Azərbaycan" qəz., 2008, 6 oktyabr.

4. Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət proqramı // "Kitabxanaşünaslıq və biblioqrafiya" elmi-nəzəri və təcrübi jurnal, 2008, №2, s.7-30.

5. "Kitabxanaların fəaliyyəti haqqında" statistik müayinənin nəticələri barədə: Statistik bülleten /Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2009, 86 s.

6.Mehdiyeva R. S.Vurğun adina Sumqayıt şəhər MKS-də oxuculara kitabxana-informasiya xidmətinin təşkili // Kitabxanaçılıq-informasiya, 2012, №2 (8), s.93-97.

7.Tahirov K. M.F.Axundov adına Milli Kitabxananın tarixi(1923-2008-ci illər). B., 2008, 218 s.
8.Rüstəmov Ə.M. Respublika soraq-informasiya fondlarının avtomatlaşdırılması: Monoqrafiya. B: Azərnəşr, 1990, 220 s.
9.Sumqayıt Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 2001-2010-cu illər hesabatları.

***З.Рзаева,***
***С.Гаджиева***

## ПРОБЛЕМЫ КОМПЛЕКТОВАНИИ ФОНДОВ ГОРОДСКИХ БИБЛИОТЕК СУМГАИТА

### РЕЗЮМЕ

В статье освещены проблемыкомплектовании городских библиотек Сумгаита.А также особое внимание уделено на опыт работы ЦБС.Проведенные статистические обобщения.

**Z.Rzayeva**
**S.Hajiyeva**

## PROBLEMS ACQUISITION OF SUMGAIT CITY LIBRARIES

### SUMMARY

The article deals with the problem of acquisition of city libraries Sumgaita.A also paid special attention to the experience of CLS. Conducted statistical generalizations.

**Lalə ƏLİYEVA**
***Bakı Dövlət Universieti***
***“Biblioqrafiyaşünaslıq” kafedrasının magistranti***

# BİBLİOQRAFİK EVRİSTİKANIN NƏZƏRİ VƏ METODİKİ MƏSƏLƏLƏRİ

***Açar sözlər**: Biblioqrafik evristika,biblioqrafik axtarış,sənəd*
***Key words:** Bibliographic heuristics ,bibliographic search,document*
***Ключевые слова**: Библиографическая евристика, библиографический поиск документ*

Məqalədə “Evristika” haqqında ümumi məlumat öz əksini tapmışdır. Bundan əlavə məqalədə kitabxana-biblioqrafiya fəaliyyətində biblioqrafik informasiyanın əldə edilməsi yolları haqqında məlumat verilmişdir.

“Evrika” rəvayətə görə, Arximedin Sirəkuza şahı Hiyerin tacındakı qızıl və gümüşün miqdarını təyin etdikdən sonra qışqıraraq ucadan dediyi söz, mürəkkəb məsələlərin həlli tapılarkən, yeni fikir və yeni ideyalar yaranarkən razılıq və sevinc hissini bildirən ifadədir.

Evristika həqiqətən müvafiq köməkçi suallar vasitəsi ilə aşkar edilməsini nəzərdə tutan tədqiqat və təlim üsulları, pedaqogikada evristik müsahibə, mütərəqqi təlim forması kimi meydana gəlmiş və şagirdlərdə müstəqil təfəkkürün inkişaf etdirilməsinə yönəldilmişdir. Bu üsul Sokrat üsulu da adlanır. Mürəkkəb qərar qəbul etmə məsələlərinin həllində evristikaya əsaslanan üsulları öyrənir. Bu üsullar həlli tapmaq üçün lazımi axtarışların həcmini azaldır və məsələ həllini asanlaşdırır. Nəzəri və praktiki məsələlərin həlli ardıcıllıqla aparılır, məsələnin riyazi modeli qurulur. Düşünmə proseslərinin tədqiqi və başqa məsələlərdə istifadə olunur.

Biblioqrafik axtarışın elm üçün böyük əhəmiyyətini qəbul edən alimlər haqlı olaraq göstərirlər ki, nə qədər ki, ədəbiyyat tarixi biblioqrafiya sahəsinə yiyəlik və havadarlıq edir, onun nəticəsi bir o qədər də inandırıcı və həqiqətə yaxın mötəbər olacaqdır. Məhz hər hansı əsərin əldə edilməsi biblioqrafik axtarışdan başlayır.

Görkəmli alimlər hər hansı mövzusunun ilk mərhələsinin onun biblioqrafiyasının tərtib edilməsindən başlanmasının sözsüz vacib olduğunu qəbul etmişlər. “Biblioqrafik axtarış” anlayışını “Ədəbi faktın müəyyənləşdi-rilməsi”, “elmi-tədqiqat mövzusu üçün sənədlərin axtarılıb toplanması” mənasında dərk etmişlər.

Çox böyük vaxt ərzində “biblioqrafik axtarış” anlayışının mənası təkamül prosesində dəyişikliyə uğramış və yeni məzmun kəsb etməklə tədricən sabitləşmişdir. “Biblioqrafik axtarış”ın nəzəri və metodiki məsələlərini əhatə edən “Biblioqrafik evristika” haqqında fikir söyləyən və araşdırmalar aparan görkəmli alimlərdən N.Y.Ulyaninski, A.Q.Fomin, N.V.Zdobnov, E.N.Şamurin və P.N.Berkovun adını xüsusi qeyd etmək olar.

XX əsrin əvvəllərindən biblioqrafik evristikaya ilk xüsusi əsər N.Y.Ulyaninski tərəfindən biblioqrafların II Ümumrusiya qurultayında (1926) ediləcək məruzənin tezisləri halında hazırlanmış, qurultayda bu məruzə başqa bir mövzu ilə "Biblioqrafiyanın nəticələri haqqında məsələlərin nəzəri cəhətdən əsaslandırılması təcrübəsi" mövzusu ilə əvəz edilmişdir. Bir neçə ildən sonra (1929) «Biblioqrafik evristika" adı ilə xüsusi məqalə şəklində çap edilmişdir. N.Y.Ulyaniskiyə görə evristika hər hansı biblioqrafiya işinin ilkin mərhələsidir. Bu hər şeydən əvvəl materialın toplanmasıdır. O, biblioqrafik axtarışın metodikasının yaradılmamasının səbəbini biblioqrafiyanın ümumi inkişafının səviyyəsi ilə bağlayır. Biblioqrafik axtarışın metodikasını intuitiv üsulla işıqlandırır.

Rus alimi A.Q.Fomin yazır: "Baxmayaraq ki, ədəbiyyat tarixində axtarış mühüm rol oynayır, amma onun metodikası qəti olaraq işlənməmişdir. Bu məsələyə aid bizdə xüsusi bir əsər yoxdur"(4,s.135), biblioqrafik axtarışın metodikasını şəxsi təc-rübəsinə əsasən işıqlandırır. Onun fikirləri N.Y.Ulyaniskinin nəticələrinə çox uyğun gəlir. Lakin A.Q.Fomin biblioqrafik axtarışın tiplərini və onların xarakterik xüsusiyyətlərini müəyyən etmiş, tövsiyə etdiyi sualların köməyi ilə biblioqrafiyalaşdırmada materialları müəyyən mövzu üzrə qruplaşdırmışdı. 28 biblioqrafik axtarışın tipinin nümunəsini vermişdir. O, biblioqrafik axtarış» anlayışını daha geniş mənada başa düşmüşdür. A.Q.Fominin təcrübi-müəllimlik fəaliyyətində biblioqrafik axtarışın metodikası yaranmış və formalaşmışdı.

A.Q.Fominin nöqteyi-nəzəri E.İ.Şamurinin "Biblioqrafiya işinin metodikası" adlı kitabının beşinci fəslində öz əksini tapmışdır. Fərqli cəhət ancaq "axtarış tipinin sayında" özünü göstərir. Bundan sonra biblioqrafik axtarışın bəzi cəhətləri alim və biblioqraf M.A.Briskmanın Sadavanın «Поиск книги» kitabına yazdığı müqəddimədəöz əksini tapır. O, qeyd edir ki, "alim və yazıçıların diqqətsizliyi, ehtiyatsızlığı nəticəsində biblioqrafik axtarış baş verir. Şübhəsiz ki, biblioqrafik faktın dəqiqləşdirilməsinin əsasında həmişə kiminsə səhvi və nöqsanı durur". Əlbəttə, səhv yaxud nöqsana görə biblioqrafik axtarışın vacibliyini izah etmək doğru olmaz. Biblioqrafik axtarış başqa hallarda daha çox baş verir və tam aydınlığı ilə demək olar ki, heç bir səhv və nöqsan üzündən aparılmır. Əlbəttə, biblioqrafik axtarışda müəllifin və mənbənin düzgün verilmədiyinə rast gəlmək olur. Ancaq biblioqrafik axtarışı səhvlərin aradan qaldırılmasının nəticəsi kimi şərh etmək biblioqrafik axtarışın mübahisəsiz olaraq elmi tərəqqinin hərəkətvericisi, çap əsərlərindən həqiqi faktı müəyyən etmək vasitəsi kimi əhəmiyyətini azaltmaq demək olardı.

Biblioqrafik evristikanın ümumi məsələləri N.N.Berkov tərəfindən seçilmiş əsərlərində işıqlandırılmışdır. Akademik V.V.Vinoqradov "evristika" anlayışını nəzəri cəhətdən müstəqil sahə hesab edərək onu "ədəbi evristika" adlandırır və onun hələ işlənməmiş, tədqiqata möhtac olan ədəbiyyatşünaslığın yardımçı, perspektivli elmlərindən biri hesab edir.

Görkəmli mənbəşünas, keçmiş SSRİ EA-nın müxbir üzvü N.F.Borisov “evristika”nı yardımçı elm kimi deyil, mənbəşünaslığın tərkib hissəsi kimi izah edir və göstərir ki, biblioqrafik evristikanın nəzəri və metodiki məsələləri biblioqraf, arxeoqraf və mənbəşünas alimlər tərəfindən getdikcə zənginləşdirilir (3,s.64). Tanınmış rus alimi A.A.Qreçixinin yazır: “Burası da var ki, ədəbiyyat tarixi sahəsində biblioqrafik axtarış həmişə bu iki dairədə-biblioqrafiya və ədəbiyyat tarixində aparılır. Belə biblioqrafik axtarışın metodu filologiya elmlərinə uyğun gəlir, bir-birilə çulğalaşır və ola bilsin ki, ədəbi kitabın obyektini biblioqrafik və filoloji araşdırmaq adlandırmaq daha doğru olardı”.

Görkəmli alim Ə.Mirəhmədov “evristika” anlayışını belə açıqlayır: “Evristika- müxtəlif səciyyədə olan ədəbiyyatşünaslıq axtarışlarının məcmuusu, çox vaxt fərdi səciyyə daşıyır. Bir əsərin müəllifini, ya bir məktubun, əsərin tarixini, kimə yazıldığını müəyyənləşdirmək; ədəbi mistifi-kasiyanı açıb izah etmək; hər hansı bir əsərin, yaxud onun yazılmasına kömək etmiş məxəzin müəyyən bir zaman, ya məkana aid olduğunu əsaslandırmaq (lokalizasiya); bioqrafik tədqiqat, prototiplərin axtarılması və i.a

Biblioqrafik evristika isə biblioqrafik axtarışların nəzəriyyə və metodika-sından bəhs edir. O, sadə və mürəkkəb səviyyədə ola bilər. Birinci halda sadəcə, müəyyən bir məsələyə dair ədəbiyyat seçilir, ikinci halda isə müxtəlif tədqiqat üsullarından istifadə yolu ilə, məsələn, adı məlum bir əsərin müəllifi, sərlovhəsi, harada olduğu, hər hansı bir nəşrin qüsurlarının, yaxud az tapılmasının səbəbləri və s. araşdırılır».

Biblioqrafik evristika tanınmış biblioqraf alim Ə.Xələfov tərəfindən “Bədii ədəbiyyat və ədəbiyyatşünaslığın biblioqrafiyası” (1986)(28) adlı dərs vəsaitində bir qədər geniş şəkildə işıqlandırılmışdır. Lakin mövzu iş təcrübəsi əsasında işıqlandırılmamış qalmışdır. Bunu nəzərə alaraq dissertasiya işində mövzunun faktlar əsasında işıqlandırılması bir məqsəd kimi qarşıya qoyulur.

Biblioqrafik axtarış problemi kitabxana-biblioqrafiya fəaliyyətinin başlıca prosesidir. Kitabxana-biblioqrafiya müəssisələrinin informasiyanın müxtəlif formalarından istifadə edilməsində böyük rolu və əhəmiyyəti vardır. Müasir elm, mədəniyyət, incəsənət, təhsil və şəxsi təhsil sistemi dairəsinin məlumatla təmin edilməsi, elmi- təcrübi problemlərin arasında biblioqrafik informasiyanın axtarılması ən mühüm yerlərdən birini tutur.

Professor Z.H.Əliyev “Ümumi biblioqrafiyaşünaslıq” (2001) adlı dərs vəaitində yazır: “Biblioqrafiyalaşdırmanın və biblioqrafik xidmətin ilkin əsası biblioqrafik axtarışdır. Biblioqrafik axtarış müəyyən topluda nəyinsə aşkar edilib müəyyənləşdirilməsi məqsədilə aparılan prosesləri nəzərdə tutur”(2,s37).

Müəyyən sənəd yaxud sənədlər haqqında informasiyanın əldə edilməsi yollarını göstərən biblioqrafik axtarış kitabxana-biblioqrafiya fəaliyyətinin bütün formalarının ilkin əsasını təşkil edir. Kitabxana-biblioqrafiya prosesinə, biblioqrafik vəsaitin siyahı və xülasənin, kataloq və kartotekanın tərtibinə,

kitab sərgisinin təşkilinə, kitabxana fondunun komplektləşdirilməsinə soraq-biblioqrafiya işinə, ədəbiyyatın kitabxana-biblioqrafik təbliğinə, mütaliəyə rəhbərliyə üzvü surətdə daxil olur. Buna görə də biblioqrafik axtarışın metodikasına yiyələnmək, onu yaradıcılıq işinin əsası kimi anlamaq, ona professional biliyin, kitabxana- biblioqrafik bacarıq və vərdişin mühüm tərkibi kimi baxmağa imkan verir. Bununla belə biblioqrafik axtarış yalnız kitabxana-biblioqrafiya işində, professional fəaliyyətdə iştirak etmir, o, həm də mütəxəssisin elmi axtarışının, elmi fəaliyyətinin ayrılmaz tərkib hissəsidir.

Biblioqrafiyada istifadə edilən bütün bu istiqamətlər nəticə etibarilə lazım olan informasiyanın tapılması üçün biblioqrafik axtarış aparılır. Biblioqrafiyaya müraciət edilən məqsədin axtarış vəzifəsini nəzərdə tutmadığını təsəvvür etmək mümkün deyildir.

Biblioqrafik axtarış oxucu-yəni geniş ədəbiyyat həvəskarlarının dairəsinə, fəaliyyətinə də daxildir. İstər təcrübəli, istərsə də yeni oxucu kataloqdan, kartotekadan, biblioqrafik vəsaitdən istifadə etməyi bacarmalıdır. Kitab seçərkən, özünün şəxsi marağını və sorğusunu ifadə etməkdə çətinliklərlə qarşılaşır. Biblioqrafik üslubu, təsviri, kitabxana təsnifatını, isnadları başa düşmür. O, biblioqrafik axtarışı bu və ya digər ölçüdə aparmağa məcburdur. Belə hallarda kitabxanaçı-biblioqrafın rolu oxucuya köməklik etməkdən, onların müstəqil biblioqrafik axtarış aparmasına yönəltməkdən-ibarətdir. Buna görə də müxtəlif oxucu qruplarının axtarış fəaliyyətlərinin xüsusiyyətlərini bilmək və onu daim öyrənmək, biblioqrafik biliyi təbliğ etmək metoduna yiyələnmək, oxucunun mütaliə mədəniyyətini tərbiyə etmək vacibdir. Bu həmçinin kitabxana-biblioqrafiya işinin təşkilinə və istifadə edilməsinə, mütəxəssislərin professional bilik dairəsinə daxildir.

Biblioqrafik axtarışın effektivliyi hər şeydən əvvəl biblioqrafik mənbələrin vəziyyətindən, biblioqrafik vəsaitlər sisteminin axtarış imkanlarından, həmçinin hər bir vəsaitin necə tərtib olunmasından asılıdır. Bununla əlaqədar kitabxanaçı biblioqrafik mənbələrin axtarış imkanlarını təyin etmək vərdişinə yiyələnməlidir. Axtarışın əhatə dairəsini təcili və dəqiq təyin etməyi bacarmalıdır. Bütün bu problemlər sahəvi biblioqrafiyaşünaslığın xüsusi bölməsi olan «biblioqrafik evristika»da araşdırılır.

Biblioqrafik axtarış professional (kitabxana-biblioqrafiya) və professional olmayan (oxucuların) fəaliyyətin xüsusi növü kimi özünün bütün çoxcəhətliliyini biblioqrafik evristikanın obyekti kimi göstərir.

Biblioqrafik axtarışın xüsusiyyətləri hər şeydən əvvəl ondan ibarətdir ki, oxucunun professional və professional olmayan fəaliyyətinə qarşılıqlı təsir göstərir, elmin və təcrübənin müxtəlif dairəsinə üzvü şəkildə daxil olur. Buna görə də biblioqrafik axtarış tədqiqatın və bir çox başqa elmlərin obyekti kimi də çıxış edir, özünü göstərir. (1,s95)

Biblioqrafik evristikanın ilkin əsasını təşkil edən biblioqrafik axtarış problemi kitabxana-biblioqrafiya fəaliyyətinin başlıca prosesidir. Kitabxana-biblioqrafiya müəssisələrinin informasiyanın müxtəlif formalarından istifadə

edilməsində böyük rolu və əhəmiyyəti vardır. Müasir elm, mədəniyyət, incəsənət, təhsil və şəxsi təhsil sistemi dairəsinin məlumatla təmin edilməsi, elmi- təcrübi problemlərin arasında biblioqrafik informasiyanın axtarılması ən mühüm yerlərdən birini tutur.

## ƏDƏBİYYAT


1.Əliyev Z.H. Milli biblioqrafiya biblioqrafik resursun tərkib hissəsi kimi//Kitabxanaşünaslıq və biblioqrafiya: elmi ,nəzəri və təcrübi jurnal.2000, №2, s.94-103,Biblioqr:5adda(N.İ.İsmayılov, Ç.Rüstəmova, S.A.Sadıqovailəbirlikdə)

2.Əliyev Z.H. Ümumi biblioqrafiyaşünaslıq: Dərs vəsaiti. B.: BDU, 2001,s.36-40

3.Борисов К.А. Перспективная модель библиографического поиска в Интернете //Библиог., 2009, №1, с.64-66.

4.Фомин А.Г. Избранное. М.:Книга, 1975,  С.125-139.



**L.Alieva**


## THEORETİCAL AND METHODALOGİCAL İSSUSES OF BİBLİOGRAPHİC HEURİSTİCS


**SUMMARY**

In article reflected general information about bibliographic heuristics and bibliographic search.



**Л.И.АЛИЕВА**


## ТЕОРИТИЧЕСКИЕ И МЕТОДОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ БИБЛИОГРАФИЧЕСКОЙ ЭВРИСТИКИ


**РЕЗЮМЕ**

В статье отражается общая информация о библиографических евристике и библиографического поиска

**Orxan AGAMİRZƏYEV**
*AMEA-nın MEK-in doktorantı*

# İNFORMASİYA MENECMENTİNİN BƏZİ PROBLEMLƏRİ

***Açar sözlər:*** *informasiya menecmenti, informasiya məkanı,kitabxana-informasiya xidməti, mötəbər informasiya.*

***Ключевые слова:*** *информационный менеджмент,информационная пространства, библиотечно-информационная обслуживание, достоверная информации.*

***Keywords:****information management, information space, library and information service, reliable information.*

İnsan cəmiyyəti əmtəə iqtisadiyyətindan maliyyə iqtisadiyyatına, maliyyə iqtisadiyyatından informasiya iqtisadiyyatına keçməklə XXI əsrin səciyyəsini qarşıya qoydu. İnformasiya əmtəəyə çevrildikcə "cazibədarlıgı" artır, ciddi müzakirələrin predmetinə çevrilir, yeni nəzəriyyələr meydana çıxır.

Qeyd etməliyik ki tarix boyu kitabxanalar cəmiyyətin informasiya resurslarını toplayan, sistemləşdirib mühafizə edən, məsafəyə və zamana ötürən ən mötəbər informasiya xidməti müəssisələri olmuşdu**.(1)** Kitabxanalar nəinki bu missiyanı layiqincə yerinə yetirə bilmişdir eləcə də insan cəmiyyətinin mədəni inkişafında əhəmiyyətli rol oynamışdır.

Bu gün informasiya cəmiyyətinin quruldugu şəraitdə informasiya menicmentində iqtisadi və rasional amillər ön plana keçir. Bütün növ informasiya xidməti prosesləri iqtisadi kateqoriyalarla qiymətləndirilir və menecerlərin iqtisadi başarıq və vərdişləri əsas ğötürülür.

Kitabxana-informasiya fəaliyyətinin spesifikliyi, onun mədəni, sosial, siyasi, psixoloji və pedoqoji xassələri fəaliyyətin qiymətləndirilməsində vahid bir formulun işlənib hazırlanmasını daim mürəkkəbləşdirən bir amil olmuşdu. Bu məsələ bütün dövrlərdə mütəxəssislərin diqqətini cəlb etmiş, qiymətləndirmə zamanı bir necə istiqamət əsas olaraq götürülmüşdü: siyasi (dövlət və güc atributunu ifadə edən) qiymətləndirmə və dəyər (maddi ekvivalentini) ifadə edən qiymətləndirmə. Deməli ənənəvi olaraq informasiya menecmenti iki faktordan asılıdır.1.Siyasi amillər. 2.İqtisadi amillər.(3)

Beləliklə, informasiya menecmentinin qarşıda duran mühüm problemlərindən biri də müasir və obyektiv qiymətləndirmə mexanixmlərinin işlənib hazırlanmasıdır.

Kitabxana informasiya xidməti, eləcə də kitabxana informasiya məhsulu barədə mütəxəssislərin müxtəlif fikirləri mövcuddur. Tədqiqatçı İ.S.Pilko yazır: “Kitabxana-sosial əhəmiyyətli sənəd, informasiyasının ictimai istifadəsini təmin edən əsas və tarixən ilkin informasiya institutu, informasiya məhsulları və xidmətlərinin istehsalçılarından birincisi sayılır”. Çoxəsrlik tarixi boyu kitabxanalar - istifadəçilərin informasiya sorğularının ödənilməsi istiqamətində öz forma və metodlarını işləyib hazırlamış və inkişaf etdirmişdi.

“Kitabxana məhsulu” və “kitabxana xidməti” anlayışlarının tam eyniləşdirilməsi və yaxud onların kitabxana fəaliyyətinin maddiləşmiş məhsullar və maddiləşmiş xidmətlər nəticələri səviyyəsində fərqləndirilməsi çox geniş yayılmışdır.(4. s.58) İlkin anlayışların həcmi və məzmununun dəqiqləşdirilməsinin nəzəri aspektlərindən savayı, bu problem, tətbiqi əhəmiyyətə malikdir. Kitabxana məhsulları və kitabxana xidmətlərinin keyfiyyət spesifikasının tələbatçı xüsusiyyətlərinin üzə çıxarılması onların çeşid dinamikasının izlənilməsini əhatə edir.

Kitabxana xidməti tarixən formalaşan və inkişaf edən sorğuların ödənilməsinə yonəldilib. Belə demək olarsa, sorğu xidməti yaradır, xidmət məhsulu. Daim mürəkkəbləşən tələbat istehlakçı sorğusu, böyüməkdə olan informasiya kütləsinin içərisində kitabxanalara da informasiya xidmətinin relevantivliyini və informasiyanın erqonomikliyini qarşıya çıxarır. Belə nəticə çıxarmaq olar ki, əyər sorğu varsa, xidmət məhsulu törədir. Prosesin ardıcıllığını aşağıdakı kimi göstərmək olar.

1.İnformasiya tələbatı.
2.İnformasiya sorğusu.
3.İnformasiya xidməti.
4.İnformasiya məhsulu.(5.)

Kitabxana xidməti müasir texnologiyaların verdiyi imkanları ümum ləşdirərək bir sıra alqoritmlərin kontekstində həyata keçirilir. Sorğu olunan informasiyanın ötürülməsi və daşınması imkanları müasir kitabxana xidmətində ənənəvi kitabxana olduğundan formaca xeyli fərqlənir. Lakin mahiyyət etibarılə az şey dəyişib. Hər hansı informasiya kitabxana prosesinə cəlb olunursa, o artıq kitabxana informasiya məhsuluna cevrilir.

Y.N.Stolyarov kitabxana xidmətini kitabxananın social təyinatının reallaşdırılması ilə əlaqələndirərək, “Kitabxana xidmətlərinin standart spektri”ni müəyyənləşdirmişdir. Abonentin, kitabxana fondundan, soraq-biblioqrafiya aparatından, kitabxana binasından, avadanlıq və digər vasitələrdən istifadə etmək hüququ; sənədlər haqqında vacib məlumatların axtarışında abonentə kömək edilməsi; tələb olunan sənədlərin axtarışı və çatdırılması; oxucuların tələbatlarına müvafiq sənədlər və onlarla bağlı rəylər haqqında abonentlərin məlumatlandırılması; abonentlər arasında, həmçinin

onların mütəxəssislərlə maraqlandıqları mənbələr haqqında ünsiyyət aparmalarının təmin edilməsi; oxuculara kitabxana-biblioqrafiya biliklərinin öyrədilməsi, onlarda oxucu mədəniyyətinin formalaşdırılması prosesləri bura daxildir.

- Konkret kitabxana fondunda konkret sənədin mövcudluğu haqqında informasiyanın əldə edilməsi;
- Kataloqlar sistemi və kitabxana məlumatının digər formaları vasitəsilə kitabxana fondlarının tərkibi haqqında tam informasiyanın əldə edilməsi;
- İnformasiya mənbələrinin axtarışı və seçimində məsləhətin alınması;
- Kitabxana fondlarından istənilən sənədin müvəqqəti istifadəsi məqsədilə əldə edilməsi;
- KAA vasitəsilə sənədlərin və onların surətlərinin əldə edilməsi.

Beləliklə, kitabxananın sənəd fondları və onların birliyi (kitabxana şəbəkələri və sistemləri) bazasında reallaşan xidmətlər ənənəvi "kitabxana" xidmətləri hesab oluna bilərlər. Xidmətlərin təqdim edilməsi isə öz növbəsində spesifik kitabxana (biblioqrafik) məhsullarının (kataloqlar, kartotekalar, verilənlər bazası, biblioqrafik siyahılar, ədəbiyyat göstəriciləri, informasiya bülletenləri və s.) yaradılmasını tələb edir. Bununla da kitabxana fondlarının effektli istismarı təmin edilir. Kitabxana məhsulları və xidmətlərinin təsnifatı problemi tədqiqatçıların və praktiklərin diqqətini cəlb etsə də, hələ ki, özünün yekun nəticəsindən çox uzaqdır. Ədəbiyyatda ən çox sitat gətirilmiş təsnifat variantlarına uyğun olaraq, aşağıdakı xidmətlər fərqləndirilir:

- sənəd xidmətləri – abonentlərə ilkin və ikinci dərəcəli sənədlərin təqdim edilməsinin nəticəsi;
- kommunikativ xidmətlər – kitabxana şəraitində insanların bilavasitə ünsiyyəti (söhbət, konfrans, müzakirə və s.) prosesində sənədsiz xidmətin nəticəsi.

Kitabxana servisi xidmətləri-sənəd və kommunikativ xidmətlərin növləri və formaları aşağıdakılardır

1. Fondlara açıq giriş.
2. Maraqlara görə klublar.
3. Lektoriyalar.
4. İxtisaslaşmış abonementlər.
5. Oxu zallarından istifadə.
6. Stasionardan kənar məntəqələr.
7. Səyyar kitabxanaların təşkili və s..(4)

İnformasiya məhsulları və xidmətlərində olduğu kimi istənilən mümkün xarakteristikalardan hər biri (informasiya tələbatlarının növü, forması, məzmunu, məqsədi, istifadəçilərin kateqoriyası, informasiyanın xarakteri, istehsal üsulu, maliyyə mənbəyi, təqdimedilmə yeri, vaxtı, şərti və s.) kitabxana məhsulları və xidmətləri təsnifatının müstəqil əsası ola bilər. Həm də kitabxana öz servisini "xidmətlərin standart spektri" ilə

məhdudlaşdırmayaraq, informasiya, təhsil və sosial-mədəni texnologiyaların mənimsənilməsi hesabına onun sərhədlərini genişləndirir.

Kitabxana təcrübəsinə avtomatlaşdırılmış informasiya texnologiyalarının tətbiqi effekti ilk növbədə kitabxana məhsulları nomenklaturasının inkişafına və kitabxananın biblioqrafik xidmətlərinin informasiya bazasının genişlənməsinə təsir etmiş oldu. Beləliklə, ənənəvi kataloq və kartotekalar, ədəbiyyatın biblioqrafik göstəriciləri ilə bərabər, onların maşınla oxunan variantları da meydana gəlmiş oldu (kitabların, dövri nəşrlərin, yeni daxil olan ədəbiyyatların, nəşrlərin xüsusi növlərinin elektron kataloqları, ölkəşünaslıq və tematik biblioqrafik verilənlər bazası və s.). Kitabxanada biblioqrafik xidmət “elektron” erasından əvvəl lokal fondlarla məhdudlaşmış, region, ölkə, zərurət olduqda isə daha geniş hüdudlar miqyasında sənəd kütləsi və axınına istiqamətlənmişdir. Hazırda təkcə biblioqrafik çap nəşrləri deyil, həmçinin onların daim təzələnən elektron variantları, CD ROM-da geniş axtarış imkanlarına (biblioqrafik yazının istənilən elementi üzrə), informasiyanın çox rahat təqdimedilmə üsuluna (istifadəçinin fərdi kompyuterinə) və istənilən daxilolma rejimində (uzaq məsafə də daxil olmaqla) verilənlər bazası axtarış mənbəyi ola bilər. Məhz verilənlər bazasına uzaq məsafədən daxil olmaq imkanı həqiqətən də axtarışın potensial mənbələrinin beynəlxalq əhatəsini (əgər texniki və maliyyə xarakterli məhdudiyyətlər olmazsa) real edir. “Virtual arayış” yeni biblioqrafik xidmətə çevrilir. Buna görə də, müasir biblioqrafların paylanmış informasiya kütləsində axtarış strategiyasını mənimsəmələri lokal kitabxana fondlarında düzgün istiqamətlənmək bacarığı kimi əhəmiyyət kəsb edir.

Faktoqrafik məhsulların yaradılması və aktuallaşdırılması proseslərinin ağırlığına görə, bu məhsulların hazırlanması kitabxanada məhdud şəkildə yayılmışdır. Əvvəl bu, istifadəçilər üçün aktual olan tematik dosyelər (yerinə yetirilən faktoqrafik arayışların surətləri və ya ilkin sənədlərin toplusu), ölkəşünaslıq məzmunlu hadisələrin xronikası və salnamələr idi. Bu gün onların çeşidi tədris müəssisələrinin, məişət servislərinin və sosial xidmətlərin, turizm firmalarının, istirahət yerlərinin və s. ünvan-soraq verilənlər bazası ilə genişlənmişdir. Məşğulluq xidmətləri və sosial müdafiə müəssisələri ilə birlikdə kitabxanalar əmək vakansiyalarının, ünvanlı sosial yardımların və kütləvi tələbatın digər informasiyaları üzrə “elan lövhələrini” təşkil edirlər. Kitabxanalarda reklam, konyuktura, kommersiya informasiyasının verilənlər bazasının formalaşdırılması təcrübəsi o qədər də geniş yayılmamışdır. Bu iş, xüsusi bilik, müvafiq resurs təminatını, biznes-informasiya bazarının öyrənilməsi üzrə ciddi marketinq tədqiqatlarının aparılmasını tələb edir. Fərdi sorğular üzrə kitabxanalarda həyata keçirilən faktoqrafik xidmətlərin (faktoqrafik arayışların) yerinə yetirilməsi əsasən kütləvi tələbat sorğusunu və ya xidmət profilini əks etdirir.

Elmi informasiya tədqiqatları ilə yanaşı olan informasiyanın analitik işlənməsi, informasiya bazarının inkişafının perspektivli tendensiyası hesab

edilməsinə baxmayaraq, kitabxanalar tərəfindən elmi-analitik məhsulların (analitik arayışlar və xülasələr, problem və yekun məruzələrin, referativ tərcümələrin, keçirilən elmi tədqiqatlar haqqında hesabatların və s.) çeşidinin və buraxılış həcminin kəskin şəkildə artacağını gözləməyə heç bir əsas yoxdur. Bu iş strukturunda ixtisaslaşmış analitik və tədqiqat altbölmələri olan federal, akademik kitabxanaları üçün mümkündür. Ancaq regional (universal elmi), iri bələdiyyə, ali məktəb kitabxanaları (və onların birlikləri) çap olunmayan və aztirajlı elmi informasiya məhsullarının (daycestlərin, kitabxanaların fəaliyyəti haqqında məruzələrin, metodiki və metodiki - biblioqrafik işlərin, elmi-praktiki konfrans materiallarının, elmi-tədqiqat işlərinin nəticələrinin, informasiya- analitik bülletenlərinin və ardı davam edən topluların) hazırlanmasında kifayət qədər fəaldırlar. Məhdud tətbiq (kitabxana) sferasına baxmayaraq, elmi toplulardakı və xüsusi mətbuatda çıxan nəşrlərlə bərabər, bu materiallar kitabxana fəaliyyətinin vəziyyəti və inkişaf perspektivləri, qazanılan təcrübə və onun metodiki anlayışı haqqında unikal mənbə hesab edilir.

Kitabxanalar inkişafın marketinq strategiyasını mənimsəyərək, öz fəaliyyətlərinin reklam olunması (reklam məhsullarının hazırlanması və reklam xidmətlərinin təqdim edilməsi ilə) məşğul olurlar. Onlar plakatlar, prospektlər, kataloqlar, vərəqələr, elanlar, informasiya məktubları, bələdçilər kimi çap və elektron (kitabxanaların saytlarında yerləşdirilən) reklam məhsullarını istehsal edirlər; firma blankları, bloknotlar, ofis ləvazimatları buraxır; reklam filmləri, nəşrləri, kompyuter təqdimatları və s. hazırlayırlar. Kitabxanalar reklam tədbirlərinin: təqdimatların, mətbuat-konfranslarının, açıq qapı günlərinin, ekskursiyaların, sərgilərin, yarmarkaların və s. keçirilməsini təşkil edirlər. Bir sıra kitabxanalar xarici təşkilatlara xidmət kimi reklam tədbirlərinin keçirilməsi, kitabxana binasında və onun nəşrlərində reklam məhsullarının yerləşdirilməsi ilə bağlı köməkliklərini təklif edirlər. Vahid təhsil məkanında öz yerini müəyyənləşdirərkən kitabxanalar istifadəçilərə maarifçi xidmətlərini təqdim edirlər. İnformasiya axtarışı metodikası, biblioqrafik qeydlərin, ədəbiyyat siyahılarının, tədris və elmi işlərin əlyazmalarının tərtibi, biblioqrafik informasiya mədəniyyətinin, ədəbiyyatla iş vərdişlərinin, sürətli oxu metodikasının formalaşması üzrə məşğələlərin keçirilməsi qaydaları ilə bağlı məsləhətlər kitabxanalar üçün ənənəvi hesab edilir. Kitabxanaların nəzdində xarici dillərin tədris kursları, estetik inkişaf məktəbləri, lektoriyalar, diskussiya klubları, yaradıcılıq qabiliyyətinin inkişafına, praktiki bacarıq və sənətə yiyələnməyə istiqamətlənmiş maraqlar üzrə kurslar fəaliyyət göstərir.

Kitabxanaların maarifləndirici fəaliyyətinin yeni və perspektivli istiqamətlərinə-kompyuter siniflərinin təşkili, kompyuter savadının əsaslarının tədrisi, distant təlim, fasiləsiz təhsil, kadrların ixtisasının artırılması layihələri və proqramlarında iştirakı və s. aid edilə bilər. Kitabxanaların nəzdində İnternet mərkəzlərinin yaradılması, müxtəlif istifadəçi kateqoriyaları üçün müasir informasiya texnologiyaları sahəsində konsaltinq və maarifləndirici

xidmətlərin geniş spektrinin inkişafını stimullaşdırmış oldu (könüllülərin məsləhət xidməti, seminarlar, treninqlər, usta-siniflər, kurs hazırlığı). Bütün bunlar kitabxana heyətindən maarifləndirici fəaliyyətə həvəskar deyil, müasir texnologiyalara peşəkarcasına yiyələnməyi tələb edir.

Mədəni proqramlar və asudə vaxt fəaliyyətinin formaları (festivallar, müsabiqələr, oyun proqramları, şifahi jurnallar, ədəbi-musiqili kompozisiyalar, tematik gecələr, oyun-viktorinalar və s.) uzun illərdir ki, kitabxanaların iş təcrübəsində mükəmməlləşmişdir. Sosial-asudə vaxt fəaliyyəti texnologiyası, onun metodları, vasitələri, resurs və nəticələri haqqında xüsusi bilik; ssenari hazırlığında, rejissorluqda, işlərin təşkilində peşəkar bacarıq; yaradıcılığın psixoloji motivlərinin və tamaşaçı qavrayışı xüsusiyyətlərinin uçota alınmasını tələb edir. Asudə vaxt xidmətlərinin hazır-lanması və təqdim edilməsi zamanı kitabxanaçılardan nəinki istedad, həmçinin xüsusi hazırlıq tələb olunur. Ümumiyyətlə, xidmət işinin təşkili kitabxana personalı tərəfindən informasiya mühəndisi xüsusiyyətlərinə malik olmasını tələb edir. Sorğunu öyrənmək (fərdi, qrup, social, psixoloji), onun təminatı məqsədilə məhsulu (informasiya məhsulunun hər hansı bir növünü) müəyyən-ləşdirmək və ya istehsal etmək, xidmət işinin forma və metodlarını modelləşdirmək informasiya menecmentinin vəzifələridir.

Kitabxana-informasiya fəaliyyətinə yeni texnologiyaların tətbiqi yeni tətbiqi istiqamətlərin meydana gəlməsinə səbəb oldu. Kitabxana təcrübəsində bu istiqamətlərdən biri də elektron-elm hesab edilir. Bibliometriya, informetriya, elmmetriya, vebmetriya kimi e-elmdə ilk mənbəyini kitabxana-informasiya fəaliyyətindən alır, zənginləşir və informasiya cəmiyyətində öz yerini tutur.Bu istiqamətdə Avropa və Amerika kitabxanalarinin təcrübəsi diqqətəlayiqdir. Eləcədə Türkiyə kitabxanaçılarinin bu mövzuda tədqiqatları son dövrlərdə sahəvi mətbuatda tez-tez çap olunur.

Qeyd olunan istiqamətlərdə preoritetlərin müəyyənləşdirilməsi, metodikanin öyrənilməsi və tətbiqi bir sira amillərdən asılıdır ki, onların ən mühüm olanlarını aşagıdakı kimi müəyyənləşdirmək olar.

1.Müasir texnologiyaların öyrənilməsi hesabına yeni informasiya məhsullarının əldə edilməsi.

2.İstehlak bazarının öyrönilməsi və yeni informasiya məhsullarının istehlakı bazarının yaradılmasını təmin etmək.

3.Yeni texnologiyalarla və yeni bazar münasibətləri şəraitində çalışan mütəxəssis heyətinin komplektləşdirilməsi və uzunmüddətli peşəkarlıgın təmin edilməsi.(6.)

Qeyd olunan üç istiqamətdə keyfiyyətli ugurların əldə edilməsi hesabına kitabxana -informasiya fəaliyyətində mütamadi innavativ tətbiqi nəticələr əldə etmək olar.

Müasir kitabxana-informasiya xidmətinə yeni imkanlar yaradan e-elmin tətbiqi məsələləri də kitabxana mütəxəssislərindən yüksək peşəkarlıq tələb edir. Hal-hazırda kitabxana-informasiya fəaliyyəti göstərən mütəxəssis

çoxfunksianal bir fəaliyyətin mərkəzində durur. Yüksək peşəkarləq anlayışı mütəxəssisdən bir neçə dildən istifadə edəbilmək, kompyuter başarıqlarına malik olmaq, kommunikasiya vasitələrindən istifadə edəbilməklə yanaşı məlumat axtarış sistemlərindən, elmi istiqamətlərdən xəbərdar olmaq və analitik qabiliyyətlərə malik olmaq tələb edir. Burada informasiya istehlakı bazarının, oxucu maragının, yeni informasiya məhsulunun modelləşdirilməsi,qlobal informasiya məkanında məzmunlu iştirakın təmin olunması, müxtəlif resurslara müxtəlif vasitələrlə əlçatarlıgın təmin olynması, informasiya əmtəəsinin qiymətləndirilməsi, əmtəənin tələbi törətməsi və bir çox digər məsələlər öz əksini tapa bilər.

İnformasiya menecmenti sahəsində mütəxəssislərin hazırlanması zamani iki istiqamət qarşıya çıxır.

1.Funksianal informasiya müəssisəsinin idarə olunması.

2.Yeni infirmasiya xidməti müəssisəsinin yaradılması və fəaliyyətinin təmin edilməsi.(4.s.41)

Birinci istiqamətdə menecer informasiya müəssisəsinin funksianal məqsədlərini, xidmət istiqamətlərini, informasiya tələbatçısının ehtiyaclarını, sifarişçinin (iş verənin) tələblərini, resus imkanlarını, mütəxəssis potensialını, işin təşkili və idarəetmə təlimatları ilə tanış olmalı və müvafiq olaraq idarəetməni həyata keçirməlidir.Bu istiqamətdə mütəxəssislərin hazırlanması təcrübəsi genişdir.Əslində sözü güdən menecment fəaliyyət ğöstərən formalaşmış bir strukturun idarəedilməsindən ğedir.

İkinci istiqamət fərqlidir. Diqqəti cəlb edən və çox sayda suallar ortaya çıxaran ikinci istiqamətdir. İnformasiya bazarına daxil olmaq məqsədi ilə informasiya xidməti göstərmək istəyəm menecer aşagıdakı ilkin hazırlıq mərhələsini keçməlidir.

1.İnformasiya resurs bazası yaratmalı və ya hər hansı resus bazasına əlçatarlıgı təmin etməlidir.

2.Xidmət göstəriləcək informasiya istehlakçılarının istiqaməti, xüsusiyyətləri və informasiya xidmətinin forması müəyyənləşdirilməlidir.

3.Xidmət bazarında alternativ xidmətlərin çeşidi ilə tanış olmalı və müvafiq qiymət siyasəti həyata keçirməlidir.

4.İstehlak bazarının imkanları proqnozlaşdırılmalı və rasional idarəetmə büdcəsi müəyyənləşdirilməlidir.(5.)

Bunlar əsas tələblərdir.Əlbətdə bunlardan əlavə informasiya xidmətinin texniki və texnolojı təminatı, göstərilən informasiya xidmətinin mötəbərliyi və təhlükəsizliyi, xidmət göstərən personalın yüksək peşəkarlıgı və bur çox diğər göstəricilər müasir informasiya menecmentində tələblər şəkilində qarşıya çıxır.

Bu səbəbdəndir ki hətda yüksə profesianal informasiya mütəxəssisi (informasiya mühəndisi) ikinci istiqamətdə öz ğücünü sınamaqda çox da maraqlı deyil. Dünya informasıya bazarının konyukturunun öyrənilməsi

göstərir ki, nə qlabal, nə də lokal informasiya şəbəkələrinin yaradılmasında ğüclü maraqlı tərəflərin iştirakı olmadan ugur qazanmaq mümkün düyil.
Ğöründüyü kimi müasir tələbləri ödəyəbiləcək informasiya xidməti müassisəsini ğeniş mənada həyata keçirmək son dərəcə çətin və mürəkkəbdir. Bəlkə də elə bu səbəbdəndir ki dünyada sözün əsil mənasında geniş profilli informasiya xidməti göstərə biləcək müəssisə cəmi bir neçədir və onları hamı tanıyır.

Qlobal informasiya məkanına genış kütlənin əlçatarlıgı ilə paralel informasiya kütlələrinin "çirklənməsi" prosesi sürətlə baş verməkdədir. XX əsrin 60-70-ci illərində xüsusı informasiya xidməti zamanı mütəxəssisin məhsuldar zamanını informasiya axtarışına sərf etməməsi məqsədi ilə müxtəlif metodlar tətbiq edilməyə başlandı. Müasir informasiya xidməti müassisələrinin yaranmasından çox-çox qabaq dünya kitabxanaları ənənəvi kitabxana xidməti ilə yanaşı faktoqrafik və informasiya xidmətini həyata keçirmiş, ilk bibliometrik təhlillər, referativləşdirilmiş məlumat bazaları yaratmış, məlumatın seçilib paylanmasını həyata keçirmişdi. Məqsəd informasiya təminatını sürətli, keyfiyyətli və rasional həyata keçirmək idi. Xüsusilə mütəxəssislərə keyfiyyətli informasiya xidmətini həyata keçirmək cəmiyyətin ümumi inkişafını dəstəkləmək kimi qiymətləndirilir, elmi texniki inkişafı sürətləndirmək adlandırılırdı.

İnformasiya proseslərinin sürətlənməsi, informasiyanın gündəlik həyata və iqtisadiyyata artan təsiri informasiyanın kapitallaşmasını təmin etdikcə kitabxana-informasiya fəaliyyətinin qiymətləndirilməsi problemi daha da aktuallaşır.

Müasir dövrdə informasiya kütləsinin çoxalması və ğetdikcə dahada böyük sürətlə artma tendensiyaları informasiyanın idarə olunması məsələlərini göndəmə ğətirir və aktual edir.

Qlobal informasiya məkanında baş verən prosesləri liberal-demaktatik nailiyyətlərin ifadəsi kimi təqdim edənlər hər növ "informasiya kütləsinin"mövcudluq hüququnu müdafiə edir. Əğər əmtəənin alıcısı varsa deməlı onun özünü təqdim etmək hüququ da var.Bu zaman "əmtəə və ehtiyac" kateqoriyqları arasında manipulyasiya aparılır. Əmtəə ehtiyacı ödəyən olaraq çıxış etmir, ehtiycı törədan olaraq çıxış edir.

Bu baş verən proseslər informasıyanın əmtəələşməsi və bazar münasibətlərinin qanunlarına tabe olması kimi anlaşılır, İqtisadi amillər və maddi maraqlar sosiai və əxlaqi kateqoriyaları arxa plana çəkir. Bu zaman mədəni insan cəmiyyətinin keçmiş oldugu tarixi təcrübəni inkar etmiş oluruq.

Bizi əhatə edən dünyanın təbii informasiyası canlı aləmin yaranmasının ilkin səbəbi, onların inkişafının və təkmilləşməsinin şərti olmuşdu. İnformasiya insanlar və təbiət arasında münasibətin əsasıdır. O əlaqələrin və vahid dünya informasiya mobil birliyinin yaranmasının substansiyasıdır. informasıya özünə münasibətin, əksetdirmənin və münasibətlərin universal

meydanı kimi bizim içimizdə, bizim aramızda və bizim kənarımızdadır. İnformasiya kainatın ümumi generativ əsasıdır.

Göründüyü kimi  informasiya menecmentinin həyata keçirilməsi, proseslərin idarə olunması elə bir kimpozisiya tələb edir ki. sosial, əxlaqi və bəşəri normalardan kənara çıxmamaqla bazar münasibətlərinə  öyrənərək informasiyanın əmtəə xassəsini  düzğün qiymətləndirmək, konyukturu öyrənmək, müasir texnoloğiyararın ğeniş tətbiqini həyata keçirmək, ehtiyacı öürənmək və ehtiyacı törətmək və bir çox diğər əməliyyat və prosesləri həyata keçirmək deməkdir.

Bu gün Azərbaycanda yüksək texniki imkanlara malik bir neçə informasiya müəssisəsi  fəaliyyət göstərir və onların fəaliyyəti ilə tanışıq. Lakin onların heçbiri müstəqil informasiya  menecmenti ilə məşgul deyil beləki funksional müəssisədirlər və fəaliyyət istiqaməti  öz funksionallıgı ilə məhdudlaşdırılır.

Müasir, qlobal informasiya məkanı indiyəqədər müvcud olan streotipləri dagıtdı. İnformasiyanın gücünü ğöstərdi, informasiyasızlıgın da acizlıyini. Bu şərtlər daxilində hər bir xalqın milli-mədəni identifikliyini təqdim və təmsil edən müvafit informasiya strateğiyası lşlənib hazırlanır və biz bu istiqamətdə bir qədər ğecikdiyimizi etiraf etməliyik.

Az bir müddətdə aşagıdakı istiqamətlərdə əməli işlərin görülməsi vacibdir.

-Azərbaycan alimlərinin kiber məkana təqdimi

-Azərbaycam elminin nailiyyətlərinin kiber məkana təqdimi.

-Azərbaycan reallıqlarının kiber məkanda təqdimi.

-Azərbaycan istehlakçıları üçün akademik informasiya məkanın yaradılması

-Azərbaycan preoritetlərinin kiber məkana təqdimi və s. sahələrdə təəssüf ki xeyli boşluqlar mövcuddur.

Bu istiqamətlərin hər birinin tənlili və tətbiqi haqqında ğeniş şərhlər vermək olar. Elece də qlobal informasiya məkanında reytinq texnologiyalarının öyrənilməsi və tətbiqi, informasiya hücumlarının öyrənilməsi və mühafizə tədbirləri, informasiya üstünlüyünün əldə edilməsi və bir çox istiqamətlərdə layihələr işləyib hazırlamaq olar.

Mərkəzin Strateji fəaliyyət planını əyər nəzəri təhlil etsək iki ana xət müəyyənləşdirilə bilər.

1.Azərbaycanı kiber məkanda təmsil edən resurs bazasının yaradılması;

2.Qlobal informasiya məkanında davamlılıgı təmin edən proqram-texniki təminatın yaradılması.

Bu iki istiqamət biri-birini tamamlamalı və dəstəkləməlidi.

Haqqında danışılan mark-21 informasiyanın təqdimatı üçün müəyyənləşdirilmiş ügurlu bir platformadı. Lakin bu platformanın umumrespublika platformasına çevrilməsi üçün məqsədli və sistemli fəaliyyət ğöstərmək tələb olunur.

Geniş diapazonlu məlumat prosesləri ilə məşgul olan mütəxəssislər informasiyanın nəzəriyyəsi, informasiyanın modelləşdirilməsi, informasiyanın psixolojı təsir mexanizmləri, informasiya məkanının , informasiya mühitinin təhlili, informasiya əmtəəsi və bir çox diğər nəzəri məsələlərdə hazırlıqlı olması tələb olunur.

Qeyd olundugu kimi Azərbaycan istehlakçısı üçün akademik informasiya məkanın formalaşdırılması əhəmiyyətlidir. Bunun üçün lazımlı informasiya resurslarının təmərgüzləşdirilməsi, müvafiq axtarış sistemlərinə uygunlaşdırma, məsafədən xidmət işinin təşkili kimi tədbirlər ilk növbədə həyata keçirilməlidi.

Dünya təcrübəsində bu istiqamətdə xeyli ugurlar əldə edilib.Əyər bu təcrübəni nəzəri təhlil etsək onları iki qrupda ümumiləşdirmək olar. Mühafizəkar sistemlər və inteqrasiya olunmuş sistemlər.Bu sistemlərin müsbət və mənfi cəhətləri barədə ğeniş danışmaq olar. lakın qeyd edək ki bütün ugurlar maliyələşmədən, sosial sifarışdən və düzgün menücmüntin təşkilindən asılıdır.

## ƏDƏBİYYAT


1. **Xələfov A.A.** Kitabxana və cəmiyyət. Baki. Azərnəşr, 2012, 360 s.

2.**Xələfov A.A.Qurbanov A.İ.** Kitabxana proseslərinin kompüyerləşdirilməsi. Bakı, BDU-nun nəşri, 2010, 210 s.

**3. Xələfov A.A. Qurbanov A.I. Kazımi P.F.**kitabxana-informasiya fəaliyyətində informasiyanın qiymətləndirilməsi.bakı, BDU, dil və ədəbiyyat, **2012** №3(83), s288-291.

4.**Kazimi P.F**. Informasiya mühəndisliyi. Baki, BDU,2011, 260 s.

**5.Qurbanov** A. , **Kazimi P.** Evaluation of information in library and information activities . Iceecat'14. I n t e r n a t i o n a l c o n f e r e n c e on electronic, computer and automation technologies (may 9-11, 2014 selcuk university iltek - konya, turkey)proceedings book.9 - 11 may, 2014. Konya, Turkiye. Ekotek.selcuk.edu.tr/ p. 47-49.

6. **Казыми П.** Информационная инженерия в библиотечной деятельности // педагогический журнал Башкортостана издательство: Башкирский Государственный Педагогический Университет им. М. Акмуллы (Уфа)issn: 1817-3292. - 2013. - №6 (49). - с. 112-117

**7. Курбанов А.И. Исмаилова Н.Н. Казими П.Ф.** Оценка информации в библиотечно-информационной деле. Тольяттинский государствунный университет, Вектор Науки, **2013**, №1(12), с.58-60.



**О.Агамирзоев**


## НЕКОТОРЫЕ ПРОБЛЕМЫ ИНФОРМАЦИОННОЙ МЕНЕДЖМЕНТА

### РЕЗЮМЕ


Статья расматривает состояние современного информационного прастранство, вапросы информационного обеспечение, и современные требование информационного менеджмента. Праводится исторический анализ формам и методам информационного

обслуживание, расмат-риваеться тенденции глобального информационного пространства.

**O.Agamirzoyev**

**SOME PROBLEMS INFORMATION MANAGEMENT**

**SUMMARY**

The article considers the state of the modern information space, the issues of information security, and advanced information management requirement. It is given to historical analysis of the forms and methods of information service.

**Günay BALAKİŞİYEVA**

***"Kitabxana resursları və informasiya axtarış sistemləri" kafedredrasının magistrantı***

# HEYDƏR ƏLİYEV İRSİNİN KİTABXANALARDA TƏTBİQİNİN BƏZİ MƏSƏLƏLƏRİ

***Açar sözlər:*** *Heydər Əliyev, kitabxana işi, milli ideologiyaların formalaşması, kitabxana haqqında qanun və onun kitabxanalarda tətbiqi*

***Ключевые слова:*** *Г.Алиуев, библиотечное дело, формирование национальной идеологии,закон о библиотечном деле и внедрение его в библиотеках*

***Keywords:****Heydar Aliyev, library, the formation of the national ideology, law librarianship and its implementation in libraries*

Azərbaycan kitabxanaları Azərbaycan xalqının milli sərvətidir. Xalqımızın yaratdığı qiymətli tarixi mədəni, ədəbi-bədii, elmi-fəlsəfi irsin toplanıb saxlanılmasında, bəşər mədəniyyətinin qazandığı nailiyyətlərin

nəsildən-nəsilə çatdırılmasında, cəmiyyətimizin intelektual-mənəvi patensialın artırılmasında kitabxanalarımız əvəzsiz rol oynayır.

Böyük dövlət xadimi müstəqil Azərbaycan dövlətinin memarı, umummilli lider, zəmanəmizin nadir şəxsiyyəti Heydər Əliyev kitab və kitabxanalar haqqında özünün dahiyanə fikirləri ilə seçilmişdir.

Xalqımızın müdrik kəlamlarının birində deyildiyi kimi,böyük dağların əzəmətini ancaq uzaqlardan seyr etməklə görmək mümkündür.

Heydər Əliyevi belə böyük dağlara bənzətmək olar.Zaman keçdikcə bu böyük dağlara bənzər insandan uzaqlaşdıqca onun əzəməti müdrikliyi, həyata keçirdiyi tədbirlərin nəhəngliyi diqqəti daha çox cəlb edir. Bu böyük insan nəinki həlli mümkün olan, hətta həlli mümkün olmayan işləri görməyə müvəffəq olmuş tarixi bir şəxsiyyətdir.

Ümumilli liderin Azərbaycanda milli dövlətçilik ideologiyasının yaradılması, suveren dövlət təsisatlarının yaradılması və xalqımızın tarixi yaddaşının bərpası istiqamətində göstərdiyi xidmətlər hər bir Azərbaycanlı tərəfindən böyük qürur hissi ilə xatırlanır. Heydər Əliyevin dövlətçilik konsepsiyasının əsas strateji xəttini də məhz həmrəylik, bütövlük, hüququn aliliyi ideyaları təşkil etmişdir. H.Əliyev idarəsinin fəlsəfəsinə görə, Azərbaycançılıq, ziyalılıq və bu istinad nöqtəsindən başlayır. Çünki milli ruhu qorumağı, inkişaf etdirmək və gələcək nəsillərə ötürməyin ən mükəmməl forması milli dövlətçilikdir. Milli dövlətçilik təkcə ərazinin, maddi sərvətlərin deyil, hətta milli mənəvi dəyərlərin, həmrəyliyin qorunmasından ibarətdir.

Bir məsələni yeri gəldiyinə görə qeyd etmək lazımdır ki, Heydər Əliyevin fəaliyyəti ilə ordu quruculuğu daha ciddi problemlərdən biri kimi hələ 70-ci illərdən ulu öndərin təşəbbüsü ilə xüsusi bir problem kimi onun diqqət mərkəzində olmuşdur. Belə ki, 1972-ci ildə ali hərbi məktəbin yaradılması və azərbaycanlı gənclərin hərbi təhsilə cəlb olunması xüsusi diqqət mərkəzində olmuşdur. Bu sahədə Azərbaycan Kommunist Partiyası Mərkəzi Kommutəsinin xüsusi qərarı olmuş və qərara uyğun olaraq Azərbaycanın rayonlarına qərarın yerlərdə təbliği və azərbaycanlı gənclərin hərbi ali məktəblərə hazırlanması kompaniyası hyəyata keçirilmişdir.

İstər Dövlət kitabxana şəbəkələrinin, istərsə də ayrı-ayrı idarə və müəssisələrin tabeliyində fəaliyyət göstərən kitabxanalarda H.Əliyev əsərlərinin üstünlük təşkil etməsi Azərbaycan tarixi, mədəniyyəti, incəsənəti, dövlətçilik tarixi, Azaərbaycanın keçmişi və bu günü haqqında məlumat əldə etməyə imkan verir.

Maraqlı cəhət bundan ibarətdir ki, bu əsərlər respublikamızın kitabxana fondlarına daxil olarkən, bir çox iri elmi kitabxanalarda bu əsərlərin xüsusi bölmələrdə və ayrı-ayrı mövzularda, həm də xranoloji ardıcıllıqla onların elektron versiyaları yaradılır. Həm adlar göstəricisi , həm də bütöv məzmunu üzrə disklə və ya kompüter yaddaşına köçürülür. Bu isə tədqiqatçıların axtarış və istifadə imkanlarını artırır.

1993-1995-ci illərdə Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldikdən sonra Azərbaycan yeni təhlükələrlə üzləşdiyi zaman ümimmilli liderin çağrışı ilə əhalinin ölkə başçısının ətrafında toplanması, ona dəstək verməsi milli birlik və həmrəyliyimizin tarixində parlaq səhifələrimizdən biri kimi yadda qalacaqdır. Beləliklə 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə gələn Heydər Əliyev Azərbaycanı real məhv olma təhlükəsindən xilas etmək üçün bütün qüvvəsi ilə fəaliyyətə başladı.Böyük siyasi xadim Heydər Əliyevin Azərbaycan Respublikasına yenidən rəhbərlik etməyə başladığı 1993-cü ilin iyunundan 1995-ci ilin noyabrınadək olan dövrü əhatə edən müstəqil dövlət quruculuğunun birinci mərhələsi yeni Konistitusiyanın əsas qanunun ümumxalq səsverməsi əsasında qəbul edilməsi və ölkənin qanunvericilik orqanı olan Milli məclisə seçkilərin keçirilməsi ilə başa çatmışdır.

1996-cı ildə bilavasitə Prezidentin tövsiyyəsi ilə Azərbaycan Respublekası Nazirlər Kabineti Kitabxana işinin vəziyyəti və onun yaxşılaşdırılmasına dair qərar qəbul etdi. Bu qərarda kitabxana şəbəkələrinin qorunub saxlanması və əhaliyə kitabxana xidmətinin daha da yaxşılaşdırılması, kitabxanalara diqqətin artırılması əsas vəzifə kimi qarşıya qoyulmuşdur. Keçid dövrünün ən böyük çətinliyi kitabxanaların yeni ədəbiyyat ala bilməməsi idi. Kitabxanalara yeni ədəbiyyatın alınmaması oxucuların kitabxanalardan uzaqlaşmasına səbəb olurdu. Bu çətinlik də 1998-ci ildən aradan qaldırılmaga başlandı. 1998-ci ildən başlayaraq dövlət büdcəsindən kitabxanalara yeni ədəbiyyat almaq üçün vəsait ayrılmaga başlandı. Bu vəsaitin ilbəil artırılması kitabxanaların yeni ədəbiyyatla təchizatı işini qismən də olsa qaydaya saldı. 90-cı illərin axırlarından başlayaraq Azərbaycan kitabxanalarının informasiya texnologiyaları ilə təmin olunmaga başlanması, onların işinin günün tələbləri səviyyəsində qurulmasına, və xüsusilə əhaliyə informasiya xidmətinin təşkili işini yaxşılaşdırmaga imkan yaratdı. Bu sahədə respublikanın elmi, elmi-texniki və təhsil kitabxanaları xüsusilə fərqlənir, oxucuların internetdən istifadəsi üçün öz fəaliyyətlərini genişləndirirdilər.

Bu dövr həmçinin respublikamızda kitabxana işi haqqında dövlət siyasətinin formalaşdıgı illər olmuşdur. Bu siyasətin əsasında ulu öndər Heydər Əliyevin azərbaycançılıq fəlsəfi konsepsiyası, mədəniyyət, təhsil, elm, kitab və kitabxana haqqında ideyaları və baxışları dururdu. Ona görə də yeni formalaşmaga başlayan bu siyasət kimi öz elmiliyi və demokratikliyi ilə fərqlənirdi.

Tarixi həqiqətdir ki, dünyanın görkəmli dövlət, elm, mədəniyyət xadimləri, alimləri,mütəfəkkirləri, filosofları, yazıcıları kitab və kitabxana haqqında olduqca dəyərli,hikmətamiz fikirlər söyləmişlər. Bu fikirlər icərisində Heydər Əliyevin kitabxana, onun əhəmiyyəti, cəmiyyətdə tutdugu yer, elm və mədəniyyətin, ümumiyyətlə, mənəviyyatın inkisafında rolu haqqında fikirləri olduqca yüksəkdə durur və böyük bəşəri əhəmiyyət kəsb edir.

Heydər Əliyevin respublika kitab sərvətinin qızıl fondu olan M.F.Axundov adına Milli Kitabxanaya münasibəti və qaygısı bütövlükdə kitabxana işinə böyük diqqət və qaygısının bariz nümunəsidir. Vaxtının olduqca məhdud olmasına baxmayaraq 1995-1997-ci illərdə dörd dəfə Milli Kitabxanaya gəlmiş, onun işi ilə tanış olmuş, burada oxucular və kitabxanaçılar qarşısında olduqca böyük elmi, mədəni və fəlsəfi mahiyyətə malik tarixi nitq söyləmişdir. Onun bu nitqi bəşəriyyətin mədəni sərvəti olan dünya kitabxanaları tarixinə qızıl sətirlərlə yazılmışdır. Bu tarixi nitqində mərasim iştirakçılarına müraciət edən ulu öndər deyir "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer,mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir". Ulu öndərin kitabxanaya verdiyi bu yüksək qiymət müstəqillik dövründə kitaböana işinin inkişaf yolunu işıqlandırmışdır.

90-cı illərin axırlarında ulu öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə 1998-ci ildə ölkəmizin tarixində ilk dəfə olaraq Milli Məclis "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununu qəbul etdi. Azərbaycanda kitabxana işinə dair dövlət siyasətinin əsaslarını təşkil edən bu qanun öz məzmununu,əhatə dairəsi etibarilə kitabxanalar dünyasının əsas müddəalarını və ideyalarını geniş surətdə şərh edən ən demokratik qanunlardan biridir. Dairəsi etibarı ilə kitabxanalar dünyasının əsas müddəalarını və ideyalarını geniş surətdə şərh edən ən demokrqtik qanunlardan biridir. Çünki bu qanunun məzmununa Heydər Əliyevin kbtabxana işi haqqında elmi-nəzəri fikirləri və ideyaları hopmuşdur.

Ulu öndər Heydər Əliyev tərəfindən imzalanmış qanun respublikada kitabxana işinin qanunu əsaslarla inkişafına olduqca mühüm töhfə idi. Müstəqillik illərində Heydər Əliyevin kitabxana işinə böyük diqqət və qayğısı nəticəsində respublikanın kitabxana şəbəkələri qorunub saxlanmaqla 90-cı illərin axırlarından başlayaraq inkişaf etməyə başladı. Ən böyük şəbəkəyə malik olan Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin kitabxana şəbəkəsi öz işini yenidən qurmaqla əhaliyə kitabxana xidmətini yaxşılaşdırmaq üçün ciddi addımlar atmağa başladı. Bu şəbəkəyə 1 Milli Kitabxana, bir Muxtar Respublika Dövlət Kitabxanası, 3 Respublika əhəmiyyətli sahəvi kitabxana, 74 şəhər və mərkəzləşdirilmiş rayon kitabxanası, 3774 kənd kitabxanası daxildir.

Müstəqillik illərində M.F.Axundov adına Respublika Dövlət Kitabxanasına Milli kitabxana statusu verilməsi ölkəmizin kitabxana işi tarixində əlamətdar bir hadisə oldu. Milli Kitabxana kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq sahəsində elmi tədqiqat mərkəzinə çevrildi. Milli kitabxana moderinləşərək, kitabxana-informasiya-mədəniyyət mərkəzi, milli kitab sərvətimizin qızıl fondu kimi öz fəaliyyətini genişləndirdi.

Həmçinin bu dövrdə Respublika elminin baş qərargahı olan AMEA-nın Mərkəzi Elmi Kitabxanasının elmi tədqiqat starusu alması da respublika kitabxanaçılığına böyük hədiyyə oldu.

Heydər Əliyevin Azərbaycana 34 illik rəhbərliyi dövründə ölkədə xalq təsərrüfatı, iqtisadiyyat, elm və mədəniyyət sahəsində böyük nailiyyətlər əldə edilmişdir. Bu nailiyyətlər içərisində mədəniyyətimizin ayrılmaq tərkib hiissəsi olan kitabxana işinin inkişafı, əhaliyə kitabxana-informasiya xidmətinin təşkili sahəsindəki uğurlar mühüm yer tutur.

Ölkənin mədəni inkişafında kitab və kitabxana işinin mühüm rolunu qeyd edən, kitabxanaları xalq üçün, millət üçün, bilik və zəka mənbəyi kimi qiymətləndirən Heydər Əliyev kitabxana işinin inkişafını həmişə ön plana çəkmiş, ona qayğı göstərmiş, mühüm dövlət sənədləri imzalamışdır.Ulu önmdər Azərbaycanın müstəqilliyini, Azərbaycan dövlətçiliyini xilas etdiyi kimi, milli mədəniyyətin və onun tərkib hissəsi olan  Kitabxanaların da xilaskarı olmuşdur. Digər MDB ölkələrindən fərqli olaraq Azərbaycanda 90-cı illərdə kitabxana şəbəkəsi qorunub saxlanılmış, daimi dövlət qayğısı ilə əhatə edilmiş, döylət tərəfindən maliyələşdirilmlşdir.

H.Əliyevin zəngin ictimai-siyasi irsi dünənimiz, bu günümüz və gələcəyimiz üçün nəzəri və tarixi əhəmiyyət kəsb etdiyindən, müxtəlif elm sahələrini özündə birləşdirdiyindən və mütəxəssislərin tədqiqat obyektinə çevrildiyindən, təxirə salınmadan dahi şəxsiyyət H.Əliyevin zəngin həyatını, siyasi dövlətçilik fəaliyyətini hərtərəfli əks etdirən kompleks xarakterli əsərləri istər ayrı-ayrı cildlərdə, istərsə də artıq 45 cilddən ibarət çap olunmuş və respublıikamızın kitabxanalarına paylanmışdır. H.Əliyevin əsərlərinin kütləvi şəkildə nəşr oluynması Respublika kitabxanalarının fondlarının zənginləşməsinə əsaslı şərait yaratmışdır.

Minətdarlıq hissi ilə demək olar ki, hər iki kitabxana ulu öndər Heydər Əliyevin sərəncamı ilə yüksək statusuna görülmüşdür.  XX1 əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin tədqiq edilib öyrənilməsi bir daha təsdiq edir ki, göstərilən dövrdə kitabxana işinin inkişafı bilavasitə ulu öndər Heydər Əliyevin adı, onun böyük xidmətləri ilə bağlı olmuşdur. Hazırda Heydər Əliyev dühası Azərbaycanda kitabxana işinin yolunu işıqlandırır.

Bütün bunlara görə Azərbaycan kitabxana ictimayyəti çöxminillik kitabxanaçılar ordusu ulu öndərə minətdardır. Onun əziz xatirəsi xalqımız kimi sadə peşə adamları olan kitabxanaçıların qəlbinə də həkk olunmuşdur. Heydər Əliyevin vəfatından sonra respublikamızın çoxsaylı kitabxana şəbəkələri öz xilaskarı olan ulu öndərin xalqımızın milli mənəvi sərvəti olan əsərlərini toplayıb saxlamaq, gələcək nəsillərə çatdırmaq, xalq kütlələri içərisində təbliğ etmək vəzifəsini həyata keçirməyə çalışır. Bu vəzifə kənd kitabxanalarından başlamış milli kitabxanaya qədər bütün kitabxanalar tərəfindən şərəflə yerinə yetirilir.

**ƏDƏBİYYAT**

1. Azərbaycan kitabxanaları XXl əsrin informasiya məkanında.1-2 cild.B.,2007.-810 s.

2. H.Əliyev müstəqilliyimiz əbədidir.Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar.B.: Azərnəşr, 1998.-499 s.

3. İsmayılov X.İ. H.Əliyev və Azərbaycanda kitabxana işi.Bakı Universiteti xəbərləri.B.,1998.-s.153-161.

4. İsmayılov X.İ. H.Əliyevin əsərlərinin Respublika kitabxana resurslarının formalaşmasında rolu.

5. Respublika qəzeti 13 fevral 2013-cü il

**Г. Балакишиева**

**РОЛЬ ОБЩЕНАЦИАНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА В ФОРМИРОВАНИИ НАЦИОНАЛЬНОЙ ИДЕОЛОГИИ В БИБЛИОТЕКАХ**

**РЕЗЮМЕ**

В статье освещена роль общенацианального лидера Гейдара Алиева в формировании национальной идеологии опеределены основные направления пропаганды наследия общенацианального лидера в условиях библиотек.

**G. Balakishiyeva**

**SOME QUESTIONS OF APPLICATION OF THE HERITAGE OF HEYDAR ALİYEV İN LIBRARIES**

**SUMMARY**

In the article the role of national leader Heydar Aliyev in the formation of national ideology operedelit main directions of propagation of the heritage common leader in terms of libraries.

**Daşqın MƏHƏMMƏDLİ**

***BDU-nun Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının magistrantı***

# KİTABXANALARDA TEXNOLOJİ PROSESLƏR VƏ ƏMƏLİYYATLAR

***Açar sözlər:*** Texnologiya anlayışı, texnoloji proseslər, texnoloji əməliyyatlar, kitabxana texnologiyaları, kitabxana-informasiya istehsalı,kitabxana resursları

***Keywords:*** Technology concept, technological processes, technological operations, library technologies, the production of library- information, library resources

***Ключевые слова:*** технология концепции, технологические процессы, технологические операции, библиотечные технологии, производство библиотечно-информационных, библиотечные ресурсы

Məqalədə daha çox kitabxana praktikası üçün səciyyəvi olan mühüm proseslər-texnoloji proseslər və əməliyyatlar və bu proses və əməliyyatların kitabxana praktikasında yerinə yetirdiyi funksiyaları, vəzifələri barədə, eləcə də müasir vəziyyəti və bəzi təkmilləşdirilməsi məsələləri haqqında bəhs olunur.

Kitabxana texnologiyası anlayışı kitabxanaşünaslıq nəzəriyyə və praktikasında ən əhəmiyyətli məsələlərdən biri kimi bütün növ və tipdən olan kitabxanalara aiddir və fondun komplektləşdirilməsində, oxuculara xidmət işində, məlumat və metodiki işlərdə özünü əks etdirir. Bununla yanaşı, kitabxana fəaliyyətinin ayrı – ayrı iş növlərinin özünün texnologiyası da mövcuddur və bunlar bütövlükdə hər hansı iş prosesinin yerinə yetirilməsinə yönəldilir. Məsələn, kitabxana fondunun komplektləşdirilməsi texnologiyası, fondun saxlanılması texnologiyası, metodik köməklik işinin texnologiyası, kompleks texnoloji proseslər və əməliyyatlar və s. (1, s.52)

Ümumiyyətlə, bəhs edtiyimiz mövzunun elmi–analitik təhlili onun məzmun etibarilə aşağıdakı iki mərhələdə şərhini tələb edir:

1.Kitabxanalarda texnoloji proseslər.

İstehsal prosesi anlayışı – kitabxana təcrübəsi üçün adi deyil və kitabxanaşünaslıq elmi tərəfindən başa düşülmür. Fikrimizcə, kitabxana fəaliyyəti strukturunda kitabxana fondunun formalaşdırılması və konkret məhsul və xidmətin istehsalı prosesləri istehsal statusuna daha yaxındırlar.

Əgər fikrimizi məntiqi sonluqla yekunlaşdırsaq, o zaman deyə bilərik ki, kitabxana – istifadəçilərə göstərilən xidmət (kitabxana, biblioqrafik, tədris və s.) və istehsal etdiyi informasiya məhsulları (faktoqrafik, tammətnli, analitik, reklam, digərləri) qədər istehsal proseslərini də həyata keçirir.

Görkmli kitabxanaşünas alim M.Y.Dvorkin "nəticə verən məhsul" əlamətinə görə "kitabxananın istehsal fəaliyyətinin üç növünü fərqləndirir: kitabxana fondunun formalaşdırılması, soraq – biblioqrafiya aparatının formalaşdırılması və istifadəçilərə xidmət. (3, s.48). Kitabxana fəaliyyətinin hər bir növü özünün texnologiya, metodika və təşkilati strukturuna malikdir.

İstənilən istehsal sistemi özünün strukturu ilə xarakterizə olunur. Bu struktur kitabxananın nizamnaməsi, şöbələr haqqında əsasnamələr, texnoloji sənədləşmə ilə qaydaya salınır,funksional və ya xidməti altbölmələrlə yanaşı,

köməkçi xidmətləri də, (dəftərxana, ekspedisiya (göndərici müəssisə), mühasibat, cildxana və s.)bu struktura daxil edir.

Beləliklə, istehsal strukturu dedikdə, tam bir sistem başa düşülür ki, onun da elementləri informasiya məhsulları və xidmətlərinin istehsalı prosesində resursların effektli ifadəsi, əməyin, funksiya və vasitələrin bölüşdürülməsi bazası əsasında yaranan texnoloji proseslərlə bağlıdır.

İstehsal sisteminin effektli fəaliyyəti üçün əsas şərt əməyin rasional bölgüsüdür. Əmək bölgüsünün əsas vahidləri isə proses və əməliyyatlar hesab edilir.

Texnoloji proses – istehsal prosesinin bir hissəsi olub, əmək vəziyyətinin dəyişdirilməsi ilə əlaqədar müstəqil məsələlərin həlli ilə bağlı məqsədyönlü, qarşılıqlı əlaqəli fəaliyyətidir. (6, s.109)

Kitabxana istehsal prosesinin nəticəsi - hazır informasiya məhsulu və ya göstərilən xidmətdir (məsələn, əgər biblioqrafik göstəricinin kartoçka, çap və ya kompüterdə yığılmış variantı hazırdırsa, demək, onun hazırlıq prosesi bitmiş hesab edilə bilər). (3, s.26)

Kitabxana texnologiya prosesi – istehsal prosesinin tərkib hissəsi olub, "çıxışda" fəaliyyətin aralıq nəticəsinə malikdir. Məsələn, biblioqrafiyalaşdırmanın ənənəvi texnologiyasının aralıq məhsulu kimi aşağıdakıları göstərmək olar:

-Prospekt – gələcək vəsaitin modelləşdirilməsi texnoloji prosesin nəticəsidir;

-İşçi kartoteka -ədəbiyyatın aşkarlanmasının (üzə çıxarılmasının) nəticəsidir;

-Biblioqrafik yazı kütləsi – sənədlərin və s. analitik işlənməsinin nəticəsidir;

-Avtomatlaşdırılmış texnologiyada isə bu lokal verilənlər bazası üçün orijinal proqram təminatı, biblioqrafik yazı formatlarıdır və s.

Biblioqrafik fəaliyyətin istehsal və texnoloji proseslərinin qarşılıqlı əlaqəsini kitabxana fondunun formalaşdırılması nümunəsində göstərək:

1.Texnoloji proses (modelləşdirmə) – onun nəticəsi (fondun mövzu – tipoloji modeli);

2.Texnoloji proses (komplektləşdirmə) – onun nəticəsi (yeni daxil olan sənədlər);

3.Texnoloji proses (uçot) – onun nəticəsi (uçot formaları);

4.Texnoloji proses (kitabxana qaydası ilə işləmə) – onun nəticəsi (istifadəyə hazırlanan sənədlər);

5.Texnoloji proses (yerləşdirmə) – onun nəticəsi (qəbul olunmuş sxemə uyğun olaraq fonda yerləşdirilmiş yeni daxil olan sənəd kütləsi);

6.Texnoloji proses (mühafizə) – onun nəticəsi (istifadəyə yarayan kitabxana fondu).

Kitabxana proseslərinin layihələşdirilməsi və rasional təşkili üçün sənaye texnologiyasında qəbul edilmiş texnoloji proseslərin tiplərə bölünməsi

prinsipal mənaya malikdir. Ümumi və spesifik əsasa görə əməyin məzmununda vahid, tip və qrup texnoloji proseslər fərqləndirilir.(4. s.32)

Vahid texnloji proses – eyniadlı və icralı xidmətlərin və məhsulların istehsalının texnoloji prosesidir və yeni istehsal və sosial texnologiyaların hazırlanmasında, unikal məhsul və xidmətlərin yaradılmasında əhəmiyyətli rola malikdir.

Belə proseslər müxtəlif fəaliyyət sahələrində (informasiya, təhsil, mədəni və s.) öz təsdiqini tapmış perspektivli texnologiyaların bilavasitə alınması və uyğunlaşdırılması hesabına inkişaf edən müasir kitabxana istehsalı üçün xarakterik deyildir. Vahid texnoloji proseslər, məsələn analoqu olmayan analitik informasiya məhsullarının hazırlanmasına, orijinal metodika üzrə elmi – informasiya tədqiqatlarının keçirilməsinə aiddir.

Vahid texnoloji proseslər eksperimental layihələrin, müasir texnikanın yeni texnoloji imkanlarının (informasiyanın kompüterdə işlənməsinin yeni üsulları, verilənlərin ötürülməsi, elektron kitabxanaların formalaşdırılması və fəaliyyəti və s.) tətbiqinin nəticəsi ola bilər. Bu proseslər informasiya istehsalına tətbiq olunma baxımından qrup və ya tip proseslər sırasına keçə bilərlər.(5, s.110)

Tipoloji – texnoloji proses – ümumi struktur və texnoloji əlamətlərə malik məhsul və xidmətlərin istehsalının texnoloji prosesidir.

Ümumi struktur və texnoloji xarakteristikaya malik informasiya məhsulları və xidmətlərinə nümunə olaraq mövcud strukturun biblioqrafik yazıları (biblioqrafik təsvir, biblioqrafik təsvir + annotasiya, biblioqrafik təsvir + referat və s.) açar sözlərin sözönlüyünü, predmet rubrikalarının lüğətlərini, avtoritet fayllarını, çap nəşrlərinə köməkçi göstəriciləri (müəllif, ad, coğrafi və s.), nəşriyyata təqdim edilən əlyazmaları, kitabxanaların statistik hesabatlarını, ünvan arayışlarını və s. misal göstərmək olar. Onların hazırlanmasının texnoloji prosesləri istehsalın şərait və üsullarından asılı olmayaraq tipoloji hesab edilirlər.(3, s.39)

Qrup texnoloji proses – müxtəlif struktura, lakin ümumi tipoloji əlamətlərə malik məhsul və xidmətlərin istehsalının texnoloji prosesidir.

Müxtəlif struktura, lakin ümumi tipoloji əlamətlərə malik informasiya məhsulları və xidmətlərinə nümunə olaraq aşağıdakıları göstərmək olar:

-Mövzu – biblioqrafik göstəriciləri;

-Mövzu arayışları;

-Kitab sərgiləri;

-Tammətnli verilənlər bazaları və s.

Struktur müxtəlifliyinə baxmayaraq, onların istehsalının əsasında qrup texnoloji prosesi – informasiyanın mövzu axtarışı durur. Qrup texnoloji proseslərə - redaksiya – nəşriyyat texnoloji prosesləri (prospektin işlənilməsi, redaktə, orijinal maketin yaradılması və s.) aiddir.(1, s.69)

Onlar strukturca fərqlənən məhsulların, məsələn monoqrafik nəşrlər, ardı davam edən məcmuələr, biblioqrafik göstəricilər və s. istehsalında tələb olunanlardır.

2. Kitabxananın texnoloji əməliyyatları

Texnoloji prosesin həmcins elementar tərkib hissələrə ayrılması texnoloji əməliyyat anlayışı ilə əlaqədardır.

Sənaye istehsalında texnoloji əməliyyat eyni bir iş yerində icra edilən texnoloji prosesin tamamlanmış (bitmiş) hissəsi kimi müəyyənləşdirilir. Belə ki, kitabxana istehsalında "iş yeri" sənaye istehsalında olduğu kimi daha dəqiq və birmənalı deyildir, eyni bir iş yerində (kataloqla, kompüterlə, surətçıxarma aparatı ilə işdə ) müxtəlif icraçılar işləyə bilərlər. İndi isə kitabxana texnologiya əməliyyatı anlayışına verilən tərifi dəqiqləşdirək:

Texnoloji əməliyyat - bir işçi tərəfindən icra edilən və fəaliyyətin həmcinsliyi ilə xarakterizə olunan texnoloji prosesin tamamlanmış hissəsidir.

Məsələn, tematik sorğunun dəqiqləşdirilməsinin texnoloji prosesi aşağıdakı əməliyyatlaradan ibarətdir:

-Sorğu leksikonundan açar sözlərin seçilməsi;

-Axtarışın predmet və aspektlərinin müəyyənləşdirilməsi;

-Sorğunun indeksləşdirilməsi;

-Axtarış əlamətinin məzmununun dəqiqləşdirilməsi;

-Mövzunun leksik əhatəsinin seçilməsi (mənaca yaxın olan söz və anlayışlar);

-Sorğu bankında nəticələrin qeyd edilməsi;

-Tələbatçılatla birgə sorğuların dəqiqləşdirilməsi və s. (1, s.79).

Eyni texnoloji proses hansı informasiya məhsulunun (xidmətinin) istehsalından və istehsalçının hansı texnologiyadan (ənənəvi, avtomatlaşdırılmış) istifadə etməsindən asılı olaraq müxtəlif əməliyyat strukturuna malik ola bilər. Məsələn, çap sənədinin maşınlaoxunan formaya (yəni informasiyanın texniki işlənilməsi) keçirilməsi müxtəlif üsullarla həyata keçirilə bilər.Onlardan daha geniş yayılanları aşağıdakı əməliyyatlar ardıcıllığı ilə reallaşır:

1.İnformasiyanın klaviaturadan daxil edilməsi;

2.Verilənlərin düzgünlüyünün yoxlanılması;

3.Yazıların redaktəsi.

Əgər icraçının iş yerində skaner aparatı varsa, o zaman klaviaturadan informasiyanın daxil edilməsinə ehtiyac qalmır.

Nəhayət, böyük həcmə malik informasiyaların maşınla oxunan formaya keçirilməsi üçün yazıların xüsusi şifrələnmə texnologiyası işlənib hazırlanmışdır.

Kitabxana texnoloji əməliyyatını mürəkkəblik səviyyəsinə görə tiplərə ayırmaq olar. Buna əsas kimi ilkin şəraitlə son nəticə arasındakı səbəb – nəticə göstərilə bilər. Bu prosesi aşağıdakı formada göstərmək daha məqsədəuyğun olardı (cədvəl 1).

**Kitabxana texnoloji əməliyyatlarınıbn tiplərə bölünməsi**

**Cədvəl 1.**

| Əməliyyatın tipi | İlkin şərtlər | Nəticə |
|---|---|---|
| **Elementar** | **Birmənalı** | **Birmənalı** |
| **Məntiqi** | **Müxtəlif** | **Birmənalı** |
| **Yaradıcı** | **Birmənalı** | **Müxtəlif** |

Elementar texniki əməliyyatlar – birmənalı ilkin şərtlərdə (oxucu tələbatına uyğun nəşrin verilməsi, mətnin kompüter yığımı, kitabın fondda mövcudluğunun müəyyən edilməsi) nəticənin birmənalılığı ilə xarakterizə olunur. Müxtəlif nəticə isə ancaq səhvən alına bilər.

Məntiqi (formal məntiqi) əməliyyatlar - müxtəlif ilkin şərtlərdə (tələbatçını maraqlandıran məlumatların dəqiqləşdirilməsi müxtəlif mənbələr üzrə aparıla bilər, informasiyanın ötürülməsi optimal əlaqə kanalının seçilməsini tələb edir, informasiyanın axtarış proqramının işlənilməsi, resurs bazasının təhlili və optimal alqoritm və s. seçimi ilə əlaqədardır) nəticənin birmənalılığı ilə xarakterizə olunur.

Yaradıcı (evristik) əməliyyatlar – eyni cür ilkin şərtlərdə (referatlaşdırma, prosesin blok – sxeminin işlənilməsi, yazıların məntiqi qruplaşdırılması, kitab sərgisi üçün illüstrasiya seçimi və s.) müxtəlif nəticələrlə xarakterizə olunur. Nəticənin birmənalı olmaması mürəkkəb intellektual fəaliyyətin evristik xarakteri, icraçıların ixtisasları arasındakı fərqlərlə, eləcə də digər şəxsi amillərlə bağlıdır.

Konkret istehsal prosesinin strukturunda texnoloji əməliyyatların mürəkkəblik dərəcəsinə görə tiplərə ayrılması əməyin ixtisaslı bölgüsünün aparılmasına, fəaliyyətin növlərinin seçilməsinə imkan verir:

- İxtisas təhsili olmayan texniki işçilərə əldə edilməsi mümkün olan əməliyyatlar;
- Peşəkar bilik və xüsusi bacarıq tələb edən əməliyyatlar;
- Böyük istehsal təcrübəsinə və yaradıcı bacarığa malik yüksək ixtisaslı mütəxəssislərə mümkün olan əməliyyatlar.

Hər tip üzrə əməliyyatın xüsusi çəkisinin hesablanması kitabxana əməkdaşlarının optimal kadr və ixtisas tərkibinin müəyyənləşdirilməsinə imkan verir.

Müxtəlif kateqoriyalı kitabxana mütəxəssisləri arasında apardığımız ekspert sorğularının və keçirilən tədqiqatların nəticələrinə əsasən ənənəvi (avtomatlaşdırılmış) kitabxana texnologiyasının strukturunda texniki – texnoloji əməliyyatların payı təxminən 57 %, məntiqi 33%, evristik əməliyyatların payı isə 10 faizi təşkil edir.(1, s.268).

Kitabxanaçı əməyinin ixtisaslı bölgüsü məsələsi isə xarici kitabxanaşünaslıqda daha fəal şəkildə tədqiq edilir. Belə ki, ABŞ – da fəaliyyət göstərən menecment personalında kitabxana işçilərinin əmək fəaliyyətini üç kateqoriyaya peşəkar ümümi (rəqəmin təxminən 33 % - i); texniki (21 %); kargüzarlıq (46 %) bölən kitabxana əməliyyatlarının klassifikatorları yaradılmış və fəal şəkildə istsifadə edilir. Bu bölgüyə əsasən ABŞ – da kitabxana işçilərinin 45 % - ni kitabxana təhsilli mütəxəssislər (ali və orta təhsilli), 5 % - ni qeyri kitabxana profilli mütəxəssislər, 50 % - ni köməkçi personal təşkil edir.

İFLA – nın dünya təcrübəsini əks etdirən standartına əsasən kitabxana personalı içərisində 33 – 40 % profil üzrə təhsil alan mütəxəssislərin olması kifayət hesab edilir. (3, s.98).

Azərbaycan kitabxanaşünaslığında isə əməyin ixtisaslı bölgüsü məsələsi uzun müddət müzakirə edilməmişdir. Bunun əsas səbəblərinə isə aşağıdakıları aid etmək olar:

-Əl əməyinə əsaslanan kitabxana texnologiyalarının hökm sürməsi;

-İxtisaslı mütəxəssisin və texniki icraçının əməyini bərabərləşdirən tarazlanmış vəzifə məvacibləri;

-Əmək bölgüsünün prinsipcə mümkün olduğu iri kitabxanaların kadrlarının yüksək təhsil səviyyəsi və s.

Lakin müasir şəraitdə respublika kitabxanalarının maddi – texniki və kadr potensialının güclənməsi, onlara dövlət qayğısının artırılması, bütövlükdə kitabxana – informasiya fəaliyyətinin kompleks inkişafının təmin edilməsi üçün konkret əməli tədbirlərin həyata keçirilməsi bu müəssisələrdə artıq yuxarıda bəhs edilən əməyin ixtisaslı bölgüsü məsələsini inkişafın mühüm amillərindən biri kimi ön mövqeyə çıxarmış və bu prosesdə yerli xüsusiyyətlər nəzərə alınmaqla bərabər qabaqcıl dünya təcrübəsinin tətbiqinə ciddi diqqət yetirilmiş və mühüm uğurlar əldə edilmişdir.

Texnoloji əməliyyat – sənaye istehsalında elementar texnoloji proseslərin bölünməyən tərkib hissəsi hesab edilmir. Aviasiya sənayesi və maşınqayırmada onların bir qayda olaraq drob şəklində bölgüsü qəbul edilmişdir.

Kitabxana təcrübəsində texnoloji üsul – icraçının fəaliyyətinin təşkili üsulu – anlayışı da öz əksini tapmışdır.

Beləliklə, kitabxana – istehsal sistemi kimi texnoloji funksiyaların müəyyən yığımını həyata keçirir və texnoloji model kitabxana fəaliyyətinin mikroiqtisadi modeli ilə çox yaxşı uyğunlaşır və onun strukturunda texnoloji blokun (resurs təminatı, texnologiyanın hazırlanması və təkmilləşdirilməsi, xidmətlərin, məhsulların yaradılması, keyfiyyətə nəzarət, fəaliyyətin nəticələrinin toplanılması və mühafizəsinin) üzə çıxarılması xeyli asanlaşır.

**ƏDƏBİYYAT**

1.İsmayılov X.İ. Kitabxana işinin təşkili və idarə olunması:(Dərslik).-B.: “Nurlar”, 2010.-328 s.

2.İsmayılov X.İ. Kitabxana-informasiya texnologiyaları:(Dərs vəsaiti).-B.: Nurlar, 2009.-312s.

3.İsmayılov X.İ. Kitabxana menecmentinin əsasları: (Dərs vəsaiti).-B.: BUN, 2005.-199 s.

4.İsmayılov X.İ. Kitabxanaların idarə edilməsinin müasir problemləri: Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal.-2009.-№1.-s.27-39.

5.Xələfov A.A., Qurbanov A.İ. Kitabxanaların kompüterləşdirilməsinin əsasları: (Dərslik).-B.: Bakı Universiteti Nəşriyyatı, 2006.-250s.

6.Rüstəmov Ə.M., Mustafayeva N. Avtomatlaşdırılmış kitabxana-informasiya sistemləri və şəbəkələri: (Monoqrafiya).-B., 2007.-234s.

**D.H.Mahammadli**

**TECHNOLOGICAL PROCESSES AND OPERATIONS IN THE LIBRARIES**

**SUMMARY**

In the article deals about  the more important processes specific to the practice of library operations and the process of technological processes and operations carried out by the practice of library functions and responsibilities, as well as improving the current situation and some improvement problems

**Д.Г.Магомедли**

**ТЕХНОЛОГИЧЕСКИЕ ПРОЦЕССЫ И ОПЕРАЦИИ В БИБЛИОТЕКИИ**

**РЕЗЮМЕ**

В статье более важные процессы, характерные для практики библиотечной работы и процесс технологических процессов и операций, осуществляемых практику библиотек функций и обязанностей, а также улучшение текущей ситуации, а некоторые говорят.

**Nərminə ABDULLAYEVA**
***AMEA Mərkəzi Elmi Kitabxanasının***
***Azərbaycanşünaslıq şöbəsinin müdiri, doktorant***

# BELARUSİYA MİLLİ KİTABXANASI - KİTABXANA İNNOVASİYALARININ MƏRKƏZİ KİMİ

(Elmi ezamiyyənin yekunları)

***Açar sözlər:*** *Belarusiya Milli Kitabxanası, elektron bazalar, informasiya resursları, kitab muzeyi, müasir kitabxanada fondun təşkili prinsipləri*

***Ключевые слова:*** *Национальная Библиотека Беларуси, электронные базы данных, информационные ресурсы, музей книги, принципы организации фонда в современной библиотеке*

***Keywords:*** *National Library of Belarus, digital data bases, information resources, book museum, principles organizing ofthe fundin a modern library*

Belarusiya Milli Kitabxanası (BMK) Xalq Komissarları Sovetinin qərarı ilə 15 sentyabr 1922-ci ildə Belarusiya Dövlət və Universitet kitabxanası kimi yaradılmışdır. O, Belarusiya Dövlət Universitetinin tərkibinə daxil idi və ölkənin əsas kitabsaxlayıcısı funksiyasını yerinə yetirirdi. Kitabxananın ilk direktoru İosif Bensianoviç Simonov olmuşdur və 40 il kitabxanaya rəhbərlik etmişdir.

Kitabxananın yeni binası istifadəçilər üçün 16 iyun 2006-ci ildə tarixindən açılmışdır. Təntənəli açılış mərasimində Belarusiya prezidenti A.Q.Lukaşenko demişdir: "Bu unikal bina müasir memarlığın ciddi gözəlliyini və yeni elmi-texniki həlləri özündə birləşdirir". Burda dünya informasiya resurslarına cıxış nəzərdə tutulmuşdur. Keçmiş və gələcəyin elmi və mədəni nailiyyətlərinin mühafizəsi və istifadəsi üçün, peşəkar fəaliyyət üçün, istirahət və vacib tədbirlərin keçirilməsi üçün hər bir şərait yaradılmışdır. Milli kitabxana ölkənin gücü və çiçəklənməsinin təcəssümü, belarus millətinin yaradıcı qüvvəsi və enerjisi, ölkənin əsas intellektual və mədəni mərkəzlərindən biridir. Ölkə paytaxtının əsas nəqliyyat magistralında yerləşən BMK-nın yeni binasının qarşısındakı meydançada ilk belarus naşirlərindən olan Fransisko Skorininin bürüncdən tökülmüş abidəsi ucaldılmışdır. Kitabxananın binasının forması böyük bir almazı xatırladır, biliyin dəyərini və idraki aləmin sonsuzluğunu simvolizə edir. Binanın layihə müəllifləri B.K.Vinoqradov və V.V.Kramarenkodur.

***Kitabxananın əsas parametrləri aşağıdakı kimidir:***

1) kitabxananın ümumi sahəsi- 113.669 kv.m.
2) o cümlədən kitabsaxlayıcı- 54.960 kv.m.
3) hündürlüyü- 73.670 m.
4) fondun ümumi tutumu- 14 milyon çap vahidi
5) ümumi oxucu yerlərinin sayı- 2000
6) oxu zalları-20
7) kitabxana personalı və istifadəçilərin avtomat. işçi yerləri cəmi-1500-dən çox

BMK-nın 40 –a yaxın şöbəsi vardır və bir neçə istiqamətdə təsnifləşdirilir. Bunlar:

***Oxuculara xidmət aşağıdakı şöbələrdə həyata keçirilir:***

- Kitabxana xidməti şöbəsi
- İstifadəçilərin qeydiyyatı və məlumatlandırılması şöbəsi
- KAA və sənədlərin çatdırılması şöbəsi

- Rəsmi sənədlərlə xidmət şöbəsi
- İxtisaslaşdırılmış fondla xidmət şöbəsi
- Məlumat-informasiya xidməti şöbəsi

***Sosio-mədəni mərkəz:***

- Qalereya-sərgi fəaliyyəti şöbəsi
- Mədəni-kütləvi tədbirlər şöbəsi
- Beynəlxalq əlaqələr şöbəsi
- İctimaiyyətlə əlaqələr şöbəsi
- İdman-sağlamlıq fəaliyyəti şöbəsi
- Ekskursiya-metodiki iş şöbəsi

***İnformasiya resurslarının formalaşdırılması***

- Sənədlərin biblioqrafik işlənməsi şöbəsi
- Avtoritet faylların milli verilənlər bazasının aparılması şöbəsi
- Sənədlərin indeksləşdirilməsi şöbəsi
- Kitabsaxlayıcı şöbəsi
- Fondun komplektləşdirilməsi şöbəsi
- Elektron informasiya resurslarının komplektləşdirilməsi şöbəsi
- Kitabxana sənədlərinin bərpası və konservasiyası şöbəsi
- Jurnal və ardı davam edən nəşrlərin mühafizəsi şöbəsi
- İxtisaslaşdırılmış fondların mühafizəsi şöbəsi

***İnformasiya mərkəzi***

- Analitik-informasiya şöbəsi
- Elmi-tədqiqat biblioqrafiya şöbəsi
- Korporativ əlaqələr şöbəsi
- İnternet potalın dəstəklənməsi şöbəsi
- Elektron kitabxananın formalaşdırılması şöbəsi

***Elmi iş və nəşriyyat fəaliyyəti***

- Kitabxanaşünaslıq elmi-tədqiqat şöbəsi
- Kitabşünaslıq elmi-tədqiqat şöbəsi
- Kitabxana-informasiya texnologiyaları şöbəsi
- Dövri və ardı davam edən nəşrlərin redaksiyası

Kitabxanın birinci mərtəbəsində- atrium zonada istifadəçilər hər hansı bir nəşrin kitabxanada mövcud olub olmaması barədə məlumat alır, avtomatlaşdırılmış vasitələrdən istifadə edərək sərbəst sənəd axtarışı aparmağı öyrənirlər. Bu zonanın məlumat-informasiya aparatı 1993-cü ildən yaradılmağa başlayan elektron kataloq, kitabxananın kartoqrafik nəşrlərinin baş əlifba və sistemli kataloqunun elektron əksi olan imic kataloq və s. ilə təqdim olunur. Kitabxanada tətbiq olunan yeni proqram təminatı sənədləri müxtəli ünsürlərə görə axtarmağa, sifariş və istifadəçilərə sənəd verilişi proseslərini avtomatlaşdırmağa, daha aktual elektron resurslara çıxışı təmin etməyə (kitabxananın aparıcı dünya istehsalçılarından əldə etdiyi və öz yaratdığı elektron və online verilənlər bazaları, çox sayda CD-ROM-da olan biblioqrafik və tam mətnli nəşrlər) və s. həyata keçirməyə imkan verir.

Kitabxanada təkcə buraya gələn oxuculara informasiya xidməti göstərilmir. Həmçinin, uzaq məsafədən kitabxananın internet portalında online istifadəçilərə “Kitabxanaçıdan soruş” virtual məlumat xidməti, “Sənədlərin elektron çatdırılması” xidmətləri də səmərəli şəkildə həyata keçirilir.

Bu gün BMK-nın fondu 9 milyon nüsxədən çoxdur və məzmunca universal fonddur. Buraya Belarusiyada və başqa bir çox müxtəlif dünya ölkələrində, 80-dən çox dünya dillərində olan çap əsərləri, əlyazmalar, sənədlərin mikrosurətləri, elektro və digər materiallar daxildir. Fondda başlıca milli dəyər kəsb edən cəhət isə yarım milyondan çox belarus dilində, Belarusiya ərazisində və xaricdə belarus dilində çap olunan milli sənədlərin olmasıdır. Burada belarus ədəbiyyatının klassiklərinin - V.Dunin-Martınkeviç, F.Boquşeviç, Y.Kupala, Y.Kolas, M.Boqdanoviç və s. ilk nəşr nümunələri saxlanılır.

BMK-nın informasiya resursları - ölkənin ən zəngin sənəd ehtiyatlarından biridir. Fondun formalaşdırılması 1921-ci ildən həyata keçirilməyə başlamışdır. Fondun əsası monastr və kilsə kitabxanalarının kolleksiyaları, gimnaziya kitabxanaları, akad. E.F.Karskiy və prof. N.A.Yançukun belarusiyaşünaslığa, etnoqrafiya və ədəbiyyata, K.Y.Qrotun slavyanşünaslığa, prof. K.K.Sluçevskinin hüquqa, İ.P.Kornilovun tarix və belarusiyaşünaslığa, C.M.Qoldşteynin Litva və Polşanın tarixinə dair kitablar, həmçinin Moskva və Leninqradın böyük kitabxanalarının hədiyyələri sayəsində qoyulmuşdur. Kitabxana yarandığı gündən belarus nəşrlərinin pulsuz məcburi nüsxəsini və SSRİ-də (1995-ci ilə qədər) çap olunan nəşrlərin 1 məcburi nüsxəsini almağa başlamışdır. BMK-sı həm də BMT-nin və digər beynəlxalq təşkilatların materiallarının depozitar saxlayıcısıdır.

Kitabxananın yeni binası kitabxana fondlarının təşkilini optimallaşdırmağa imkan verdi. Belə ki, ən aktual nəşrlər- ensiklopediyalar, məlumat kitabları və dərs vəsaitlərinin açıq fond şəklində təqdim olunması fondla oxucunu daha da yaxınlaşdırdı. Kitabxananın miqyasının böyüklüyünə baxmayaraq kitabsaxlayıcıdan (fonddan) kitab və digər sənədlərin əldə olunması operativ rejimdə teleliftlərin istifadəsi ilə həyata keçirilir və 20 dəq. ərzində tələb olunan ədəbiyyatı istifadəçiyə çatdırır. Belarusiyada bele bir avtomatlaşdırılmış daşıma sistemi ilk dəfədir istifadə olunur.

BMK-da müxtəlif əlamətlərinə və təyinatına görə (Oxucuların təhsil səviyyəsi, elm sahəsi, sənədin növü) fərqlənən 20 oxu zalı vardır. Zallar 2000 istifadəçi yeri üçün nəzərdə tutulmuşdur və 3 mərtəbədə yerləşir. Bu zalların hamısı sənəd verilişinin elektron kafedraları, sənədləri skaner etməyə və sürətini çıxarmaga imkan verən, elektron nəşrləri çap edən (printer) müasir avadanlıqlarla təchiz olunmuşdur. İstifadəçilər üçün nəzərdə tutulmuş işçi yerləri kompüterləşdirilmişdir. Oxu zallarında işləmək üçün rahat şərait yaradılmışdır.

Birinci mərtəbədəki zallar kütləvi oxucu kontingenti üçün nəzərdə tutulmuşdur: ümumi oxu zalı, ali təhsilli mütəxəssislər üçün zal, dövri nəşrlər

zalı, kitabxanalararası abonement və sənədlərin çatdırılması zalı. İkinci mərtəbədəki oxu zalları fundamental elmi tədqiqatlar üçün nəzərdə tutulmuşdur. Bunlar: belarus ədəbiyyatı zalı, dissertasiyalar zalı, elmlər doktormalı üçün zal, hüquqi informasiya zalı, beynəlxalq təşkilatların sənədləri zalı, aztirajlı sənədlər zalı və s.-dir. Bu mərtəbədə həmçinin kataloq və kartoteka zalı, informasiya-məlumat xidməti zalı, yeni daxil olan ədəbiyyat sərgisi və internet mərkəz yerləşir.

Üçüncü mərtəbədə incəsənət sənədləri zalı, not və audiosənədlər zalı, əlyazma, nadir və qədim nəşrlər zalı yerləşir. Əksər zallar özünəməxsus komplekslərlə, kitabların saxlatdırılması üçün kafedraların, stellajların, köməkçi fondun qapalı hissəsinin  yerləşdiyi avanzala malikdir. Zallarda yerlərin sayı zalın profilindən, potensal ziyarətçi axınından asılıdır. Ən böyük zallar ümumi oxu zalı və ali təhsilli mütəxəssislər üçün olan zaldır. Oxu zalları xüsusi texniki təchizat, mikroiqlimə nəzarət sistemi, işıqlandırma, müxtəlif növ daşıyıcılarda olan sənədlərlə kompleks iş üçün hər bir şəraitlə təmin olunmuşdur. Kitabxanada məhdud fiziki imkanlı istifadəçilər də unudulmamışdır. Zəif görmə qabiliyyətli və gözdən əlillər üçün hər cür avadanlıqla və müasir texnologiya ilə təchiz olunmuş xüsusi zal da fəaliyyət göstərir.

Kitabxanada həmçinin 490 yerlik konfrans zal da vardır. BMK-nın yeni binasının unikallığı ondadır ki, onun fondu binanın yuxarı hissəsində yerləşdirilmişdir. Belə yerləşmənin yeraltında - zirzəmidə yerləşmədən optimallığına görə üstündür. Bununla yanaşı fondun perimetri üzrə yerləşən dəhlizlər iki qat qoruma (termos prinsipi ilə) mühiti yaradır və istənilən hava şəraitində məkan daxilində daima eyni temperaturu saxlamağa imkan verir.

Kitabxananın əsas fond saxlayıcısından əlavə Mərkəzi köməkçi fondu sənədləri, ədəbiyyatı ilə bütün istifadəçilərin üzünə açıqdır. Burada oxuculara dərsliklər, idraki və bədii ədəbiyyat sərbəst şəkildə təqdim olunur. 16000 nüsxədən artıq ədəbiyyatı əhatə edir. Mərkəzi köməkçi fondun qapalı hissəsi 35000 dərslik və elmi nəşrləri əhatə edir. Sənədlər növbətçi kitabxanaçı tərəfindən oxucunun sorğusuna əsasən və oxucu biletini təqdim etməklə verilir. Mərkəzi köməkçi fondun təşkili şöbəsi BMK-nın elektron resurslara çıxışla təmin olunmuşdur:

- elektron kataloq
- imic kataloq- baş əlifba kataloqunun elektron versiyası
- tematik məlumat bazaları- “Belarusiya keçmişdən gələcəyə”, “Çernobıl”, “Belarusiya tarixi”, “Belarusiya mədəniyyət və incəsənəti”
- faktoqrafik məlumat bazaları- “Belarusiya simalarda və hadisələrdə”, “Belarusiya alimləri”
- Milli dövri mətbuatın elektron arxivi
- Elektron kitabxana
- Disklərin kitabxanası

BMK-da oxuculara bir sıra əla xidmətlər də göstərilir. Bunlar:

- çap nəşrlərinin hissələrinin surətinin çıxarılması
- elektron informasiyanın istifadəçinin elektron daşıyıcısına (yaddaş kartı, CD və s.) köçürülməsi
- elektron informasiyanın çap edilməsi (printer)
- mərkəzi kpməkçi fonddan hər hansı bir sənədin müəyyən bir hissəsinin skaner edilməsi
- qrupla iş üçün nəzərdə tutulmuş auditoriyanın BMK-nın fondundan olan ədəbiyyatla təmin olunması və s.

Müasir informasiyalaşdırılmış cəmiyyətin tələblərinə uyğun olaraq informasiya resurslarının keyfiyyəti və operativ formalaşdırılması BMK-nın əsas strateji vəzifəsidir.Kitabxana-informasiya resursları müxtəlif kateqoriyalı istifadəçilərin informasiya tələbatlarını müxtəli sənəd növləri və onların analitik-sintetik işlənməsi yolu ilə ödənilməsi və formalaşdırılmasına yönəlmişdir. BMK-sı ölkənin ən dolğun və tələb olunan fonduna malikdir. BMK-da informasiya resurslarının formalaşdırılması kitabxanaların, arxivlərin, muzeylərin, informasiya xidməti mərkəzlərinin informasiya resurslarının bir yerə toplanması imkanlarına əsasən yerinə yetirilir və aşağıdakı funksiyaları qarşıya qoyur:
- milli informasiya resurslarının maksimal şəkildə tam külliyyatının toplanması
- dünya əhəmiyyətli informasiya ehtiyatlarının toplanması
- BMK-nın informasiya ehtiyatlarının informasiya-axtarışı sisteminin inkişafı
- Milli sənədlərin biblioqrafik repertuarının yaradılması, dünya biblioqrafik resurslarının formalaşmasında iştirak
- Geniş miqyasda biblioqrafik, faktoqrafik və analitik informasiyanın yaradılması
- Sənədlərin, ilk növbədə milli sənədlərin rəqəmsallaşdırılması
- Belarusiyanın bütün kitabxanalarını, rəqəmsal informasiya resurslarını və informasiya mərkəzlərini birləşdirən milli elektron kitabxana kimi milli sənədlərin elektron arxivinin yaradılması və s.

BMK-nın informasiya texnologiyaları sistemi kompleks olaraq bütün kitabxana-informasiya texnoloji proses və əməliyyatlarını həyata keçirmək üçün nəzərdə tutulub və müvafiq texniki-şəbəkə, proqram və informasiya, linqvistik təminatdan ibarətdir. Bura avtomatlaşdırılmış kitabxana-informasiya sistemi, internet-portal, sənədlərin korporativ kataloqlaşdırılması sistemi və toplu elektron kataloq, avtoritet/normativ faylların milli məlumat bazasının formalaşdırılması sistemi, nəzarət və idarəetmə sisteminə çıxış, sənədlərin elektron surətlərinin yaradılması sistemi, sənədlərin çatdırılması sistemi, sənədlərin bərpası və konservasiyası sistemi, nəşriyyat-redaksiya fəaliyyəti sistemi və s. İnformasiya texnologiyaları sistemi kompleksi kitabxana fəaliyyətinin əsas istiqamətlərinin informasiya resurslarının formalaşdırılması, istifadəçilərə xidmət, fondların təşkili və mühafizəsinin təminatı texnologiyasına yeni noqteyi-nəzərdən baxmağa imkan verir.

Dünyanın aktiv şəkildə informasiyalaşdırılması, informasiya texnologiyalarının inkişafı ölkənin baş kitabxanasının qarşısında yeni tələblər qoydu, onun cəmiyyət həyatında rolunun artırılmasına tələbat yaratdı, kitabxananın oxucularının innovativ, elmi yaradıcı, idraki və digər tələbatlarının ödənilməsi və işçi heyətinin əməyinin keyfiyyət və operativliyinin artırılması üçün lazımi şərait yaradılmışdır. Belarusiya Prezidenti A.Q.Lukaşenkonun 2004-cü ildə mütəmadi fəaliyyət göstərən respublika və yerli dövlət idarələrində rəhbər işçilərinin "Dövlətin innovativ siyasəti və onun reallaşdırılması yolları" adlı seminarında səsləndirdiyi təklifə uyğun olaraq Belarusiya Respublikasının Nazirlər Soveti tərəfindən dövlət müəssisəsi olan Belarusiya Milli Kitabxanasının tikilən binasının bazasında "Respublika informasiya və sosio-mədəni mərkəzin yaradılması" Konsepsiyası hazırlanmış və təsdiq olunmuşdur. Bu konsepsiyaya uyğun olaraq kitabxana respublika-informasiya mərkəzi kimi:

- vahid informasiya məkanı formalaşdırır, milli və xarici informasiya resurslarına çıxışı təşkil edir.
- Internet-portalı yaradır və dəstəkləyir
- Kütləyə açıq milli elektron informasiya resurslarını yaradır.
- Korporativ kataloqlaşdırma sisteminin fəaliyyətini təşkil edir, Belorusiyanın toplu kataloqunu, milli sənədlərin və avtoritet yazıların verilənlər bazasını aparır.

Kitabxanada ekskursiya fəaliyyətinə böyük diqqət ayrılır. Kitabxananın sosio-mədəni mərkəzinə konfrans zal, rəsm qalereyaları kompleksi, kitab muzeyi, ekskursiya meydançası, bədən tərbiyəsi –sağlamlıq kompleksi, uşaq oyun otağı, istirahət zonası və s. daxildir. Sosio-mədəni mərkəzin əsas elementlərindən biri kitab muzeyidir. Bu muzey ziyarətçilərin belarus kitab çapının dünya kitab tarixinin kontekstində inkişafı ilə tanış etmək məqsədilə yaradılmışdır. Onun fəaliyyətinin əsas istiqaməti daimi və müvəqqəti ekspozisiyalar vasitəsilə kitabxanada saxlanılan 70 minlik nadir və qədim çap nəşrlərinin kitab kolleksiyalarının, qiymətli nəşrlərin istifadəçilər üçün açılması, nümayiş etdirilməsidir. Muzey muasir sərgi avadanlıqları ilə təmin olunmuş xüsusi aparat burada lazımi temperatur və nəmişliyi saxlamağa imkan verir.

Belarusiya Milli Kitabxanası dövlət müəssisəsi olub, özündə informasiya, sosio-mədəni və sosio-siyasi mərkəz funksiyalarını özündə cəmləyən müasir kitabxanadır. Kitabxananın yeni binası Belarusiyanın vizit kartıdır.

**ƏDƏBİYYAT**

1. Мотульский, Р.С. Национальная библиотека Беларуси: учеб. Пособие для вузов // Р.С.Мотульский; Нац. б-ка Беларуси, Белорус. гос. ун-т культуры и искусств.- Минск: Нац. б-ка Беларуси, 2009.-131 с.

2.http://www.nlb.by/portal/page/portal/index/content?lang=ru&classId=4E4538250D5643C5B725B4F04A443B66

3. Материалы Международного конгресса «Библиотека как феномен культуры» (Минск, 23-24 октября 2013 г.) / Национальная библиотека Беларуси; сост. А.А.Суша.- Минск, 2013.-323 с.

**Н.Д.Абдулаaева**

**НАЦИОНАЛЬНАЯ БИБЛИОТЕКА БЕЛАРУСИ КАК ЦЕНТР БИБЛИОТЕЧНЫХ ИННОВАЦИЙ**

**Р Е З Ю М Е**

В статье коротко освещена деятельность Национальной библиотеки Беларуси. Тут рассматривается история и формирование библиотеки, структура, основные функции, новые формы и виды библиотечного обслуживания, деятельность библиотеки как социо - культурного центра. Рассказывается о новых технологиях в автоматизациипроцесса обслуживание пользователей, телелифт,Факсимильныекниги, мобильные стеллажи и о др. библиотечных инновациях в новом информатизационном обществе.

**N.D.Abdullayeva**

NATIONAL LIBRARY OF BELARUSAS ACENTER **OF** LIBRARY INNOVATIONS

**S U M M A R Y**

This articlebrieflyhighlights the activitiesof the NationalLibrary of Belarus.Thenexamines the historyand formation ofthe librarystructure, basicfeatures, new forms and typesof library services, library activitiesas a socio-cultural center.Highlights newtechnologiesinprocess automationserviceuserstelelift, Facsimilebooks,mobile shelvingandotherinnovationsin the newlibraryinformatizationsociety.

*Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir.- **Qrant № EİF-RİTN-MQM-2/İKT-2-2013-7(13)-29/07/1***

**Adilə ABDULLAYEVA**
***AMEA-nındoktorantı***

# AZƏRBAYCAN RESPUBLİKASINDA İNFORMASİYA MƏDƏNİYYƏTİNİN FORMALAŞMASININ MÜASİR VƏZİYYƏTİ VƏ PERSPEKTİVLƏRİ

***Açar sözlər:*** *informasiya mədəniyyəti, kitabxanalar, informasiya-kommunikasiya texnologiyaları, internet resursları, anket sorğusu*

***Ключевые слова:*** *информационная культура, библиотеки, информационно-коммуникационные технологии, интернет ресурсы, анкетный опрос*

***Key words:*** *information literacy, libraries, information and communication technologies, internet resources, questionnaire*

Məqalədə Azərbaycanda informasiya mədəniyyətinin formalaşması problemi tədqiq edilmiş, informasiya mədəniyyətinin formalaşmasında kitabxanaların rolunu müəyyənləşdirmək məqsədilə oxucular arasında keçirilən anket sorğunun nəticələri təhlil edilmiş, informasiya mədəniyyətinin formalaşmasının hazırki vəziyyəti işıqlandırılmış və gələcək inkişaf perspektivləri barədə tövsiyələr verilmişdir. Sorğunun nəticələrinə əsasən demək olar ki, cəmiyyət üzvlərinin bir qisminin və xüsusən də tələbələrin informasiya mədəniyyəti aşağı inkişaf səviyyəsinə malikdir.

Bugün ən demokratik və ən çox tələb olunan mədəniyyət müəssisəsi kimi kitabxanaların qapıları sosial statusundan, gəlir səviyyəsindən, təhsilindən, milliyyətindən, dini mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaş üçün açıqdı. Bundan əlavə onlar xalqın maddi-mənəvi sərvətləri və mədəni potensialının mühüm tərkib hissəsi olan informasiyaları toplayır, qoruyur vətəndaşların istifadəsinə təqdim edir. Kitabxanalarda informasiya mənbələri içərisində kağız sənədlər üstünlük təşkil etsə də vahid informasiya məkanına tamhüquqlu iştirakçı kimi daxil olmaq üçün kitabxanalar fəal şəkildə öz fondlarını yeni elektron resurslarla formalaşdırırlar. Bu elektron resurslara kitabxananın elektron kataloqu, tammətnli məlumat bazaları və elektron kitabxanalar, tədris prosesi üçün zəruri olan elektron dərsliklər və dərs vəsaitləri, ensiklopediyalar, lüğətlər, məlumat kitabçaları, eləcə də metodik göstərişlər və digər elektron nəşrlər aiddir.

Ənənəvi olaraq kitabxanaların əsas məqsədinə əhalinin informasiya tələbatını ödəmək, mütaliə mədəniyyətini inkişaf etdirmək və kitabxana-biblioqrafiya aparatından, kitabxana fondundan, informasiya resurslarından istifadə, sənəd axını haqqında məlumatlandırma, informasiya axtarışının metodları, informasiya xidməti və s. proseslər daxildir. Kitabxanalar cəmiyyətin fəal üzvləri olan oxucularla, yəni şəxsiyyətlərlə birbaşa təmasda olduqlarından, əhalinin maariflənməsi, mədəni cəhətdən inkişaf etməsi, informasiya ilə təmin olunmasında bilavasitə iştirak etməklə mədəni tərəqqiyə xidmət edirlər. Kitabxanalar və kitabxana işçiləri informasiya savadlılığı və təhsilin tədrisində əsas tərəfdaşlardan hesab edilir. Lakin bu prosesdə təkcə kitabxanalar və kitabxanaçıların qüvvəsi təbii ki, çox azdır. Bu prosesdə bütün cəmiyyət üzvləri: müəllimlər, pedaqoqlar, valideynlər, təhsil alan şəxslər özləri və təhsillə əlaqəli bütün idarə və təşkilatlar yaxından iştirak etməlidir.

Hazırda kitabxanaların inkişafında sosial-mədəni dinamika müşahidə edilir və bu gün tədqiqat obyekti kimi kitabxana məkanı araşdırılır, yeni iş prosesləri təhlil edilir. Kitabxananın texniki imkanlarının genişlənməsi, oxuculara təqdim edilən xidmət növlərinin məzmunca keyfiyyətinin yaxşılaşması və kəmiyyətcə artması kitabxana məkanına "sərhədsiz

informasiya aləmi" kimi baxmağa əsas verir. Kitabxanalar müasir informasiya cəmiyyətində biliklərin idarə olunmasında, cəmiyyətlə-insan, insanla-informasiya arasında qarşılıqlı informasiya kanallarının yaradılmasında və əlaqələndirilməsində, ardıcıl olaraq təkmilləşdirilməsində, sürətlə islahatlar aparmaq və yeniləşmək vəzifəsi qarşısında dayanmışdır. [1, S.149.] Bu vəzifələrin müvəffəqiyyətli həlli cəmiyyətdə kitabxanaların nüfuzunun yüksəlməsinə xidmət edir.

Müasir informasiya-kommunikasiya texnologiyalarının inkişafı və geniş istifadəsi şəraitində hər bir cəmiyyət üzvünün informasiya mədəniyyəti sahəsində mənimsəməli olduğu bir sıra bacarıq və vərdişlər mövcuddur ki, bunlar da aşağıdakılardır:

- İnformasiya, kompyuter, rəqəmsal texnika və proqram təminatı, çox böyük və daim artan informasiya axını ilə işləmək vərdişləri, o cümlədən, məlumatların kodlaşdırılması və ötürülməsi bacarıqları;
- informasiyaya tənqidi münasibət vərdişləri, yalan məlumatı, qeyri-dəqiq mənbələri aşkar etmək bacarığı və s. ;
- interaktiv rejimdə ünsiyyət vərdişləri, qlobal şəbəkədə kommunikasiya bacarıqları; şəbəkə etikası elementləri; şəbəkədə sosial münasibətlər qurmaq bacarığı, azad və təhlükəsiz informasiya fəaliyyətini təşkil etmək;
- "sürətli dəyişikliklər cəmiyyətində" bəzi bacarıqlar, müxtəlif sosial və mədəni mühitlərdə sürətli əmək və fərdi adaptasiya (uyğunlaşma), texniki, texnoloji, sosial, iqtisadi və digər yeniliklərə tolerant münasibət;
- özünütəqdimat vərdişlərinin formalaşması, informasiya məkanında mövcud təhlükələri qiymətləndirmək və riskləri öncədən hesablamaq, şəxsi, sosial, iqtisadi, ekoloji və informasiya sahəsində təhlükəsiz davranış modelini yaratmaq bacarığı.

İxtira və kəşflərin sürətli artımı şəraitində, təkcə dövri nəşrlər deyil, həm də digər informasiya mənbələri sayca və həcmcə artım tendensiyasını yaşadığı bir zamanda, gələcək mütəxəssisə yalnız müəyyən biliklər vermək mühim deyil, həm də onlara bu bilikləri əldə etməkçün informasiya axtarışı vərdişlərini aşılamaq, fəal və effektiv şəkildə müasir informasiya-axtarış sistemləri ilə qarşılıqlı əlaqə qurmaq bacarığını formalaşdırmaq lazımdır. Lakin bu gün fəaliyyət göstərən kitabxanaların oxucuların informasiya tələbatlarını ödəyə bilməsi, onlara geniş informasiya axınında istiqamət verməsi, lazımi informasiyanı əldə etməkdə və ondan istifadə etməkdə əsas vasitəçi rolunu oynaması və yeni axtarış vərdişlərinin əldə edilməsində yol göstərməsi və biz tədqiqatçıları düşündürən digər məsələlərin tam real vəziyyətini müəyyənləşdirmək çox önəmlidir. Apardığımız tədqiqatın əsas məqsədi Azərbaycan oxucularının informasiya mədəniyyətinin səviyyəsini öyrənmək, onların bugünkü informasiya tələbatlarının ödənilməsində və gələcək elmi fəaliyyətlərində kitabxanaların bir elm, informasiya və

mədəniyyət müəssisəsi kimi necə vasitəçilik etdiyini müəyyənləşdirməkdən ibarətdir.

İlk növbədə onu qeyd edək ki, oxucuların informasiya mədəniyyətinin səviyyəsini müəyyənləşdirmək məqsədilə təcrübədə geniş vüsət almış anket üsulundan istifadə edilmişdir. Anket sorğusunun məqsədi:

- Oxucular tərəfindən "informasiya mədəniyyəti" termininin dərk edilməsini və onların müxtəlif informasiya mənbələrinə münasibətinin xüsusiyyətlərini müəyyənləşdirmək;
- Peşəkar əhəmiyyətli informasiyanın müstəqil axtarışı və emalı prosesində, onlayn bazalardan istifadə zamanı oxucuların-istifadəçilərin təcrübi bacarıqlarını müəyyənləşdirmək və onların yeni texnologiyalardan istifadə bacarıq və vərdişlərini öyrənmək;
- Oxucuların, gələcək mütəxəssislərin informasiya mədəniyyətinin formalaşmasında kitabxanaların, kitabxana işçilərinin rolunu müəyyənləşdirmək.

Oxucuların informasiya mədəniyyəti bir tərəfdən, peşəkarcasına əhəmiyyətli problemlərin və məsələlərin geniş dairəsini əhatə edən informasiya tələbatı ilə səciyyələnir, digər tərəfdən - peşə əhəmiyyətli vəzifələrin həlli üçün informasiyanın qavrayışı və emalında, müstəqil axtarış zamanı təcrübi bacarıqların səviyyəsi ilə xarakterizə olunur. Ona görə də cəmiyyət üzvlərinin informasiya mədəniyyətinin formalaşması probleminin tədqiqi çox aktualdır.

Qeyd etmək istərdim ki, bu anket sorğusu 118 nəfər oxucu arasında keçirilmişdir. Əsasən Azərbaycan Milli Kitabxanasının oxucuları olan anket iştirakçıları içərisində ən kiçik yaşlı oxucu 16 yaş, ən yaşlı oxucu isə 67 yaşında olmuşdur. Anketdə 65 qadın, 53 kişi iştirak etmiş, onlardan 57 nəfər ali, 23 nəfər doktorant, 21 nəfər ali magistr, 13 nəfər natamam ali təhsilli, 4 nəfər isə orta təhsilli olmuşdur.

İlk olaraq təqdim edilən *"Kitabxanada Sizi nə cəlb edir?"*sualına anket iştirakçıları müxtəlif cavab variantlarını seçmiş və onlardan 50 %-i kitabxanada xoş abu-hava və rahatlığın olması, 44,91 %-i elektron kitabxana, 33 %-i elektron kataloq; 22,88 %-i internetin olması, 22,03 %-i isə "heçnə cəlb etmir, sadəcə tədris və ya iş fəaliyyəti ilə əlaqədar kitabxanadan istifadə etməliyəm" cavab variantını seçmişdir. Bu sualda anket iştirakçıları bir neçə cavab variantını seçmək imkanına malik olmuş və nəticələrdən də göründüyü kimi daha çox kitabxanada xoş abu-hava və rahatlığın olması, elektron kitabxana və elektron kataloq variantı seçilmişdir. Sevindirici haldır ki, bu gün oxucularımız kitabxanalarda müasir texniki vasitələrin tətbiqinə müsbət yanaşır və onlardan istifadə vərdişləri mövcuddur. Artıq müasir oxucuları ənənəvi vasitələrdən çox elektron vasitələr cəlb edir.

Bu gün informasiya əsrində internet ümumbəşəri sərvət kimi insana xidmət etmək və hər kəsin hüquq və azadlıqlarının reallaşması, rifahının daha da yaxşılaşdırılması üçün yaradılmış azad bir məkandır. Hər kəs bu

kibermәkandan istifadә edәrәk, öz rahatlığını vә haqlarını hәyata keçirmәk imkanı әldә edir, әtraf alәm haqqında tez vә әlçatan bilgilәrә sahib olur, ifadә vә informasiya azadlığını reallaşdırır, elektron kitabxanalara daxil olaraq mütaliә edә bilir, distant tәhsillә özünün tәhsil hüququnu reallaşdırır, e-maillә mәlumatları operativ şәkildә alır vә ötürür, elektron xidmәtlәr vasitәsilә dövlәt orqanlarına asan müraciәt imkanları, habelә digәr hüquq vә üstünlüklәr әldә edir. Əhalinin günbәgün artan tәlәbatını hansı vasitәlәrlә ödәdiyini, kitabxanaların vә internetin insanların hәyatında yerini müәyyәn etmәk mәqsәdilә anket iştirakçılarına "*Sizә lazım olan informasiyanı necә әldә edirsiz?*" sualı ilә müraciәt etdik. Sorğuda iştirak edәnlәr bir neçә variant seçә bilәrdilәr vә onlardan 68,64 %-i "internet vasitәsilә", 58,47%-i "kitabxanalardan", 21,18 %-i "dövri mәtbuat sәhifәlәrindәn", 11,86 %-i "televiziya vasitәsilә", 8,47 %-i "iş yoldaşlarım vә yaxınlarım vasitәsilә" әldә etdiklәrini bildirmişlәr. İnformasiya әsrindә tәbii ki, informasiya әldә etmәk üçün İnternetin әsas vasitә olması tәәccüb doğurmur, lakin İnternetә azad çıxışın olması kitabxanaları әvәz edә bilmәz, rәyi soruşulanların 58,9 %-i hesab edir ki, "kitabxanaların yoxluğu cәmiyyәt üçün böyük itki olardı". Odur ki, kitabxanaların internetdәn sonra insanların informasiya әldә etmәk üçün müraciәt etdiklәri әsas informasiya mәrkәzi kimi seçilmәsi cәmiyyәtdә, ictimai hәyatın bütün sferalarında kitabxanaların әhәmiyyәtini bir daha tәsdiq etmiş olur.

İnternet bütün dünya üzrә müxtәlif kompyuterlәr arasında ünsiyyәt üçün imkan yaradan vә operativ informasiya mübadilәsini tәmin edәn qlobal şәbәkәdir. İnternet istifadәçilәrin "mәlumatın saxlanması, paylanması vә rahat әldә olunması" istәklәri nәticәsindә yaranmış bir texnologiyadır. [2] İnterneti bir mәlumat dәnizinә, yaxud çox böyük bir informasiya mәrkәzinә-kitabxanaya bәnzәdә bilәrik. Keçirdiyimiz sorğuda da respondentlәr әn çox müraciәt etdiklәri mәnbә kimi İnternet şәbәkәsini göstәrmişdir, bәs internet şәbәkәsindәn istifadә bacarıqları hansı sәviyyәdәdir? Bunu yoxlamaq mәqsәdilә bir sıra suallarla müraciәt etdik. Elektron poçtdan fәal şәkildә istifadә edәnlәr 39,83%, "e-mail ünvanım var vә bәzәn işlәdirәm" deyәnlәr 38,13 %, "e-mail ünvanım yoxdur" deyәnlәr 22,04 % tәşkil edir. "Elektron Azәrbaycan" hökumәtinin tәşәkkülü şәraitindә elektron poçtdan istifadә etmәyәn vә hәtta e-mail ünvanı olmayan cәmiyyәt üzvlәrinin sayının 22,04% olması fikrimizcә kifayәt qәdәr çoxdur. İnternetdә şәxsi veb resurslar yaratmaq sorğu keçirilәn anket iştirakçıları üçün әn çox çәtinlik çәkdiklәri prosesdir desәk yanılmarıq. Belә ki, internet saytlarında şәxsi veb resurslar yarada bilmәyәnlәr 60,16% tәşkil edir. Lakin internetdәn istifadә zamanı informasiya azadlığı vә informasiya tәhlükәsizliyi mәsәlәlәrinә diqqәt yetirmәk, internet etikasına riayәt etmәk lazımdır.

Sorğu vasitәsilә hәmçinin oxucuların internetdәn hansı mәqsәdlәrlә istifadә etmәsi dә bizi narahat edәn mәsәlәlәrdәn biri idi. İnternet vasitәsilә lazımlı informasiyanı әldә edәnlәr 82,20%, elmi tәdqiqat vә şәxsi tәhsil

məqsədilə internetdən istifadə edənlər 32,20%, internet vasitəsilə filmlərə baxıram, oyun oynayıram deyənlər 20,33%, müzakirələrdə və internet konfranslarda iştirak edənlər 13,55%-dir. Göründüyü kimi internet bu gün insanların həyatında çox mühüm rol oynayır və lazımi informasiyanı əldə etmək üçün müraciət edilən kütləvi qlobal vasitəçidir.

Oxucuların geniş spektrli informasiya ilə işə inteqrasiyasında kitabxana işçiləri xüsusi rol oynayır. Respondentlərin 63,8 %-i düşünür ki, kitabxanada lazımi informasiya mənbəyini axtarmaq və əldə etmək üçün kitabxanaçıların köməyinə ehtiyac var və 36,2 % oxucu düşünür ki, onların informasiya mənbələrində axtarış vərdişləri və texniki vasitələrdən istifadə bacarıqları mövcuddur, kitabxanaçıların köməyi olmadan da istənilən informasiyanı əldə edə bilərlər.

Hazırda biz tədqiqatçıları düşündürən mühüm məsələlərdən biri də cəmiyyət üzvlərinin mütaliə maraqlarını müəyyənləşdirməkdən ibarətdir. Əgər verilən cavabların doğruluğuna və səmimiliyinə inansaq nəticələri qənaətbəxş qiymətləndirmək olar. Çünki *"Siz daha çox hansı informasiyanı axtarırsız?"* sualına verilən cavablardan məlum olur ki, anket iştirakçılarının 50%-i elmi tədqiqat işi ilə bağlı, 45,76 %-i tədrislə bağlı, 41,52% ölkədə və dünyada baş verən hadisələrlə bağlı, 14,40 %-i informasiya-kommunikasiya texnologiyaları ilə bağlı, 5,08% oxucu isə əyləncə və yumorla bağlı informasiyaya daha çox tələbat duyur. Faizlərdən də görünür ki, bu gün elmi tədqiqat və tədris məqsədilə informasiyaya ehtiyac duyan və bununla da başlıca elm, təhsil, informasiya mərkəzi olan kitabxanalara müraciət edən oxucular üstünlük təşkil edir.

Anket sorğusunda təqdim edilən bir neçə sual oxucuların müasir informasiya texnologiyaları ilə işləmək üzrə təcrübi bilik və bacarıq səviyyəsinin müəyyən edilməsinə yönəlmişdir. Verilən cavablara əsasən belə bir nəticə çıxarmaq olar ki, oxucuların əksəriyyəti xüsusən də tələbələr informasiyanın elektron kataloqda müstəqil axtarışı və emalını, elektron resurslardan istifadəni bacarsalar da bu zaman bir sıra çətinliklər çəkirlər.

Yeni informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə əlaqədar kitabxanalarda daha çox elektron resurslardan - elektron kataloq, elektron kitabxanadan istifadə geniş vüsət almışdır. Anketdə təqdim edilən *Elektron kataloqda sərbəst axtarış apara bilirsinizmi?*sualına 80,50 % bəli, 19,49% xeyr cavabını vermişlər.

Sevindirici haldır ki, elektron resurslardan istifadə edənlərin sayı faiz etibarilə (80,50 %) elektron resurslardan istifadə edə bilməyənlərdən çoxdur. Elektron resurslardan istifadə etməyənlər əsas səbəb kimi "ənənəvi informasiya daşıyıcıları ilə işləmək rahatdır" variantını seçmiş (15,25%), oxucuların 12,71 %-inin fikrincə isə elektron resurslardan istifadəyə ehtiyac yoxdur, yalnız 3,38 % istifadəçi informasiya şəbəkələrində məlumat bazaları ilə işləmək bacarığının olmadığını səbəb kimi qeyd etmişlər.

*Xidməti proqramlarla (faylların DVD və CD disklərə yazılması, arxivin, ZİP və RAR faylların yaradılması) işləyə bilirsinizmi?* sualına oxucuların 55,93% bacarıram, 28,81% bəzi çətinliklərim var; 15,25% bacarmıram cavabını vermişdir. Baxmayaraq ki, xidməti proqramlarla işləməyi bacaranlar üstünlük təşkil edir, lakin bu proqramlarla "işləməyi bacarmayanlar" və "çətinlik çəkənlər" heç də az deyil.

Günümüzdə bir çox sahələrdə mütəxəssislərin müraciət etdikləri slayd təqdimatların yaradılmasına gəldikdə sorğu aparılan 118 nəfərdən PoverPoint proqramında tam işləyə bilənlər 39,66% olsa da, təqdimat hazırlamağı bacarmayanlar isə 32,20% təşkil edir. Slaydlarda təkcə mətn və şəkil qoya bilənlər 23,72 %, mətn və şəkillərlə yanşı animasiya və diaqramlardan da istifadə edənlər 14,40% dir. Təəssüf ki, slayd təqdimatlar hazırlaya bilməyənlərin faiz göstəricisi heç də az deyil. (32,20%)

Anketdə iştirak edən bir sıra respondentlər *"informasiya daşıyıcıları ilə işləyərkən çətinlik çəkirsiz?"* sualına 24,57% bəli, 75,42% xeyr cavabını vermişdir. Bəli deyənlər informasiya daşıyıcıları ilə işləyə bilmədiklərinin səbəbini avtomatlaşdırılmış rejimdə (elektron kataloq, elektron kitabxana, saytlar, məlumat bazaları, İnternet və s.) axtarış etməyi bacarmadıqları və informasiya mənbələri ilə işləyə bilmədikləri ilə izah etmişlər.

Anketin maraqlı sorğularından biri də "informasiya mədəniyyəti" ilə əlaqədar idi. Bu gün cəmiyyətdə hər bir fərdin təhsilli, dünya görüşlü, yüksək intellektli şəxsiyyət kimi yetişməsində informasiya mədəniyyətinin əhəmiyyəti böyükdür. Lakin təəssüf ki, bu gün cəmiyyət üzvlərinin əksəriyyəti, xüsusilə də gənc nəsil "informasiya mədəniyyəti" anlayışı barədə məlumatsızdırlar. *"İnformasiya mədəniyyəti" deyəndə nə başa düşürsünüz?* sualını cavablandıran oxucuların 52,54 %-i yanlış, 27,11 %-i doğru cavab vermişlər. Bu nəticələr ürəkaçan olmasa da reallığı əks etdirir. Hətta anketdə iştirak edənlərin 53,84%-i bu anketə qədər informasiya mədəniyyəti anlayışına rast gəlmədiyini bildirmişlər.

*"Siz öz informasiya mədəniyyətinizin səviyyəsini necə qiymətləndirirsiz*?" sualına respondentlərdən 54,23 %-i orta, 24,57 %-i yüksək, bilmirəm deyənlər 15,25 %, aşağı cavabını verənlər isə 5,93 % təşkil edir. Lakin respondentlərin çoxunun informasiya mədəniyyəti anlayışını doğru şərh etmədiklərini nəzərə alsaq öz informasiya mədəniyyətlərinin səviyyəsini də doğru qiymətləndirmədikləri ortaya çıxar.

Anketdə iştirak edən oxuculardan 38,13%-i informasiya axtarış sistemlərində və məlumat bazaları ilə işləmək üçün məşğələlərə, köməyə ehtiyac duyduğunu, 35,59%-i buna ehtiyac olmadığını bildirmiş, 26,27 % oxucu isə bəzən cavabını vermişdir. Ancaq fikrimizcə anketin nəticələrinə görə cəmiyyət üzvlərinin informasiya mədəniyyətinə yiyələnmək sahəsində məşğələlərə çox böyük ehtiyacı vardır.

Əldə etdiyimiz nəticələrdən demək olar ki, cəmiyyət üzvlərinin bir qisminin informasiya mədəniyyəti aşağı inkişaf səviyyəsinə malikdir və

informasiya-axtarış sistemləri və onlayn bazalardan istifadə sahəsindəki bacarıqları da aşağı göstəricilərlə səciyyələnir. Cəmiyyətin informasiya resursları və informasiya mədəniyyəti sahəsində nəzəri və təcrübi biliklərə malik olan şəxslər, xüsusən də tələbələr təəssüf ki, azlıq təşkil edir. Hətta kompyuter və rəqəmsal texnologiyaların istifadəsi və mənimsənilməsi səviyyəsi şəhər əhalisi arasında nisbətən qənaətbəxş olsa da, regionlarda bu səviyyə çox aşağıdır. İnternet texnologiyaları üzrə əhatə dairəsi kifayət deyil, hətta onların istifadəsi üçün xüsusi cəhd və maraq da yoxdur. Bu, əhalinin müəyyən təbəqəsində informasiya yoxsulluğu üzrə təhlükənin yaranmasına və informasiya mədəniyyətinin formalaşdırılması üzrə ciddi problemlərin meydana çıxmasına səbəb ola bilər. Xüsusi qeyd etmək lazımdır ki, gənclər əsasən əyləncə və ya əyləncə axtarışı ilə əhatə olunmuşdur və zamanlarını sosial şəbəkələrdə keçirirlər.

Təəssüf ki, əsas problemlər şəxsin uşaqlıq dövründən başlayır. Hazırda uşaq və yeniyetmələrin mütaliə xarakteri dəyişmişdir. Cəmiyyətin informasiyalaşdırılması şəraitində başlıca vəzifələrdən biri - dəyişiklikləri təkcə inkişaf etməkdə olan yeni elektron cəmiyyətdə yaşayacaq oxucuların vərdişlərində və simasında görmək deyil, həm də onlara yeni mədəniyyətin elementlərini qəbul etməkdə köməklik göstərmək, uşaq və yeniyetmələrdə istənilən formada təqdim edilən (çap və ya elektron) mətnin oxunması mədəniyyətini yüksək səviyyədə inkişaf etdirməkdən ibarətdir.

Müxtəlif sahələrin mütəxəssisləri- psixoloqlar, pedaqoqlar, sosioloqlar- qeyd edirlər ki, oxumayan, informasiya ilə işləməyi bacarmayan uşaqlar təkcə şəxsiyyətin təşəkkülü üçün maneə deyil, həmçinin cəmiyyət üçün böyük bir riskdir. Mütaliə edən, səriştəli vətəndaş-Azərbaycanın milli dəyəridir. Bir qayda olaraq, orta ümumtəhsil məktəblərinin məzunları məktəbi bitirib ali təhsil ocaqlarına qəbul olarkən təhsil prosesində problemləri başlayır. Xüsusən də informasiya ilə bağlı axtarış apararkən köməksiz qalırlar: kitabxananın kataloq və kartotekasının quruluşunu, tərkibini, onların spesifik xüsusiyyətlərini bilmirlər, informasiya sorğularının ödənilməsi metodikasına yiyələnməyiblər, axtarışın nəticələrini doğru təhlil edib, tələbatlarına uyğun gələn dəqiq mənbəni seçə bilmirlər. Odur ki, böyüməkdə olan nəslin intellektual və mənəvi simasının formalaşmasında məktəb kitabxanasının rolu və əhəmiyyəti böyükdür. Məktəb kitabxanası kitabxanaçının müəllimlərlə bərabər pedaqoji vəzifələri həll edən təhsil bölməsi kimi çıxış edir, müəllim və şagirdlərin informasiya mədəniyyətinin yüksəldilməsi sahəsində bir mütəxəssis - informasiya lideri olur, müəllimlərin fasiləsiz təhsil tələbatının formalaşmasında, onların kitab və informasiya vasitəsilə tərbiyəsində köməkçi rolunu oynayır. Məktəb kitabxanasının rolu təhsil prosesində müəyyənləşdirilmişdir: əsas və əlavə təhsil proqramlarının həyata keçirilməsi və təhsil müəssisəsindən kənarda məqsədyönlü, sistemli və istifadəçilərin tələbatına uyğun üsullarla biliklərin əldə edilməsini, informasiya ilə işləmək vərdişlərinə yiyələnməyi təmin etməkdir.

Ən təhlükəlisi də odur ki, informasiya mədəniyyətinin səviyyəsi çox aşağı olan istifadəçilər informasiya fəaliyyəti sahəsindəki səriştəsizliklərindən məlumatsızdılar. Onlar informasiya xidməti sahəsində xüsusi bilik və bacarıqların dəyərini anlamır, təcrübi fəaliyyətin tədris, elmi-təcrübi, şəxsi təhsil, asudə vaxt kimi müxtəlif sahələrində bu bilik və bacarıqların real olaraq onlara necə kömək edə biləcəyindən xəbərsizdilər. Şagirdlərin informasiya mədəniyyətinin formalaşdırılması məsələlərinin təhlili göstərir ki,.informasiya mədəniyyətinin tədrisini elə məktəblərdən başlamaq lazımdır. İnformasiyalaşdırma və informasiyalı cəmiyyətə keçid şəraitində şəxsin informasiya mədəniyyətinin şüurlu, məqsədyönlü formalaşdırılması çox zəruridir. Bu da öz növbəsində, informasiya mədəniyyətinin nəzəri əsasları və onun reallaşması proqramı daxil edilmiş müvafiq konsepsiya hazırlanmadan mümkün deyil.

Kitabxana vasitələrindən istifadənin öyrənilməsi və axtarış strategiyalarının formalaşması bu gün tədris müəssisələrini resurs mərkəzi kimi təqdimetmənin perspektiv bir nümunəsidir. Tələbə və onun tələbatlarına yönəlmiş və bu gün daha çox üstünlük təşkil edən yanaşma informasiya-axtarış fəaliyyətinin bütöv bir proses kimi öyrənilməsidir. Burada axtarışın ənənəvi tədrisi, informasiyanın həmin informasiyadan biliklərin əldə edilməsi prosesi ilə eyni vaxtda istifadəsi başlıca ideya hesab edilir.

İnformasiya mədəniyyətinin formalaşdırılması prosesi oxuculara fərqli yanaşmanı, peşəkar ixtisaslaşmanı nəzərə almaqla tədris proqramları və metodikanın seçilməsini, onların informasiya tələbatı və informasiya hazırlığını, kompyuter texnikası ilə işləmək vərdişlərinə yiyələnməyi tələb edir. Kitabxanaya müraciət edən oxucuların informasiya tələbatının diapazonu hədsizdir. Ona görə də informasiya təhsili üzrə tədbirlərin təşkilini üç səviyyədə həyata keçirmək məqsədəuyğundur:

1. Kitabxanadan istifadənin ənənəvi tədrisi (kitabxanada istiqamətlənmək təkcə kitabxana fondları, kataloqu, kitabxanada mövcud xidmət sistemi haqqında məlumat verməklə məhdudlaşmır);
2. Biblioqrafik təhsil, informasiya üzrə axtarış metodları və biblioqrafik mənbələrin öyrənilməsi;
3. Kompyuter texnikasının tətbiqi ilə elektron onlayn məlumat bazalarından, elektron daşıyıcılarda olan informasiyadan istifadənin tədrisi. [4]

Kitabxana proseslərinin avtomatlaşdırılması ilə əlaqədar olaraq fəaliyyəti yeni informasiya mühitini formalaşdıran, təkcə kitab “dənizi”ndə bələdçi deyil, həm də kompyuter şəbəkələrinin naviqatoruna çevrilən kitabxana işçilərinin informasiya mədəniyyətinin yüksəldilməsi problemi də bu gün çox aktualdır. Elementar olaraq kitabxanaçının informasiya mədəniyyəti olmasa nə özü professional əməliyyatları yerinə yetirə bilər, nə də başqasında informasiya mədəniyyətini formalaşdıra bilər. Yeni kitabxana-informasiya infrastrukturu üçün elə mütəxəssislər lazımdır ki, həm informasiya sistemləri ilə işləmək

bacarığı olsun, əldə etdiyi informasiyanı qiymətləndirə bilsin, həm də oxcunu informasiya bolluğu şəraitində düzgün istiqamətləndirməyi bacarsın.

Odur ki, hər bir kitabxanaçı-biblioqraf şəxsi təhsili üzərində müntəzəm olaraq çalışmalı və onu təkmilləşdirməlidir. Müxtəlif məzmunlu ədəbiyyatı mütaliə etməli və xüsusən də ixtisas ədəbiyyatına dair bütün yeniliklərdən xəbərdar olmalı, yeni çap olunmuş milli və xarici jurnallarla tanış olmalı və mətbuatı izləməlidir. Eyni zamanda mütəmadi olaraq müxtəlif idarə və təşkilatlar tərəfindən təşkil edilmiş treninqlərdə, kurslarda iştirak etməsi məqsədəuyğun olardı. Kitabxanaçı-biblioqrafların bacarıq və vərdişləri isə onların təcrübi fəaliyyətləri nəticəsində əldə edilir. Vərdişlər adətən avtomatik olaraq daim təkrarlanan proseslərin yerinə yetirilməsi ilə əmələ gəlir və xüsusi şüurlu nəzarət tələb etmir.

Biblioqrafın fəaliyyət sferasına 2 əsas istiqamət daxildir:

- informasiyalaşdırma istiqaməti- informasiyanın işlənməsi, qorunması, ötürülməsi, biblioqrafik mənbələrin hazırlanması;

- informasiyanı tələb edən və yaradan insana (tələbatçıya) istiqamətlənmiş mədəni istiqamət- biblioqrafik xidmət.

İkinci istiqamət informasiyanın istifadəsi və yayılması prosesini, biblioqrafın oxucu və işçilərlə ünsiyyət mədəniyyəti, biblioqrafik idarəetmə və biblioqrafik təhsil verməni özündə birləşdirir. Bu ikimeyllilik biblioqrafın informasiya mədəniyyətində biblioqrafik komponentin yerini və rolunu müəyyən edir.

Kitabxanaçı-biblioqrafın insanlarla münasibətində səmimilik, ədalət, səbr, düzgünlük, məsuliyyət, kollektivçilik keyfiyyətlərini, fəaliyyətin tərzini əks etdirən təşəbbüskarlıq, işgüzarlıq, tələbkarlıq, dəqiqlik kimi keyfiyyətləri, ümumi rəftarı müəyyən edən iradə, özünə nəzarət, tarazlıq, əminlik keyfiyyətləri və yaddaş, analitik qavrama kimi zehni keyfiyyətlərini də nəzərə almaq lazımdır.

Oxuculara xidmət göstərən kitabxanaçı-biblioqraf axtarış zamanı qısa vaxt ərzində qərara gəlməli, müxtəlif və mürəkkəb xarakterli sorğuların qeyri-bərabər axını şəraitində səriştəli fəallıq göstərməli, informasiya tələbatçıları ilə münasibətdə emosional sabitliyi gözləməlidir.

Bu problem xüsusilə region kitabxanalarında daha çox diqqəti cəlb edir. Regionlarda mövcud olan kitabxanalarımızın fəaliyyətinə nəzər salsaq görərik ki, bu gün regionlarda ali təhsilli kitabxanaçı kadrların azlığı, digər kitabxana işçilərinin texniki vərdişlərinin və peşə səriştəsinin aşağı səviyyədə olması regionlarda informasiya mədəniyyətinin formalaşmasında kitabxanaların roluna əsaslı dərəcədə mənfi təsirini göstərir. Bu problemin həlli məqsədilə region kitabxanaçıları üçün müntəzəm olaraq distant kursların, telekonfransların təşkili məqəsədəuyğun olardı. Odur ki, şəxsiyyətin informasiya mədəniyyəti problemi - tükənməzdir və kitabxanada müasir səviyyədə həll olunmalıdır.

Son zamanlar təhsil sahəsində baş verən dəyişikliklər, yeni islahatların təhsil prosesinə tətbiqi ali məktəblərin qarşısında da yeni tələblər qoymuşdur.

Artıq ali təhsil ocaqları təkcə ali təhsilli kadr yetişdirməklə kifayətlənmir, öz məzunlarının sosial həyata hazırlıqlı olmasını da təmin edirlər. Tələbədə ümumbəşəri, milli və mədəni dəyərlər formalaşdırmaqla yanaşı, qarşıya xüsusi bir məqsəd də qoyulur-professional mədəni mütəxəssis yetişdirmək. [3]

Professional-mədəniyyətə aşağıdakılar daxildir:

-professional səriştə;

-yerinə yetirdiyi işin əhəmiyyətini dərk etmək;

-yüksək nəticələrə nail olmaq cəhdi, karyera yüksəlişinə və maddi rifaha inam;

-öz gücünə güvən;

-kollektivdə işləmək bacarığı;

-kommunikativlik və qavrama qabiliyyəti (informasiyanın qəbul edilməsi, emalı və qiymətləndirilməsi, informasiya mədəniyyətinə malik olması)

Professional mədəniyyətin bütün bu komponentləri informasiya mədəniyyətinin mühüm tərkib hissəsini təşkil edir.

Mütəxəssislərin yüksək səviyyəli hazırlıq sisteminə keçməsi informasiya mədəniyyətinin əsasları üzrə fənlərin tədrisinə yeni yanaşmanı tələb edir. Gələcək mütəxəssislər üçün informasiya mədəniyyətinin əsasları üzrə zəruri keyfiyyətlərin müəyyənləşməsində təhsil standartlarına uyğun tədris pilləsi (orta təhsil, bakalavr və magistr pilləsi, doktorantura və s.) ilə bağlı tədris-metodiki kompleksin hazırlanması mühüm əhəmiyyət kəsb edir. [5]

Bu məqsədlə BDU-nun kitabxanaçılıq-informasiya fakültəsinin müəllimləri, həm də respublikanın aparıcı kitabxana mütəxəssisləri tərəfindən fənlərin tədris-metodik kompleksinin - bakalavr pilləsi üçün "İnformasiya mədəniyyətinin əsasları", magistr pilləsi üçün isə "Magistrin informasiya mədəniyyəti" fənləri üzrə proqramların hazırlanması və tədrisi məqsədəuyğun olardı.

Lakin təhsil müəssisələri ilə yanaşı yaxşı olardı ki, kitabxanalarda da "İnformasiya mədəniyyətinin əsasları"nın tədrisi üzrə məşğələlər təşkil edilsin. Bu məqsədlə ilk öncə informasiya mədəniyyətinin tədrisi üzrə proqram hazırlamaq müəyyən oxucu qrupları arasında təbliğat aparmaq, onları bu prosesdə iştiraka cəlb etmək zəruridir.

Oxucuların informasiya mədəniyyətinin səviyyəsini artırmaq məqsədilə təşkil edilən biblioqrafik axtarış və mənbələrlə işləmək metodikası barədə fərdi məsləhətlər (informasiya mədəniyyətini inkişaf etdirmək və təkmilləşdirmək yolları barədə, dünya informasiya sistemlərindən istifadə üsullarını müəyyənləşdirmək və s.); elektron və ənənəvi informasiya resurslarından istifadə üzrə təcrübi məşğələlər, İnternetdən istifadə metodikası mühüm əhəmiyyət kəsb edir. Oxucuların informasiya mədəniyyətinin inkişafına kömək məqsədilə müxtəlif ədəbiyyat göstəriciləri, yaddaşlar, kitabxana üzrə bələdçilər, soraq kitabları nəşr edilməli, elektron vasitələrlə fərdi tədrisi təmin edən xüsusi proqramlar hazırlanmalıdır. [6] Sevindirici haldır ki, bu gün Azərbaycanın

qabaqcıl ali təhsil müəssisələrindən olan “ADA” Universitetinin kitabxanasında tələbələrin informasiya mədəniyyətinin formalaşmasına xüsusi önəm verilir və bu məqsədlə artıq 2013-cü ildən “İnformation literacy” (İnformasiya mədəniyyəti) dərsləri tədris edilir. Öncədən müəyyən edilmiş oxucu qrupları arasında tədris edilən bu dərslərin əsas məqsədi tələbələri kitabxananın strukturu, informasiya mənbələri, fondları, məlumat bazaları ilə tanış etmək, onlar vasitəsilə axtarış aparmaq, onlayn məlumat bazaları ilə işləmək və ədəbiyyat sifarişini həyata keçirmək bacarığını aşılamaqdan ibarətdir. Yeni tədris həyatına qatılan gənc tələbələrin gələcək elmi fəaliyyətində və iş həyatında bu bilik və bacarıqların əhəmiyyəti böyükdür.

Beləliklə, vətəndaşları cəmiyyətin informasiyalaşdırılması prosesinə cəlb etmək məqsədilə cari informasiyaya əlyetərliyi təmin etmək, bütün həyatı boyunca şəxsin təhsilində iştirakını təmin etmək, cəmiyyət üçün intellektli və informasiya ilə işləməyi bacaran vətədaşlar yetişdirmək, eləcə də informasiya mədəniyyətinin formalaşması mərkəzinə çevrilmək məqsədilə müasir kitabxanalar öz prioritet funksiyalarını yenidən nəzərdən keçirməli, iş prosesində yeni iş üsullarını və dünyaca qabaqcıl təcrübəni tətbiq etməlidirlər.

**ƏDƏBİYYAT**


1. Xələfov, A. Kitabxana və cəmiyyət :monoqrafiya /A. Xələfov, elmi red. Məmmədova L., red. K.Aslan.-Bakı: Azərnəşr, 2011.- 348 s.
2. Məcidli, S.İnternet hüququ və etikası /S.Məcidli; elmi red. R.K. Məmmədov; rəyçi Ə.Sadıqov, Ə.Məmmədov.- Bakı:[Elm və təhsil], 2013.- 220, [4] s.
3. Гендина, Н. И. Формирование информационной культуры личности: от теории – к модели информационного образования /Н.И. Гендина //Открытое образование.- 2007.- № 1.- С. 4-10.
4. Дригайло, С.В. Формирование информационной культуры пользователей и сотрудников библиотеки /С.В. Дригайло//Научные и технические библиотеки.-2011.- №1.-С. 81.
5. Хесус Лау «Руководство по информационной грамотности для образования на протяжении всей жизни»=Guidelines on Information Literacy for Lifelong Learning /Л.Хесус.- Москва :«Информация для всех», 2006.- С.16.
6. Lanning, S. Concise Guide to Information Literacy.- Santa Barbara, California: ABC-CLİO, LLC, 2012.-p. 5.
7. Yang, H. Study on Information Literacy of College Students with University Library/Yang, Hai-bo, Yan-yan Zhang, and Ning Yu //Information Computing and Applications.- Springer Berlin Heidelberg, 2012.-414-420.


**А.Абдуллаева**

**СОВРЕМЕННОЕ СОСТОЯНИЕ И ПЕРСПЕКТИВЫ ФОРМИРОВАНИЯ ИНФОРМАЦИОННОЙ КУЛЬТУРЫ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ**


**Р Е З Ю М Е**

В статье исследована проблема формирования информационной культуры в Азербайджане, были проанализированы результаты опроса, проведенного среди читателей с целью определить роль библиотек в этой области, атакже освещена нынешняя состояния формирования информационной культуры и были даны рекомендации о перспективах развития. Согласно результатам опроса можно сказать, что часть членов общества и особенно студенты имеютнижнего уровня развития информационной культуры.



**A.Abdullayeva**


**CURRENT STATE AND PROSPECTS OF FORMATION OF INFORMATION LITERACY IN THE AZERBAIJAN REPUBLIC**


**S U M M A R Y**

The problem of formation of information literacy in Azerbaijan was investigated in the article, results of survey conducted among readers with the purpose to define a role of libraries in this area were analysed, also have been made recommendations about a present condition of formation of information literacy and futuredevelopment prospects.

According to results of questionnaire part members of society especially students have low level of development of information literacy



**Şəhla QƏNBƏROVA**

***F.B.Köçərli adına***

***Respublika Uşaq Kitabxanasının direktoru***


# ELÇİN ƏFƏNDİYEV İRSİ BİBLİOQRAFİK MƏNBƏLƏRDƏ


***Açar sözlər**: Şəxsi biblioqrafiya,informasiya-axtarış imkanları, biblioqrafik metodika*

***Ключевые слова:*** *персональная библиография, методика, библиографии, информационно-поисковые возможности*

***Keywords:*** *personal bibliographic indexes, the methods of composing of bibliographic indexes, information retrieval potential*

Müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, çağdaş ədəbi-tənqid məktəbinin layiqli davamçısı, xalq yazıçısı, "İstiqlal" və "Şərəf" ordenli, "Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi", tanınmış ictimai-siyasi xadim Elçin Əfəndiyev zəngin və çoxşaxəli yaradıcılığa malik ədəbiyyatşünasdır. Elçin Əfəndiyev xalqımızın tarixi, taleyi və ədəbi-bədii irsi ilə bağlı olan sənətkarlarımızdandır. Elçin Əfəndiyevin Azərbaycan ədəbiyyatı və mədəniyyətinin inkişafıında xüsusi xidmətləri, çoxsaylı ədəbi-bədii yaradıcılığı, publisistik fəaliyyəti, xarici ölkə ədəbiyyatından etdiyi tərcümələri, dram əsərləri, kinosenariləri, ictimai-siyasi fəaliyyəti onun haqqında çox zəngin sənəd-informasiya bazasının formalaşmasına səbəb olmuşdur. Bu zəngin sənəd kütləsi ilkin mənbələrlə yanaşı, biblioqrafik mənbələrdə də əks etdirilmişdir.

Elçin Əfəndiyev haqqında ilk şəxsi elmi-köməkçi xarakterli biblioqrafik göstərici 1997-ci ildə peşəkar biblioqraf Bəybala Ələsgərov tərəfindən tərtib edilərək, M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası tərəfindən nəşr edilmişdir.(1)

Bu biblioqrafik göstəricidə Elçin Əfəndiyevin 1959-1996-cı illərdə Azərbaycan , rus, MDB və digər xarici ölkə xalqlarının dillərində çap edilmiş bədii əsərlərini, publisistik, elmi-tənqidi yazılarını, o cümlədən monoqrafiya və elmi məqalələrini, həmçinin müxtəlif sessiya, simpozium və elmi konfranslardakı məruzə və çıxışlarını, müqəddimə yazdığı və redaktə etdiyi əsərləri əhatə edir. Biblioqrafik vəsaitdə həmçinin ədibin həyat və yaradıcılığı, ictimai fəaliyyəti haqqında ədəbiyyat da əks etdirilmişdir.

Biblioqrafik göstərici çox zəngin köməkçi aparata malik olub, ədibin həyat və yaradıcılığı, onun əsərlərinin nəşri, tərcümələri, nəşriyyatlar, redaktorlar, tərcüməçilər, dövri nəşrlər və s. müəllifin əsərlərinin nəşrilə əlaqədar olan şəxsiyyətlər və kollektivlər haqqında geniş məlumat verir. Bu biblioqrafik vəsaiti digər elmi-köməkçi göstəricilərdən fərqləndirən əsas xüsusiyyət onun dəqiq və elmi-bibloqrafik cəhətdən düzgün müəyyənləşdirilmiş struktur quruluşa malik olmasıdır. Belə ki, Bu biblioqrafik tədqiqat bir neçə bölmədən ibarət olan giriş hissəsi ilə yanaşı özündə 30- dan yuxarı bölməni birləşdirən dörd əsas hissədən, 21 yardımçı göstəricilərdən ibarət "Köməkçi göstəricilər" adlandırılmış xüsusi bölmədən ibarətdir.

Biblioqrafik göstəricinin giriş hissəsində professor Zöhrab Əliyevin rəyi, sonra Elçin Əfəndiyevin əsərlərinin nəşri haqqında qısa oçerk, ədibin həyat və yaradıcılığının əsas tarixləri və ədib haqqında ədəbiyyat və mədəniyyət xadimlərinin fikirləri təqdim edilmişdir.

Biblioqrafik göstəricinin I hissəsində Azərbaycan dilində müəllifin kitabları, redaktə etdiyi kitablar, dövrü mətbuatda və müxtəlif məcmuələrdə dərc edilmiş bədii əsərləri, ədəbi-tənqidi və publisistik məqalələri, tərcümələri və əsərləri haqqında ədəbiyyatın biblioqrafik təsviri verilmişdir.

Biblioqrafik vəsaitdə bütün mənbələr hər bir bölmə daxilində əlifba sırası ilə qruplaşdırılmışdır.

Biblioqrafik göstəricinin II hissəsində ədibin həyat və yaradıcılığı haqqında Azərbaycan dilində ədəbiyyat verilmiş və sənədlər aşağıdakı bölmələr üzrə qruplaşdırılmışdır:

1. Həyat və yaradıcılığı haqqında;
2. Azərbaycan Yazıçılar İttifaqındakı fəaliyyəti;
3. "Vətən" cəmiyyətindəki fəaliyyəti;
4. Baş nazirin müavini kimi fəaliyyəti.

Biblioqrafik vəsaitin III hissəsində Elçin Əfəndiyevin əsərlərinin rus dilindəki nəşrlərini və onun həyat və yaradıcılığı haqqında rus dilində nəşr edilmiş ədəbiyyatı əhatə edir. Materialların sistemləşdirilməsi əsasən göstəricinin Azərbaycan dilindəki mənbələri əhatə edən hissəsinə uyğun şəkildə tərtib edilmişdir: kitabları, müqəddimə yazdığı əsərləri, dövri mətbuat materialları; ədəbi-tənqidi və publisistik məqalələri, ictimai fəaliyyəti, ekranlaşdırılmış əsərləri, filmləri haqqında ədəbiyyat; həyat və yaradıcılığı haqqında ədəbiyyat. Bu hissədə materiallar Azərbaycan dilindəki sənədlər kimi əlifba prinsipi əsasında düzülmüşdür.

Biblioqrafik göstəricinin IY hissəsi ədibin xarici dilləedə nəşr edilmiş əsərlərini və onun haqqında ədəbiyyatı əks etdirir. Burada ədibin keçmiş SSRİ respublikaları və digər xarici ölkələrdə nəşr edilmiş əsərləri və onun həyat və yaradıcılığı, eləcə də ayrı-ayrı əsərləri haqqında müxtəlif ölkələrdə ( Bolqarıstan, Belorusiya, Çexiya, ABŞ, Almaniya, Türkiyə, Macarıstan, İraq, Qazaxstan, Polşa, Rusiya və s.) dərc edilmiş əsərlərin nəşrlərinin mükəmməl biblioqrafik təsviri verilmiş və müəllif haqqında xarici ölkələrdə dərc edilən çox saylı mənbələr toplanmışdır. Materialların düzülüşü ölkələrin əlifba sırasına görə sistemləşdirilmişdir. Hər bir ölkəyə həsr olunmuş bölmə daxilində də mənbələrin düzülüşündə əlifba prinsipi əsas götürülmüşdür.

Biblioqrafik göstəricidə diqqəti cəlb edən xüsusiyyət burada orjinal köməkçi göstəricilər sisteminin yaradılmasıdır. Belə ki, biblioqrafik göstəriciyə daxil olan çoxsaylı və çoxdilli sənədlərin müxtəlif axtarış əlamətlərinə görə müəyyənləşdirilməsini təmin etmək üçün 21 adda köməkçi göstərici tərtib edilmişdir. Bu göstəricilər vasitəsilə ədibin Azərbaycan, rus və xarici dillərdə nəşr edilmiş əsərlərini, redaktə etdiyi əsərləri, ( kitabları və məqalələrini ) tərcümələrini, onun əsərlərinin redaktorlarını, rəyçilərini, yazıçının senarilərini, səhnələşdirilmiş və ekranlaşdırılmış əsərlərini, nəşriyyatların, dövri

orqanların adlarını, müəllifin əsərləri çap edilən ölkələrin adlarını və tərcümə edilmiş əsərlərinin sərlövhələrini operativ və dəqiq müəyyənləşdirmək mümkün olur. Biblioqrafik göstərici özündə bütövlükdə 1152 adda müxtəlif mənbəni əks etdirir. (4.s.125)

Biblioqrafik göstəricinin müəllifi Bəybala Ələsgərovun gərgin zəhməti və və hərtərəfli axtarışları nəticəsində meydana gəlmiş bu bibioqrafik əsər Elçin Əfəndiyev irsinin hərtərəfli əhatə edilməsində mühüm nailiyyət olmuşdur.

"Elçin" biblioqrafik göstəricisinin təhlilini bu vəsait haqqında professor Zöhrab Əliyevin aşağıdakı sözləri ilə yekunlaşdırmaq istərdik: "Çağdaş Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Elçin haqqında biblioqrafik göstərici başqa şəxsi biblioqrafik vəsaitlər sistemində özünəməxsus yer tutacaqdır və Azərbaycan ədəbiyyatı üzrə biblioqrafik axtarışda mühüm rol oynayacaqdır".(3,s.9)

Elçin Əfəndiyev irsinin biblioqrafik tədqiqinə həsr edilmiş digər bir biblioqrafik vəsait 2013-cü ildə, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası tərəfindən "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyası ilə nəşr edilmişdir. (Elçin (Əfəndiyev Elçin İlyas oğlu): biblioqrafiya / ixtisas red. və burax.məsul K.Tahirov, red.G.Səfərəliyeva; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.-Bakı,2013.-560 s.).

Elçin Əfəndiyevin ədəbi-bədii və ictimai fəaliyyətini tam şəkildə əks etdirən bu yeni biblioqrafik göstərici 1959-2013-cü illərdə nəşr edilmiş materialları əhatə edir. Biblioqrafik göstərici əvvəlki vəsaitdən fərqli olaraq yenidən işlənərək, daha da təkmilləşdirilmiş, metodiki baxımdan yeni tərtibatla mükəmməl şəkildə nəşr edilmişdir.

Bu yeni biblioqrafik göstəricinin əvvəlində "Tərtibçidən", "Ədəbiyyat yaradıcısı, metodoloqu və təəssübkeşi" adlı AMEA-nın müxbir üzvü Nizami Cəfərov tərəfindən yazilmış çox əhatəli və məzmunlu "Oçerk" verilmişdir. Oçerkdə Nizami Cəfərov Elçin Əfəndiyev yradıcılığına mütəxəssis baxışı ilə yanaşaraq görkəmli yazıçının yaradıcılığını tədqiq və təhlil edərək, əsərlırinin və kitablarının nəşr tarixini göstərməklə onu "böyük ədəbiyyat yaradıcısı-yazıçı, ədəbiyyatşünas-metodoloq olmaqla yanaşı, ədəbiyyatın, xüsusilə milli ədəbiyyatın böyük təəssübkeşidir" adlandırmışdır.( 2.s.7) Daha sonra müəllif fikirlərini davam etdirərək demişdir:

...Elçinin ədəbiyyat yaradıcısı kimi nə qədər böyük uğur qazandığını sübüt edən ən azı üç texniki göstərici var:

-Bunlardan birincisi nəşr olunan kitablarının tirajı, tamaşaya qoyulan əsərlərinin sayıdır;

- İkincisi, onun bədii istedadı haqqında yazılan ədəbi- tənqidi, elmi yazılar, deyilən fikirlərdir;

- Üçüncüsü isə əsərlərinin dünya dillərinə tərcüməsi, dünyada doğurduğu rezonansdır... (2.s.7)

Bu fikirlər Nizami Cəfərov tərəfindən Elçin Əfəndiyev şəxsiyyətinə, ədəbi-bədii və ictimai fəaliyyətinə verilən ən böyük dəyərdir.

Nizami Cəfərov geniş yaradıcılıq diapozonuna malik olan Elçinn Əfəndiyev yaradıcılığının mühüm istiqamətini təşkil edən incəsənət sahəsindəki fəaliyyətini də yüksək qiymətlçəndirmişdir. Xüsusilə, Azərbaycan və dünya teatrlarının səhnəsində tamaşaya qoyulmuş əsərlərinin və kinossenarilərinin bədii-estetik dəyərləri haqqında da qiymətli fikirlər söyləmişdir.

Elçin Əfəndiyev yaradıcılığını yüksək qiymətləndirən müəllif görkəmli yazıçını mütəffəkkir metodoloq, milli ədəbiyyatımızı dünya ədəbiyyatı səviyyəsinə qaldırmış ədəbiyyatşünas kimi bədiilik, elmilik və publisistik kimi komponentlərini dəyərləndirmişdir.

Heç təsadüfi deyildir ki, görkəmli yazıçı və ictimai xadim olan Elçin Əfəndiyev Azərbaycan ədəbiyyatının inkişafındakı böyük xidmətlərinə görə Ümummilli liderimimiz, Ulu öndər Heydər Əliyev tərəfindən 2003-cü il 29 may tarixində “İstiqlal” ordeni ilə və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2013-cü il 11 may tarixində verilmiş Sərəncama əsasən “Şərəf” ordeni ilə təltif edilmişdir.

Elçin Əfəndiyevin ədəbi-bədii və ictimai fəaliyyəti dövlət başçıları ilə yanaşı, görkəmli elm, ədəbiyyat, mədəniyyət, siyasi və din xadimləri, öz həmkarları, müəllimləri və dostları tərəfindən də yüksək qiymətləndirilərək çox səmimi, ürəkdən gələn fikirlər söylənilmişdir. Bu fikirlər içərisində müasir Azərbaycan ədəbiyyatının yaradıcılarından olan, xalq yazıçısı, professor, Elçin Əfəndiyevin müəllimi olmuş Mir Cəlalın, xalq şairi Mirvarid Dilbazinin və türk alimi, professor Metin Turanın fikirləri çox maraqlı və səmimidir.

Görkəmli yazıçı Mir Cəlal Paşayev öz tələbəsi haqqında fikirlərini belə ümumiləşdirmişdir: “Elçin ədəbiyyata peşə üçün yox, amal üçün gəlib. Ehtiraslı və cəsurdur...”

Şairə Mirvarid Dibazinin də Elçin haqqında söylədiyi “ Mənim bütün həyat təcrübəm göstərir ki, Siz özünüz də aqil doğulmusunuz. “Kəlilə və Dimnə”də belə bir söz var: “Ağılsız adama söz demək anadangəlmə karın qulağına hikmət dərsi oxumaq, su üstünə siir yazmaq kimi bir şey olardı”. Dünya pedaqoji alimlərinin fikrincə, uşaq kamilliyi də, naqisliyi də doğulanda özü ilə gətirir. Tərbiyə, mühit isə bunları az-çox inkişaf etdirmək qabiliyyətinə malikdir.

Əziz Elçin! Sizə yaradıcılığınızda, vəzifələrinizdə, xalq işinizdə, səhhətinizdə, şadlıq, gümrahlıq, müvəffəqiyyətlər arzu edirəm” fikirləri də çox maraqlı və ibrətamizdir.

Türk alimi, professor Metin Turan da Elçin haqqında olan fikirlərini belə ümumiləşdirmişdir: “Türk dünyasının böyük yazarı, professor-doktor Elçin yüzilin yetirdiyi, həm də sadəcə Azərbaycan

xalqının deyil, böyük insanların duyğularını dilə gətirmiş önəmli bir şəxsiyyətdir. Türkiyədə çap olunan “Mahmud və Məryəm”, “Ağ dəvə”, “Ölüm hökmü”, “Şuşa dağlarını duman bürüdü”, “Sarı gəlin” kitabları ilə yanaşı, Ankara, Ərzurum, Konya Dövlət Teatrlarında səhnəyə qoyulan “Mənim sevimli dəlim”, “Mən sənin dayınam” və “Mənim ərim dəlidir” adlı pyeslər də xalqımızın böyük məftunluqla oxuduğu və tamaşa etdiyi əsərlərdəndir.

Türk xalqları ədəbiyyatının ulduzu, ortaq qürur qaynağımız - Elçin”.

Biblioqrafik göstəricidə “Görkəmli şəxsiyyətlər Elçin haqqında” fikirlərin ümumiləşdirilmiş şəkildə verilməsi təqdirəlayiq bir haldır. Hər bir oxucu bu fikirlərlərlə tanış olarkən Elçin şəxsiyyəti, yaradıcılığı, əsərlərinin bədii dəyəri, onun ictimai-siyasi fəaliyyəti, yaradıcılıq laboratoriyası, xarici ölkə ədəbiyyatı və mədəniyyəti ilə olan əlaqələri haqqında daha ətraflı informasiya əldə edir. Belə informasiyanın vəsaitə daxil edilməsi biblioqrafik göğstəricinin mükəmməlliyinin və müəllifinin peşəkarlığının göstəricisidir.

Biblioqrafik göstəricinin maraqlı və oxunaqlı olan “Elçinin kitab haqqında fikirləri” və “Elçinin “ədəbi düşüncələri”ndən” adlı bölmələridir. Doğrudur, kitab haqqında müxtəlif müəlliflər tərəfindən çox qiymətli fikirlər, kəlamlar yazılmış və söylənilmişdir. Elçin Əfəndiyevin “kitab haqqında” olan fikirləri öz səmimiliyi və konkretliliyi ilə fərqlənir. Bu fikirlər müasir dövrümüz üçün də çox əhəmiyyətli və müasir şəraiti şərtləndirən xüsusiyyətlərdir. “Kitab doğmalığı”, Kitab küskünlüyü”, “Kitab və illuziyalar aləmi”, “Kitab və oxucu” kimi başlıqlar altında böyük yazıçının fikirləri əks etdirilmişdir.

“Kitab küskünlüyü” başlığı altında böyük yazıçının fikirləri çox maraqlıdır: “ Son zamanlar deyirlər ki, bizdə kitaba maraq azalıb, həvəs itib. Mənə elə gəlir ki, əksinədir. Kitab özü bizdən küsüb”.

Elçinin “Ədəbi düşüncələr”indən bölməsində isə onun Azərbaycan, rus və Avropa yazıçı və şairlərinin yaradıcılıq xüsusiyyətləri, ədəbi janrlar - xüsusilə, hekayə, poeziya, roman haqqında fikirləri lakonok şkildə oxuculara çatdırılır. Yazıçının ədəbi düşüncələri içərisində “Sabirin dahiliyi”, “Dahiyanə sadəlik”, “Sənətkar ölmür”, “Şekspir haqqında” “Özümlə söhbət”, “Tanışlıq”, “İki dünya” haqqında olan fikirləri çox səciyyəvidir. Bu fikirlər içərisində “Kitab cəmiyyətin ifadəsidir” düşüncələri bu günkü günümüzlə səsləşən fikirlərdir: “Bu gün cəmiyyət başdan-başa siyasiləşib və o adam ki, on il bundan əvvəl yatsa, yuxusuna gətirməzdi, indi nadan siyasi mülahizələr yürüdür. Və bu gün kitablar da siyasiləşib. Ona görə də onları oxumaq da mümkün deyil” düşüncələri Elçin Əfəndiyevin ictimai-siyasi baxışlarının göstəricisidir.

Biblioqrafik göstərici Elçin Əfəndiyevin 1959-2013-cü illərdə dərc edilmiş əsərlərini, onun haqqında olan ədəbiyyatı, ədəbi-bədii,

publisistik yaradıcılığını, aldığı fəxri fərman və ordenləri, həyat və fəaliyyətinin əsas tarixləri, görkəmli şəxsiyyətlər Elçin haqqında, Elçinin kitab haqqınfda fikirləri, Elçinin "Ədəbi düşüncələri" ndən bölmələrini əks etdirməklə yanaşı, üç hissədən ibartdir:

I hissə: Əsərləri – kitablar, dövri mətbuatda və məcmuələrdə dərc edilmiş əsərləri, romanları, povestləri, hekayələri, ssenariləri, dram, səhnəcik və radio - əsərləri, ədəbi-tənqidi, publisistik məqalələri, habelə, müsahibələri, tərcümələri, tərtib etdiyi, redaktoru olduğu və rəy verdiyi əsərlər sistemləşdirilmişdir.

II hissə: Həyat və yaradıcılığı haqqında ədəbiyyatı əhatə edir. Bu bölmə daxilində - kitablar, Disserftasiya və avtoreferatlar, dövri mətbuatda və məcmuələrdə çap edilmiş məqalələr, ekranlaşdırılmış əsərləri haqqında, səhnələşdirilmiş əsərləri haqqında, Elçinin Xaricdə Yaşayan Həmvətənlərlə Azərbaycan Mədəni Əlaqələr Cəmiyyəti – "Vətən" Cəmiyyətində fəaliyyəti, Elçinin Azərbaycan Respublikası Baş nazirinin müavini kimi fəaliyyəti işiqlandırılmışdır.

Biblioqrafik göstəricidə bölmə və yarımbölmələr daxilində materiallar xronoloji prinsip əsasında qruplaşdırılaraq Azərbaycan və rus dillərində sistemləşdirilmişdir.

Vəsaitin "Elektron resurslar" yarımbölməsində Elçin haqqında internetdə verilən materiallar toplanaraq əks etdirilmişdir. Bu yarımbölmə daxilində Elçin Əfəndiyev haqqında müxtəlif internet saytlarında çıxmış 75 adda mənbənin xronoloji ardıcıllıqla biblioqrafik təsviri verilmişdir. (2.S.331)

"Elçin" şəxsi biblioqrafik göstəricinin III hissəsi köməkçi göstəricilərə həsr edilmişdir ki, buraya - Eçinin əsərlərinin əlifba göstəricisi, Elçin haqqında yazan müəlliflərin əlifba göstəricisi, Sərlövhə üzrə təsvir olunmuş materialların əlifba göstəricisi daxildir. Vəsaitin bu hissəsində də mənbələr Azərbaycan və rus dillərində qruplaşdırılmışdır. Biblioqrafik vəsaitdən istifadəni asanlaşdırmaq və vaxt itkisinə qənaət etmək baxımından köməkçi göstəricilərin əhəmiyyəti olduqca böyükdür.

"Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasında görkəmli yazıçı, tanınmış ictimai xadim Elçin Əfəndiyevə həsr edilmiş bu şəxsi elmi-köməkçi xarakterli biblioqrafik tədqiqat əsəri Azərbaycan Milli Kitabxanasının uğurlu biblioqrafik fəaliyyətinin nəticəsidir. Bu uğurlu, müasir Biblioqrafiyaşünaslıq elminin nəzəri müddəalarına əsaslanmaqla və bibloqrafiyalaşdırma metodikasına əməl edilməklə, öz mükəmməlliyi ilə seçilən biblioqrafik vəsait Milli Kitabxananın direktoru, Əməkdar Mədəniyyət işçisi, tarix üzrə fəlsəfə doktoru, professor Kərim Tahirovun peşəkarlığı və bu sahəyə ciddi münasibətinin nəticəsi olaraq ərsəyə gəlmişdir.

Elçin (Əfəndiyev Elçin İlyas oğlu) biblioqrafik tədqiqat əsəri müasir Azərbaycan ədəbiyyatşünaslıq biblioqrafiyası elmini zənginləşdirməklə, uğurlu nailiyyəti də hesab edilə bilər.

**ƏDƏBİYYAT**


1.Elçin (Əfəndiyev Elçin İlyas oğlu): Biblioqrafiya/ Tərtibçi-müəllif B.A.Ələsgərov:M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası.- Bakı,1997.-206s.

2.Elçin (Əfəndiyev Elçin İlyas oğlu): biblioqrafiya/ixtisas red.və burax.məsul K.Tahirov; red.G.Səfərəliyeva; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası .- Bakı,2013.-560s.

3.Əliyev Z.H. Rəy //Elçin (Əfəndiyev Elçin İlyas oğlu): Biblioqrafiya/ M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası.- Bakı,1997.-S.9.

4.İsmayılova S.P.Azərbaycanda bədii ədəbiyyat və ədəbiyyatşünaslıq biblioqrafiyası(1965-2000-ci illər).Bakı.:"Nurlan", 2009.- 184s.



**Ш. Гамбарова**


**НАСЛЕДИЯ ЭЛЬЧИНА ЭФЕНДИЕВА В БИБЛИОГРАФИЧЕСКИХ НАСЛЕДИЯХ**


**Р Е З Ю М Е**

В статье анализирована система библиографических указателей посвященных жизни и творчеству видного деятеля азербайджанской литературы Эльчина.



**Sh. Gambarova**


**THE HERITAGE OF ELCHIN EFENDIYEV IN BIBLIOGRAPHIC SOURCES**


**S U M M A R Y**

The article analyzed the system of bibliographic indexes on the life and literature activity of a prominent figure of Azerbaijani literature Elchin.



**Aygün HACIYEVA**

***AMEA Mərkəzi Elmi Kitabxanasının doktorantı***


## BİBLİOMETRİYANIN QANUNLARI


***Açar sözlər:*** *Bibliometriya,empirik qanunlar, Çipf qanunu, Pareto qanunu, Lotka qanunu, Bredford qanunu, Benford qanunu*

***Ключевые слова:*** *библиометрия,эмпирические законы, закон Ципфа, закон Парето, закон Лотки, закон Брэдфорда, закон Бэнфорда*

***Key words:*** *bibliometrics, empirical laws, Chipf law, Pareto law, Lotka law, Bredford law, Benford law*

Məqalədə bibliometriyanın empirik qanunları olan Çipf, Benford, Bredford, Lotka, Pareto qanunlarının yaranmasından bəhs olunur, onların mahiyyəti açılır.

Bibliometriya (yunanca biblion-kitab, metron-ölçü, metreo-ölçürəm) yeni elmi istiqamət, termin kimi ilk dəfə ingilis alimi A.Priçard tərəfindən 1967-ci ildə müəyyənləşdirilmişdir. Bibliometriya riyazi və statistik üsulların tətbiqi ilə kitabların, dövri mətbuatın və digər informasiya daşıyıcılarının, informasiya xarakterli materialların öyrənilməsidir. Bibliometriya – formalaşdırılmış üsulların köməyi ilə elmi sahələrin effektivliyi barədə məlumatların toplanılması və onların inkişafının proqnozlaşdırılması məqsədi ilə ilkin və II növ, təkrar informasiya mənbələrinin statistik təhlili əsasında sənədlərin öyrənilməsi ilə məşğul olan elmi fənndir.

Bibliometriya ilk öncə hər hansı həcmlərin ölçülməsi nəticələrini tələb edir. Bu ölçmələr müxtəlif səbəblərlə şərtlənən nöqsanlara malikdir. Bibliometriyada təsadüf olunan qanunauyğunluqlar, təsadüfi həcmlərin dərəcələrə bölünməsi terminlərdə rahat formalaşdırılır. İnformasiyaların yayılması proseslərinin öyrənilməsinə dair bibliometrik yanaşmalar C.K.Çipf (“Çipfin bölgüsü”), S.K.Bredford (“Bredfordun səpələnmə qanunu”), V.K.Bruks (“Səpələnmə qanunu”nun dəqiq riyazi formulu), A.Lotkun (müəlliflərin özləri tərəfindən nəşr olunmuş məqalələrin kəmiyyətindən asılı olaraq bölünməsini təsvir edən “Tərs kvadrat qanunu”) adı ilə bağlıdır. Bu qanunların mahiyyəti ondadır ki, onların yaradıcıları sənəd axınının sistemli tədqiqinin əsasını qoymuş və bibliometriyanın təşəkkülündə mühüm rol oynamışlar [3].

Bibliometriyanın empirik qanunları:

Pareto qanunu - italyan iqtisadçı və sosioloqu Vilfred Pareto tərəfindən elmi dövriyyəyə 1897-ci ildə buraxılmış universal empirik qaydadır [1, s.31].

Pareto qanunu(Pareto prinsipi)- və ya 80/20 qaydası hər hansı fəaliyyətin effektivliyinin qiymətləndirilməsinin ən geniş yayılmış vasitəsidir. Onun mahiyyəti ondan ibarətdir ki, 20 % cəhd 80 % nəticə verir, digər 80 % cəhd isə yalnız 20 %-i reallaşdırır. Bu üsulla başa düşmək olar ki, daha çox səmərə verən optimal resursları seçməklə az xərclərlə yüksək nəticələrə çatmaq olar. Həmçinin sonrakı cəhdlər lazımsız və qeyri-effektiv olacaq. 80/20 faiz nisbəti XIX əsrin sonunda iqtisadçı Vilfred Pareto tərəfindən İngiltərənin o dövr əhalisinin müxtəlif təbəqələri arasında var-dövlətin bölüşdürülməsi qanunauyğunluqlarının tədqiqatı zamanı yaradılır. Alim bu disbalansı görüb heyrətləndirici nəticəyə gəldi: ölkənin 80 % var-dövləti İngiltərənin 20 % əhalisinə məxsus idi. Daha dərin təhlil zamanı müəyyən edir ki, resursların böyük hissəsi azlığa məxsusdur. Belə nəticə alınır ki, 65 % əhalinin 10 %-nə, maddi resursların 50 %-i isə əhalinin 5 %-nə aiddir. Alınan rəqəmlər təsadüfi deyildi. Müxtəlif tarixi dövrlərdə İngiltərədə və digər ölkələrdə əhali arasında var-dövlətin paylanmasının tədqiqi zamanı da Pareto analoji nəticələrə gəldi. Alim özü dəqiqliklə izah edə bilməsə də, 80 / 20

qanunu belə yaranır. 1949-cu ildə Corc K.Zipf bu qanunauyğunluğa diqqət yetirdi. O, belə hesab edir ki, təxminən 20-30 % cəhd maksimum 70-80 % nəticə verə bilər. Bununla Zipf yenidən Pareto prinsipini bütün resursların özünü yaratmaq əsaslarını göstərməklə açır. Məşhur İT şirkəti olan İBM Pareto qanununu ilk dəfə marketinqdə fəal tətbiq etdi [6].

Pareto qanununun vacib nəticələri:

- Əhəmiyyətli faktorlar az, köhnəlmiş faktorlar isə çoxdur - yalnız vahid fəaliyyət mühüm nəticələrə gətirir;
- Cəhdlərin böyük hissəsi istənilən nəticələri vermir;
- Biz gördüyümüz heç də həmişə həqiqətə uyğun olmur - həmişə gizli faktorlar mövcuddur;
- Nəticədə ümid etdiyimiz bir qayda olaraq, əldə etdiyimizdən fərqlənir;
- Adətən baş verənləri başa düşmək çox çətin və yorucudur. Bu tez-tez lazım olmur - yalnız bilmək lazımdır ki, sizin ideya işləyir ya yox. Onu işləsin deyə dəyişmək və vəziyyəti ideya işləməyənə qədər dəstəkləmək;
- Uğurlu hadisələrin çoxu yüksək istehsallılıq gücünün kiçik sayının fəaliyyəti ilə şərtlənir; uğursuzluqların çoxu yüksək destruktiv gücün kiçik sayının fəaliyyəti ilə bağlıdır;
- Qrup və individual fəaliyyətlərin böyük hissəsi boş vaxt itkisi yaradır.Onlar istənilən nəticəni əldə etmək üçün real heç nə vermir.

Çipf qanunu-təbii dilin sözlərinin sıxlığının bölünməsinin empirik qanunauyğunluğudur. Əgər dilin bütün sözlərini (və ya kifayət qədər uzun mətnin) onların istifadəsinin azalma sıxlığına görə qaydaya salsaq, onda "n" sözün sıxlığı bu cür siyahıda onun səliqəli nömrəsinə (bu sözün dərəcəsinə) əks proporsional olacaq. Məsələn, istifadəsinə görə ikinci söz birinci sözə nisbətən təxminən 2 dəfə daha az rast gəlinir. Üçüncü birinciyə nisbətən 3 dəfə daha az və s. Qanun Harvard Universitetinin amerikalı linqvisti Corc Çipfin adını daşıyır [10].

XX əsrin 40-cı illərinin sonlarında C.Çipf böyük həcmdə statistik material toplamaqla sübut etməyə çalışdı ki, təbii dilin söz bölgüsü bir sadə qanuna tabedir. Çipfin qanununu analitik olaraq bu cür ifadə etmək olar:

$$fr = c$$

$f$ – mətndə sözlərin istifadə edilmə sayı;

$r$ – siyahıdakı sözlərin ardıcıl nömrəsi;

$c$ – daimi empirik həcm.

Corc K.Çipf (Zipf) 1949-cu ildə müasir axtarış sistemləri vasitəsi ilə mətnlərin unikallılığının yoxlanılması alqoritmlərinin əsasını təşkil edən qanunları formalaşdırdı və saytların axtarışının optimallaşdırılması üçün aktiv istifadə olunmağa başladı. Çipf sübut etdi ki, dildə və ya mətndə sözlərin bölünməsi statistik qanunauyğunluqları istisna etmir [5].

Çipf qanunu statistik olaraq nöqsansız deyil. Bu, onun kifayət qədər böyük mətnlərin (məqalələr massivlərinin) müqayisəsi məqsədilə təcrübədə geniş tətbiqinə mane olmur [1,s.41].

Amerikalı bioloq Li Ventyan simvolların təsadüfi ardıcıllığının Çipf qanununa tabe olmasını təsdiq etməklə bu qanunu təkzib etməyə çalışmışdır. Müəllif belə nəticəyə gəlir ki, Çipf qanunu mətnin semantikasına aid olmayan statistik fenomendir.

Sonralar B.Mandelbrot bu qanunn nəzəri əsasını işlədi. Onun fikrinə görə yazılı dili kodlaşdırma ilə müqayisə etmək olar.

$$fr^{\gamma} = c$$

$\gamma$- həcm ( mətnin xassələrindən asılı olaraq dəyişə bilər.

Lotka qanunu- "Geri kvadratlar qanunu" da adlanır. Alfred Ceyms Lotka amerikalı riyaziyyatçı, fiziokimyaçı, statistik və demoqraf olmuşdur [11].

Elmi işçilərin sayı N(n), "n" məqalə yazmışlar, proporsional olaraq 1 / $n^2$.

$$N \sim 1 / n^2$$

Ölçmə üçün N [q] - nəşr etmiş müəlliflər, "q" – elmi işlər.

Qarşılıqlı münasibət mövcuddur $q \cdot N[q] = const.$ [8].

A.C.Lotkanın adı ilə adlandırılmış Lotka qanunu Çipf qanununun bir variantını əks etdirir. Lotka qanunu müəyyən qədər təsbit edilmiş elmi fənndə müəliflərə görə nəşrlərin sıxlığını təyin edir [1,s.43].

Lotka qanunu dəfələrlə müxtəlif elmi fənnlərə aid olan biblioqrafiyaların, referativ jurnalların informasiya massivlərində və s. sınaq nəticəsində tənqid edilmişdir. Bu qanunun davamlılığı onun haqqında elmi səmərəliliyin bölünməsinin əsas qanunauyğunluqlarından biri kimi danışmağa imkan verir. Mövcud qanun uzun müdət ərzində toplanmış böyük informasiya həcmində istifadə zamanı kifayət qədər dəqiq qiymətləndirmə almağa imkan verir, lakin riyazi statistika mənasında dəqiq hesab olunmur [1,s.45].

Bredford qanunu - nəşrlərə görə bölünmənin empirik qanunauyğunluğudur. Elmi jurnalların siyahısında müvafiq sorğuya uyğun qruplaşdırılmış məqalələrin sayıdır. Müvafiq sorğuya görə məqalələrin bərabər sayını əks etdirən 3 zona ayırmaq olar. Bu 3 zona onları tərtib edən jurnalların kəmiyyət və keyfiyyətinə görə fərqlənirlər:

- Birinci zonaya müvafiq sorğuya həsr olunmuş sahəvi jurnallar daxildir;
- İkinci zonaya müvafiq sorğuya qismən həsr olunmuş jurnallar daxildir;
- Ən çoxsaylı üçüncü zonaya müvafiq sorğudan mövzuca çox uzaq olan jurnallar daxildir.

Bredford qanununa görə hər bir mözu sahəsi üçün hər bir növbəti zonada jurnalların sayının dəfələrlə artırılması koeffisienti mövcuddur [4].

Bredford qanunu elmi jurnallarda istinadların axtarışı zamanı əldə edilən nəticələrin eksponensial azalmasını qiymətləndirir [2].

Bredfordun paylanma qanunu çox böyük təcrübi əhəmiyyət kəsb edir. Bu qanun bu və ya digər sorğuya aid bütün nəşrlərin müəyyənləşdirilmiş faizini əhatə olunmasının təmin olunması üçün vacib olan dövri nəşrlərin sayını müəyyənləşdirməyə imkan verir. Bredfordun paylanma qanunu göstərir ki, hər hansı predmetə görə əsas informasiya axını jurnalların çox olmayan sayı ilə müqayisədə çox toplanmır [9].

1934 və 1953-cü illərdə S.Bredford tətbiqi geofizikaya dair jurnal məqalələrinin təhlilini aparır. Bu tədqiqat hazırda "Bredford qanunu" adlanır və sonrakı bibliometrik tədqiqatlar üçün əsas təşkil etmişdir.

1948-ci ildə ingilis kimyaçı-sənədşünas S.Bredford paylanmış şəkildə təsvir etdiyi informasiyanın səpələnməsini tapdı. S.Bredfordun paylanma qanunu dövri nəşrlərdəki ayrılmış mövzulara dair məqalələrin kəmiyyət göstəriciləri ilə onun mövcud mövzuya dair nizama salınmış məqalələrin dövri nəşrlər sırasındakı yeri ilə asılılığını göstərir. Bu qanuna görə əgər bütün nəşrləri məcmu şəklində birləşdirsək məlum olacaq ki, çox da böyük olmayan sahəvi dövri nəşrlərdə yalnız 1 ədəd III məqalə vardır. Mövcud sorğuya uyğun II 3 nəşr mövzu baxımından yaxın olan kifayət qədər böyük rəqəmli jurnallarda yerləşir və nəhayət daha bir III nəşr mövzu baxımından mövcud sahə ilə əlaqəli olmayan jurnallarda səpələnmişdir. Təsvir edilmiş paylanma formul şəklində göstərilir. Bu "Bredford qanunu" adı almışdır:

$p0:p1:p2=1:n:n^2$

n=5, A.A.

Məşhur müasir biblioqrafiyaşünas olan A.S.Sokolova görə göstərilmiş statistik formul qarşılıqlı əlaqənin vacibliyini deyil, çoxlu faktorlardan (mövzu, sahə, sənəd növü və s.) asılı olan tendensiyaları əks etdirir. Buna görə də Bredford qanunundan deyil, qanunauyğunluğundan danışmaq lazımdır. Bredford qanunauyğunluğu və sənədli üsullarla elmi tədqiqatlar elmi informatikada yeni və perspektiv istiqamət açmışdır. Bu, elmmetriyadan-elmşünaslıq sahəsindən çıxmışdır, XX əsrin ortalarından meydana gəlmiş və elmi informasiya axınının və massivlərinin statistik tədqiqi ilə məşğul olur və hazırda bibliometriya adlanır.

Bredford qanununun təcrübədə tətbiqi üçün p - qrupların ümumi sayı və k - jurnalların sayının bir qrupdan digər qrupa inkişafını göstərən parametr anlayışlarını ayırmaq vacibdir. Bu anlayışları bilmək bu tip suallara cavab tapmağa imkan verəcək: çoxsaylı jurnalların təhlili Bredford qanununu təmin edirmi və hansı jurnallar kolleksiyanın əsasını təşkil edir [1,s.39].

Benford qanunu - fizik F.Benfordun adı ilə bağlıdır. O, bu qanunu 1938-ci ildə yaratmışdır. Lakin bu S.Nyukomb tərəfindən hələ 1881-ci ildə təsdiqini tapmışdır. Benford qanunu təkdən başlayaraq qeydə alınan hər hansı prosesin və ya çoxlu sayda hər hansı obyektlərin, rəqəmlərin siyahıya alınması dinamikasını göstərir. F.Benford təkcə bu qanunu formalaşdırmadı, həmçinin

bu və ya digər rəqəmsal massivdə hər bir rəqəmin meydana gəlməsi tezliyini hesablamağa imkan verən formulu göstərdi [1,s.34].

Lotka qanunu bibliometrik tədqiqatlar üçün nəzəri baza hesab olunur. Bredford qanununu isə müəlliflərin fəaliyyətinin səmərəliliyinin təhlili məqsədi ilə tətbiq etmək olar. Lotka qanunu digər alimlər tərəfindən də təsdiq olunmuşdur.

Hələ 1988-ci ildə A.Egge bibliometriyanın 5 qanununu ayırmışdır: Bredfordun I qanunu, Bredfordun II qanunu, Leymkuler qanunu, Mandelbrot qanunu, Lotka qanunu, Bruks qanunu və Çipf qanunu [7].İlk 4 qanun bir-birinə ekvivalentdir. Bredford, Lotka və Çipf-Mandelbrot qanunları əsas bibliometrik, elmmetrik və informetrik qanunlar hesab olunur.

Belə bir nəticəyə gəlmək olar ki, göstərilən bütün bibliometrik qanunlar vahid bibliometrik qanunun variantlarıdır.

## ƏDƏBİYYAT


1. Бредихин С.В., Кузнецов А.Ю. Методы библиометрии и рынок электронной научной периодики.- Новосибирск: ИВМ и МГ СО РАН; НЭИКОН, 2012. - 256с.

2 .Писляков В.В. Моделирование процесса обращения к электронным информационным источникам на основе информетрического закона Брэдфорда // Ученые записки Казан. гос. ун-та. Сер. Физ.-мат. науки.- 2007.- Т.149, кн.2.- С. 116-127.

3. Редкина Н.С. Библиометрия: история и современность // Молодые в библиотечном деле.- 2003.- №2.- С. 76-86.

4. Academic.ru / dic.nsf / fin.enc /22703

5. Artprom.net / article / letter / rus-K.html.

6. Constructorus.ru / uspex / zakon_pareto.html.

7. Egghe L. On the classification of the classical bibliometric laws // Jour. Document.- 1988.- V.44.-№1.- P.53-62.

8. 900 igr.net / prezentatsii / filosofija / Nauka-o-nauke / 070-Zakon-obratnykh-kvadratov-zakon Lotki.html.

9. Ngpedia.ru / id 27784 p1.

10. Wikipedia /org /wiki /Закон_Ципфа.

11.Wikipedia /org /wiki / Лотка_Альфред_Джемс.



*А.Гаджиева*


## ЗАКОНЫ БИБЛИОМЕТРИИ

**РЕЗЮМЕ**

*В статье говорится о создании эмпирических законов библиометрии - законы Ципфа, Бэнфорда, Брэдфорда, Лотки,Парето, раскрывается их сут.*

***A. Hajiyeva***

**BIBLIOMETRY LAWS**

**S U M M A R Y**

*This article deals with the creation of Chipf, Benford, Bredford, Lotka, Pareto laws that being the empirical laws of the bibliometry, their essence is opened.*

**Aygün ŞƏHAVƏTOVA**
***Bakı Dövlət Universitetinin "Kitabxana resursları və informasiya axtarış sistemləri" kafedrasının magistrantı***

# KİTABXANA – İNFORMASİYA RESURSLARININ KOMPLEKTLƏŞDİRİLMƏSİNİN MÜASİR İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** *kitabxana fondu, kitabxana-informasiya resursları, kitabxanaların müasir vəziyyəti, komplektləşdirmə, kitabxana texnologiyaları, informasiya texnologiyaları.*

***Ключевые слова****:фонд библиотеки, документов-информационные ресурсы, приобретение,библиотечноетехнологии, информационные технологии.*

***Keywords:*** *fund of library, document-information resource,acquisition,library technology, information technology.*

Bəşər sivilizasiyasının ən böyük nailiyyətlərindən olan kitablar, mədəni irsin, xalqın mənəvi sərvətinin bir hissəsi, yazı və dilin, ədəbiyyat və incəsənətin, elm və texnikanın, cəmiyyətin intellektual potensialının inkişafının qüdrətli vasitəsi kimi nəsildən-nəslə məhz kitabxanalar vasitəsilə keçirilir. Cəmiyyətin mühüm mədəni təsisatı, mənəvi sərvəti və informasiya bazası olan kitabxanalar müasir dövrdə olduqca mürəkkəb sosial funksiyaları yerinə yetirməklə əhalinin mütaliə mədəniyyətinin formalaşmasına səmərəli təsir göstərirlər. Belə ki, bəşəriyyətin inkişafetdirici qüvvəsi olan bütün elmi nəzəriyyələr və texnologiyalar, kitabxanalardan bəhrələnən cəmiyyətin qabaqcıl ziyalı ordusu kitabxanalardan istifadə etməklə yetişmişlər. Yarandığı gündən bu günə kimi insanların informasiya tələbatını ödəmək və informasiyanın gələcək nəsillərə ötürülməsi funksiyalarını yerinə yetirən və cəmiyyətin infrasturukturunda mühüm rol oynayan obyekt olmuşdur. Bunun üçün kitabxanaların yaradılmasına, qorunmasına, inkişaf etdirilməsinə xüsusi diqqət yetirilmişdir.

Qədim tarixə malik olan kitabxanalar dünyada ən böyük informasiya ötürücüsüdür. Məhz bundan irəli gəlir ki, Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra cəmiyyətin bütün sahələrində olduğu kimi, kitabxana işi sahəsində də əsaslı dəyişikliklər dövrünə başlamışdır.

Cəmiyyətdə mühüm sosial funksiyaları yerinə yetirən kitabxanalar, insan amilinin formalaşmasında, elmi texniki tərəqqinin sürətləndirilməsində, ölkəmizin sosial-iqtisadi və mədəni inkişafında yaxından iştirak edir, milli dövlətçilik ideyalarının geniş xalq kütlələri arasında yayılmasında geniş təşkilatçılıq işləri aparır. Bu gün kitabxanalar informasiyalaşmış vətəndaş cəmiyyətinin əsas göstəricisi olan qlobal informasiya mühitinin beynəlxalq, milli və regional səviyyədə informasiyanın əmtəəyə çevrilməsində, informasiya və bilik bazarının yaradılması və inkişafında, təhsil sisteminin və səviyyəsinin artırılmasında aparıcı rol oynayır.

Kitabxana fondlarının repertuarı, fondun komplektləşdirilməsi, məlumat xidmətinin təşkili və kitabxana siyasətinin həyata keçirilməsi prosesində demokratikliyin gözlənilməsi müasir mədəni cəmiyyətin vacib tələblərindəndir. Bunun üçün də kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi, kitabxana binalarının əsaslı təmir edilməsi, xarici dillərdə olan ədəbiyyatla komplektləşdirilməsi, kitabxanaların müasir texniki vasitələr və informasiya texnologiyaları ilə təmin olunması əsas məsələlərdən biridir.

Kitabxana fondunun komplektləşdirilməsi onun formalaşdırılmasının tərkib hissəsi olmaqla kifayətlənmir, həmçinin bütün kitabxana prosesinin

təşkilinin əsasını təşkil edir. Kitabxana fondunun komplektləşdirilməsi və təşkili, oxuculara ədəbiyyat verilişi və tövsiyəsi, kitabxana-biblioqrafiya biliklərinin təbliğinin ənənəvimetodu ilə bərabər, elektron resursların üzə çıxarılması, uçotu, onlardakı dəyişikliklərin izlənilməsi, istifadəçilərə informasiyanın əldə olunması sahəsində özünəxidmətin təşkili formasıdır (1, s.22) .

Kitabxana fondunun tərkib hissələrini hərtərəfli, lazımi səviyyədə öyrənmədən, təhlil etmədən komplektləşdirmə işinin səmərəliliyini təmin etmək və inkişaf perspektivlərini göstərmək qeyri-mümkündür.

Müasir dünyada kitabxanalarda sənədli informasiyanın komplektləş-dirilməsi, saxlanılması və təqdim edilməsi formaları daha sürətlə transformasiya olunur. Məhz bundan asılıdır ki, kitabxana fondlarının çap əsərləri ilə dolğun komplektləşdirilməsi müəyyən ərazi baxımından kitabxanaların sıx koordinasiyası ilə bağlıdır.

Bu gün Azərbaycanın əksər kitabxanaları kitablar da daxil olmaqla, bütün informasiya mübadiləsini qabaqcıl texnologiyalara əsaslanaraq qurmağı planlaşdırır.Bunun üçün də məlumatların toplanıb saxlanılması, axtarış sistemləri və informasiyaların ötürülmə qaydalarının qabaqcıl olması ilə yanaşı, kitabxana – informasiya və internet istifadəçisinin "görüb oxuya bildiyi" də vahid formatda olmalıdır (4, s. 12).

İnformasiya texnologiyalarının sürətlə inkişaf etdiyi bir zamanda kitabxanaların komplektləşdirilməsində də müasir avtomatlaşdırılmış qurğulardan istifadə olunur. Məlum olduğu kimi, kitabxana fondlarının ənənəvi komplektləşdirilməsində ədəbiyyatın alınması əvvəlcə planlaşdırılır.

Belə halda, komplektləşdirmə mənbələri kitabxana kollektoru, əlaqədar kitab mağazaları, dövrü nəşrlərin əlaqədar abunə agentliyi və əvvəlcədən məlum olmayan ayrı-ayrı şəxslərin və təşkilatların müəyyən kitabxanaya verdiyi kitab hədiyyələridir. Lakin elektron nəşrlərin, sənədlərin və digər bu kimi elektron resursların kitabxanalarda komplektləşdirilməsi mənbələri və üsulları xeyli fərqlidir. Elektron kitabxananın ən mühüm cəhətlərindən biri kimi istənilən formatda informasiya resurslarının komplektləşdirilmə imkanlarının olmasıdır. Elektron sənədlərin və digər resursların kitabxana fondlarında komplektləşdirilməsi üçün ilk növbədə kitabxananın internetlə geniş əlaqələndirilmiş elektron kitabxanası olmalıdır.

Avtomatlaşdırılmış kitabxanaların komplektləşdirilməsi istiqamətində: kitabxanaya daxil olan sənədlər (kitab, dövri mətbuat, qəzet, dissertasiya, avtoreferat, CD-ROM və b.) xüsusi proqram əsasında kompüterə daxil edilmiş sənədlərin akt-uçotu həyata keçirilir. Bu kitabxanalar optik və digər tip disklərdə yazılan kitablar, jurnallar və profilə uyğun olan məlumat bazaları ilə komplektləşdirilə bilər.

Elektron sənədlərin və digər əlaqədar resursların (məsələn: biblioqrafik məlumat bazaları, elektron kataloqlar, web-saytlar və s.) əsas komplektləşdirmə mənbəyi internet resurslarıdır. Bu texnologiyadan istifadə

etdikdə tez-tez yeniləşdirilən, əlavələr edilən və pulsuz yayılan elektron sənəd növlərinin komplektləşdirilməsi əlverişli olmur (1, s. 23).

İstənilən komplektləşdirmə üsulunda sənədlərin profilə uyğun olaraq dəqiq seçilməsi, oxucu sorğusunun və tələbatının dərindən öyrənilməsi ilə bağlıdır. İstər ənənəvi, istərsə də elektron kitabxanaların vacib problemlərindən biri əlaqədar kitabxananın profilinə uyğun olan yüksək keyfiyyətli sənədlərin seçilməsidir.

Əksər mütəxəssislər komplektləşdirmə üçün çap əsərlərində olduğu kimi elektron nəşrlərin və resursların seçilməsini vacib hesab edirlər. Onların arqumentləri aşağıdakı fikirlərlə əsaslandırılır:

1. Müraciət (axtarış, istifadə) üçün çoxlu sayda elektron informasiyalar təqdim olunur, onların adları və sayı sürətlə artır. Buna görə də seçmədə səhvlərin olması ehtimalı artır;

2. Uzaqlaşdırılmış şəbəkə resursları getdikcə daha çox ikinci növ sənədlərlə təqdim olunur. Məsələn: referatlar, annotasiyalar, tezislər və s. Təcrübələr göstərir ki, referatların çox hissəsi əsasında ilkin nəşrin məzmun keyfiyyətini dəqiq müəyyən etmək çətindir;

3.Sürətlə artan elektron resurslar tam şəkildə elektron variantda dərc edilir. Onlar üçün referatlaşdırma metodları və mexanizmi işlənməmişdir (1, s. 27).

Deyilən səbəblərə görə, elektron kitabxanalar açıq veb-saytların kəmiyyətini deyil, seçmə yolu ilə onların komplektləşdirmə keyfiyyətini artırmağa çalışır. Elektron informasiyaların komplektləşdirmə mənbələrinin seçilməsində peşəkar kitabxanaçının aparıcı rolunu əvəz edən başqa bir vasitə yoxdur. Qeyd edək ki, kitabxanaçının vacib funksiyalarından biri təkcə komplektləşdirmə prosesində deyil, həmçinin sənədlərin təkrar komplektləşdirilməsində, ədəbiyyatın fonddan çıxarılmasında və depozitar fondun təşkilində seçmələr aparmaqdır.

Kitabxana fondunun idarə edilməsində komplektləşdiricilərin kitab işləmə keyfiyyəti, indeksləşdirmə məharəti, uçotun aparılması optimallığı nəzərdə tutulur. Kitabxanaçı – komplektləşdiricinin fəaliyyət səmərəliliyi, sənədlərin işlənməsi tezliyi və şifrələnməsi keyfiyyəti, onların fondun struktur bölmələrinə məqsədyönlü çatdırılması ilə müəyyənləşir. Kitabxanalarda komplektləşdirmə şöbəsinin işçiləri kollektiv işləmək prinsipinə alışmalı, bütün qarşılıqlı iş proseslərinin ahəngdar yerinə yetirilməsinə nail olmalıdır (2, s. 104).

Komplektləşdiricinin əldə etdiyi yüksək nailiyyətlərdən istifadə olunmaqla gələcəkdə sənədlərin komplektləşdirmə optimallığını müəyyənləşdirmək, biblioqrafik axtarış metodlarına yiyələnmək, nəzərdə tutulan sifarişləri dərindən öyrənmək məsələləri təşkil edir. Komplektləşdirici fondları onun struktur quruluşuna, oxucuların sorğularına görə öyrənməli, onların həqiqi informasiya tələbatını təhlil etməli və bunun əsasında kitabxana üçün vacib olan ədəbiyyat repertuarının yaradılmasını təmin

etməlidir.Komplektləşdiricinin ən mühüm vəzifələrindən birini oxucuların etibarını qazanmaq təşkil edir. Bu etibarlılığı o vaxt əldə etmək olar ki, komplektləşdirici təchizetmə mənbələri ilə və onun əməkdaşları ilə müntəzəm, sıx əlaqə saxlasın və ən lazımlı sənədlərin alınmasını təşkil etsin.

## ƏDƏBİYYAT


1. Rüstəmov Ə; Mustafayeva N. Elektron kitabxanaların komplektləşdirilməsinin bəzi məsələləri // Kitabxanaşünaslıq, 2006. – № 1. (21-31)

2. Həsənov M. Kitabxana fondunun yaranması, formalaşması və idarə edilməsi. Dərs vəsaiti. – B.: BDU, 2004. – 143s.

3. Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. III hissə.– Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2010. – 432 səh.

4. İsmayılov X.İ. Müasir dövrdə kitabxanaların metodik təminatının bəzi məsələləri // Kitabxanaşünaslıq – biblioqrafiya, 2012. –№ 12 (s.9-18)



**A.E.Шахаватова**


## СОВРЕМЕННЫЕАСПЕКТЫ БИБЛИОТЕЧНОЕ-ИНФОРМАЦИОННЫЕ РЕСУРСОВ


### РЕЗЮМЕ

Материально-технической базы, оснащенный современной библиотеки и информационных технологий, библиотечной работы, значительный прогресс в области информационных технологий, новых способов для финансирования комплектование.



**A.E.Shahavatova**


## MODERN ASPECTS OF LIBRARY AND INFORMATION RESOURCES


### SUMMARY

Material and technical base, equipped with a modern library and information technology, library work, significant progress in the field of information technology, new methods for recruitment.

**Kompüter tərtibatçısı:  Ulduz Manafova**

*Jurnal Azərbaycan Respublikası*
*Mətbuat və İnformasiya Nazirliyində*
*qeydə alınmışdır.*
*Şəhadətnamə № 575 .27 mart 1997.*

*Jurnal "Mütərcim" Nəşriyyat-Poliqrafiya Mərkəzində*
*səhifələnmiş və çap olunmuşdur.*

Çapa imzalanıb: ___2014
Format: 70x100 1/16 Qarnitur: Times.
Həcmi: ___ç.v. Tiraj: 100. Sifariş №___
Qiyməti müqavilə ilə.